# I Hissə

# DÜNYA DA GÖZƏLDİR, İNSAN DA

Dünya da gözəldir, insan da, insanın arzuları da. İnsan sevdiyi həyata bağlanır, onun vurğunu olur. Fəqət, həyatın şirin yerində ömür birdən-birə, gözlənilmədən qırılır, çoxlarını yandırıb-yaxır, göynədir, gözlərinin yaşı üzünü yandırır. Səfurə xanım da təbiətin ona verdiyi qeyri-adi gözəllik, ağlı və zəkası, yüksək insani səmimiyyəti və özünəməxsus istedadı ilə çoxlarını heyran etdi, heyrətdə buraxdı.

Səfurə Pirsultanlı Əli qızı 1938-ci ildə dekabr ayının 29-da, yəni 1939-cu ilə bir-iki gün qalmış Daşkəsən rayonundakı Pirsultan dağının ətəyində yerləşən Qazaxyolçular (Pirsultan köyü hissəsində) kəndində dünyaya göz açmışdır. Səfurə xanımın «Dünya, səndə nəyim qaldı» və «Ağ yağış» kitablarına müqəddimə yazmış yazıçı Əzizə Cəfərzadə həyatdan vaxtsız köçmüş bu şairənin gözəlliyinə və insanlığına vurğun idi. Tez-tez Bakıdan Gəncəyə onu görməyə gəlirdi. Səfurə xanım da hörmətli yazıçının gəlişinə çox sevdiyi Gəncənin ləziz xörəklərini hazırlayırdı.

Əzizə Cəfərzadə Səfurə xanımın şəxsi keyfiyyətləri haqqında yazmışdır:

«Səfurə xanım təkcə xasiyyəti, insaniyyəti, səmimiyyəti, böyük ANALIQ və BAŞ YOLDAŞI hissiylə deyil, həm də zahirində gözəl idi. Mərmər ağlığındakı üzünü, ala gözlərini, gur qıvrım qızılı-xurmayı saçlar – hörüklər haşiyələnib bəzəyirdi. Elə vurğun idim ki, bu hörüklərə! Hər görüşdə əllərimlə toxunmaq, sığal çəkmək istərdim. Deyəsən, elə buna görə də Səfurə xanım mənim «Eldən elə» romanımdakı Altuntelli adlı qız üçün portret olmuşdu.

Bu tellərin təsvirindən doymurdum. Amma yox! Ondan daha əvvəl Göytürklərin, Hunların gözəli Aylaxatunun surətini çəkəndə gözümün qabağında Səfurə xanım canlanardı. Hun gözəli Aylaxatun mavi kasnı çiçəkləri ilə hörülmüş qızılı hörükləri Səfurə xanımınkı idi. Amma heç bilmədim, «Hun dağı»nı oxumuşdumu Səfurə xanım, oxumuşdusa, özünə bənzərliyi görmüşdümü? Bilmədim! Yəqin ki, görüşdə mən soruşmaqdan, o da özünü tərifdən utanmışdı».[1]

Əzizə Cəfərzadənin yazısından bu qeydləri oxuculara çatdırmaqda məqsədim: «Səfurə xanım təkcə mənim yox, onu tanıyanların hamısının gözündə gözəl idi» fikrini təsdiqləməkdir.

Şairə Aləmzər Əlizadə Səfurə Pirsultanlı haqqında yazdığı xatirələrini belə adlandırır: «Bütün əsərlərindən uca istək». O, yazırdı: «Kənd Təsərrüfatı İnstitutunun tələbəsi idim. Onlara (***Səfurə xanımgilə)*** getmişdim. Sədnik müəllim evdə yox idi. Mən gözlədim. Səfurə xanım yenicə çapdan çıxan kitabımı vərəqlədi. Çox böyük iftixar hissiylə ərinin də şair olduğunu bildirdi. Mən isə Sədnik müəllimin əfsanələrdən ibarət kitabını oxumuşdum. Onun şeirlərindən isə xəbərim yox idi. Qadın mənə yoldaşının şeirlərindən oxudu. Mən hələ onda təəccüb qalmışdım ki, adicə bir evdar qadın ərinin şairliyini necə yüksək qiymətləndirir. O zaman təəccüb qalmışdım ki, mən niyə Sədnik Paşayevi yaxşı tanımıram?

Səfurə xanımın gözəl, uzun hörükləri məni şeirlərdən və əfsanələrdən də artıq valeh eləmişdi.

[1] Ağ yağış. Bakı. 1995. səh.4.

O, isə elə hey Sədnik müəllimdən danışır, onunla keçirdiyi xoşbəxt günlərdən söhbət açırdı».[1]

Səfurə xanım dünyasını dəyişdiyi günlərdə onun «Dünya, səndə nəyim qaldı?» (1994) şeir kitabı yenicə çapdan çıxmışdı. Sədnik müəllimi yaxşı tanıyan, yaradıcılığına yaxşı bələd olan Azərbaycan Texnologiya Universitetinin fəlsəfə müəllimi Məmməd Məmmədov dərin təəssüflə yazmışdır:

«Bəzi peşə sahibləri haqqında həqiqət ancaq vəfatından sonra məlum olur. O da həmişə yox. Belə adamların fəaliyyəti, necə deyərlər «kadr arxasında qalır». Üzdə olan, görünən, məşhurlaşmış professor Sədnik Paşa Pirsultanlını xeyli vaxdır tanıyıram. Bu şəxs xalq mənəviyyatının səpələnmiş qızıl tozu olan folklor nümunələrini toplayır və bir-birinin dalınca çox qiymətli kitablar çap etdirir. Adama elə gəlirdi ki, bu tədqiqatçının bir «gizli sexi» var. O, geoloq kimi çöl işlərini görür. Kimsə «sexdə» materialı yerbəyer edir.

İndi məlum olur ki, bu fikir həqiqətdən o qədər də uzaq deyilmiş. Demə, Sədnik müəllim ölkələr gəzəndə çox böyük dağ kimi arxası var imiş. Ev dərdindən, uşaq qayğısından onu azad edən, işinin əhəmiyyətini sözsüz başa düşən və bu işə həvəslə girişməsi üçün hər cür mənəvi şərait yaradan var imiş.

Beləliklə: Bacım, mifləşmiş həqiqi ömrün qaldı; sənin varlığında və bütövlüyündə öz yarısını tapmış Sədnik Paşa qaldı. Sənin mənəvi dayağın, hər ikinizin folklorlaşmış həyatınızı davam etdirməyə kömək edəcək; o yaratdığın müqəddəs ailən qaldı. İnsanlığa, qadına, anaya ucaldılmış abidən qaldı; torpaqdan, təbiətdən, cəmiyyətin saf duyğularından

---

[1] Şeirim, sözüm qalar. Bakı. 1995. səh.65

qidalanmış poetik təfəkkür dünyan qaldı; səni görən yaradıcı şəxsiyyətlərin verdiyi qiymət qaldı; mütləq bu mənəvi sərvəti və həqiqi həyatı özü üçün örnək götürəsi nəsil qaldı, kövrəkliklə dəyanətin üzvi birləşməsi kimi poetik xatirən qaldı!».[1]

Ədəbiyyatşünas Afaq Yusifli Səfurə xanımın əsərlərinin bədii dəyərindən, obrazlılığından bəhs edərək yazır: «Səfurə xanımın şeirlərindəki obrazlılıq, zəngin aşıq ədəbiyyatımıza söykənən vəzn və quruluş onun povest və hekayələrinin də xüsusi, maraqlı üslubunu müəyyənləşdirib. Yalnız şeirlə yaradıcılığa başlayan nasirlərin əsərlərində bu cür yığcamlıq, sözçülükdən, qeyri-təbii ifadələrdən, heç bir məna yükü olmayan cümlələrdən uzaqlıq vardır. Səfurə xanımın povest və hekayələrində bütün bunlarla yanaşı, bir qadın səliqə-səhmanı duyulur. «Süleyman dayı» povestində Qızxanımın teatr tamaşalarına hazırlığı və onların keçirilməsini qısa bir parçada yerli-yataqlı təsvir edən nasir elə ifadələrdən istifadə edir, dialoqları o qədər canlı verir ki, heç bir əlavə olmadan, uzunçuluqdan uzaq canlı bir hadisənin şahidi oluruq».[1]

Fəlsəfə elmləri namizədi Azər Eyyubov Səfurə Pirsultanlının şeirlərini, povest və hekayələrini dönə-dönə oxumuş və öz qənaətlərini qələmə almışdır. O, bu münasibətlə yazır: «Səfurə Pirsultanlı da bu torpağın saf təbiətli yetirməsi olan istedadlı şairədir, nasirdir. Torpağının, el-obasının, xalqının vurğunu, böyük vətəndaşıdır. Səfurə Pirsultanlı Azərbaycan xalqının qadınlıq rəmzlərini - gözəlliyi, saflığı, abır-həyanı, qeyrəti, namusu, sədaqəti, vicdanı özündə birləşdirən Ana şairədir. O,

---

[1] Şeirim, sözüm qalar. Bakı. 1995. səh.82.
[1] Şeirim, sözüm qalar. Bakı. 1995. səh.83.

Vətəninin vurğunudur. Onu qarış-qarış gəzmişdir. Onun hər daşına, qayasına, bulağına, çayına, gülünə, çiçəyinə bələddir. Kitabda toplanan şeirlər sadə, anlaşıqlı bir dillə Vətənə ana məhəbbətini ifadə edir. Səfurə xanım qartala müraciətlə yazır:

***Yerin zirvələrdi, zirvədə dayan,***
***Dağlarda keşik çək Vətənə, qartal***

***(Qartal)***

Bu, şairənin xalqın qartal övladlarına müraciəti kimi qəbul olunmalıdır. Axı, bizi Şuşa həsrətimiz rahat buraxa bilməz»[1].

Səfurə Pirsultanlı özünəməxsus yazı üslubu olan, mövzu rəngarəngliyi ilə fərqlənən, cəmiyyətdə baş verən hadisələrə, proseslərə öz baxışı olan nasirdir. Oxucularımıza təqdim olunan bu kitabda Səfurə Pirsultanlının bir povesti və beş hekayəsi cəmlənmişdir.

«Süleyman dayı» povestinin mövzusu yaxın keçmişimizdən götürülmüşdür.

Yazıçının «Ana güvənci», «Xallı bəbir», «Bulud saçlı Gövhər», «Barış» hekayələri də oxuculara səmimi məhəbbət, işıqlı duyğular aşılayır. Müəllifin qənaətinə görə, o oğula güvənc kimi baxırlar ki, o, anasına da, el-obasına da, xalqına da oğul olsun».[2]

Filologiya elmlər doktoru, professor Abbas Səmədov Səfurə Pirsultanlıya həsr etdiyi «Analıq

---

[1] Şeirim, sözüm qalar. Bakı. 1995. səh.77.

[2] Yenə orada. səh.79.

zirvəsi, sənət vurğunu» adlı yazısında deyir: «Haqqında söhbət açmaq istədiyimiz səmimi, mehriban, təvazökar İNSAN analıq zirvəsinə yüksələn, sənət vurğunu Səfurə xanım Pirsultanlıdır.

Doğma Vətənini və xalqını alovu sönmək bilməyən məhəbbətlə sevən Səfurə Pirsultanlının poeziyasında nurani ananın hikmətli kəlamı, fikrən, xəyalən, ruhən şeir-sənət aləmi ilə yaşayan istedadlı şairin zəkası oxucunu ovsunlayır, valeh edir.

Mənim yeganə məqsədim Səfurə xanıma sonsuz məhəbbətimi, onun zəngin mənəviyyatlı, müdrik şəxsiyyət olduğunu, əsərlərində Vətən, Ana və Övlad mövzusunu sənətkarlıqla cilaladığını, sözün həqiqi mənasında şəhid ana, şəhid şair kimi fəaliyyət göstərdiyini oxuculara bildirməkdir».

Abbas Səmədov Səfurə Pirsultanlının ədəbi-bədii yaradıcılığından bəhs edərkən bir məsələni də diqqət mərkəzinə çəkir. Onun yaratdığı «Ailə kitabxanası» Abbas Səmədovu mütəəssir etmişdir. Abbas Səmədov Səfurə Pirsultanlının qayğıkeşliyini, səliqə-sahman sevən bir qadın-ana olduğunu da unutmur. Qeyd edir ki, Səfurə xanım kitabxananı mütəxəssis biblioqraf, peşəkar kitabxanaçı kimi düzəltmişdi. Klassiklərin əsərlərini, monoqrafiyaları, dərslikləri, metodik vəsaitləri, folklor materiallarını, arxiv sənədlərini, xüsusilə aşıq ədəbiyyatını, poetik (şeir) kitablarını, siyasi ədəbiyyatı, ədəbiyyatşünaslığa, dilçiliyə, tarixşünaslığa aid materialları yüksək səliqə ilə ayrı-ayrı yığmışdı.

Əlbəttə, ədəbi prosesi mükəmməl bilən insan kitabxananı mövcud prinsip əsasında qaydaya sala bilər.[1]

---

[1] Şeirim, sözüm qalar. Bakı. 1995. səh.73.

Səfurə xanım dünyasını dəyişdiyi günlərdə qırxa yaxın şair və şairə ona şeir ithaf etmişdir. Bu şeirlərdə ən yüksək və diqqəti cəlb edən məqamlar odur ki, müəlliflər Səfurə Pirsultanlının ailədə və cəmiyyətdə, yaradıcılıq sahəsində olan xidmətlərini və mövqeyini düzgün qiymətləndirirdilər.

Yazıçı-şair Qərib Mehdi öz şeirində obrazlı şəkildə deyir:

***Ey ozan dədələr, ey saz tutanlar,***
***Enibdi başından tacı Sədnikin…***
***Ey hikmət elmindən ocaq çatanlar,***
***Qalmayıb harayı, hayçı Sədnikin…***

***Bir sinədəftərin mirzəsi idi,***
***Batman yazıların fəhləsi idi,***
***Könül otağının şöləsi idi,***
***Söndü qələminin gücü Sədnikin.***

***Alim bağçasında elm adlı barın,***
***Xəzinə dastanın, əfsanə varın,***
***Üst-üstə qalanan o kitabların,***
***Üzü Səfurənin, içi Sədnikin.***

Qərib Mehdinin bir beytində:

***Üst-üstə qalanan o kitabların,***
***Üzü Səfurənin içi Sədnikin.***

Bunun mənası odur ki, Sədnik müəllim Qazaxıstana və Orta Asiyaya, Dağıstana və Alan dövlətlərinə, Güney Azərbaycanına və Türkiyəyə,

qonşu respublikalara, yurdumuzun ayrı-ayrı bölgələrinə folklor səfərlərinə çıxıb xalq incilərini toplayırdı. Lakin onu çapa hazırlamaq işi Səfurə xanımın üzərinə düşürdü. Sədnik müəllim bu folklor nümunələrini Səfurə xanımın ixtiyarına buraxıb, başqa yaradıcılıq qayğıları və tədris işi ilə məşğul olurdu. Səfurə xanım toplanmış nümunələri əvvəlcə janrlara görə seçib makinadan çıxararaq redaktə edir və hər birini xüsusi qovluqlara qoyurdu. Bundan sonra Sədnik müəllimin işi onlara müqəddimə yazıb, nəşriyyatlara təqdim etmək idi. Qərib müəllim öz şeirində bunlara işarə edir.

Alim-şair Abbasəli Sarovlu Atabəy «Dağca yükə dözənə» adlı şeirinin bir yerində deyir:

***Torpaq oldu ala gözün sürməsi,***
***Yasa batdı Xan Kəpəzin zirvəsi,***
***Hanı ilham pərisinin cilvəsi,***
***Qana döndü peymanəsi Sədnikin[3].***

Şair Sahib Axundlu «Görünmür» şeirində deyir:

***Yoluna həsrətin qılıncı endi,***
***Bir zaman o göylər, zirvə sənindi.***
***A dağlar qartalı, niyə bəs indi***
***Qoşa qanadının biri görünmür?***

***Yanıltdın dağları öz gümanında,***
***Hanı ilham pərin, yoxdu yanında.***
***Eşqinin yuvası Pirsultanın da***
***Sultanı görünür, piri görünmür[4].***

---

[3] Dünya səndə nəyim qaldı. Bakı. 1994. səh. 66.
[4] Yenə orada Bakı. 1994. səh. 69.

Azərbaycan Yazıçılar Birliyinin Gəncəbasar bölgəsinin sədri, şair Məmməd Alim Səfurə Pirsultanlının poetik yaradıcılığına daha dərindən nüfuz etmiş və orada obrazlı fikirlər seçməyə diqqət yetirmişdir. Səfurə xanım bir şeirində deyir:

***Az dolandır görmədiyim yerləri*,**
***Açaram gözümü, ölərsən yuxu.***

Həmin beyt Məmməd Alim üçün «Öldür bu yuxunu» adlı yüksək poetik biçimli şeirini yazmağa bir vasitə olmuşdur. O, şeirdə maraqlı fikirlər söyləyir, orijinal bədii ifadə vasitələri işlədir. Şeirdə oxuyuruq:

***Yıxıldı Gəncənin zərif qovağı,***
***Sürüşdü üzündən sevgi duvağı,***
***Vermişdi qızına Pirsultan dağı***
***O boyu-buxunu, Səfurə xanım.***

***Aç ala gözünü, göy təkinə bax,***
***Başdaşına dönən Sədnikinə bax,***
***Qəlbinə qalanan qəm yükünə bax,***
***Öldür bu yuxunu, Səfurə xanım.***[5]

Qarsdan Murad Yıldız Qaraxanlının «Sədnikin» şeiri ürək yanğısı ilə yazılmışdır.

***Murad Qaraxanlı, söylərəm rəhmət,***
***Mən gedə bilmədim, oldum xəcalət,***

---

[5] Şeirim, sözüm qalar. Bakı. 1995. səh.41.

***Cəbri-zülüm oldu, firqəti həsrət,***
***Bahara dönmədi qışı Sədnikin.***[6]

Mənim unudulmaz, sevimli ömür-gün yoldaşım Səfurə xanıma şeir həsr etmiş, kitablarına rəy yazmış, xatirələrində onun nurlu simasını xatırlamış insanlara, öz minnətdarlığımı bildirirəm. Səfurə xanıma həsr olunmuş yazıların hamısı bu kitabda toplanmışdır.

Mən bu yazıda Səfurə xanımın nəsil səcərəsindən danışmağı zəruri hesab edirəm. Səfurə xanım da mənim kimi Pirsultan soyundandır. Lakin onun ata və anası başqa-başqa nəsil-soyla bağlıdır. Əvvəlki yazılarımda qeyd etdiyim kimi, Pirsultan Abdal XVI əsrin əvvəllərində doğma yurdu Sivas vilayətinin Banaz köyündə, Yıldız dağının yaxınlığında dar ağacından asılmışdır. Rəvayətə görə dar ağacından yerə düşürmək istəyərkən əbanın içərisindən onun cəsədi yox, bir göyərçin çıxmış və uçub getmişdır. Bu sehrkar şair-aşığın ölümü Sivas ellərini qəmə bürümüşdür. Şairin qızı Sənəm o qanlı faciəni öz şeirində daha poetik dillə söyləmişdir. Şeirdə Sivas, Yıldız yaylası, Banaz köyü Pirsultan Abdalla birlikdə xatırlanır. Türk tədqiqatçıları öz yazılarında ayrı-ayrı əsrlərdə Pirsultan adlı şairlərin yaşadığını qeyd edirlər. Bu yanlışdır. Türkiyədə Pirsultan Abdal adlı bircə şair olmuş, o da XVI əsrin əvvəllərində dediyimiz kimi dar ağacından asılmışdır. Göyərçinin bələdçiliyi ilə həmin nəslə məxsus insanların bir bölüyü gəlib Təbrizin 60 km-də, Qasım dağlarının ətəklərində Pirsultan adlı kənd salmışdılar. Bir neçə müddət

[6] Dünya səndə nəyim qaldı. Bakı. 1994. səh. 76.

keçdikdən sonra 12 ailə həmin kənddən köçərək Gəncə şəhərinə gəlmiş, oturaq həyata keçmiş, indiki Yaşıl aptekin yaxınlığında məskunlaşmışlar. Sivasda, Təbriz yaxınlığında olduğu kimi, burada da heyvandarlıqla məşğul olmuşlar. Onlar yaz və yay aylarında Şah İsmayıl Xətai tərəfindən Pirsultan adı verilmiş keçmiş Qara dağa yaylağa çıxmışlar. Pirsultanlıların ağsaqqalı sayılan Sultan bəylə Eynal qardaşları, yazın burnu qanayandan, - yəni qızılgül açandan Gülazar yolu ilə arabalarla yaylağa çıxaraq, Pirsultan yaylağında, Eynal isə Muşavaq kəndinin qarşısındakı Eynaltaxtı adlanan yerdə yaylaqlayırlarmış. Babanın adının nəvə-nəticəyə qoyulması Azərbaycan xalqının ənənələrindən biridir. Vaxtilə yüksək mədrəsə təhsili almış Sultan, dağın zirvəsini yuxuda görür. Dağın zirvəsində Pirsultan Abdalın pirini yaradır. O gündən Sultan özü də Pirsultan adını daşıyır. Sonradan ocaq o qədər məşhurlaşır ki, başqa-başqa ölkələrdən oraya ziyarətə gəlirlər. Rəvayət edirlər ki, Şah İsmayıl Xətai də həmin ocağı ziyarətə gəlmiş, qış və yaz aylarında gələn ziyarətçilərin rahatlığını təmin etmək, var-dövlət saxlamaq zərurətini nəzərə alaraq, dağın ətəyində Pirsultan kəndini (köyünü) salmağı tövsiyyə etmişdir. Pirsultan nəsil-soyu qış aylarında Gəncədə qalmış, yaz-yay aylarını Pirsultan dağında və onun ətəklərində keçirmişlər.

1759-cu ildə Gürcüstanın tabeliyində olan bir çox kəndlər Azərbaycanın müxtəlif yerlərinə köçmüşdür. O dövrdə Daşkəsənin Xoşbulaq yaylağına yaxın olan Qalaça adlanan məşhur yerdə Qazağın Qıraqkəsəmən, Kosalar və Ağ-köynək kəndlərindən köçüb gəlmiş tayfalar burada Qazaxyolçular adlı kənd salmışlar.

1929-cu ildə Sovet dövləti tərəfindən «Pirsultan köyü» adlanan kənd dağıdılmış, başbilənləri isə ya güllələnmiş və yaxud da sürgün olunmuşdur. Bu proses 1937-ci ilədək davam etmişdir. Pirsultan köyünün əldə qalan hissəsi isə Qazaxyolçular kəndi ilə birləşdirilmiş, onlar yenə də bir toplum halında bu kəndin içərisində «Pirsultan köyü» hissəsi və «Pirsultan» soyu adı ilə yaşamışlar.

Səfurə xanımın ata-babası Abduləli İmamzadə yaxınlığındakı Çobanabdallı kəndində olan Çoban Abdal nəslindən Gövhər adlı bir qızla evlənmişdir. Səfurənin atası Əli kişi isə Göyçədəki Sarıyaqub kəndindən Miskin Abdal nəslindən olan qızla ailə qurmuşdur. Çox maraqlıdır ki, Abdal adını daşıyan nəsillər tarixən bir-birini axtarmış, qohum olmağa can atmış, bizim üçün pünhan olan əlaqəni kəsməməyə çalışmışlar. Səfurə xanımın ata nəsli kimi Sədnik Paşanın ata nəsli də Pirsultan soyuna məxsusdur. Onun ulu babası Qazaxdan gəlmiş tayfalardan biri ilə qohum olmuş və ömrü boyu Qazağın Kosalar kəndi ilə əlaqəni kəsməmişdir. Onu da qeyd etməyi vacib bilirəm ki, bütün Gəncəbasarda Pirsultan nəsil-soyunun adını yaşadan yeganə ailə Gəncədə yaşayan Sədnik Paşa və Səfurə xanım Pirsultanlılar ailəsidir.

Səfurə Əli qızı Pirsultanlı Gəncə şəhərinin yuxarı hissəsindəki «Səbiskar» qəbristanlığında dəfn olunmuşdur. Qəbristanlığın qarşısında onun şərəfinə bir bulaq abidəsi inşa edilmişdir… Səfurə Pirsultanlı Pirsultan nəslinin anasıdır. Onun altı övladı – 3 oğlu, 3 qızı var. Oğlanları: Səyyaf, Səbutay və Sərvan; qızları: Sahibə, Sədafət və Sərvanə; oğul nəvələri: Samir, Sübhan, Vüsal, Elmir, Mahir, Sədvar, Sənan və Simran; qız nəvələri: Vüsalə, Zümrüd, Səbinə və

Səfurədir. Onlar Gəncədə və Bakıda Pirsultan soyuna məxsus övladlardır.

Səfurə xanımın qəbir abidəsi mənsub olduğu nəslin adını daşıyır. Ana bulaq əbədiləşdiyi kimi, onun adı, soyadı, yazıb-yaratdığı əsərləri, yəni işıq üzü görmüş kitabları, haqqında şeirləri, xatirələri və digər yazıları, övladları, nəvə-nəticələri zaman-zaman yaşadacaqdır. Səfurə xanım haqqındakı deyilənlər bununla bitmir. Mən gələcəkdə yəqin ki, yazacağım «Xatirələr» kitabımda onlardan daha geniş, daha ətraflı bəhs edəcəyəm.

***Qəbrin nurla dolsun, SƏFURƏ XANIM!***

***SƏDNİK PAŞA PİRSULTANLI,***
***Filologiya elmləri doktoru, professor, Respublikanın Əməkdar Mədəniyyət işçisi, Azərbaycan Jurnalistlər və Yazıçılar Birliyinin üzvü, əmək və müharibə veteranı, «Yurddan səslər» jurnalının və «Xalq ozanı» qəzetinin təsisçisi***

# GƏRAYLILAR

## XATIRLARSAN

Nəğmə qoşduq hər daşına,
Pirsultan, yaz yaddaşına,
Hər kəs dolansa başına,
Yenə bizi xatırlarsan.

Durnalar burdan keçəndə,
Soyuq suyundan içəndə,
El gələndə,  el köçəndə
Yenə bizi xatırlarsan.

Xatırlarsan həzin-həzin,
Səfurənin ala gözün,
Bulaqlar oxuyar sözün,
Yenə bizi xatırlarsan.

## YURDUM, SƏNDƏN

Ürəyimdə təzə-tərsən,
Doymamışam, yurdum, səndən.
Gözlərimdə yanan nursan,
Doymamışam, yurdum, səndən.

Qənirsizsən, çox görmüşəm,
Gül bağından  gül dərmişəm,
Güllərə könül vermişəm,
Doymamışam, yurdum, səndən.

Göy yaylaqlar, buz bulaqlar,
Xatirəmi əziz saxlar,
Unudulmaz keçən vaxtlar,
Doymamışam, yurdum səndən.

Göy göl deyir, Kəpəzim var,
Mənim də onda gözüm var,
Qəlbimdə min-min arzum var,
Doymamışam, yurdum, səndən.

Ay Səfurə,  bu nə yazdı?
Xəyalım dağları gəzdi,
Ayrılmaram, hələ tezdi,
Doymamışam, yurdum, səndən.

## CEYRANÇÖL

Nə qəşəngsən, ay Ceyrançöl,
Lalələr yaza yaraşıq.
Ceyranlar sürməmi çəkib?
Veriblər gözə yaraşıq.

Kəkliklərin çolpasıynan,
Qırqovullar balasıynan,
Quba qazlar sonasıynan,
Söhbətə, sözə yaraşıq.

Gələn keçər, Kür yaxası,
Hara baxsan, gül xonçası.
Təzə açıb gül qönçəsi,
Gəlinə, qıza yaraşıq.

Hara baxdım, heyran qaldım,
Meylimi laləy ə saldım.
Düzə baxdım, ceyran oldum,
Ceyran da düzə yaraşıq.

Ay Səfurə, düzlərə bax,
Sən o ceyran gözlərə bax,
Su götürən qızlara bax,
Qızlar da bizə yaraşıq.

## KƏPƏZ

Görüşünə gör kim gəlib,
Elə baxma yana, Kəpəz.
Yaralanıb dağda kəklik,
Gülün batıb qana, Kəpəz.

O Xanyurdu, o Xan bulaq,
Yadigardı axan bulaq.
Ürəyimdən çıxan bulaq
Söyləməzmi; «Ana Kəpəz?»

Göy göl gözəlliyin tacı,
Qoy mən olum ona bacı.
Gəl, baxma, elə qıyqacı,
Burda mənəm sona, Kəpəz.

## YADINDAMI

Mən burda sevdim, sevildim,
Yadındamı, ay Daşbulaq?

Çəməndə təzə-tər güldüm,
Yadındamı, ay Daşbulaq?..

Bir əlimə şana aldım,
Güzgüləndim, sona oldum,
Gəlinləşdim, ana oldum,
Yadındamı, ay Daşbulaq?..

Bu qismət gözəl qismətdi,
Məhəbbət-baldı, şərbətdi,
Hər sevgi bir hekayətdi,
Yadındamı, ay Daşbulaq?..

## NAZLANIR

Yaylaqların gül vaxtıdır,
Dərələr, düzlər nazlanır.
Şux gözəllər seyrə çıxıb,
O ceyran gözlər nazlanır.

Yağış gəlir səpə-səpə,
Saçın darayır göy təpə.
Kəklik kimi səkə-səkə,
Nişanlı qızlar nazlanır.

Sel çatarmı yaz selinə,
Axıb gələr dağ gölünə.
Gül-çiçək düzüb telinə,
Ördəklər, qazlar nazlanır.

Çəmənlər naxış-naxışdı,
Hər xalısı uçan quşdu,

Bu baxış özgə baxışdı,
Dilimdə sözlər nazlanır.

## DEYƏRSƏN

Çək nazını vədəsində,
Dağa yağdı qar deyərsən.
Axtararsan, tapammazsan,
«Gəncliyimi ver» deyərsən.

Ömür axar sular kimi,
Mənasız arzular kimi,
Əriyib gedər qar kimi,
Baxıb ahu-zar deyərsən.

İtirərsən sirdaşını,
Salarsan üzük qaşını,
Axıdarsan göz yaşını,
Ölüncə «yar-yar» deyərsən.

## BÜLBÜL

Axşam-sabah bağçamızda,
Nalə çəkər, ötər bülbül.
O Məcnundan, Xan Kərəmdən,
Sən olmusan betər, bülbül.

Can yaxırsan, bu nə səsdi,
Yolunu hicranmı kəsdi?
Yandırma gəl, bizi bəsdi,
Yetər, bülbül, yetər, bülbül.

Dəryadamı batıb gəmin,
Hardadı könül həmdəmin?!
Gəl, üstümə tökmə qəmin,
Dərd sinəmdə bitər, bülbül.

## BÜLBÜL

Qızılgül həsrətdən yanır,
Bilmirsənsə bil, ay bülbül.
Ətrafında xar dolanar.
Gəl, ay bülbül, gəl, ay bülbül.

Həsrətin sonu vüsaldı,
Gözüm yollarında qaldı.
Dərdin məni dərdə saldı,
Yar könlünü al, ay bülbül.

Hər işə qərar qoyulmuş,
Sevməyin də sonu buymuş.
Ya biryolluq yara qovuş,
Ya bu yolda öl, ay bülbül.

## KƏKLİK

Görüşünə yarın gəlir,
Saçlarını dara, kəklik.
Telindən bir cüt tel ayır,
Müjdə verim yara, kəklik.

Ağ əllərin xınalanmış,
Çolpaların[1] sonalanmış,

[1] Kəkliyin balası

Nə gözəlsən, canı yanmış,
Geymisən zər-xara, kəklik.

Səfurəni deyib gəldin,
Oxuyub bağrını dəldin,
Gəldiyini hardan bildin?
Səs saldın dağlara, kəklik.

## QARANQUŞ

Eyvanımda yuva qurdun,
Bala böyütdün, uçurdun,
Bizdən nə yamanlıq gördün,
Hara köçürsən, qaranquş?!

Getmə, quşum, getmə quşum,
Qızıldı torpağım, daşım.
Vətəndə bahardı qışım,
Hara köçürsən, qaranquş?!

O sən gedən nə məkandı?
Burda yuvan bir cahandı,
Sənin ki dostun insandı,
Hara köçürsən, qaranquş?!

## BƏNÖVŞƏ

Sən qız kimi həyalısan,
Ay qəlbi şüşə bənövşə.
Kol dibində, ay işığı
Üzünə düşə, bənövşə.

Nə qəşəngsən, nə zərifsən,
Göz açıb kimi görübsən?
Sən kimə könül veribsən?
Bir yanı meşə, bənövşə.

Həm sevincsən, həm kədərsən,
Tez gəlib, tez də gedərsən,
Bir də baharda gələrsən,
Nərgizlə qoşa, bənövşə.

## BİLƏRZİK MƏNDƏDİ

Tapdım meşə bulağından,
Bilərzik məndədi, Arzu.
Üstü almaz, yanı qızıl,
Bilərzik məndədi, Arzu.

Necə yaşarsan Qəmbərsiz?..
Güllərin müşki-ənbərsiz,
Deyirəm, gəzmə xəbərsiz,
Bilərzik məndədi, Arzu.

Bilərzikdə bir nişan var,
Ağlamısan, gözdə qan var,
Sevgidə çox imtahan var,
Bilərzik məndədi, Arzu.

Uca tutdun sədaqəti,
Saf duyğu, saf məhəbbəti.
Qoy söyləyim həqiqəti,
Bilərzik məndədi, Arzu.

Hər kim ki, yara aşiqdi,
Bu dünyaya yaraşıqdı.
Bilərziyin bir işıqdı,
Bilərzik məndədi, Arzu,
Sevgin vətəndədi, Arzu.

## ZÜLFİYYƏNİN SAZINDA

Dərdli Kərəm dara düşər,
Ərzurumda qara düşər,
Lələ ahu-zara düşər,
Zülfiyyənin sazında.

O dağda bir ahu mələr,
Yüz gözəlin ahı mələr,
Kərəm gedər, Dilqəm gələr,
Zülfiyyənin sazında.

Qəriblə Sənəm görüşər,
Gözlərdən üzə şeh düşər.
Aşiqlər kama yetişər,
Zülfiyyənin sazında.

Göynən ötən quşu saxlar,
O səni yüz yerdən oxlar.
Qışda qızılgül yarpaqlar,
Zülfiyyənin sazında.

Barmaqlarda ömür yaşar,
Axar sular pıçıldaşar,
Quşlar səsin səsə qoşar,
Zülfiyyənin sazında.

Bir nəğməli dağ seli var,
Onda qəlbimin teli var,
Musiqinin yüz xalı var,
Zülfiyyənin sazında.

Səfurədi, onu duyan,
Sazıyla yatıb uyuyan.
Möcüzə baş verdi, dayan!
Zülfiyyənin sazında.

## DÜNYA, XƏTRİMƏ DƏYDİN

Mən ki səndən razıydım,
Dünya, xətrimə dəydin,
Hər fəsildə yazıydım,
Dünya, xətrimə dəydin.

Saldın üzük qaşımı,
Apardın qardaşımı.
Axıtdın göz yaşımı,
Dünya, xətrimə dəydin.

O, mənə ata əvəz,
Getdi qardaşım, gəlməz.
Daha heç üzüm gülməz,
Dünya, xətrimə dəydin.

## MƏNİM PİRSULTAN DAĞLARIM

Tağsız göylərin dayağı,
Mənim Pirsultan dağlarım.

Qoynun bir ana qucağı,
Mənim Pirsultan dağlarım.

Torpaq - mənim həqiqətim,
Torpaq - mənim məhəbbətim,
Gül olum, sinəndə bitim,
Mənim Pirsultan dağlarım.

Səfurəyəm, torpaq canım,
Torpaq yurdum, soy-məkanım,
Ürəyimsən, necə danım?
Mənim Pirsultan dağlarım.

## ARAZ

Sən gülərsən, mən də gülləm,
Ağlasan ağlaram, Araz!
Buludunun göz yaşını,
Gözümdə saxlaram, Araz!

Leysan yağsam, sel olarsan,
Bir çay ikən, göl olarsan.
Narın yağsam, gül olarsan,
Gülünü qoxlaram, Araz!

Mən qız-oğul anasıyam,
Özüm Göy göl sonasıyam.
Dost yolunda yanasıyam,
Səni də yoxlaram, Araz!

## KÜRÜM

Yellənquşdan bir ox atdı,
Koroğlu yurd seçdi, Kürüm!
Sularında at oynatdı,
Niyə səndən köçdü, Kürüm?

Sən Kür idin, o da kürdü,
O dostluğu bumu qırdı?
Nişangah bir daş götürdü,
Üstündənmi keçdi, Kürüm?

Mərd üzünə kəmmi baxdın?
Dillənməyib lalmı axdın?
Getdi tərlan, döndü baxtın,
Dağdan-dağa uçdu, Kürüm!

Başın üstən bir ox keçdi,
Nərəsi dilini açdı.
Ürəyinə odmu düşdü?
Niyə gözün yaşdı, Kürüm?

Koroğlunun vuran əli,
Sən bir dəli, o bir dəli,
Sənə tapşırıbdı eli,
Dolan yurdu xoşdu, Kürüm!

## SİNSAR BULAQ

Suyuna şərbət tökübsən,
Bal qatmısan, Sinsar bulaq.

Suyunda gülab ətri var,
Gül qatmısan, Sinsar bulaq.

Sənin anan Gəncə çaydı,
O gözəldən de, kim doydu?
Səni meşələrdə qoydu,
Boy atmısan, Sinsar bulaq.

Gecələr ay güzgülənər,
Səhər suyun gümüşlənər,
Gözəllər üstünə gələr,
Oyatmısan, Sinsar bulaq.

## İNCƏ ÇAYIM

Ay Murovun öz balası,
Qız hörüklü İncə çayım.
Yurdun alagöz balası,
Qız hörüklü İncə çayım.

Gülün dərim əlçim-əlçim,
Körpü sal üstündən keçim.
Əyilib suyundan içim,
Qız hörüklü İncə çayım.

Ayna bulaqların gördüm,
Güzgüləndim, saçım hördüm,
Dönüb sənə salam verdim,
Qız hörüklü İncə çayım.

Hörük tutan əlimə bax,
Tel ayranda telimə bax,

Durulanda gözümdən ax,
Qız hörüklü  İncə çayım.

Bir sonasan mələk misal,
Səfurəyəm, ərzimi al,
Mən gedirəm, salamat qal,
Qız hörüklü  İncə çayım.

## YADIMA DÜŞDÜ

Yaz havası dərdə dərman
Yaylaqlar yadıma düşdü.
Bulud keçdi karvan-karvan,
Yaylaqlar yadıma düşdü.

Səsi gəldi torağayın,
Səsi gəldi Qaşqaçayın.
Gəldi, keçdi quzu-qoyun,
Yaylaqlar yadıma düşdü.

Xınna dərəsini gördüm,
Qırxbulağa salam verdim.
Al-əlvan bəzəndi yurdum,
Yaylaqlar yadıma düşdü.

Dağlar durdu xəyalımda,
Dağlar nurdu xəyalımda,
Dünya qurdu xəyalımda,
Yaylaqlar yadıma düşdü.

Ay Səfurə, havalandım,
Dərdim vardı davalandım.

Keçən günlərimi andım,
Yaylaqlar yadıma düşdü.

## DAĞLAR

Eşitmədim nəğməsini,
Kəkliklərin hanay[1], dağlar?
Sona kim başı yaşıl,
Ayaqları qan, ay dağlar.

Göz oxşayar zər qanadı,
Dilində qəlbinin odu,
Cilvəsində bir sonadı.
Oxuyanda Xan, ay dağlar.

Qayaları dolanmadım,
Qaşqaçayda qalammadım,
Doğru cavab alammadım,
Daşsan, daşa dön, ay dağlar.

Məcnun kimi çöllərə düş,
Sara kimi sellərə düş,
Qərib kim dillərə düş,
Kərəm kimi yan, ay dağlar.

Səfurə, kəklikmi dindi?
Oxudu qəlbim dəlindi.
O bir qızdı, ya gəlindi?
Olmaz belə can, ay dağlar.

---

[1] «Hanay dağlar» qafiyə xatirinə, bölgədə deyilişi gözəl olduğu üçun belə işlənmişdir. «Hanay dağlar», hanı, ay dağlar? - mənasında işlənmişdi.

## TOĞANADAN GƏLƏN GƏLİN

Dağlardan təzəcə enib,
Toğanadan gələn gəlin.
Dağ gölündə güzgülənib,
Toğanadan gələn gəlin.

Saçların sünbül tək sarı,
Bəyaz sinən dağlar qarı.
Çaşdırdın yanımda yarı,
Toğanadan gələn gəlin.

Gözəllikdə bir dənəsən,
İnci, sədəf, dürdanəsən.
Huri, pəri, bilməm nəsən?
Toğanadan gələn gəlin.

Səni görüb Aya baxdım,
Duru axan çaya baxdım,
Düz qamətə, boya baxdım,
Toğanadan gələn gəlin

Şirin danış kəlmə-kəlmə,
Nəğməsiz dağlardan gəlmə.
Salam apar Göy gölümə,
Toğanadan gələn gəlin.

## İNLƏMƏ

Kədəri neydənmi aldın?
İnləmə, kaman, inləmə.
Qəmsizləri qəmə saldın,
İnləmə, kaman, inləmə.

De, sinəndən çaymı keçir?
Qəlbindən qış, yaymı keçir?
Yoxsa bir yas, toymu keçir,
İnləmə, kaman, inləmə.

«Apardı sellər Saranı»,
Haraylarsan, dağ-aranı.
Gözündə dağın boranı,
İnləmə, kaman, inləmə.

Sən Habilsiz, Habil sənsiz,
Qalarsız yetim, kimsəsiz.
Həzin-həzin, səssiz-səssiz,
İnləmə, kaman, inləmə.

Sən Habillə ad almısan,
Mən demirəm, şad olmusan,
Kərəm kimi od almısan,
İnləmə, kaman, inləmə.

## SARI BULAQ

Daşlıdağın gülün dərdim,
Ətək-ətək, Sarı bulaq.
Alt yanın Sonalar çayı,
Qızdan göyçək, Sarı bulaq.

Zirvələrdən yolun salar,
Durna keçər telin salar,
Dağ boynuna qolun salar,
Bir ana tək Sarı bulaq.

Bulaq, yerin sarı gildi,
Elə bildim sarı güldü,
Dodağından bal süzüldü,
A bal pətək Sarı bulaq.

Min çeşmədən biri sənsən,
Hamısından duru sənsən,
Bulaqların guru sənsən,
Sarı köynək, Sarı bulaq.

Səfurəyəm, səni seçdim,
Sonalar çayını keçdim,
Çiçək dənizinə düşdüm,
Çəmən-çiçək Sarı bulaq.

## LEVİN QALASI

Dağ üstündə o bir dağdı,
Gör nədi Levin qalası.
Tarixlərin yadigarı,
Gör nədi Levin qalası.

Zümrüd gözlü Levin çayı,
Daşar gələr dəvə boyu.
Gözəllikdə yoxdu tayı,
Gör nədi Levin qalası.

Tərtər çayı ona bacı,
Ruzigarı şirin-acı,
Dağların başının tacı,
Gör nədi, Levin qalası.

## GÖRÜNDÜ

Kəpəzdən Murova baxdım,
Arada Canbaz göründü.
Hər bir dağın sinəsində,
Bir çiçəkli dağ göründü.

Murov dağların göyçəyi,
Birləşdirər yerlə göyü,
Pambıq kimi ağ örpəyi,
Qardan da bəyaz göründü.

Səfurəyəm, qoca dağlar,
Bir-birindən uca dağlar,
Havanı alınca dağlar,
Bulaqlar göz-göz göründü.

## SONALAR ÇAYI

Bu yerləri Qəmərbanu
Gəzdimi, Sonalar çayı?
Göy dağların ağ gülünü
Üzdümü, Sonalar çayı?

Sarı bulağa endimi?
Dağlarda köhlən mindimi?
O, bir tərlana döndümü?
Süzdümü, Sonalar çayı?

Qəmərbanu bir tamaşa,
Naz satardı yaşılbaşa,
O tarixi Qızıldaşa
Yazdımı, Sonalar çayı

# QOŞMALAR

## YURDUM

Mənim Dəlidağım, Taxta yaylağım,
Gözü yaşlı yurdum, pərişan yurdum,
Dərdli Keytim, qəmli Ceyran bulağım,
Dərdini dağlara danışan yurdum.

Dağlar azmı görüb belə tufanı?
Ana qarda donub, körpəsi hanı?
Murova çilənib igidlər qanı,
Al qanı sulara qarışan yurdum.

Axıb qanlar, Qanlı gölə tökülüb,
Ağ saraylar uçub,  evlər sökülüb,
Səfurəyəm, yuxum ərşə çəkilib,
Anayla yuxuda görüşən yurdum.

## ƏYLƏNMƏ, DURNAM

Hayana baxırsan ölümdü, qandı,
Gəl, get, bizim yerdə əylənmə,  durnam.
Uçdu ağ saraylar, binalar yandı,
Gəl, get, bizim yerdə əylənmə, durnam.

Yad əllərdə körpə balalar qalıb,
Ceyranlı, cüyürlü talalar qalıb,
Gör neçə alınmaz qalalar qalıb,
Gəl, get, bizim yerdə əylənmə, durnam.

Elə bil ki, dövran,  zaman dəyişib,
Səfurə, qəlbimdə güman dəyişib,
Dünyanın əhvalı yaman dəyişib,
Gəl, get, bizim yerdə əylənmə, durnam.

## GƏNCƏNİN

Dünya Gəncəmizi nurdan xəlq edib,
Qızıldı torpağı, daşı Gəncənin.
Ləldi, cavahirdi, yaqut, yaməndi,
Nə bilir qiymətin naşı Gəncənin.

Dəyib torpağına peyğəmbər əli,
Özü bir cənnətdi, solarmı gülü?!
Könüllər sultanı, dağlar gözəli,
Göy göl üzüyünün qaşı Gəncənin.

Səfalı qoynunda bulaqlar çağlar,
Qızılgül beşiyi bağçalar, bağlar,
Mehman gəlsə süfrə açar, qonaqlar.
Dillərdə söylənər aşı Gəncənin.

Gövhər torpağında hər meyvə bitər,
Qızılgül kolunda bülbüllər ötər,
Həmişə yaşıldı,  özü təzə-tər,
Az fərq edər yazdan qışı Gəncənin.

İncidi, mərcandı, sədəfdi, dürdü,
Səfurə, kim baxdı, bir cənnət gördü,
Bir yanı Ziyadlı, bir yanı Kürdü,
Ulu Pirsultandı başı Gəncənin.

## COMADAŞ

Koroğlu dağlarda at oynadanda,
Bu yerlərdə sən də vardın, comadaş.
Zivlən dağlarının a daş qalası,
Xan Eyvazı necə gördün, Comadaş?

Dağlar başım, düzəngahlar ayağım,
Dağlar gözüm, dağlar arxam, dayağım,
Ayağında öldü, itdi o yağım,
Düşmənlərə çox dərs verdin, Comadaş.

Oxunmamış yazılar var daşında,
Tariximin özü yaşar yaşında,
Səfurəyəm, baş əyirəm qarşında,
Bu gün yenə möhkəm durdun, Comadaş.

## GÖRÜNMƏZ

Ulduz-ulduz alaçıqlar, mehmanlar,
A dağlar, qoynunda hanı, görünməz?!
Qoyunlar  kəsilmir, şülən çəkilmir,
Gözəllər qoynunda hanı, görünməz?!

Gəncəmiz qoynunda beləmi yazlar?
Çəkilib göllərdən ördəklər, qazlar,
Çeşmələr başında gülüşmür qızlar,
Gözəllər qoynunda hanı, görünməz?!

Çiçəyin dərilməz, gülün biçilməz,
Sərin bulaqların suyu içilməz,

Qışın,  yayın bir-birindən seçilməz,
Gözəllər qoynunda hanı, görünməz?!

Yaylaq yaylaq olmaz insan gəlməsə,
Mehmanlar qoynunda deyib-gülməsə,
Gözəllər başından gül ələnməsə,
Gözəllər qoynunda hanı,  görünməz?!

Səfurə qarğayar dava salana,
Dava deyib başladılar talana,
İnanmıram dünya belə dolana,
Gözəllər qoynunda hanı, görünməz?!

## GƏLMİŞƏM

Fatma nənə, vur belinə qurşağın,
Nənəm, səni ziyarətə gəlmişəm.
İstisuda təndirini görməyə,
Mən bir ülvi məhəbbətə gəlmişəm.

Meşə darağındı, Viləş göz yaşın,
Burda güzgülənən itirər huşun,
Yanardağda yozumu var hər daşın,
Möcüzəli həqiqətə gəlmişəm.

Sən gəzən yerlərə etdim tamaşa,
Tamaşa dağların verib baş-başa.
Təndirin görməyə endim Viləşə,
Səfurəyəм, bir niyyəтə gəlмişəм.

## QAŞQAÇAY

Bu böyük istəkdi, böyük arzudu,
Bir də səndə mehman olum, Qaşqaçay.
Qoru, yaxşı saxla Ur kəkliklərin,
Gözlərinə qurban olum, Qaşqaçay.

Həsənnənə, Həsənbaba tamaşa,
Gözəlliyə baxam, gözüm qamaşa,
Torpağa baş əyəm, tapınam daşa,
Ağqayana həyan olum, Qaşqaçay.

Səfurə dərdindən xəyala getdi,
Zümrüd meşələrin gözümdə bitdi,
Sənin yüz dərdin var, biri həsrətdi,
Hər dərdinə dərman olum, Qaşqaçay.

## PİRSULTAN DAĞLARI

Durna olub dolanaydım göyünü,
Dolanaydım, ay Pirsultan dağları,
Sivas ellərində Banaz köyünü,
Dolanaydım, ay Pirsultan dağları.

Pirsultanın türbəsini görəydim,
Baş əyəydim, baxıb salam verəydim,
Məzarı üstünə güllər sərəydim,
Dolanaydım, ay Pirsultan dağları.

Səfurə, Sivasdan yana dönəydim,
Durnalarla Təbriz üstə enəydim,

Pirsultan kəndini gedib görəydim,
Dolanaydım, ay Pirsultan dağları.

## ZİYARƏT DAĞI

Nuh-əyyamdan bəri nəsil-soyumuz,
Ziyarət dağını ziyarət eylər.
Marallar bu dağa sağına gəlmiş,
Qocalar söyləyər, hekayət eylər.

Ay Əhmədli, hörmət çoxdu bu yurda,
Ağ yağış suyunda çimmisən nurda,
Ocaq dağın şəfa verər hər dərdə,
Böyükdən kiçiyə ibadət eylər.

Bu dağın yanından el yolu keçər,
Gələnlər, keçənlər suyundan içər,
Səfurə, bir pirdi, hər nə var seçər,
Ona tapınmayan cinayət eylər.

## AĞQAYA

Bərqərarsan Qaşqaçayın qoynunda,
Bu yerlərin, a sultanı, Ağqaya.
Qaş-qabağı açıq, dumansız-çənsiz,
Qarşılarsan sən mehmanı, Ağqaya.

Bölük-bölük cüyür sürüsü keçər,
Gəlib Qaşqaçayın suyundan içər,
Gözəllik insanın gözünə köçər,
Ovsunlarsan sən insanı, Ağqaya.

Bunlar dağ keçisi, o Ur kəkliyi.
Ur kəkliyi sevən deyil təkliyi,
Gəzər seyranları, gül-çiçəkliyi,
Necə seçdin bu məkanı, Ağqaya?

Zalım ovçu yaman atdı təkəni,
O insafsız qana qatdı təkəni,
Ocaq çatdı, kabab etdi təkəni,
Qana çəkdi gülüstanı, Ağqaya.

Könül sevən gülüstandan doymazdım,
Ay Səfurə, gözəlliyə qıymazdım,
Mən bilsəydim, o ovçunu qoymazdım,
Qoparmağa bu tufanı, Ağqaya.

## ZAĞALI

Bir elatdı qarlı dağlar qoynunda,
Səs salıbdı uzaqlara Zağalı.
Ağ evləri ulduz kimi sayrışar,
Könül verib bu dağlara Zağalı.

Qədim kahaların bilinməz yaşı,
Qızılla yoğrulub torpağı, daşı,
Əməni bulağı, bulaqlar başı,
Bal qatıbdı bulaqlara Zağalı.

Yalçın qayasında qartallar süzər,
Yaşıl yamacların gül-çiçək bəzər.
Quşqara çayında ördək, qaz üzər,
Ziynət verər çaylaqlara Zağalı.

Sərraf olan burda ləl-mərcan seçər,
Dağından gül dərər, suyundan içər,
Xoşbulağın yolu içindən keçər,
Bələdçidi  yaylaqlara Zağalı.

Önündə Pirsultan, yanında Qoşqar,
Qayasında vüqar, dağında vüqar,
Səfurə, könlümdə bir istəyim var,
Bir də baxım oylaqlara, Zağalı.

## BALÇILI DAĞLARI

Başı ağ çalmalı, bəyaz cunalı,
Qayaları gəlin-qızdan həyalı,
Göz-göz bulaqları süddən mayalı,
Möcüzəsən, ay Balçılı dağları.

Axarcadan yana Əmcəkli dağ var,
Yarğanında cərgələnib bulaqlar.
Hər canlı döşündən bir bulaq çağlar,
Möcüzəsən, ay Balçılı dağları.

Bir söz desəm, ürəklərdə qəm olar,
Qorxuram ki, gülən gözlər nəm olar.
Tək qatırın südü axmaz, kəm olar,
Möcüzəsən, ay Balçılı dağları.

Axarcada durur bir Qız qalası,
Ayağında Qızıl yəhər talası,
Ötər daşda sona kəklik balası,
Möcüzəsən, ay Balçılı dağları.

Ay Səfurə, İncilliyə çıxaydım,
İrmaşlıdan Gəlin daşa baxaydım,
Su olaydım, çeşmələrdən axaydım,
Möcüzəsən, ay Balçılı dağları.

## DAŞ OLDUN, GƏLİN

Qənirsiz gözəlsən, göl kənarında,
De, necə oldu ki, daş oldun, gəlin?!
Özün bir gözəlsən, yol kənarında,
De, necə oldu ki, daş oldun, gəlin?!

Abırdan-həyadan, özündənmi, de,
Yoxsa bəd nəzərin gözündənmi, de.
Bəlkə, bir nadanın sözündənmi, de,
De, necə oldu ki, daş oldun, gəlin?!

Bu dağlarda sən bir ürkək sonasan,
Daş heykəlsən, bir müqəddəs anasan.
Səfurəyəm, məni doğma sanasan,
De, necə oldu ki, daş oldun, gəlin?!

## AZMI GƏZMİŞƏM
***(Təbiətnamə)***

Yaşıl meşələrin, zümrüd çöllərin,
Səfalı qoynunu azmı gəzmişəm?!
Şır-şır bulaqların, nazlı göllərin,
Səfalı qoynunu azmı gəzmişəm?!

Göy göldən enmişəm Ağsuyun üstə
Durnalar keçirdi bir zəncir dəstə,

Xan Kəpəz, verərəm, canımı istə,
Səfalı qoynunu azmı gəzmişəm?

Gəzmişəm hər yanı bir tərlan təkin,
Əyləşmişəm sahilində Terekin,
Qızıldaşın, Elburusun, Kazbekin,
Səfalı qoynunu azmı gəzmişəm?!

Qonaq oldum Qaraçayda, Bolqarda,
Mən hörmət görmüşəm, olmuşam harda,
Gəzmişəm, bənzəmir bu yurd o yurda,
Səfalı qoynunu azmı gəzmişəm?!

Xəyal gözəlliyi Sənan dağının,
Ellər seyrəngahı Kür qırağının.
Doğma Borçalının gül torpağının,
Səfalı qoynunu azmı gəzmişəm?!

A Dilcan, İcevan, Boşkalı bulaq,
Söylə, o yerləri gəzdim nə sayaq?
Mənim ulu Göyçəm, o gözəl torpaq,
Səfalı qoynunu azmı gəzmişəm?!

Göyçə göl sahilin ləpədöyəndə,
Çalmalıda bulud boynun əyəndə,
Şişqayada alma, armud dəyəndə,
Səfalı qoynunu azmı gəzmişəm?!

O Alagöllərdə məclis qurmuşam,
Kəlbəcərdə xətir-hörmət görmüşəm,
Dəlidağda çox dövranlar sürmüşəm,
Səfalı qoynunu azmı gəzmişəm?!

Tər-tər, hörüklərin qulac-qulacdı,
Hörüyüm yanında o saç nə saçdı,
O Ceyran bulağın yadıma düşdü,
Səfalı qoynunu azmı gəzmişəm?!

Şuşa dağlarının ətəklərində,
Gözüm qalıb nadir çiçəklərində,
Yayda-yazda Şahbulaqda sərində,
Səfalı qoynunu azmı gəzmişəm?!

Murovdan çox baxdıq biz İncə çaya,
Ordan qonaq gəldik Ballıqayaya,
Təkcə Ağbulağı dəyər dünyaya,
Səfalı qoynunu azmı gəzmişəm?!

Mən ki gəlib gördüm Quba-Dərbəndi,
Böyüdü gözümdə qalası, bəndi,
Torpağı gözümdə behiştə döndü,
Səfalı qoynunu azmı gəzmişəm?!

Qızbənövşə bulağını görmüşəm,
Tufan dağın ağ güllərin üzmüşəm,
Beşbarmağın ərzi-halın yazmışam,
Səfalı qoynunu azmı gəzmişəm?!

Bir görəydin, sən Qəçrəşin yazını,
Qonaq eylər əllisini, yüzünü.
Bülbül çəkər meşələrin nazını,
Səfalı qoynunu azmı gəzmişəm?!

Qəbələni gəzdim,  qaldım Oğuzda,
Bucağı, Daşağlı gəzəsən yazda,
Uğan gözəllikdə dağ yoxdu bizdə,
Səfalı qoynunu azmı gəzmişəm?!

Görmüsənmi Xan sarayın şüşəsin,
O ulu memarın sənət dünyasın?
Şəki dağlarının gül mənzərəsin,
Səfalı qoynunu azmı gəzmişəm?!

Bir cənnətdi qədim Şirvan torpağı,
Dədə Günəş, Diri baba ocağı,
Göyçayın, Ağsuyun qızıl nar bağı,
Səfalı qoynunu azmı gəzmişəm?!

Heyif, gedəmmədik o Fit dağına,
Biz düşdük Sulutun gül yatağına,
Dağında marallar gəlib sağına,
Səfalı qoynunu azmı gəzmişəm?!

Möcüzədir, Fatma nənə, təndirin,
O Viləş çayındı-Arazın, Kürün,
Yanardağ deyilmi sərin-sərvərin,
Səfalı qoynunu azmı gəzmişəm?!

Qumun qalasını görməsəm, bəlkə
Can hicran çəkərdi, a Nazlı təpə.
Çıxmışdın yoluma gül səpə-səpə,
Səfalı qoynunu azmı gəzmişəm?!

Alazan vadisi, Qıpçaq çölləri,
Almalı kəndinin şux gözəlləri,
Azmı dərdik bağça-bağdan gülləri,
Səfalı qoynunu azmı gəzmişəm?!

Gözəl Avey dağı, Damcılı bulaq,
Sarıtel xanımın gəzdiyi yaylaq,

Səndən soruşuram, ay dərə, ay
Səfalı qoynunu azmı gəzmişəm?!

Aldədə ocağı, Koroğlu dağı,
Azaflı kəndinin oldum qonağı,
Ay Tovuz bağçası, ay Tovuz bağı,
Səfalı qoynunu azmı gəzmişəm?!

Tovuz, sənin dilbər guşən Kirazdı,
Göyyurdun sinəsi hər fəsil yazdı.
Torpaqqala, sənə tərif də azdı,
Səfalı qoynunu azmı gəzmişəm?!

Gədəbəydə Turşsu, Gavalı bulaq,
Suyu can dərmanı, dəvalı bulaq,
Sən, ey gözəllərin xəyalı bulaq,
Səfalı qoynunu azmı gəzmişəm?!

Yada salaq,  Qanlıdağı, Mahını,
Gördüm Çobandağın dağlar şahını,
Gözəlliyi ovsunlayar ahunu,
Səfalı qoynunu azmı gəzmişəm?!

Qonaq oldum Qaşqaçayda, Zivləndə,
Gəzdim yaylaqları dumanda,  çəndə,
A Qırxbulaq, gördüm xoş günlər, səndə,
Səfalı qoynunu azmı gəzmişəm?!

Sən pirsən, ocaqsan, Əməni bulaq,
Çayırlı otları səməni bulaq.
Qoy bir də eşidim nəğməni,  bulaq,
Səfalı qoynunu azmı gəzmişəm?!

Bir dünyadı Xəlpərəngin meşəsi,
Dillər əzbəridi gül-bənövşəsi,
Dağlara səs salar Şəmkirin səsi,
Səfalı qoynunu azmı gəzmişəm?!

A mənim Qoşqarım, a Pirsultanım,
Səfurəyəm, sizi bir də dolanım,
Qadasın aldığım Azərbaycanım,
Səfalı qoynunu azmı gəzmişəm?!

## YATAMMADIM

Yatammadım, qaqqıltına oyandım,
Görəmmədim, kəklik, səni görəydim.
Tərpəmmədim, yerimdəcə dayandım,
Görəmmədim, kəklik, səni görəydim.

Meyillisən əzəl gündən daşa sən,
Bənzəmirsən, vallah, başqa quşa sən,
Səkə-səkə bir çıxaydın qaşa sən,
Görəmmədim, kəklik, səni görəydim.

Səfurənin həyanıdır qayalar,
Hay verərsən, insan kimi hay alar,
Kəklik, sənə göldə sona tay olar,
Görəmmədim, kəklik, səni görəydim.

## HOP-HOP

Onda bilərəm ki, meşədəyəm mən,
Yaşıl ormanlıqda səs eylər hop-hop.

Birisi susanda, o biri dinər,
Bilməm, hansı quşla bəhs eylər hop-hop.

Göy göl meşəsinin gül-bənövşəsi,
Ona yaraşıqdı Ağsuyun səsi,
İnan ki, duymasa insan nəfəsi,
Yəqin ki, oxumaz, yas eylər hop-hop.

Səsinə səs verər qayada kəklik,
Çıxar öz əlləri xınada kəklik,
«Əhsən, əhsən» deyər buna da kəklik,
Meşədə quşları dəs eylər hop-hop.

**BULAQ**

Dərin dərələrin sərin qoynunda,
Elə bil ki, yatmış sonasan, bulaq.
Suyun nə soyuqdu, suyun bumbuzdu,
Az qalır ki, yayda donasan, bulaq.

Xeyli vaxtdı görüşünə həsrətəm,
Qayaların duruşuna həsrətəm,
Kəkliklərin yerişinə həsrətəm,
Sən gözəl pərisən, anasan, bulaq.

Adın Mehtər, özün zəmzəm, suyun tər,
Yazda-yayda gözündə də gül bitər,
Bu şair qızını görməsən əgər,
Hərdən xatırlayıb anasan, bulaq.

## A ZİVLƏN ÇAYI

Səfalı qoynuna bir də gəlmişəm,
Necə füsunkarsan, a Zivlən çayı.
Çəmənindən lalə, nərgiz dərmişəm,
Yola gül səpərsən, a Zivlən çayı.

Meşələrdən axan zinzə bulaqlar,
Qız tək eylər nazı-qəmzə bulaqlar,
Oxuyar qoynunda nəğmə bulaqlar,
Sən bir bəstəkarsan, a Zivlən çayı.

Zümrüd yamaclara, düzlərə baxdım,
Sularında üzən qazlara baxdım,
Şəlalə hörüklü qızlara baxdım,
Sən də bir dilbərsən, a Zivlən çayı.

Bir gözəlsən gözəlliklər qoynunda,
Təbiətin minnəti var boynunda,
Bir gəlinsən bəzəyində, geymində,
Öyməsəm küsərsən, a Zivlən çayı.

Səfurə, kim deyir, istək bilinməz?
Bir təriflə sənə qiymət verilməz,
Xatirəsən ürəyimdə silinməz,
Ölməz bir əsərsən, a Zivlən çayı.

## LALƏLƏR

Gülüstan düzünə necə yaraşır,
Halay vurub dəstə-dəstə lalələr.

Canbaz dağlarından yeriş eyləyib,
Enib gəlib Ağsu üstə lalələr.

Üzü qan lalənin gülüşünə bax,
Çayırda-çəməndə yerişinə bax,
Lalənin laləylə görüşünə bax,
Özgə gör kimin var, səslə, lalələr.

Siz toydan gəlirsiz, toya gedirsiz,
Çəkmisiz qaş-gözə boya, gedirsiz,
Bəlkə dəstələnib suya gedirsiz,
Şərbət paylamağa dosta, lalələr.

## NƏRGİZ

Ayrılıq üzünə sarılıq salıb,
Dərdini deyirsən kollara, nərgiz.
Sənindəmi yarın qürbətdə qalıb,
Tikmisən gözünü yollara, nərgiz?

Könül sevən bənövşədi, nərgizdi,
Çiçəklər içində nərgiz bir qızdı.
Əgər sən yoxsansa o yaz nə yazdı,
Bəzəksən,  ziynətsən tellərə, nərgiz.

Demə,  Səfurədə dözüm qalıbdı,
Nədən bilim, neçə yazım qalıbdı,
Adına qoşduğum sözüm qalıbdı,
Hələ düşməyibdi dillərə,  nərgiz.

## QAYMAQ ÇİÇƏYİ

Əlləriylə dərdi Sarıtel xanım,
Necə də gözəlsən, qaymaq çiçəyi.
Gəlin təki süslənmisən,  ay canım,
Necə də gözəlsən, qaymaq çiçəyi.

Qorxursan ki, çəmənlərdə itərsən,
Qaçıb gedib,  yarğanlarda bitərsən,
Köçən günü, ürəyimə köçərsən,
Necə də gözəlsən,  qaymaq çiçəyi.

Səfurə, dağlardan doyarmı ürək?
Könlünü oxşayır burda hər çiçək,
Örtmüsən başına bir sarı ləçək,
Necə də gözəlsən,  qaymaq çiçəyi.

## QIZILGÜL

Bahar vaxtı naz edəndə gül-gülə.
Ətir yaydın bağça-bağa, qızılgül,
Fəğana başladı şeyda bülbülün,
Uçub qondu şah budağa, qızılgül.

Bülbül nalə çəkdi bu qəm, nə qəmdi?
Üzündəki yaşdı,  şehdi, şəbnəmdi?
Sevdicəyin bülbül deyil,  bəs kimdi?
Salma onu, gəl, ayağa, qızılgül.

Bilməzsən bülbülü taxtdan salarsan,
Məhəbbətsiz saralarsan, solarsan,
Ay biçarə,  yaman günə qalarsan,
Dözəmməzsən sən bu dağa, qızılgül.

## YARIYANDAN OL

Ananın sevinci uca boyundu,
Ay anası qurban,  yarıyandan ol.
Gözlərimiz aydın, bu gün toyundu,
Ay anası qurban, yarıyandan ol.

Özü bir sonadı, adı Gültəkin,
Hey əzizlə, oxşa, saxla gül təkin,
Sevinci də, qayğını da bir çəkin,
Ay anası qurban,  yarıyandan ol.

Səfurəyəm, budur sözüm müxtəsər,
Sevgilin gözəldi, mahi-münəvvər,
Anan bu gəlindən cüt oğul istər,
Ay anası qurban, yarıyandan ol.

## QƏLBİNDƏN SİLMƏYİB ANAM

Məhəbbətin cəbhələrdə qalıbdı,
Sevgilin davadan gəlməyib, anam.
Ağlayıb, göz yaşın gizli siləndə,
Bunu körpələrin bilməyib, anam.

Gör, sən nə zəhmətlə böyütdün bizi,
Namusla, qeyrətlə böyütdün bizi,
Ülvi məhəbbətlə böyütdün bizi,
Bizsiz bircə günün olmayıb, anam.

Neçə payız keçib, neçə yaz keçib,
Neçə gəlin köçüb, neçə qız köçüb,
Anam gör necə də doğru yol seçib,
Atamı qəlbindən silməyib anam.

## ANAMIN SAÇLARI

Az dəyibdi tellərinə yar əli,
Ağarmayın,  ay anamın saçları.
Sınıq könlü yaralıdı yaralı,
Ağarmayın,  ay anamın saçları.

Necə də gözəldi ipək telləri,
Bənövşə ətirli çiçək telləri,
Gərək əzizləyək, öpək telləri,
Ağarmayın, ay anamın saçları.

Görməyəydim, tellər, səni pərişan,
Üstündə qar gördüm, qəlbim oldu qan,
Bu cavan ömrümü eylərsiz talan,
Ağarmayın, ay anamın saçları.

## YAR YANIMDADI

«Uzaqdadır» deyib, darıxma, ana,
Sevdalı ceyranam, yar yanımdadı.
Burda mənə körpələrim həyandı,
Sevdalı ceyranam, yar yanımdadı.

Bəsdir,  ana, ufuldama, sızlama,
Yayın qızmarında donub buzlama,
Mən anayam,  daha məni nazlama,
Sevdalı ceyranam, yar yanımdadı.

Kurortlarda tanış-biliş çox olur,
Qəm dağılır birdən-birə yox olur.

Ana, qəlbin nədən belə yuxalır?
Sevdalı ceyranam, yar yanımdadı.

*3 iyul 1972*

## YAŞAMAQ DEYİL

Gərək seviləsən, gərək sevəsən,
Könülsüz yaşamaq, yaşamaq deyil.
Gərək nazlanasan, naz da çəkəsən,
Könülsüz yaşamaq, yaşamaq deyil.

Sən saf duyğularla yaşasan əgər,
Ürək çəmən olar, gözdə gül bitər,
Arada qəm ölər, kədər yan keçər,
Könülsüz yaşamaq, yaşamaq deyil.

Məhəbbət çeşməsin gözündən içdim,
Eşqim sevinc verdi qaynadım, coşdum,
Səfurə, həyatdan bir məna seçdim,
Könülsüz yaşamaq, yaşamaq deyil.

## AXŞAMLAR

Gündüzlər yaylaqlar könlünü oxşar,
Dağlara qəriblik çökər axşamlar.
Gündüz dağ-dərələr aydın görünər,
Duman karvanını çəkər axşamlar.

Göy üzündə topa bulud qaynaşar,
Yamaclardan keçər, dağlardan aşar,
Şimşəyin işığı dağ-daşa düşər,
Buludlar göz yaşın tökər axşamlar.

Bir aləmdi duya bilsən təbiət,
Özülü məhəbbət, özü məhəbbət,
Əgər yar yarına qalarsa həsrət,
Ömrünün binasın sökər axşamlar.

## BULAQDA SƏNİ

Gözəl gəncliyimin çiçək vaxtında,
Azmı gözləmişəm bulaqda səni?!
Körpə ceyran kimi ürkək vaxtımda,
Azmı gözləmişəm bulaqda səni?!

Gah aranı, gah da dağı gəzmisən,
Həm yaxını, həm uzağı gəzmisən,
Seyrə çıxıb bağça-bağı gəzmisən,
Azmı gözləmişəm bulaqda səni?!

Deyirsən, gedirəm Quba-Dərbəndə,
O yerləri görmək istərəm mən də,
Saçlarımla səni sallam kəməndə,
Azmı gözləmişəm bulaqda səni?!

## BU QIZIN

Qızlar bulağından təzə su içib,
Siz də için bulağından bu qızın.
Ağı ağdı, qırmızısı qırmızı,
Gül açılıb yanağından bu qızın.

Bilmək olmur hansı göldə sonadı,
Bir körpə ceyrandı, bəlkə anadı.

Tellər şana görüb, saçlar yanadı,
Ovçu getməz ovlağından bu qızın.

Şəlalə saçların yana tökübdü,
Kirpiklərin məni qana çəkibdi,
Ay Səfurə, neçəsi göz tikibdi,
Aymı doğub otağından bu qızın?!

## QIZLAR

Hərəniz bir çiçək, nərgiz, bənövşə,
Sizin gül üzünüz şüşədi,  şüşə.
Gəlin bulaqlara siz qoşa-qoşa,
Bulaqlar başında sonasız, qızlar.

Gözəllik,  göyçəklik yaza yaraşır,
Nəğmələr, qoşmalar saza yaraşır,
Qız bulağa, bulaq qıza yaraşır,
Suların gözündə aynasız, qızlar.

Hərəniz bir evin alışan şəmi,
Sevən ürəklərin könül həmdəmi,
Siz də bu gün-sabah ananız kimi,
Hardasa bir evdə anasız, qızlar.

Eşqiniz, sevginiz pünhan röyadı,
Hər biri səmada gizlənən Aydı,
Dünya qəlbinizdə böyük dünyadı,
Siz də bu dünyada dünyasız,  qızlar.

## ÇƏKƏYDİM

Bir rəssam olaydım, a dağlar qızı,
Köynəyinin naxışını çəkəydim.
Durub dağ gölündə güzgülənəndə,
Duruşunu,  baxışını çəkəydim.

Ağ buludlar gözəlliyin cunası,
Dağ gölləri  camalının aynası,
Daş xınası barmaqların xınası,
Əllərinə yaxışını çəkəydim.
Səfurə lalələr üzə çıxanda,
Gözəllər dərədən düzə çıxanda,
Ürəyin sevgisi gözə çıxanda,
Təbiətin alqışını çəkəydim.

## GƏL, APAR

Yağmur ara vermir, el köçüb gedir,
Gəl,  bizi dağlardan  arana apar.
Tamam oldu yaylaqların dövranı,
Gəl,  bizi dağlardan arana apar.

Çəkilibdi ulduz-ulduz dəyələr,
Gərək bizə «gecəqondu» deyələr.
Çalışıb yönünü yaylağa döndər,
Gəl,  bizi dağlardan arana apar.

Dünən yaylaq, bu gün istək Gəncədi,
Gəncənin gülləri yarı qönçədi.
Səfurənin hər şey ürəyincədi,
Gəl,  bizi dağlardan arana apar.

## VƏTƏNDƏ SƏNİ

*(zarafatyana)*

Gül ömrün diyari-qürbətdə keçdi,
Gözləyən yoxdumu Vətəndə səni?..
Eşqimiz yollarda, həsrətdə keçdi,
Gözləyən  yoxdumu Vətəndə səni?..

Səsin gəlir Şahi-Mərdan dağından,
İranın, Turanın bağça-bağından,
Gəl, barı xəbər tut ev-uşağından,
Gözləyən yoxdumu Vətəndə səni?..

Qızlarda da Dədə Qorqud gəzirsən,
Zalım oğlu,  usanmırsan, bezmirsən,
Tel vurmursan, bir məktub da yazmırsan,
Gözləyən yoxdumu Vətəndə səni?..

Bu Təkə Türkməndi, bu da qumuqdu,
Gəzməyin, görməyin bir sonu yoxdu?
Vallah, sənətinin lap ağı çıxdı,
Gözləyən yoxdumu Vətəndə səni?..

Bu gün Sivasdasan, sabah Təbrizdə,
Səfurəyəm, dözüm qalmadı bizdə.
Əlimi çəkərəm,  qalarsan düzdə,
Gözləyən yoxdumu Vətəndə səni?..

## SƏDNİK

*(zarafatyana)*

Əfsanə,  bayatı, inci yığmağa,
Yurdu başdan-başa gəzirdi Sədnik.

Qırğıza, Qazağa, ya Qaraçaya,
İndi də getməyə hazırdı Sədnik.

Ona ilham verən nazənin mənəm,
Qalın kitabların yazanı mənəm.
Mirvaritək ipə düzəni mənəm,
Tək olsa dənizdə üzərdi Sədnik.

İstəməyə, məhəbbətə qalanda,
Yazı-pozu, ya zəhmətə qalanda,
Soruşsalar, həqiqətə qalanda,
Səfurə, yanında vəzirdi Sədnik.

## DAĞLARI

Biri ata deyib, o biri ana,
Biri bilib səngər, qala dağları.
Bu dağlara hər nə desən yaraşar,
Yaradan yaradıb belə dağları.

Zirvədə qar, sinə bahar, ətək gül,
Dərələr gül, təpələr gül, çökək gül,
Gəl, dağları imtahana çəkək, gül,
Yeriş etsin, tutsun lala dağları.

Səfurə, sən yenə xəyala gətir,
Yeddiqardaş dağlar yallımı gedir?
Qüdrət yaratdığın möcüzə edir,
Tutuşdurub nə qol-qola dağları.

## QARTAL

Yerin zirvələrdi, zirvədə dayan,
Gəl, həsədlə baxma çəmənə, qartal!
Gəzsin qoy çəməni qırqovul, turac,
Dağlarda keşik çək, Vətənə, qartal!

Qartal gəldin, gələndə sən cahana,
Öyünsün qoy səni bəsləyən ana.
Düşmən caynağında boyanar qana,
Dağlarda keşik çək, Vətənə, qartal!

Səfurə, haqq söylər, yazını qoru,
Qartal igidlərin izini qoru.
Nənəm Məhsətinin sözünü qoru,
Dağlarda keşik çək, Vətənə, qartal!

## ÇAYLAR

O qarlı dağlardan baş alıb gələr,
Axar aram-aram arana çaylar.
Can atar qoynuna körpə bulaqlar,
Gərək qətrə-qətrə yarana çaylar.

Gecə-gündüz aram-aram çağlayar,
Ad alar Vətəndən, kəmər bağlayar.
Əski adın ömür boyu saxlayar,
Salar adın şeirə, dastana çaylar.

Suyu abi-həyat, cəvahir, almaz,
Çay axan dərələr dumansız olmaz.
Gözün çən bassa da, yolundan qalmaz,
Düşsə yüz çovğuna, borana çaylar.

Çay çaya qarışar, Kürü soruşar,
Kür Arazla, Araz Kürlə yarışar,
Göy suları göy Xəzərə qarışar,
Necə qucaqlaşar, gör, ana çaylar.

Nə böyükdü göy Xəzərin qucağı,
Səfurə, görünməz ucu-bucağı.
Qoy baxım hüsnünə sona sayağı,
Dönər gözlərimdə ümmana çaylar.

## MEŞƏLƏR

Baxarsan yamyaşıl, sərin, mehirli,
Səni öz qoynuna alar meşələr.
Girərsən içinə sirli-sehirli,
Səni öz qoynuna alar meşələr.

Bu başqa bir aləm, başqa mənzərə,
Bir yan uçurumdu, bir yan dağ, dərə.
Bələdçi cığırlar gül səpə-səpə,
Səni öz qoynuna alar meşələr.

Yanından ya cüyür, ya dovşan qaçar,
Dərələr ağacda min büsat açar.
Rəngbərəng çiçəklər xoş ətir saçar,
Səni öz qoynuna alar meşələr.

Hələ meşələrin talası da var,
Cüyürün yanında balası da var.
Daşların mamırlı qalası da var,
Səni öz qoynuna alar meşələr.

Meşələr əfsunlu, sirli-soraqlı,
Hop-hop quşlarının başı daraqlı,
Lalələr görərsən əli çıraqlı,
Səni öz qoynuna alar meşələr.

Ovçular görərsən marıxda yatmış,
Kəkliklər görərsən al qana batmış,
Dünyanı yaradan belə yaratmış,
Səni öz qoynuna alar meşələr.

Səfurə, qəm gəzmə, gəl, sevinc ara,
Meşədə qonaq ol, buz bulaqlara.
Bulaqda güzgülən, zülfünü dara,
Səni öz qoynuna alar meşələr.

## AYRILIRAM

Bir də görüşümüz yazlara qaldı,
Dağlar, sizdən köçüb, ayrılıram mən.
Göllər ördəklərə, qazlara qaldı,
Dağlar, sizdən köçüb, ayrılıram mən.

Gəldi, görüşümə küləklər tezdən,
Yuyundu, darandı çiçəklər tezdən,
Nə qədər çətindi ayrılmaq sizdən,
Dağlar, sizdən köçüb, ayrılıram mən.

Səfurə, doğmadı hər qaya, hər daş,
Ayna bulaqlardı könlümə sirdaş.
Ürəyim kövrəldi, gəldi gözdən yaş,
Dağlar, sizdən köçüb, ayrılıram mən.

## LEYLASI MƏNƏM

Çoxu Məcnun oldu, səhralar gəzdi,
Sənin də eşqinin Leylası mənəm.
Sən məni görmüşdün bulaq başında,
O gündən könlünün sevdası mənəm.

Gülə baxma, gül diksinər, gül üşər[1],
Yola baxma, kənd qızları gülüşər.
Gölə baxma, çolpa qazlar ürküşər,
O gölün  yaşılbaş sonası mənəm.

Boylananda, yenə boylan sən mənə,
Hüsnüm yaraşıqdı gölə, çəmənə.
Gözəl oğul-qızlar böyütdüm sənə,
Altı övladının laylası mənəm.

Mən səni həmişə özüm bilmişəm,
Xalq incisi yaza-yaza gəlmişəm,
Nağıllar içində sehirlənmişəm,
Möcüzəli nağıl dünyası mənəm.

Bilirəm gəncliyim bu dağlardadı,
Məhəbbətin məndə, uşaqlardadı.
Səfurə bilir ki, qəlbin hardadı,
Sərvan ürəyindir, anası mənəm.

## SƏHƏR-SƏHƏR

Hər gələn səhərin öz mənası var,
Oyan,  belə yatma, dur, səhər-səhər.

---

[1] Gül üşər – «gül üşüyər» mənasında işlənib.

Bağçamızda ötər sona bülbüllər,
Hər nəğmə bir inci,  dürr səhər-səhər.

Ərikdən,  alçadan ağ yağış yağar,
Lalə köynəyinə ağ sədəf yığar,
Güldə şəbnəm görəmməzsən gün çıxar,
Könlünü güllərə ver, səhər-səhər.

Səfurə, yazımız belə yazlanar,
Bülbül ötər, qızılgüllər nazlanar.
Gül içində gəncliyimiz gizlənər,
Gülü gözdən qoyma,  dər, səhər-səhər.

## CEYRAN NƏDİR Kİ

Bu ceyran qızlara «Ceyran» deyərlər,
Qızların yanında ceyran nədir ki?
«Olmuşam hüsnünə heyran» deyərlər,
Qızların yanında ceyran nədir ki?

Yerişə bax, duruşa bax, ilahi!
Sən qızdakı gülüşə bax, ilahi!
Həsəd çəkir bənövşə, bax, ilahi!
Qızların yanında ceyran nədir ki?

Bir baxışı yüz ceyrana əvəzdi,
Qızların qəmzəsi canımı üzdü,
Səfurə, qız ki var, hər fəsil yazdı,
Qızların yanında ceyran nədir ki?

## QIZLAR

Layla anaların könül səsidi,
Övladı laylasız böyüтмən, qızlar!
Layla anaların gül nəfəsidi,
Övladı laylasız böyütmən, qızlar!

Laylalı beşiklər asta yırğanar,
Sizin laylanızdan nəğmə yaranar,
Körpələr qımışar, yatar, oyanar,
Övladı laylasız böyütmən, qızlar!

Əyləş, cavan ana, beşik başında,
Nələr var körpənin gör, baxışında,
O sənin dünyandır, durur qarşında,
Övladı laylasız böyütmən, qızlar!

## GƏLMİŞƏM

A Dərbənd dağları, Dərbənd qalası,
Doğma yurdum, görüşünə gəlmişəm.
Qalalar boy-boya, Koroğlu təki,
Baxın, məğrur duruşuna gəlmişəm.

Azmı gəzdim dağ-dərəmi, düzümü?
Nədən səndən çəkəmmirəm gözümü?
Yağışında qoy isladım üzümü,
Göy Xəzərim, yağışına gəlmişəm.

Şair Qumrumuzdu yaddaşda qalan,
Tutu Bikəmizdi xatirə olan.
Səfurə, Dərbəndin qoynunu dolan,
Mən anamın ağuşuna gəlmişəm.

## GETDİ

### *(Aşıq Nabatın ölümünə)*

Mənim Nabat xalam,  Parçı gözəli,
Bülbül tək avazı xoş oldu, getdi.
Ürəklərdə heykəl qoydu, iz qoydu,
Sənət üzüyünə qaş oldu, getdi.

Uçdu dünyasından, uçdu bir mələk,
Sənətkara layiq iş tapam gərək.
«Gəlin qayası» tək heykəlləşərək
Birdən qayalaşdı, daş oldu,  getdi.

Qumrutək xoş ləhcə-zəban bilirdim,
Sənətdə bir dünya, cahan bilirdim,
Səfurə, gözümdə ümman bilirdim,
Gözümdə bir damla yaş oldu,  getdi.

## GÖRÜNMƏZ

Soruşuram səndən Damcılı bulaq,
Sarıtel xanımın hanı,  görünməz?
Qaymaq çiçəyini bəs kim dərəcək?
Sarıtel xanımın hanı, görünməz?

Məktubu qoynunda bükülü qaldı,
Gözlərinin suyu tökülü qaldı,
Nə özü, nə də ki, şəkili qaldı,
Sarıtel xanımın hanı, görünməz?

Bulaq, gəlib yarın səndə gördümü?
Şehli-şehli güllərini dərdimi?

Səfurəyəm artırıbsan dərdimi,
Sarıtel[1] xanımın hanı, görünməz?

## ŞUŞA

Yada düşdün,  könlüm qəmə büründü,
Niyə düşdün, bizdən aralı, Şuşa?
Öz içimdə duyğularım çırpınar,
Qəlbimiz quş kimi yaralı, Şuşa.

Qala qapıların,  tağların hanı?
Qumrular ötüşən bağların hanı?
Bizə «gəl, gəl», deyən dağların hanı?
Göy otlar gözümdə saralı, Şuşa.

Boyat qapısından çıxsın soydaşım,
Dağlar gözəliylə mən qucaqlaşım.
Səfurə, doğmayam, necə yadlaşım?
Sənsiz məzarım da qor oldu, Şuşa.

## QOŞQARIM

Səcdəndə dayanıb gör neçə dağlar,
Başı buludlara dəyən Qoşqarım.
Səndə gəzib Koroğlular, Nəbilər,
İgidlər bəsləyib, öyən Qoşqarım.

«Gəl, gəl» deyir, Bayda bulaq, gülür dağ,
Sona təki cilvələnir Qırxbulaq,
Laləzar qoynundan olmur ayrılmaq,
Çiçəklərə yüz ad deyən Qoşqarım.

[1] «Mirzə Səməd və Sarıtel» dastanını xatırlayır.

Səfurə,  bürüyüb lala dağları,
Nuhun yadigarı qala dağları,
Sən qoyma pərişan qala dağları,
Düşməni sındırıb,  əyən Qoşqarım.

## ÇOBANDAĞI

Gəlmişəm qoynuna bir nazlı pəri,
Mənim salamımı al, Çobandağı.
Gəlir meşələrdən hop-hopun səsi,
Eyləyib bülbülü  lal, Çobandağı.

O görünən lalədimi,  güldümü?
Gəlişimi kəkliklərin bildimi?
Ayna sular bulaqdımı, göldümü?
Axar meşələrdən bal, Çobandağı.

Səndədimi,  «Cavad-Xırda»[1] dastanı?
Başlanıb onların burda dastanı,
Tapşırıb getdilər yurda dastanı,
Onları da yada sal, Çobandağı.

Səadətdən[2] danışsam qanın qaralar,
Yayda dağlarını qırov, qar alar,
Dilqəm ağlar, ürəyimi yaralar,
Hərdən bir «Dilqəmi» çal,  Çobandağı.

Səfurəyəm, sənə deyim sözümü?
Meşələrdən çəkəmmədim gözümü.

---

[1] Bir-birini sevən iki gəncin nakam məhəbbətindən bəhs edən, Gəncəbasarda məşhur dastandır.
[2] «İsmayıl və Səadət» dastanının qəhrəmanı.

Kim axtarsa səndə tapar izimi,
Sən bir sirr dağısan, bil, Çobandağı.

## PALTAR ZAĞASI

Lalə qızın ocaq çatdı, su qoydu,
Yudumu üst-başın Paltar zağası?
Boylandı dünyaya bir mələk kimi,
Gördünmü göz-qaşın Paltar zağası?

Sənsən Pirsultanın sənsən bir yanı,
Sənsən bu dağların ləli, mərcanı.
Mat qoyarsan, sehirlərsən insanı,
İncidi hər daşın Paltar zağası.

Səfurə, gör nələr gəldi xəyalə,
Şahin dimdiyində qızıl piyalə,
Qalxdı zirvələrə, ağladı Lalə[1],
Axıtdı göz yaşın, Paltar zağası.

## AY QARA DƏNİZİM, AY QARA GÖZLÜM

Uçum qağayı tək qoynunu gəzim,
Ay Qara dənizim, ay qara gözlüm.
Gəlsin görüşümə Sinopə[2] qızın,
Ay Qara dənizim, ay qara gözlüm.

Ruzigar darıxar ona dəyməmiş,
Darayar saçını şana dəyməmiş,

---

[1] Pirsultan dağında «Paltar zağası» adlı yerlə bağlı bir əfsanənin qəhrəmanıdır.
[2] Şeir Sinopə əfsanəsindən qaynaqlanıb.

Ağca əllərinə həna dəyməmiş,
Ay Qara dənizim,  ay qara gözlüm.

Görünsün Sinopən, yarılsın dəniz,
Ayna bulaqlartək durulsun dəniz.
Səndə bir toy-düyün qurulsun dəniz,
Ay Qara dənizim, ay qara gözlüm.

Dənizdən çıxanda Sinopə bacım,
Gərək hörüklərim çinbəçin açım,
Tökülsün üstünə şəlalə saçım,
Ay Qara dənizim, ay qara gözlüm.

Özü ay parçası, qaşı hilalmı?
Yoxsa ki,  Sinopən dərdmi, məlalmı?
Yoxsa, bir əfsanə, o bir xəyalmı?
Ay Qara dənizim, ay qara gözlüm.

Türk yurdunun ürəyisən, gözüsən,
Su – həyatdır,  sən həyatın özüsən,
Səfurənin nəğməsisən, sözüsən,
Ay Qara dənizim, ay qara gözlüm.

## QAŞQAÇAYDADI

Həsənnənə, Həsəndədə dağları,
Aslanlı qayalar Qaşqaçaydadı.
Qaçaq Mehrəlinin gəzdiyi yerlər,
Qəhrəman obalar Qaşqaçaydadı.

Ağqayadı Koroğlunun qayası,
Qüdrətdən yapılıb bürcü-binası,

Qurtarmayıb Koroğlunun davası,
Səngərlər, qalalar Qaşqaçaydadı.

Səfurə, dünyanın öz ahəngi var,
Burda təbiətin min bir rəngi var,
Sular qandı, Ur dağında cəngi var,
Qoç igid balalar Qaşqaçaydadı.
5.05.1994

## DİLQƏM BULAĞI

Bulaqdan yanıqlı, qəmli səs gəldi,
Dedilər, bu bulaq Dilqəmdən qalıb.
Bulağın gözünə quşlar töküldü,
Dedilər, bu bulaq Dilqəmdən qalıb.

Bulağın daşında yoxdu bir yazı,
Durnanın gözündən durudur gözü,
Bulaq bir şairdir, tükənməz sözü,
Dedilər, bu bulaq Dilqəmdən qalıb.

Gəzib bu yerləri telli sonası,
Başda toy yaylığı, əldə xınası,
Meşə daraq olub, bulaq aynası,
Dedilər, bu bulaq Dilqəmdən qalıb.

Telli burdan gedib, Kür yaxasından,
Tökülüb bulağa dürr yaxasından,
Heç tutan olmayıb bir yaxasından,
Dedilər, bu bulaq Dilqəmdən qalıb.

Səfurə, dolandım, gəzdim ormanı,
Bir də vərəqlədim qəmli dastanı,

Bu «Dilqəm bulağı», bəs yurdu hanı?
Dedilər, bu bulaq Dilqəmdən qalıb.

## NECƏDİR

Xeyli vaxdı o yerlərə həsrətəm,
Noylu bulağımız necədir, ana?
Qayasından kəklikotu yığdığım,
Pirsultan dağımız necədir, ana?

«Göl yeri»ndə alaçıqlar qurular,
Dürlü bulaq səhər-səhər durular.
Qəfliotu şehli-şehli dərilər,
Güllü yaylağımız necədir, ana?

Şan balını arı çəkər çiçəkdən,
Beçə balı süzüldümü pətəkdən?
Nə qalıb qoyundan, sağmal inəkdən?
Pendir, qaymağımız necədir, ana?

Hərdən çıxarsanmı Murğuzallara?
Xatırlarsan məni, baxıb yollara,
Salam de, qızından bizim ellərə,
Oba-oymağımız necədir, ana?

Ağqaya dumandan cunalanıbmı?
Çal daşlar göyərib xınalanıbmı?
Körpə qızlarımız sonalanıbmı?
Xına yaxmağımız necədir, ana?

Yurd yerində qoyun-quzu mələşər,
Qoç igidlər Baladüzdə güləşər.

Kənd qızları kim yıxılsa gülüşər,
Vurub-yıxmağımız necədir, ana?

Səfurə, dağlarım çiçəkdi, nurdu,
Gözlərim önündə Daşlıdağ durdu.
Gəlintək bəzənər Sarovun yurdu,
Eyvan-otağımız necədir, ana?

## BİLMƏZ

Vətən qorunmasa, yurd qorunmasa,
Güllü yaylaqlara el gələ bilməz.
Qoyun otlamasa, dəryaz dəyməsə,
Otlu çəmənlərdən sel gələ bilməz.

Mən istərəm dağlarımız var ola,
İstərəm, zirvələri qar ala,
Min dəfə gül aça, min yol sarala,
Əlçatmaz dağlardan gül gələ bilməz.

Səfurə, olmasın quş da vətənsiz,
Qaya da vətənsiz, daş da vətənsiz,
Çəkəmməsək keşiyini, «Vətən», biz,
«Övladam» deməyə dil gələ bilməz.

## BU DAĞLARDADI

Bağlanma arana, yaylaqlara gəl,
Dünyanın səfası bu dağlardadı.
Bir qüvvə yox, səni orda saxlasın,
Könlünün sonası bu dağlardadı.

Qayalardı sənin ana beşiyin,
Dəli Qoşqar az çəkməyib keşiyin,
Hər yan qohum-qardaş, evin-eşiyin,
Ananın laylası bu dağlardadı.

Səfurə, çağırır, gəl, yaylağa gəl,
Yaylaqların gözü Xoşbulağa gəl,
Gül-çiçək ətirli bal-qaymağa gəl,
Hər dərdin dəvası bu dağlardadı.

## YANA-YANA

Uçurarsan tərlanını əlindən,
Gəzərsən dağları ha yana-yana.
Alışarsan, odlanarsan dilindən,
Gəzərsən dağları ha yana-yana.

Ovun gəlib bərəsiynən keçər ha,
Xallı ceyran dərəsiynən keçər ha,
Sona kəklik fərəsiynən keçər ha,
Gəzərsən dağları ha yana-yana.

Boylanarsan, gözü daşda qalarsan,
Yaz-yay nədi, hələ qış da qalarsan,
Bu ağılla əli boşda qalarsan,
Gəzərsən dağları ha yana-yana.

## ALMISAN

Aləm vəcdə gəlir səni görəndə,
Sən bu gözəlliyi hardan almısan?

Bülbül dil-dil ötür, kəklik səyriyir,
Yəqin xoş ləhcəni burdan almısan.

Dodaqlardı qaymaq, dilin şan balı,
O zərif tellərin şair xəyalı.
Qüdrət özü verib bu Ay camalı,
Yanaqdakı rəngi hardan almısan.

Gözlərindi ala, dolu piyalə,
Səfurə heyrandı bu xətti-xala,
Qız, nədən qəşəngsən bu qədər belə?
Üzdəki işığı nurdan almısan.

## İNSAN ƏLLƏRİ

Göygölümü naxış-naxış köçürüb,
Möcüzə yaradıb insan əlləri.
Xalısında göy çinarlar bitirib,
Möcüzə yaradıb insan əlləri.

Kəpəzin üstündən durnalar keçir,
Ayrılmır durnadan bulud da köçür,
Bir dağ çeşməsindən maral su içir,
Möcüzə yaradıb insan əlləri.

Ağsuya tökülən ağ qazlara bax,
Körpə ceyranlara, o qızlara bax,
Ağ gülə bənzəyən ulduzlara bax,
Möcüzə yaradıb insan əlləri.

Gözümdədi gözəlliyin aynası,
Yaddaşımda Fatma nənə hanası.

Bu xalının yeddi rəngdi boyası,
Möcüzə yaradıb insan əlləri.

Ay Səfurə, belə xalı yoxudu,
Bu xalını hansı gözəl toxudu?
İlmələri tər bənövşə qoxudu,
Möcüzə yaradıb insan əlləri.

## DÜŞÜB

Bulud kimi kövrəlmişəm, dolmuşam,
Yenə də könlümə Sarıtel düşüb.
Ötən telli sazdı, tardı, kamandı?
Simlər arasına sarı tel düşüb.

Bu səs yaxındadı, ya uzaqdadı?
Eşqin macərası bir bulaqdadı.
Mirzə Avey dağın dolanmaqdadı,
Yar gələn yollara sarı tel düşüb.

Səfurə, qoy səsin səsimə qatsın,
Qarşıdakı o dağları oyatsın,
Lütviyyəmiz, bəmi, zili düz tutsun,
Bilsin ki, yadıma «Sarıtel» düşüb.

## MƏN HARDAN TAPIM

Sarıtel istəmiş qaymaq çiçəyin,
Yoxdursa çəməndə, mən hardan tapım?
Olmazmış kənara qoymaq çiçəyin,
Yoxdursa çəməndə, mən hardan tapım?

Deyirlər, bürüyüb lala dağları,
Taxça-taxça, tala-tala dağları,
Lap deyək, tutubdu gülə dağları,
Yoxdursa çəməndə, mən hardan tapım?

Ağlasın doyunca Damcılı bulaq,
Yansın ulduzları qoy çıraq-çıraq,
Qaymaq çiçəyindən versinlər soraq,
Yoxdursa çəməndə, mən hardan tapım?

Arayım, axtarım sevdalı gülü,
Ağ yaylaq içində butalı gülü,
Mirzəni öldürən xatalı gülü,
Yoxdursa çəməndə, mən hardan tapım?

Səfurə, gül gəzim, yoxsa can gəzim?
Ağlayır gözümdə bir cahan, gəzim,
Yoxsa, Sarıteltək bir canan gəzim,
Yoxdursa çəməndə, mən hardan tapım?

## NAKAM QIZ

***(Baldızım Sənubərə)***

Bu dünyadan niyə vaxtsız köçdün sən,
Niyə gəldin, niyə getdin, nakam qız?!
Əcəl şərbətini birdən içdin sən,
Niyə gəldin, niyə getdin, nakam qız?!

Çiçək olub bir çəməndə bitmədin,
Bülbül olub bir bağçada ötmədin,
Əldə xına gəlin toyu tutmadın,
Niyə gəldin, niyə getdin, nakam qız?!

Cəfalarla böyümüşdün atasız,
Köçdün bu dünyadan yarsız-butasız,
Dünyamı vəfasız, sənmi vəfasız?
Niyə gəldin, niyə getdin, nakam qız?!

## GÖRMÜŞƏM

Uğurlu Salmanla şair Cavadı,
Onları meydanda qoşa görmüşəm.
Sədəfli-sədəfsiz saz əllərində,
Deyişiblər coşa-coşa, görmüşəm.

Salman coşa-coşa, Cavad sərindən,
Salman ustadından, Cavad pirindən,
Cavad qaya kimi qopdu yerindən,
Sazlı-sözlü bir tamaşa görmüşəm.

Hərbə-zorba, yarış, döyüş, nə isə,
Saz səsinə el yığıldı məclisə,
Qoymayıb inciyə, dostları küsə,
Süfrə açıb Sədnik Paşa, görmüşəm.

## SƏNİNDİ

Oğlan, çap atını cövlana gətir,
Cıdır meydanında nəmər sənindi.
Burax atın başın, yalmanına yat,
Qeyrət kürənindi, hünər sənindi.

Gəlir dəstə-dəstə kənd gözəlləri,
Külək əsir, yel dağıdır telləri,

Qız evində xınalanıb əlləri,
Qızların içində Ülkər sənindi.

Çalış, kəs mənzili birinci qayıt,
Canına cəfa bas, birinci qayıt,
Qələbə gözləyir bir inci qayıt,
Qız görsün bu toyda zəfər sənindi.

## MƏKTUBLAR

Həsrət ürəklərə bir təsəllisən,
Diyari-qürbətdən gələn məktublar.
Məzmunun əsrarlı, özün məzmunlu,
Diyari-qürbətdən gələn məktublar.

Məktub gəlib ünvanına yetişdi,
Oxuduqca sətirlərə şeh düşdü.
Bu nə ayrılıqdı, nə də görüşdü,
Diyari-qürbətdən gələn məktublar.

Qərib eldən yadigardı qəm səndə,
Çox arzular, çox diləklər cəm səndə,
Təskinlik çox, təkcə sevinc kəm səndə,
Diyari-qürbətdən gələn məktublar.

Qərib eldən yüz yazasan düzünü,
Mən ki, sənin görəmmirəm üzünü,
Alır zaman ömrümüzün yazını,
Diyari-qürbətdən gələn məktublar.

Ay Səfurə, ayrılıqlar sovuşsun,
Çox həsrətlər mən istərəm qovuşsun,

Bu sevincdən könüllərə gün düşsün,
Diyari-qürbətdən gələn məktublar.

## CÜYÜR BALASI

Meşə talasında tənha qalmısan,
Sənin anan hanı, cüyür balası?
Bu baxışı ceyrandanmı almısan?
Sənin anan hanı, cüyür balası?

Öz talandı, sakit otla, mələmə,
Ovçu duyuq düşər, onu eləmə!
Ağ gülləri, gəl, sən qana bələmə,
Sənin anan hanı, cüyür balası?

Quzum, səksəkə var, ormanlığa get,
Az olar ovçuda insaf, məhəbbət.
Qəlbi yoxa qənim olsun təbiət,
Sənin anan hanı, cüyür balası?

Bu talanın bəzəyisən, gözüsən,
Bu talanın təzə gəlmiş yazısan,
Çox körpəsən, hələ əmlik quzusan,
Sənin anan hanı, cüyür balası.

# DÜZGÜLƏR

## TALEYİMİN GÜZGÜSÜ

Taleyimin güzgüsüdü,
Bu qəlbimin öz səsidi.
Bayatımdı,  həyatımdı,
Quş qanadlı nəğmələrim.

Qırx bulaqtək suyu təmiz,
Kəlmələri candan əziz.
Bayatımdı, həyatımdı,
Quş qanadlı nəğmələrim.

Damcı-damcı pətək balı,
Al yanağın qara xalı.
Bayatımdı,  həyatımdı,
Quş qanadlı nəğmələrim.

## SONALAR BULAĞI

Ellər gəzən yaylaqları,
Gördüm,  Sonalar bulağı.
Şehli-şehli güllərini,
Dərdim, Sonalar bulağı.

Bənövşəli meşələrə
Girdim, Sonalar bulağı.
Hop-hoplarla ülfətimi
Qurdum, Sonalar bulağı.

Çobandağından Sədəti
Sordum,  Sonalar bulağı.
Yəqin sənsiz çoxalardı
Dərdim, Sonalar bulağı.

Ürəyimi sən bulağa,
Verdim, Sonalar bulağı.
Saçlarıma lalə, nərgiz
Hördüm, Sonalar bulağı.

Çıxdım Göyçə baxarına,
Durdum, Sonalar bulağı.
Dünyanın üzük qaşıdı,
Yurdum, Sonalar bulağı.

## CİLVƏLƏNDİ

Meh zülflərə şana çəkdi,
Cığa tellər cilvələndi.
Ala gözlər,  qoşa bulaq,
Axdı,  göllər cilvələndi.
Seyrə çıxdı Qızbənövşə,
Baxdı,  güllər cilvələndi.
Bülbül qondu qızılgülə,
Yaşıl kollar cilvələndi.
Ay Səfurə, nə xoş andı,
Aylar,  illər cilvələndi.

## ŞIR-ŞIR

Kəkliklər səndən su içər,
Ağ qazlar səndə üzüşər.

Sənin büllur şəlalənə,
Göydən qızılı gün düşər,
Şıltaq, dəcəl damcıların,
Gül-çiçəklərlə öpüşər.
Öpüşər, Şır-şır, ay Şır-şır.
Ömrün bu qızıl anları,
Ötüşər, Şır-şır, ay Şır-şır.

Əgər ki, bu gözəlliyi,
Bir kimsə gəlib görməsə,
Dağlar gündə min gül açsın,
Yerə-göyə işıq saçsın,
Gözəllər onu dərməsə,
Şehli-şehli o gülləri,
Yara ərməğan verməsə,
O güllərin qiyməti nə?
İnsansız torpağın, daşın,
Hörməti nə, ülfəti nə?

A Qoşqarım, dik tut başın,
Yaşıl dərələr qoynunda,
Alagöz pəridi Şır-şır,
Belə gözəllərin çoxdu,
Onlardan biridi Şır-şır.
Şır-şırımsan, ay Şır-şırım,
Qoy sənə bir tərif verim,
Yaz oyanıb yazlanarsan,
Yayda belə nazlanarsan,
Payız səni mürgü alar,
Qışı görüb buzlanarsan,
Dəyişər halların, Şır-şır,
Buz olar  tellərin, Şır-şır.

## DAĞLAR

Sona kimi sularında,
Eyləmişəm naz, ay dağlar.
Güneyyurdda, Daşlıdağda,
Gül dərmişəm yaz, ay dağlar.
O kəklikli dağlarına,
Çox qoşmuşam söz, ay dağlar.
Bir gün səndə görünməsəm,
Ayrılığa döz, ay dağlar.
Dünya ki, var, sən də varsan,
Gedərgiyik biz, ay dağlar.
Saxla Səfurə adını,
Ürəyinə yaz, ay dağlar.

## QƏMLİ, QƏMSİZ

Yolda iki ana gördüm,
Biri qəmli, biri qəmsiz.
Göldə bir cüt sona gördüm,
Biri qəmli, biri qəmsiz.
Bulaqda iki qız gördüm,
Biri qəmli, biri qəmsiz.
Yan-yana iki göz gördüm,
Biri qəmli, biri qəmsiz.
Təpədə cüt çiçək gördüm,
Biri qəmli, biri qəmsiz.
Həlim iki ürək gördüm
Biri qəmli, biri qəmsiz.
Yanaşı cüt qardaş gördüm,
Biri qəmli, biri qəmsiz.
Aralı iki daş gördüm,
Biri qəmli, biri qəmsiz.

Mən bu həqiqəti duydum,
Qələmimi yerə qoydum.
Qəmlə sevinc ekizdi,
Yəqin gecə-gündüzdü.

## DƏLİ ÇAY

Yağdımı göllənər, daşar,
Körpünün üstündən aşar,
Dəlidi bizim çay.

Qoymaz ki, o taya keçək,
Noylu bulaqlardan içək,
Dəlidi bizim çay.

Suyu boz bulanlıq axar,
Yaşıl söyüdləri yıxar,
Dəlidi bizim çay.

Quzular o tayda qalar,
Kəndimizə şivən salar,
Dəlidi bizim çay.

Nə gündüzlər səsi batar,
Nə də gecələr yatar,
Dəlidi bizim çay.

## YURD YERİ

Yaz yaylağa köçəndə,
Sevincim aşar-daşar,
Yurd yeri.

Payız dağdan dönəndə,
Qəlbimə qəmlər qoşar,
Yurd yeri.

Yox, yox necə olsa da,
Qəlbim qəmlə dolsa da,
Unudulmaz yurd yeri.

## OĞLAN
***(zarafat)***

Yarın yaylaqda qalıb,
Aranda qalan oğlan.
Heç yadına düşmürmü,
Boranda qalan oğlan?
Gümüş tellidən yazıb,
Goranda qalan oğlan,
Sərin sulara həsrət,
Şoranda qalan oğlan.

## QIRMIZI

Dağ başında yandı fəcrin tonqalı,
Göründü üfüqlər lalə qırmızı.
Ağ buludlar Günəşinmi xəyalı?
Dönüb oldu tala-tala qırmızı.
Qızılı rəng aldı dağ, dərə ondan,
Kölgə saldı çaya, gölə qırmızı.
Ağ bulud mayası, Günəş ziyası,
Bir lövhə yaratdı belə qırmızı.
Laləliyə döndü çeşmələr başı,
İşıq düşdü sağa-sola qırmızı.

Daşbulaqdan su götürən gözəllər,
Sonatək düzüldü yola qırmızı.
Boya çəkdi Günəşin son zərrəsi,
Ağ köynəyə, qara xala qırmızı.
Şər qarışcaq özün çatdırdı axşam,
Yoxa çıxdı, bala-bala qırmızı.
İçəmmədik, bulaq, sənin suyundan,
Əldə qaldı, boş piyalə qırmızı.
Səfurə, deyirəm, nazlı dağlardan,
Gəl, ayrılaq gülə-gülə qırmızı.

## DAĞ GÖLÜ

Göy gölüm Kəpəzin, sənsə Qoşqarın,
Qucağında bir pərisən, dağ gölü.
Səni görən camalına bənd olur,
Könüllərin ülkərisən, dağ gölü.
Suyun gəlir Böyük, Bala Qoşqardan,
Sən qırx qızın göz yaşısan, dağ gölü.
Nərgizlidə çiçək donlu gözəlin,
Güzgüsüsən, daş-qaşısan, dağ gölü.
Bölük-bölük ördəyə bax, qaza bax,
Cilvələnən yüz sonan var, dağ gölü.
Ağ balığın şəfəqlərlə oynaşar,
Özün boyda bir dünyan var, dağ gölü.

## AĞ YAĞIŞ

Ağ buluddan ələnər,
Gör necə cərgələnər.
Göydə nura bələnər,
İncitək səpələnər,

Düzə yağar ağ yağış,
Dağa yağar ağ yağış.
O yağar həzin-həzin,
Baxdıqca oxşar gözün.
Yağışların quzusudu,
    Ağ yağış.
Göy otların arzusudu,
    Ağ yağış.
Demək olmaz göz yaşıdı,
    Ağ yağış.
Təbiətin alqışıdı,
    Ağ yağış.
Mirvaritək başımızdan yağ,  yağış!
Büllur yağış, nurlu yağış, ağ yağış.

## AĞ BULUDLAR

Göy üzündə, göy üzündə,
Qəndillərdən asılıbdı,
Ağ buludlar topa-topa,
Az qalır göylərdən qopa.
Göy təpələr, özün gözlə,
Göy təpələr, gözün gözlə!

## ŞƏMŞİR ATA

Heç kəs səni unutmaz,
Unutmaz, Şəmşir Ata.
Bunu mən qızın deyir,
Tək gəlmişdin həyata.
Sözlərin xama, qaymaq,
Şirin şəkərdi qatı.

Söylə, olarmı doymaq?
Hər sözün bal, bayatı.
Nəğmələrin bir bulaq,
Gör, necə pıçıldaşır?!
Onları eşitdikcə,
Qəlbim qaynayır-coşur.
Siz demişsiz: dağlara,
Nərgiz qımışanda gəl!
Gülə şeh düşəndə gəl.
Dağların nə ləzzəti,
Bülbülsüz-nəğməkarsız?
Hər vaxt «dağlar» deyəndə,
Yaddaşımda siz varsız.

## MƏN

Bağça-bağam mən,
Bir bulağam mən.
Öz çəmənimlə,
Axasıyam mən,
Hiss etsəz yoxam,
Ağ yağış olub,
Yağasıyam mən.
Bir nəğməmlə də,
Olasıyam mən.
Saf ürəklərdə
Qalasıyam mən.

## DÜNYA

Uşaqlığında
Noğuldu dünya.

Gəncliyindəsə,
Oğuldu dünya.
Ahıl dünyasında,
Ağıldı dünya.
Nənə ki, oldun,
Nağıldı dünya.

## NƏVƏLƏR

Tanrı vermiş nəvə payım,
Gəlişiniz bayram-toyum.
Şirin-şəkər balalarım,
Gərək sizi bir-bir öpüm.
Samir, Sübhan dağlarımdı,
Elmir, Mahir vüqarımdı,
Zümrüdüm yaz bənövşəsi,
Vüsalə dağlar qarımdı.
Vüsal mənim xan çinarım,
Sədvar təzə nübarımdı.

## BULAQ

Məhəbbət gözümdədi,
Əhdi-peymanım bulaq.
Gəlib səndən su içib,
İsmi-pünhanım, bulaq!
Gözlərinə çökməsin,
Çənim, dumanım, bulaq!
Güzgülənim gözündə,
Ləlim, mərcanım, bulaq!
İlk eşqi, ilk sevdanı,
Qoy bir də anım, bulaq!

Mən gəncliyə qayıdım,
Gəzim, dolanım bulaq!

## BEŞ DAŞ

Nəvənin ad günüdü,
Nəvənin şad günüdü.
Adamlar dəstə-dəstə,
Gəzir xalılar üstə.
Hər əldə bir ərməğan,
Oyuncaq, kişmiş, noğul,
Bir əldə kitab-nağıl.
Hər kəs:- Al, deyir, oğul.
Növbə nənəyə çatdı,
Əlin cibinə atdı.
\- Ay mənim əziz nəvəm,
Əzizdən əziz nəvəm,
Tamam olur beş yaşın,
Bu da sənin beş daşın.

## KÜLƏK

Hardan-hara qaçırsan?
Quştək qanad açırsan,
Daşa dəy, qayalan, külək!
Sən bağlı qapıları açarsan,
Dəli-dəli tərpənmə!
Gözəllərin yaxasını açarsan,
Daşa dəy, qayalan, külək!
Yavaşı, bir dayan, külək!
Abırlan, həyalan, külək.

## SELİN GÜCÜ, GÖLÜN GÜCÜ

Dağdan gəlir dağ kimi,
Sən selin gücünə bax!
Söyüd kökündən çıxıb,
Görünür yarpaq kimi.
Daşlar bel-belə minir,
Palçıqlı torpaq kimi.
Sən selin gücünə bax!
Dərələrə səs salıb,
Təpələrə boy verir,
Sən selin gücünə bax!
Quşlara qan-qan deyir,
Kim görür, «aman» deyir.
Sən selin gücünə bax!
Bir əjdaha göl çıxır,
Çıxır sel qabağına,
Sel düşür ayağına.
Seli salır girdaba,
Sən gölün gücünə bax!
Burum-burum burulur,
Selin burnu qırılır,
Sən gölün gücünə bax!
Göl yanı el yoludu,
Dağların gül yoludu.
Adı da Çoban gölü,
Beləcə boğur seli,
Sən gölün gücünə bax!

## YARPAQDI KÖNÜL

Qüzeyində qar görünür,
Güneyində yar görünür,

Zirvəsində
Topa buludlar görünür,
Dağdı könül.
Buludundan leysan yağar,
Gah da ki, narın çiçəklər,
Suda yuyunar çiçəklər,
Dağdı könül.
Zamanı yox, rüzgardı,
Bəzən yayı da qışdı,
Qışısa bir bahardı.
Sevincə də, qəmə də,
Bütününə
Ortaqdı könül.
Bəzəkli otaqdı könül!
Bəzən budağında qalmaz,
Bir yaşıl yarpaqdı könül!

## BƏYAZ GÜLLƏRİM

Suya düşmüş Aydımı,
Mənim bəyaz güllərim?
Bir ağ kəlağaydımı,
Mənim bəyaz güllərim?
Çəməndə ağ qazdımı,
Mənim bəyaz güllərim?
Bir ala göz qızdımı,
Mənim bəyaz güllərim?
Telində əl gəzdimi,
Mənim bəyaz güllərim?

## YASƏMƏN

Bənövşə təzəcə gözün açanda,
Baharın gəldiyin bilər yasəmən.
Əzəl sünbülləri tu murcuq bağlar,
Ağ-göy çiçək açar, olar yasəmən.
Otlar, bağlar, sular ondan rəng alar,
Olar bağ-bağçalar, sular yasəmən.
Gül ətri bir yana, göy quşlar kimi.
Gözümdə, könlümdə qalar yasəmən.

## TORAĞAY QUŞUM

Mənim torağay quşum,
Ötər bahar, yay quşum.
Yer biçənək, göy ayaz,
Buludlar bəyaz-bəyaz,
Ay da doğub bir yanda,
Ağ qəndillər asılıb,
Göz vurur asimanda.
İlhama gəl, qəşş elə,
Sən, gəl, oxu nəğməni
Bu dağlara yay quşum,
Mənim torağay quşum.

## ÇAY QUŞUM

Çay quşum, çaylaq quşum,
Çaylağı yaylaq quşum.
Uca qala, qəsrdi,
Gözündə çaylaq daşım.

## MEŞƏ XORUZU

Tapan meşələrində
Gecəyarı banlarsan.
Səhvin sonra anlarsan,
Öz-özünü danlarsan,
Boğazını qanlarsan,
Ötmə, meşə xoruzu!
Birdən düşərsiz bəhsə,
Verərsiniz səs-səsə,
Etmə, meşə xoruzu!
Gözəlliyin qənimi,
Bir solaxay ovçu var,
O, səndən xəbər tutar.
Bilməz ki, bir dünyasan,
Görsə ağzı sulanar,
İştahlanar, dillənər:
- Nə yeməli çolpasan?
İnanma ki, qaçasan
Ötmə, meşə xoruzu!
Daş qəlbə güllə dəysin,
Axı necə deyəsən:
«Ötmə, meşə xoruzu?!»

## QUZUM

Çəməni gəzər quzum,
Çəməni bəzər quzum,
Gah otlar, gah boylanar,
Anasın gözlər quzum.
Anan tez gələr, quzum,
Üstünə mələr, quzum,
O qara gözlərini,
Duz kimi yalar, quzum.

# MÜXTƏLİF ŞEİRLƏR

## ÜRƏYİM

Kimə qaldı, Keyti, Mehdi dağlarım,
Yaşıl meşələrim, buz bulaqlarım?
O yerlərdə keçib cavan çağlarım.
Dərilməmiş qaldı gülüm-çiçəyim,
Yaralandı, göz-göz oldu ürəyim.

Qoçdaşım var, Dəlidağdan yuxarı,
Taxta yaylağının axar-baxarı,
Tərtərimin layla çalan axarı,
Dərilməmiş qaldı gülüm-çiçəyim,
Yaralandı, göz-göz oldu ürəyim.

A daşı, qayası xınalı dağlar,
Zirvəsi dumandan cunalı dağlar,
Çayları, gölləri sonalı dağlar,
Dərilməmiş qaldı gülüm-çiçəyim,
Yaralandı, göz-göz oldu ürəyim.

Ağçınqılım, Təkə qayam, nə hallı?
Löy qalası, Tutqu çayım xəyallı,
Arı pətəkləri xam beçə ballı,
Dərilməmiş qaldı gülüm-çiçəyim,
Yaralandı göz-göz oldu ürəyim.

Daşlardan tökülən şəlalə hanı?
Dağ döşündə yanan o lalə hanı?
Səfurəni salıb xəyala, hanı?

Dərilməmiş qaldı gülüm-çiçəyim,
Yaralandı, göz-göz oldu ürəyim.

## DURURMU

O Miskin ocağı, Aydının bağı,
Durursa, bir xəbər verin, durnalar.
Alının məzarı, o sənət dağı,
Dururmu dünyamız, görün, durnalar?
Durursa, bir xəbər verin, durnalar.

Qəlbimdə yüz dərd var, canımı üzər,
Qəm çoxalıb, başdan aşar dərdi-sər,
O Ələsgər yatan müqəddəs məzar,
Dururmu dünyamız, görün, durnalar?
Durursa, bir xəbər verin, durnalar.

Göyçədə bir gözdü Maral bulağı,
Yaz olanda olar cənnət, gül bağı.
Zər-zivərə[1] axıb gedər ayağı.
Dururmu dünyamız, görün, durnalar,
Durursa, bir xəbər verin, durnalar.

O yerlərdə gözəllikdən doymazsan,
Gözünə qıyarsan, ona qıymazsan,
Dastandı hər daşın tarixin yazsan,
Dururmu dünyamız, görün, durnalar,
Durursa, bir xəbər verin, durnalar.

---

[1] Zər kəndini nəzərdə tutur.

Yaylaq deyib Çalmalıya kim çıxır?
Çalmalıdan Göyçə gölə kim baxır?
Səfurə, başımdan dumanlar qalxır,
Dururmu dünyamız, görün durnalar?
Durursa, bir xəbər verin durnalar.

## BULUD

Uşaq kimi yaş tökürsən,
Ağlama, bulud, ağlama.
Bir yumanda beş tökürsən,
Ağlama, bulud, ağlama.

Bəşərə sənmi öyrətdin,
İçin-için ağlamağı?
Qızlara dağmı öyrətdin,
Başa yaylıq bağlamağı?

Başa çəkib ağ örpəyi,
O dağlar kimdən yaşındı?
Seyrək dumandan görünən,
Ay gözəl, sənin qaşındı.

Qara deyil yəqin o da,
Bir vaxt bir pəri olub.
Ya bir daş heykəldi,
Ya kimin əsəri olub.

Ay bulud, sən möcüzəsən,
Dağla Günəş arasında.
Hərdən-hərdən dincələrsən
Qoşa dağlar arasında.

Heyrətini gizlət bir az,
Dünya tamaşadı, inan.
Sən gedənsən, tarixin yaz,
Səndən xatirədi qalan.

## HƏSRƏT

Gözüm həsrətinin yolu,
Gözüm həsrətinlə dolu.
Xəyalımın qürbətində
Hey axtarar, araram mən.
Xəyalımın güzgüsündə
Zülflərimi dararam mən.
Xəyal bizim qanadımız,
Neylərdik xəyal olmasa?
Sevgi bir ota dəyməzdi,
Ayrılıq, vüsal olmasa.
Gəl, görüşək, vəfadarım,
Xəyalına qurban olum,
Həsrət dolu, istək dolu,
Vüsalına qurban olum.
Uzaq yolu yaxın eylə,
Yoxsa qəlbim sənsizləşər,
Daşlara qəriblik çökər,
Vətən də vətənsizləşər.

## VƏTƏN, SƏNİ...

Vətən canım, Vətən gözüm,
Vətən, səni bir də gəzim.
Çəmən-çəmən, yaylaq-yaylaq,
Meşə-meşə, budaq-budaq,

Qaya-qaya, o dağ, bu dağ.
Güllər yığım qucaq-qucaq.
Nazlı bulaq, Güzgü bulaq,
Qoy gözündə güzgülənim.
Bu şəlalə saçlarımda,
Şana kimi gəzsin əlim,
Cilvələnsin tellərində,
Xoş nəsimi səhər yelim.

## RƏSSAM OLAYDIM

Buludlar dolanda, yağış yağanda,
O çaylara, o sulara baxmışam.
O ulu dağlardan leysan gələndə,
Yaylaqlara, otlaqlara baxmışam.
Demişəm ki, kaş bir rəssam olaydım,
Alaydım göylərin boyasını mən,
Yağışdan islanmış yaşıl daşların
Çəkəydim əlimə xınasını mən.
Uşaq yaşlarımda olduğu kimi,
O daş xınasıyla xınalanaydım.
Yuyaydım saçımı yağış suyunda,
Telə şana çəkib sonalanaydım.

## ANAM

Cəbhələrdə qaldı atam,
Bizə nağıl oldu atam.
Bir yol görmədik üzünü,
Eşitmədik bal sözünü.
Tək böyütdü anam bizi,
Mənim nazlı sonam bizi.

Üç qardaş, üç də bacı,
Olduq anamızın tacı.
Çəkdi övlad cəfasını.
Görəcəkmi səfasını?
Mənim qəlbi ipək anam,
Gəlin anam, göyçək anam.

## LİLPAR ÇİÇƏYİ

Ay nənəmin dolçası,
Çiçəyi toy xonçası,
Lilparım, ay lilparım,
Gəl, tək qalma bulaqda,
Səni evə aparım.
İstəsən ki, aparım,
Gərək səni qoparım.

## ATA

Görmədiyim üzünü
Yuxuda gördüm, ata.
Sənin ala gözünü
Yuxuda gördüm, ata.
Gözüm gözün tək ala,
Saldın məni xəyala,
Mənə dedin: «ay bala»,
Yuxuda gördüm, ata.

## DƏNİZDİ

Qəmsiz bir ürək,
Buludsuz göy
Qurumuş göl kimidi.
Gülüşsüz könül,
Pəncərəsi yox,
Günəşə həsrət
Bir ev kimidi.
Qəmlə-sevinc ekizdi,
İkisi bir dənizdi.

## XƏYALIN QANADINDA

Ay dalğalı zəmilər,
Darağıma düşəydin.
Ay qızılı üfüqlər,
Gözümə düşən kimi
Varağıma düşəydin.
Birinizi darayıb,
Əllərimlə hörərdim.
Birinizə duyğumla
Təzə həyat verərdim.
Yaranardı mənzərə,
Bir kainat verərdim.
Xəyalın qanadında
Qalxardım mən göylərə,
Dağlar başın gəzərdim,
Qanımın boyasıyla
Üfüqləri bəzərdim.
Öz şeir dəftərçəmə
Nə incilər düzərdim.
Ay qızılı üfüqlər,

Gözümə düşən kimi,
Varağıma düşəydin.

## BİR PƏRİSƏN

O yaşıl saçların burma-burmadı,
Külək əsdi, çiyində də durmadı.
Küləkdən qamətin əyildi, söyüd,
Kövrəklik özü də zərif həyatdı,
Demirəm yaşamaq deyildi, söyüd.

Gözəllər içində sən bir pərisən,
Gözəllərlə çeşmə üstə yeri sən.
Yaşıl hörüklərin yana tök, gəlsin,
Ay gözəl, saçına şana çək, gəlsin.

## ŞƏMKİR QALASI

Əzəmətli başın göyə ucalıb,
Düşmənlər baxdıqca rəngi saralıb.
Çoxlarını zəhmin yandırıb-yaxıb,
Xain uzaqlardan həsədlə baxıb.
Bir satqın əliylə sirrin satılıb,
İgidlərin qolu daldan çatılıb.
Çatmayıb haraya, ax, Ağca qızın,
Məskəni, obası, Axarca qızın.
Uçub dağılsan da, məğrursan yenə,
Qala olmasan da, qala yerisən,
Ürəyim dağ olur baxdıqca sənə.
Tülək tərlan, şahin bala yerisən.
Dam yeri deyilsən, qala yerisən,
Sən ölü deyilsən, yenə dirisən.

Yaşar igidlikdən nişanə səndə,
Qalasan, qalırsan qala vətəndə.
Qalır əzəmətin, Şəmkir qalası,
Yurdumun, a məğrur qartal balası.

## BALLICA ÇAYI

O ulu Qoşqarın can damarından,
Axan çaysan, sızan çaysan, Ballıca.
Bu yerlərin tarixini, adını
Sal daşlara yazan çaysan, Ballıca.

Koroğlunun Ballıcaya səfəri
Ozanlar dilində dastan olubdu.
Bizim Qəşlitənin yaylaq daşında
Qıratın nalının izi qalıbdı.

Gəlin qaya, Eynal taxtı, Ziyarət,
Ballıca, gör sənin nə dağların var.
Zinzahaldan gələn, Çataqdan gələn
Suyuna qarışan bulaqların var.

Sən Gəncə çayının bircə qolusan,
Onun Zivlən çayı, Toğanası var.
Başı ulu dağlar, ayağı Gəncə,
Çayların dağlara dolanması var.

## AY ANA KƏNDİM

Sevincdən bu səhər erkən oyandım,
Sən də yuxulusan, ay ana kəndim.

Sənin hər daşında, Vətən ətri var,
Çiçək qoxulusan, ay ana kəndim.

O tay biçənəkdə bildirçin səsi,
Xınalı kəkliyin qayada ötər.
Qızlar su götürər Noylu bulaqdan,
Gözəllər gül olar, gözümdə bitər.

Sən necə qəşəngsən, ay ana kəndim,
Mən bu gözəlliyi hardan alardım?
Canım sizə qurban, a qoşa dağlar,
Sizsiz yaşamazdım, vallah, ölərdim.

## BULAQ

Lillənər bulaq,
Güllənər bulaq.
Qışda susar,
Yazda, yayda
Dillənər bulaq.
Axıb yorular bulaq,
Səhər durular bulaq.
Su verər gözündən,
Razı qalar özündən.

## XƏZƏR

Səndən doğan Günəş gəlin xonçası,
Qaçan dalğaların oğlan anası,
Üzən qağayılar sular sonası,
Qəlbi dünya boyda anasan, Xəzər!
Özün bir gözəlsən, sonasan, Xəzər!

Qızılı günəşin gəlin duvağı,
Yoxdu, mağarının ucu-bucağı.
Ağ yelkən gəmilər gəlin otağı,
Qəlbi dünya boyda anasan, Xəzər!
Özün bir gözəlsən, sonasan, Xəzər!

Qızılı Günəşin əlin xınası,
Toy olan gözəlin gəlin dünyası,
Dəniz - şairlərin sevgi röyası,
Qəlbi dünya boyda anasan, Xəzər!
Özün bir gözəlsən, sonasan, Xəzər!

Kimdi əldə tutan qızıl piyalə?
Kəpəzdənmi gəlib, o qızıl lalə?
Şəfəqlər qoynunda yetər vüsalə,
Qəlbi dünya boyda anasan, Xəzər!
Özün bir gözəlsən, sonasan, Xəzər!

## DUMAN

Yuxu tutub, yarı yolda qalıbdı,
Səhərə dağlara çatmayıb duman.
Ayağı sürüşüb, daşdan yıxılıb,
Dağın ətəyindən tutmayıb duman.
Qoşqar dərəsində qalıbdı duman,
Çaylara ağ yelkən salıbdı duman.

Asta-asta çıxar yollarım üstə,
Deyəsən, sözü var, yaxına, dosta.
Duman-dağlar qızı, o gül nəfəsdə,

Mən nələr duymadım, nələr anmadım?
Sənin möcüzəni heç vaxt danmadım.

Duman, bir gözəlsən, duman, pərisən,
Ucalara, o dağlara yeri sən.
Təbiətin incisisən, dürüsən,
Sən elə gözəlsən, gözümdə, duman!
Sən varsan, qışımda, yazımda, duman!

## YAŞILDI, YAŞIL

Çəmənlərə baxasıyam, baxası,
Gül gölündə mən olsam da axası.
Qız baharın bənövşəymiş yaxası.
Yaz donu baharın yaşıldı, yaşıl.
Qız donu baharın yaşıldı, yaşıl.

Nəfəsindən sınar bulağın buzu,
Tərə, yarpız olar bulağın izi.
Qırmızı laləylə gəzsə də düzü,
Yaz donu baharın yaşıldı, yaşıl.
Qız donu baharın yaşıldı, yaşıl.

Sular qayalardan tökəndə saçın,
Saçlar hörüklənər, düzülər çin-çin,
Görünər gözündə bir ağ göyərçin,
Yaz donu baharın yaşıldı, yaşıl.
Qız donu baharın yaşıldı, yaşıl.

Dərələrdən boylansa da duman-çən,
Bulud əl eyləsə, kəlağayam mən.
Könlünü oxşayar gözünə köçən,

Yaz donu baharın yaşıldı, yaşıl.
Qız donu baharın yaşıldı, yaşıl.

Laləzar Vətənin qoynunda bitən,
Səfurə, baharın bir ağ gülü mən .
Zümrüd kollarında bülbüllər ötən,
Yaz donu baharın yaşıldı, yaşıl.
Qız donu baharın yaşıldı, yaşıl.

## ÇİYƏLƏK

Sən hansı dərədən, çaydan keçmisən?
O şehli güllərin suyun içmisən,
Göy çəmənə sırğa kimi düşmüsən,
Yaqutsan, yamənsən, nəsən, çiyələk?
Dilin lal olmaz ki, desən, çiyələk!

Al yanaqlım baxa-baxa göz vurar,
Ağ əllərin qor yandırar, köz vurar,
Oddan qorxmaz, gözəllərin söz vurar,
Sən odsan, alovsan, nəsən, çiyələk?
Dilin lal olmaz ki, desən, çiyələk!

Həlim baxışların belə söyləmir,
Bir incisən, düşməz ələ, söyləmir,
Gözəllərsə bilə-bilə söyləmir,
Yaqutsan, yamənsən, nəsən, çiyələk?
Dilin lal olmaz ki, desən, çiyələk!

## PİRSULTAN ÇİÇƏKLƏRİ

Hər biri bir loğmandı,
Pirsultan çiçəkləri.
Hər bir dərdə dərmandı,
Pirsultan çiçəkləri.

Yazın boyu görünər,
Daşı gülə bürünər,
Ağ əllərlə dərilər
Pirsultan çiçəkləri.

Ayrantökülənə çıx!
Ağyoxuşdan belə bax!
Səni səndən alacaq,
Pirsultan çiçəkləri.

Çeşmələr qaynar göz-göz,
Yanında lalə, nərgiz,
Sayrışar ulduz-ulduz,
Pirsultan çiçəkləri.

Qantəpəri təzə-tər,
Şehdərən özün çəkər.
Çəməndə nazın çəkər,
Pirsultan çiçəkləri.

Alar səni ağuşa,
Dönərsən bir ağ quşa.
Səni salar yağışa,
Pirsultan çiçəkləri.

Şəqayisi, moyu var,
Gülə bürünər dağlar.

Səfurəni arzular,
Pirsultan çiçəkləri.

## AZƏRBAYCAN

Azərbaycan - gözüm nuru,
Bu könlümün qüruru.
Duyğuları saf,
Məsləki duru.
Azərbaycan – ana yurdum,
Göz açıb səni gördüm,
Sən mənim ürəyimsən,
Sənsiz çoxalar dərdim.
Azərbaycan – toy-düyünüm,
Gərək səninlə öyünüm.
Canım sənin, qəlbim sənin,
Sənsiz olmasın bir günüm.

## BƏYAZ GECƏLƏRDƏ

Elə ki, yay düşər,
Çay səngiyər, çay düşər.
O bəyaz gecələrdə
Sularına ay düşər.
Bir ağ kəlağay düşər.

Ulduzlar çiçək-çiçək,
Ay ortada bir ürək.
Qoşqarçay dəryaçası
Olar çəməndən göyçək,
Bunu duyasan gərək.

Elə ki, dan sökülər,
Gölə sona tökülər.
Qəlbimdə baş qaldırar,
Saf duyğular təzə-tər,
Hər səhərim bir əsər.

## AĞ QAZIM

Göy sularda nazlı gəlin,
Sularda ağ qazım mənim.
Ördəyinin başı yaşıl,
Səndə qalıb gözüm mənim,
Səhər rəngli qazım mənim.

Ayaq sarı, dimdik sarı,
Bəyaz bədən dağlar qarı.
Heç zaman qorxutmaz səni
Qışın buzu, soyuq qarı,
Hey gəzərsən göy suları.
Bəyaz bədən dağlar qarı,
Sularda ağ qazım mənim.

## BULAQ

Yanaqların aldı, bulaq!
Üzündəki xaldı, bulaq!
Lalələr içsin suyundan,
Dodaqların baldı, bulaq!
Bu da bir xəyaldı, bulaq!
Gördüm Gülüstan düzündə,
Ürəyimi çaldı bulaq.
O dağlardan bir xatirə,

Yaddaşımda qaldı bulaq.
Kövrəldim gözlərim doldu,
Gözlərim də oldu bulaq.

## GÜLAZAR BULAĞI

Sən Əslidən nişanəsən,
Xətayidən yadigarsan,
Hələ varsan.
Varsan Gülazar bulağı!
Həmdəmin nərgiz, bənövşə,
Bir də yaşıl, nazlı meşə.
Gəncənin bahar bulağı.
Ötər hop-hop, dinər kəklik,
Dörd yanın güllük-çiçəklik.
Yaraşmayır sənə təklik,
Etibar, ilqar bulağı.
Biçənəkdə bildirçinin,
Yollarında göyərçinin,
Hanı sənin yaylaq köçün?
Elin yadigar bulağı.
Unutma gəl, bizi bir an,
Keçmişə bax, Güllərə[1] dön.
Fəsillərə, illərə dön.
Sən ey arzular bulağı.
Gəncənin bahar bulağı.

---

[1] Rəvayətə görə, Güllər həmişə bu yaylağa çıxmış Gəncənin pəhləvan qızının adıdır.

## SARITEL
*(nəğmə)*

Xatirəsən ürəklərdə,
Səni sordu çiçəklər də.
Arzularda, diləklərdə
Yaşayarsan, Sarıtel!

Eşqin nə yaman oldu,
Eşqin bir dastan oldu.
Sevgin bir cahan oldu,
Yaşayarsan, Sarıtel!

Cavan ömrün talandı,
Gözün dağı dolandı.
Demə, sevgi yalandı,
Yaşayarsan, Sarıtel!

Dolandıqca Aveyi,
Əsdi dağlar küləyi,
Burax daha gileyi,
Yaşayarsan, Sarıtel!

Məhəbbət yanar oddu,
Yandı kim onu daddı.
Sevgi qoşa qanaddı,
Yaşayarsan, Sarıtel!

Nə qəşəngsən, Sarıtel,
Gözəlliyin bir Göy göl.
Eşqin bağçasına gəl,
Yaşayarsan, Sarıtel!

Səfurə nəğmə qoşdu,
Eşitcək bulaq coşdu.
Gölünə sona düşdü,
Yaşayarsan, Sarıtel!
Əzbərimsən, Sarıtel!
Dilbərimsən, Sarıtel!
Ülkərimsən, Sarıtel!

## NƏĞMƏNİ DAĞLARA YAY

Talalar taxça-taxça,
Güllərin boxça-boxça.
Düzləri yaşıl xalı,
Dərələri bağ-bağça,
Qaşqaçay, ay Qaşqaçay,
Nəğməni dağlara yay.

Gözəl Morux dərəsi,
Ürkək cüyürlər dəsi,
Susub, bülbüllər susub,
Ötür kəklik fərəsi,
Qaşqaçay, ay, Qaşqaçay,
Nəğməni dağlara yay.

Topa buludlar lay-lay,
Buludları gəzər Ay,
Əksi düşər gözünə,
Sularında üzər Ay,
Qaşqaçay, ay Qaşqaçay,
Nəğməni dağlara yay.

## ƏYİLMƏZ BAŞIM

Altunu, daş-qaşı əyər,
Min-min xəzinəyə dəyər
Xırda bir daşım.
Ahımdan göl quruyar,
Yerində dəniz olar
Damla göz yaşım.
Xırda bir daşım,
Damla göz yaşım,
Sizə mən and içirəm,
Nə bir sərvət üçün,
Nə də düşmən önündə,
Əyilməz başım.

## SƏS

Bülbül səsi,
Bulaq səsi,
Çay səsi.

Külək səsi,
Ürək səsi,
Toy səsi.

Əbədi səs,
Əzəli səs,
Təbiətin
Gözəli səs.

Təbiətin
Dürlü-dürlü
Var səsi

Ən doğması,
Ən əzizi
Körpə səsi,
Ana səsi,
Yar səsi.

## MƏHƏBBƏTİN MƏBƏDİ

Ay qaçan dalğalar, süzən dalğalar,
Üstündə qağayı üzən dalğalar,
Oynaşarsız gözlərimin içində,
Könlümü, ruhumu gəzən dalğalar.

Olar sular pul-pul qızılı rəngdə,
Göy ləpələr cilvələnər şəfəqdə.
Günəş doğcaq, şəfəq yağar Xəzərə,
Duyğularım həzzə dönər ürəkdə.

Az keçər, dalğalar dincələr, yatar,
Sular qızıllanar, şəfəqə batar.
Anamız Günəşin bircə baxışı
Qızılı rənglərə ağ yağış qatar.

Bəs niyə görünməz yeri qızların?
Qoy düşsün üzümə nuru qızların.
Bölük-bölük gəzən ağ qağayılar,
Bəlkə də, özüdü pəri qızların.

Düşünmək də çətin, bilmək də çətin,
Səfurə, yozumu var hər həqiqətin.
Sənin ki, qoynunda «Qız qalası» var,
Demək, məbədisən ilk məhəbbətin.

## DAĞLAR MƏNİM

Yaşaya bilmirəm,
Bulaqlar, sənsiz.
Yaşaya bilmirəm,
A dağlar, sənsiz.
Yaşaya bilmirəm,
Ay anam, sənsiz.
Ayrıla bilmirəm
Dağ göllərindən,
Ayrıla bilmirəm
Dağ sellərindən,
Ana beşiyimdi,
Bu dağlar mənim.
Evim-eşiyimdi
Bu dağlar mənim.

## QALAR

Bir gün eşitsə yoxam,
Ağlar o dağlar, ağlar.
Bir gün eşitsə yoxam,
Ağlar, yaylaqlar, ağlar.
Bir gün eşitsə yoxam,
Ağlar, bulaqlar, ağlar.
Ağlar, Lilpar, bulağı,
Ağlar, Pirsultan, dağı.
Mən doymaram dağlardan,
Dağlarda gözüm qalar,
Noylu bulaq yolunda,
Cığırım, izim qalar.
Bir də elə əmanət,
Tər bənövşə ətirli,

Şeirim, sözüm qalar.
Səfurə, o dağları,
Bir  görmək arzum qalar.

## BİR DƏ, BİR DƏ

Dünyanın ilk mahnısı,
Bəşərin ilk nəğməsi,
Körpə səsi,
Beşik nəğməsi,
Bir də, bir də
Dağ şəlaləsi.

## AXMIŞAM

Elbrusda, Qızıldaşda,
Kəlbəcər dağlarında,
Heyranlıqla,
Şəlalələrə baxmışam.
Xəyalən zirvələrə çıxmışam,
Ağ sulara qarışıb,
Mən də, mən də,
Şəlaləylə axmışam.
Şəlalənin gözüylə,
Mən günəşə baxmışam.

## QARAÇAY GÖZƏLLƏRİ

Elə bil ağ çiçəkdi,
Bir-birindən göyçəkdi,
Qaraçay gözəlləri.

Sifət qartək ağappaq,
Gözlər bir qaynar bulaq,
Qaraçay gözəlləri.

Olarlar Qızıldaşda,
Ağ şal yellənər başda,
Qaraçay gözəlləri.

Şal, jaket toxuyarlar,
Mahnılar oxuyarlar,
Qaraçay gözəlləri.

Ya inquş, çeçen, çərkəz,
Heç birinə bənzəməz,
Qaraçay gözəlləri.

Ən yaxını bolqardı,
Bir-birinə oxşardı,
Qaraçay gözəlləri.

Elbrusdan meh əsər,
Günəş kimi gülümsər,
Qaraçay gözəlləri.

## BƏNÖVŞƏ, BƏNÖVŞƏ

Görüşünə mən gəlmişəm,
Gəl, ay bənövşə, bənövşə!
Yasəmən saçların dara,
Gül, ay bənövşə, bənövşə!
Varlığının ziynətidi,
Tel, ay bənövşə, bənövşə!
Gözlərinin şəbnəmini,

Sil, ay bənövşə, bənövşə!
Qız da qızdan gizlənərmi?
Öl, ay bənövşə, bənövşə!

## KÖNÜL NƏĞMƏSİ

Bulağın pıçıltısı,
Yarpağın xışıltısı,
Məhəbbətə bələnmiş
Dodağın pıçıltısı,
Bir könül nəğməsidi.

Səhərin sərin mehi,
Güllərin şəbnəm-şehi,
Ağ sularda bərq vuran
Günəşin ilk şöləsi
Bir könül nəğməsidi.

Bahar-yaz bənövşələr,
Şüşəüz bənövşələr,
Əyər başın köksünə
Körpə qız bənövşələr,
Bir könül nəğməsidi.

## GÜNƏŞ QIZIN SAÇLARI

Gecələr ki, Ay doğar,
Günəş uyuyar, yatar,
Yatar mavi Xəzərdə.
Səhərlərsə Ay batar,
Yenə də çıxar Günəş,
Çıxar mavi Xəzərdən.

Bircə onu bilmərəm,
Kimdi bu Günəş qızı
Köz sayağı közərdən,
Lalə kimi qızardan?
Günəş qızın saçları
Göy Xəzərə tökülər,
Duman lay-lay çəkilər.
Elə bilərsən Günəş
Qızıl bir məcməyidi,
Ya da bir qızıl teştdi.
Bir də görərsən onun,
Nuru qəlbimə düşdü…

## XALLI KƏPƏNƏK

Al geyinmiş çəməndə,
Birisi vızhavızdı,
Birisi sarı köynək,
Xallı, gözəl bir qızdı.
Birisini görəndə
Bal-şəkər yada düşər.
Birisini görəndə
Sapsarı, ay camallı
Bir gözəl yada düşər.
Hamısı da bəzəyər
Havanı çiçək-çiçək…
Bal gətirən arıdı,
Naz gətirən kəpənək!..

## QUMRU

Bağda-bağçada
Hey gəzər qoşa.

Meylini salmaz
Kəkliktək daşa…
Yön də çevirməz
Yala-yamaca.

Məskəni olmaz,
Hər qapı-baca.
Çəpərə qonar,
Bacaya qalxar.
Ağacdan enər,
Ağaca çıxar…
Tanımayanlar
«Yahu» da deyər,
Hələ «qur-qur» da,
«Mahı» da deyər.
Göyərçinə də
Bənzəyər hələ.
Atılıb-düşər
Belədən-belə…
Ötər qapıda,
Ötər bağçada.
Ötər alçaqda,
Ötər ucada…
Şən-şən oxuyar,
O şən qumrular.
Arzu-istəyi,
İlk yaz - qumrular!..

## BABAM

Pirim, hardan öyrəndin
O quşların dilini,
çiçəklərin dilini?

Babam, kimdən öyrəndin
Qəlbləri oxumağın
sehrini, sirrini?
Uşaqlıqda öyrəndin,
Yoxsa, piran olanda?
Açıq səma altında,
Yoxsa, duman olanda?
Sən niyə öyrətmədin
Bunları gəncliyimizə?
Uzağıq bu hikmətdən.
Bir doyunca dadmadıq
Biz bu şirin söhbətdən.
Yox, babam, uzaq olduq
Sehirli həqiqətdən.
Söylə, sənə bu hikmət
Süleymandanmı qaldı?
Bizim ulu babamız,
Dərsini kimdən aldı?
İnsan yarandığıçün,
Təbiət yaratdığıçün,
Möcüzədi.
İnsana maraq qalar,
İnsana heyrət qalar,
Biləmməz ki, bu nədi.
Bu dünyanın sirrini,
Bu dünyanın sehrini,
Heç o quş dili bilə
Süleyman da bilmədi.[1]

[1] Şeir «Ovçu Pirim» nağıllarından və Süleymana aid rəvayətlərdən qaynaqlanıb.

# BAYATILAR

Xan Arazla görüşdün,
Savalana yetişdin,
Səfurədən nə dedin,
Təbrizimlə öpüşdün.

Əzizim qara bağlar,
Bizimdi Qarabağlar.
Yurdu əlindən çıxan,
Göy geyər, qara bağlar.

Mən aşiqəm, nə yazdı?
Yer duman, göy ayazdı.
Qarabağın baxtına,
Qanlı düşmən nə yazdı?

Qarabağ da talandı,
Daşı qana bulandı,
Yoxa çıxdı gülüşüm,
Qəm könlümü dolandı.

Dağda maral mələməsin,
Gözündən yaş ələməsin.
Bacım, səni ağladanın
Soyu bələk bələməsin.

Əzizinəm, incidir,
Sədəf deyil, incidir,
Dost sənə bir daş atsa,
Dəyməsə də incidir.

Bir gül ilə yaz olmaz,
Ördək dönüb qaz olmaz.
Demə, dərdin bilməzə,
Artar, dərdin azalmaz.

Hər dərdini bilməzlər,
Sevdiyindən dönməzlər,
Sözdən heykəl quranlar,
Diri qalar, ölməzlər.

Niyə adın Taya daş?
Ot olarmı qaya, daş?
Başın buluda çatmır,
Can atırsan aya, daş.

Gəz, dolan gen dünyada,
Dənizdə olar ada.
Bir ovçu kamil olsa,
Ovun verərmi yada?

Əzizim, yaxşısına,
Qoymayın, yaxşı sına.
Yaman-yamana qurban,
Yaxşı da yaxşısına.

Düz söz dilə yaraşır,
Bülbül gülə yaraşır.
Bir evdə bayram olmaz,
Bayram elə yaraşır.

Əzizim, yanar dağlar,
Ulduzu fanar dağlar.
Bulud burdan yan keçsə,
Ağlayar, yanar dağlar.

Əzizinəm, çəməndi,
Könlüm minib səməndi,
Gələnlər gəlir, gedir,
Dünya həmən, həməndi.

Sən mənim əzizimsən,
Əzizimsən, gözümsən.
Dərdimə şərik olsan,
Elə billəm özümsən.

Əzizinəm, şirindi,
O Fərhad, o Şirindi.
Yarsız yuxum gəlmədi,
Yar yuxudan şirindi.

Dağlarda ahu gözəl,
Quşlarda yahu gözəl.
Sevmək gözəl olsa da,
Sevilmək daha gözəl.

Xoş eşitdim sorağını,
Qoy dolanım yar bağını.
Tanrım mənə göstərməsin
Bu dünyada yar dağını.

Dürlü bulaq duruldu,
Üstündən gül dərildi,
Mənə sevgi badəsi,
Bu bulaqda verildi.

Mən aşiq, inci tutar,
Əldə bir inci tutar,
Könül incini deyil,
Yarı birinci tutar.

Əllərinlə dər gülü,
Pünhan yerə sər gülü.
Dərdiyin gülü qoxla,
Gəl, qoxlama hər gülü.

Dərdlərə qatma gülü,
Özgəyə satma gülü.
Xoşun yoxdu iyləmə,
İylədin, atma gülü.

Arazım, ay Arazım,
Ağlayır könül sazım.
Yarım Təbrizdə qalıb,
Dərdimi hara yazım?

Əzizinəm, güləm mən,
Yasəmənəm, güləm mən.
Gəl bağçama, bülbül ol,
Gör, necə bir güləm mən.

Əzizinəm, o yandı,
O alışdı, o yandı.
Yardan ötrü göynədim,
Mən alışdım, o yandı.

Əzizinəm, gəlincə,
Bu gül o güldən incə.
Şirin canım üzüldü,
Yar səfərdən gəlincə.

Əzizinəm, sən də gəl,
Dumanda gəl, çəndə gəl.
Hamının yarı gəldi,
İnsaf elə, sən də gəl.

Əzizim, hanı dağlar,
Dərd döyər canı dağlar.
Gözəllər yar gözləyir,
Kəsmə aranı, dağlar.

Dururmu yastı qayalar?
Könlümün dostu qayalar.
Camalına həsrət qaldım,
Çən gəldi basdı, qayalar.

Bir bülbüləm gül üçün,
Dərdi oraqla biçin.
Yarım qürbət eldədi,
Ağlaram için-için.

Əzizim, ağlar gəzər,
Dərələr, dağlar gəzər.
Yar yardan uzaq düşsə,
Qəlbimi dağlar gəzər.

Əzizinəm, dərdi nə?
Qalım yarın dərdinə.
Mənim dərdim yar dərdi,
Bilməm, yarın dərdi nə?

A dağlar, daşlı qalsa,
Üzüyün qaşlı qalsa,
Könlümü sən alarsan,
Yar gözü yaşlı qalsa.

Oba köçüb, yurd ağlayıb,
Ocaq daşı buz bağlayıb.
Sən gedəli, dərd ağacı
Sinəm üstə budaqlayıb.

Şuşada bulud ağlar,
Başını  əyər dağlar,
Düşmən verən bu dərdi,
Canım əmanət saxlar.

Əzizim, yüz ilməni,
Çal getsin, yüz ilməni.
Vəfalı yarım olsa,
Yaşadar  yüz il məni.

Əziziyəm, göy nədi,
Yaşıl nədi, göy nədi?
İnsafsız yar ucundan,
Yandı canım, göynədi.

Ana, qəlbin çiçəkdi,
Çiçəkdən də çiçəkdi.
Özün bir nur dərəsi,
Xasiyyətin mələkdi.

Nazlasan nazdı məhəbbət,
Yazdan da yazdı məhəbbət,
Qoru onu dərd-bəladan,
Ürəkdi, gözdü məhəbbət.

Məzəsən, məzə, dağlar,
Köynəyi təzə dağlar.
Pirsultanla Qoşqarın
Durub göz-gözə dağlar.

Quşqara, ay Quşqara,
Sən bacısan Qoşqara.
Sağ-solun zümrüd çöllər,
Çəmənin saçın, dara.

Yaşıl zili, Durnalı,
Dağlar beli, Durnalı,
Çiçəklər can dərmanı,
Şəhdi-balı, Durnalı.

Quşötən qayadan endim,
Tərlan ötdü, mən də dindim.
Mən Bənövşə talasında,
Bir şeyda bülbülə döndüm.

Yada düşdü Bayda bulaq,
Bir incidi sayda bulaq.
Qışda gözü buz bağlayır,
Şərbət paylar yayda bulaq.

Üçtəpədə Sinsar bulaq,
Meşəliyi gülzar bulaq.
Gəncə çayının üstündə,
Qalıbdı yadigar bulaq.

Güllər üstə ləçəyəm,
Göyçəklərdən, göyçəyəm.
Sarı donlu gözələm,
Mən bir qaymaq çiçəyəm.

Bənövşə yaz çiçəyi,
Bənövşə qız çiçəyi,
Hər yetənə xoş gələr,
Çiçəklərin göyçəyi.

Nar çiçəyi, nar çiçəyi,
Mən sevirəm hər çiçəyi,
Sənin tək könlüm oxşar,
Alçaların qar göyçəyi.

Qızılgüllər çiçəklədi,
Pardaqladı, ləçəklədi,
Bü dünyada təmiz sevgi,
Saf duyğu, saf ürəklədi.

Ağ yağış çiçəkləri,
Ağ yağış ləçəkləri,
Pirsultan gül dənizi,
Sehrlər ürəkləri.

Dağlar, gülün bəyazdı,
Göyün güzgü, ayazdı,
Çəmənin bir gülü də
Nərgiz donlu o qızdı.

Sularında sona bax,
Əynindəki dona bax.
Bulağa qızlar gəlir,
Sən də sevin, ona bax.

Dağda bir ahu mələr,
Hicranın ahı mələr.
Çək gözünü yollardan,
Getdikcə, çətin gələr.

Bu yurdun qalası var,
Meşəsi, talası var.
Dağların buz bulağı,
Düzlərin lalası var.

Lalə özün gizləmə,
Ürək sözün gizləmə.
Görüşünə gəlmişəm,
Xallı üzün gizləmə.

Lalə, səni görmüşəm,
Görüb könül vermişəm.
Bulaqların başına
Gərək sənlə cüt düşəm.

Dağlarıma gün düşər,
Duman-çisgin gen düşər.
Ötər sona kəkliklər,
Qayalara ün düşər.

Dağların qoynuna düşdüm,
Gül-çiçəklə qucaqlaşdım.
Gizlətmədim öz sevgimi,
Gözəlliyə könül açdım.

Hörgülüdaşı dolaşdım,
Kəkliyinə nəğmə qoşdum,
Pirsultanda sehirləndim,
Ağyoxuşda naxışlandım.

Ağyoxuşda Kotan daşı,
Qaya kimi bitən daşı.
Üstündə çətin yazılar,
Oxuyammaz yetən daşı.

Xəyalım ərzi gəzər,
Xəyal xəyalı bəzər.
O qəlbi sevindirər,
Gahdan da canı üzər.

Xəyal tacı taxdadı,
Bülbüldü budaqdadı.
Başı buluda dəysə,
Ayağı torpaqdadı.

Xəyal birdən ötəndi,
Xəyal gözdə bitəndi.
Qürbət eli az gəzər,
Can özəyi vətəndi.

Gül seyrində qalmaram,
Hər gülə bənd olmaram.
Bənövşəyə baxanda,
Kirpiyimi çalmaram.

Ağlamısan ağ yağış,
Narın-narın yağ, yağış.
Günəş çıxsın buluddan,
Dən-dən düşsün ağ yağış.

Mən bu dağa gəlmişəm,
Düz bulağa gəlmişəm.
Lalə, nərgiz, bənövşə,
Yığa-yığa gəlmişəm.

Durnam, nədən bezarsan?
Dağ dumandı, azarsan.
Qaçqın düşsən yurdumdan,
Dərdin kimə yazarsan?

Qarabağ da talandı,
Dərdimə dərd calandı.
Neçə muzey, məqbərə,
Yandı, oda qalandı.

Dağlar, möcüzə dağlar,
Daşdan çıxar bulaqlar.
Yayda Mehtərin suyu,
Qaymaq tutar, buz bağlar.

Qantəpər, ay qantəpər,
Bir çiçəksən təzə-tər.
Sarı saçaq kirpiklər,
Gözünə keşik çəkər.

Yurdumuzu dağlar bilir,
Mərdimizi dağlar bilir.
Bir dünyalıq yaddaşı var,
Dərdimizi dağlar bilir.

Leysan yağdı, sel gətirdi,
Qırxbulaqdan gül gətirdi.
Dağ çayının gül ətrini,
Səhər-səhər yel gətirdi.

Dağ ağladı, «Qərib» dedi,
Məcnun məni görüb dedi.
Qanlı gədlikdən aşanda,
«Lələ burda ölüb» dedi.

Sinəsində şəhid qanı,
Murov ağladar cahanı.
Anaların qəlb ahından,
Artıbdı dağın dumanı.

De, kim xətrinə dəydi,
Səni həsrətmi döydü,
Söyləsənə, bənövşə,
Səni hicranmı əydi?!.

Sehrləndim, bu nə dağdı?
Buludundan nurmu yağdı?
Lalələri qan qırmızı,
Güllər dələmədən ağdı.

A buz bulaq, buzdu bulaq,
A nəğməli, sözlü bulaq.
Cəm olar gözəllər səndə,
Onda billəm yazdı, bulaq.

Atlı bulaq, atlı bulaq,
Suyun bir həyatdı bulaq.
Səhər-səhər tər çiçəklər,
Suyuna bal qatdı bulaq.

Atlı bulaq, atlı bulaq,
Meh səni oyatdı bulaq.
Gülab suyunun gül ətri,
Gözəllərə çatdı bulaq.

Pirsultanlı balası,
Ay dağların lalası.
Daşda xınalı kəklik,
Özü bir göl sonası.

Dəli dağım, Keyti dağım,
A mənim ceyran bulağım.
Yollarımı yağı kəsdi,
Səndən kəsildi ayağım.

Bal pətəkli Qabaqtəpə,
Gül-çiçəkli Qabaqtəpə,
Dillərdə dastan olmuşam,
Duz-çörəkli Qabaqtəpə.

Qatarın niyə böləndü?
Qəmindən bağrım dəlindi
Durnam, səni dərdə salan,
Sənin o cığa telindi.

# AĞILAR

Əzizim, aldı getdi,
Qəmlərə saldı getdi.
Mənim cavan qardaşım,
Qəlbimi çaldı getdi.

Üzüyüm qaşı qardaş,
Qəlbimin başı qardaş,
Gözlərim leysan tökər,
Qurumaz yaşı, qardaş.

Qardaş, yaşım selləndi,
Gözüm doldu, gölləndi.
Mən bir xeyir görmədim,
Bağ-bağçalar gülləndi.

Gül qardaş, gülüm qardaş,
Eylədin zülüm, qardaş.
Qəmdən payım çox verdin,
Qoymadın gülüm, qardaş.

Ay qardaş Gülüstana,
Yol gedir, Gülüstana.
Gözlərim yaman dolub,
Qorxuram, gül islana.

# RÜBAİLƏR

Can yanğısı, can odudu şəhidlər,
Azərbaycan övladıdı şəhidlər.
Yuxudadı qərənfillər içində,
Bir ölkənin fəryadıdı şəhidlər.

Kim deyir ki, göz yaşıdı şəhidlər,
Tariximin yaddaşıdı şəhidlər.
Kərbəlada yatanların doğmaca
İnamı bir qardaşıdı şəhidlər.

Yadındamı, Daşbulaqdan endiyim?
Bala düzdə bir ahuya döndüyüm.
Nərgizlidən əlvan güllər qoparıb,
İnci gülün saçlarına hördüyüm.

O uçuq qalalar yadında varmı?
Cüyürlü talalar yadında varmı?
Sağında-solunda ürkək boylanan
O körpə balalar yadında varmı?

Qatar-qatar hey keçərdi durnalar,
Dağ gölündə üzüşərdi durnalar.
Mən deyəndə gözəlliyə daş atma,
Durna göydən, sona göldən yan alar.

Dağlar arasında Mehtər bulağı,
Acı təpə, yarpız olar ayağı.
Gözəllər suyundan şərbət içərdi,
Şəkərə batardı dili-dodağı.

Məhəbbət ümmandı, dənizdi, dəniz,
Elə ülvidir ki, hər güldən təmiz.
Mənim məhəbbətim, təsəllim sənsən,
Gözümdə heç nədi məhəbbət sənsiz.

Nə çox dolanırsan türk ellərini,
Çox da tərifləmə Qars güllərini,
Heç bir eldə tapammazsan ətrini,
Bir güldü, gəl qoxla yar tellərini.

Sən necə qalırsan qürbətdə mənsiz,
Heç bülbül yaşarmı gülsüz, çəmənsiz?
Gözüm yollardadı xeyli zamandı,
Çeşmələr başında qalmışam sənsiz.

Dünya yaranandan eşq dəlisidi,
Dünya nədən keçsə sevgidən keçməz.
Səfurə özü də dünya kimidi,
Dünyasından keçər, sevgidən keçməz.

Səfurəyəm, deyim, ha mayıl oldum,
Hüsnü-camalına ha mayıl oldum.
O, təhnizi Ağbulaqdan yazmışdı,
Mən də gileyləndim, Hamayıl oldum.

Bu ala gözlərim dərya-dənizdi,
Pərişan zülfümdə zərif əl gəzdi.
Kirpik ləpə vurdu, dəniz tərpəndi,
Xəyalım dənizdə çalxandı, üzdü.

Kəpəzinin başı cunalı Göy göl,
Yalçın qayaları xınalı Göy göl,
Sevin ki, qoynuna qonaq gəlmişəm,
İndi də olmuşam sonalı, Göy göl.

Daşlıdağın gör nə gözəl  boyu var,
Güneyyurdun nərgizi var, moyu var.
Gəncəmizin muğamatı, «Şahnaz»ı,
Kəndin də öz «Yallı»sı var, toyu var.

Düşmüsən dağlardan aralı, Kəpəz,
Baxarsan Göy gölə yaralı, Kəpəz.
Hanı, Ağgölündə sonalar üzmür,
Yoxdu, Maral gölün maralı, Kəpəz.

Hər kəs üçün öz anası anadı,
Hər kəs üçün öz anası sonadı,
Taleyini düşündükcə, ay ana,
Mənim ürəyimin gözü qanadı.

Dünyanın varına gül olan insan,
Sən özün bir gülsən, gül olan insan.
Sən yazda açansan, qışda solansan,
Gül ömrü, gül təki tez solan insan.

Sən bir möcüzətək gələrsən, yuxu,
Dünyanı mənimlə bölərsən, yuxu.
Az dolandır görmədiyim yerləri,
Açaram gözümü, ölərsən, yuxu.

Bütün aləm bilir çətin dünyasan,
Bədəni daşdansan, mətin dünyasan.
Sən kimə sevinci doyunca verdin?
Qoymazsan bir qəlbi bütün, dünya, sən.

Ay ala yaylaqlar, ala yaylaqlar,
Meşələri tala-tala yaylaqlar.

Dağ keçisin Qaşqaçayda görmüşəm,
Cüyürün yanında bala, yaylaqlar.

Tapan meşəsinin xəzan vaxtıdı,
Cüyürlər qoynunu gəzən vaxtıdı.
Qadasın aldığım nazlı dağlardan,
Bulaqların giley yazan vaxtıdı.

Aranda çinardı, dağda qayalar,
Qaya qalar, çinar gündə boy alar.
Əzəldən qayalar qala-səngərdi,
İgidlərə çinar deyib babalar.

Uzundur qanadın, qolun, a durnam,
Ərməğan eylərlər telin, a durnam.
Niskillisən, qərib-qərib ötərsən,
Yoxmudur bir yurdun, elin, a durnam?

Dünyada insandan bir nişan qalır,
Bəzən də ötəri bir ad-san qalır.
Özü də bilmədən köçür dünyadan,
Doğmalar, yaxınlar pərişan qalır.

Qarışıq dünyamın röyası muğam,
Dillən, ey könlümün dünyası muğam.
Dəyişib səsində anamın səsi,
Qəmə bələnibdi laylası, muğam.

İnci buludları başında saxlar,
Yazda gəlin kimi bəzənər dağlar.
Çağırar qoynuna şux gözəlləri,
Pirsultanda şərbət paylar bulaqlar.

Şair Nigar[1] gəzən yerdi Pirsultan,
Güllərini üzən yerdi Pirsultan.
O gözələ ayna tutub bulaqlar,
Telə nərgiz düzən yerdi Pirsultan.

Nədir, çinarların savaşıdımı?
Harayçı küləklər yavaşıdımı?
Yağır başımızdan çinar yarpağı,
Gəncə toylarının şabaşıdımı?

Dağlardan sellənib gələn, a Şəmkir!
Bənövşə, nərgizə bələn, a Şəmkir!
Meşələr qoynunda bir bəstəkarsan,
Nəğmə qoşa-qoşa dolan, a Şəmkir!

Elə keç, keçəndə Qız qalasından,
Ayırma gülləri gül talasından.
Qorxutma, sakit keç, coşma, a Şəmkir!
Qoy gəzsin, cüyürlər öz balasıynan.

Həsrətəm, görmürəm necəsən, dağlar?
Həmişə gözümdə ucasan, dağlar!
Xeyli vaxtdı səndən uzaq düşmüşəm,
Gərək günahımdan keçəsən, dağlar!

Hardandır bu istək belə sarmaşıq?
Dolanarsan Qızılgülə sarmaşıq?!
Bir səndəki eşqə, məhəbbətə bax,
Can atarsan zildən-zilə, sarmaşıq!

---

[1] Gəncədə doğulub boy atmış Azərbaycan xalqının şairəsi Nigar xanım Rəfibəyli nəzərdə tutulur (1912-1981).

Vüqarımı o dağlardan almışam,
İlhamımı yaylaqlardan almışam.
El bilir ki, duru axan bir çayam,
Saflığımı bulaqlardan almışam.

Səhər sən yuxunu o dağa söylə,
Axar çaya söylə, bulağa söylə.
Yuxu möcüzədir, xeyir taparsan,
O yanan çırağa, ocağa söylə.

Şeytan tonqal qalamasın içində,
Tülkü meydan sulamasın içində.
Qoy qəlbində bülbül yuva bağlasın,
Kor bayquşlar ulamasın içində.

Qoy desinlər, ədalətdi bu insan,
Qoy desinlər sədaqətdi bu insan.
Çağlasın qəlbimdə bir nur çeşməsi,
Qoy desinlər, məhəbbətdi bu insan.

Usta Kərim gör bir nələr yaratdı,
Ay camalın, gün rənginə boyatdı.
Yatmış idi tərlan kimi köksümdə,
Bir baxışın bu qəlbimi oyatdı.

Bulud olub, Kəpəz, səndən keçəydim,
Xəyyat olub, güllərdən don biçəydim.
Birdəfəlik köçürəydim qəlbimə
Göy göl , səni gözlərimlə içəydim.

Bir cam külək, bir cam alov, bir cam su,
Sən gördüyün aydı, gündü, ulduzdu,
Torpaqsız, bitkisiz, söylə bu nədi?
Bəlli deyil gecə-gündüz qanunu.

Gəz-dolan, sən məni o dağdan soruş,
Düzləri laləli yaylaqdan soruş.
Əgər görsən yoxam öz dağlarımda,
Nəğməmi nəğməli bulaqdan soruş.

Ürəyimin parasıdı Qarabağ,
Xançobanın Sarasıdı Qarabağ.
Ay Səfurə, yaralanmış qəlbimin,
Məlhəmidi, çarasıdı Qarabağ.

Qoyma torpağına düşə yad daşı,
Get-gəl yoxsa qohumun da yaddaşır.
Unutmayın düşmənini, dostunu,
Pozulmayıb tariximin yaddaşı.

Vətən gözdü, gözə kirpik olasan,
Sən də ona bir istəkli balasan.
Vətən ürək, Vətən ana, Vətən can,
Qalasının keşiyində qalasan.

Hər yanın sərt qaya Maldaşa dolan,
Şəlalən var dərələrə səs salan.
Sənin Portportun var, daş hovuzun var,
Əsgi daş göllərdən yadigar qalan.

Mənim ürəyimin başıdı qardaş,
Qızıl üzüyümün qaşıdı qardaş.
Dünən bacısının sevinc payıdı,
Bu gün gözlərimin yaşıdı qardaş.

Gülazardan keçər yolu Gəncənin,
Uzanar Kürəcən qolu Gəncənin.

Açar qızıl güllər qar yağa-yağa,
Otaqları bəzər gülü Gəncənin.

Ovçu ceyran gəzsən «Ceyran çöl»ə gəl,
Maral sorağıynan «Maral göl»ə gəl,
Əlləri xınalı kəklik axtarsan,
Pirsultan ünvanlı bizim elə gəl.

Yazda çaylar boz-bulanlıq, lil axar,
Lil sularda dəstə-dəstə gül axar,
Heç gözləməz zaman kimi axar su,
Həsrət qalar gülə bülbül, gülə xar.

Canında qəmin var, ay maral, maral,
Gözündə nəmin var, ay maral, maral.
Gəl, pünhan dərdini gizləmə məndən,
Uzaqda kimin var, ay maral, maral?

Günəş Ağyoxuşdan çıxdı sevindi,
Sular gümüşləndi, axdı sevindi,
Utancaq nərgizim, körpə bənövşəm,
Ala gözlərimə baxdı sevindi.

O, dünyanı gördü bir kuzə suda,
Gahdan zəhər oldu, bal oldu o da.
Sən az da yaşasan, çox da yaşasan,
Gedərgisən, adın qalar dünyada.

Yuxu qorxuludu, yuxu şirindi,
Yuxu mənə həsrət kimi göründü.
Yuxu unudulur, tez çıxır yaddan,
Həsrətin könüldə izi dərindi.

Ay Ziyadlı yurdu, Ziyad xan yurdu,
O bulaq daşını de, kim uçurdu?
Sonalar çayının sağ sahilində,
O əsgi çağlardan bir nişan vardı.

Könlümün sultanı, könlümün xanı,
Ömrün yaz çağıydı o günlər hanı?
Gəlsənə qayıdaq bir də gəncliyə,
Görüş yeri olsun, Daşbulaq yanı.

İşvəli, qəmzəli candı lalələr,
Gülzar yanaqları qandı lalələr,
Nəzərəmi gəldi, gözəmi gəldi?
Qoymayın, qoymayın yandı lalələr.

Bu şirin dünyanın, acı dünyanın,
Bəllidir, hamıya gücü dünyanın.
Sonacan başında qalası deyil,
Qızıldan olsa da tacı dünyanın.

Sözdən boya çəkim o gözəl hanı?
Mirvari sözlərim bəzəsin onu.
Gözlər bulaq, qəlb bir çəmən, üz bir gül,
Saçlar o gözəlin sünbülistanı.

Bir mənəm, bir odu, təkdi şəlalə,
Məni görcək bir ah çəkdi şəlalə.
Qoşa hörüyümün bəhsinə düşdü,
Saçların qayadan tökdü şəlalə.

Başımın üstündə oynama, bulud,
Qumlu bulaq təki qaynama, bulud,
Oturub çəməndə güzgülənirdim,
Gözündən yaş saldın aynama, bulud.

# HEKAYƏTLƏR

## SƏNƏK UÇAN

Çoban dağındakı mamırlı daşlar,
Dindirsən əski bir hekayət başlar.
Kimindi o miskin, qəmli məzarlar,
Niyə ondan söz açmamış yazarlar?
Burda yatan İsmayıldı, Sədətdi,
Söyləsəm, o qəmli bir hekayətdi.
Gəl, sənə söz açım Gəncə xanından,
Gəlib bir köç keçdi bir gün yanından.
Köç, nə köç, içində nazənin bir qız,
Xan baxıb göyərdi, xan oldu bumbuz.
Xan özünə gəlib söylədi: -Vəzir,
Beynimdə, gözümdə dumanlar gəzir.
Vəzir söylədi ki, anladım sizi,
Xanım, qan örtməsin gözlərinizi.
Özün də bilirsən, bu köç, nə köçdü,
Köçəri əlində çoxu qan içdi.
Hər şeydə bir tədbir, fəhmi-fərasət,
Zorla-güclə ələ gəlməz məhəbbət.
Həmin gün obaya, elçi də getdi,
Elçi qabağında bir şair bitdi.
İsmayıl söylədi: - Söz mənimkidi,
Xanınkı olammaz, qız mənimkidi.
Müjdəsiz xəbərdən pərişan oldu,
Xan yaman tutuldu, qəlbi qan oldu.
Gecə İsmayılla Sədət qaçdılar,
Səhərin gözünü dağda açdılar.
Dallarınca gəldi, ellər, obalar,
Gözəllər, gəlinlər, nənə-babalar.

Gəlib keçdi neçə həftələr, aylar,
Neçə yol bulandı, duruldu çaylar.
Sədəti nədənsə kədər üzürdü,
Kəklik təki qayalarda gəzirdi.
O dağda, bu dağda çiynində sənək,
Gedərdi, gələrdi bulağa da tək.
Dərd, kədər Sədətin ağlını almış,
Çiynində sənəyi qayadan salmış.
Bəd xəbər həyatda bir yüyrək atdı,
Eşitdi, İsmayıl çox fəryad etdi.
Qoşmalar söylədi, ağılar dedi,
Ay həyat, ay həyat, bax, sonun budur.
İsmayıl qoymadı keçə bir zaman,
Dağların başını alanda duman.
Enib Sədət uçan qayaya gəldi,
Atıldı qayadan, dibində öldü.
Ölümlər yandırdı, yaxını, yadı,
Sənəkuçan qaldı qayanın adı.

## DAŞAĞIL

Daşağıl, ay Daşağıl,
Sirli-sehirli nağıl,
Deyirlər ki, bir zaman,
Dağlar olanda duman,
Kahadan çıxıb bir gün,
Suyundan içib Şəbdiz,
Uğandan keçib Gülgün.
Onları görüb dağ, düz,
Kotanlara çatıblar,
Gecə orda yatıblar.
Tapıblar məzarını
Fərhad ilə Şirinin.

Gəzib gül-gülzarını,
Hərəsi də birinin
Damağıyla dərdiyi,
Dərib könül verdiyi
Ağ-qırmızı gülləri
Məzarların üstünə
Ağlayaraq səpiblər.
Muncuq-muncuq o atlar
Göz yaşı da töküblər.

## BU SEVGİ QANDI

Tağlabiyanlı,
Sözlü-dastanlı
Şamil baba[7].
Sazı bənzərsiz,
Sözü bənzərsiz,
Özü bənzərsiz,
Yolu Şirvan yolu,
Sinəsi sözlə dolu
Şamil baba!
Bu gecə Kərəm oldu,
Birdən dəyişdi halı.
Qəlbi dərd-vərəm oldu,
Qürbətə düşdü yolu.
Kərəm uzağa getdi,
Dünya gözündən itdi,
Qabaqda bir dağ bitdi.
Keşiş çoxlu tilsim qurmuş,
Yola min-min düyün vurmuş.

---

[7] İsmayıllı rayonunun Tağlabiyan kəndində doğulub orada da vəfat etmiş Azərbaycanın məşhur, qocaman aşığı Aşıq Şamil nəzərdə tutulur.

Yandı, ürəyi bişdi,
Bir bulağa yetişdi.
Yanında su var ikən
Bişdi, ürəyi bişdi.
Ağzının alovundan
Ətrafa çınqı düşdü,
Sazın köynəyi yandı,
Vallah, bu sevgi qandı.
Kərəm qaçdı, nə qaçdı,
Neçə dağ, bələn aşdı,
İstanbula yetişdi,
Beşikdaşı aradı.
O Beşikdaş haradı?
Yetişdi Beşikdaşa,
Əslisiylə tapışdı.
Qəm evinə gün düşdü.
Bir an durdular qoşa,
İki həsrət baş-başa.
Gözlərin buludundan,
Damcılar düşdü daşa.
Yağış yağdı, şeh oldu,
Kərəm çox bikef oldu.
Hicran düşdü araya,
Yaman düşdü araya.
Əsli gözündən köçdü,
Dünya, hər işin heçdi.
Qeysərə yola düşdü.
Beşikdaşdan çıxıb,
O, Beşdaşa yetişdi.
Kərəm yenə bu yerdə,
Əslisiylə görüşdü.
Sevinci bircə andı,
Kədəri bir cahandı.

Qeysəriyyə paşası
Ziyadxanın yaxını
Bu işdən xəbər tutub,
Çin eylədi yuxunu.
Keşiş razı olsa da,
Hiyləsindən qalmadı,
Ətəyindəki daşın
Birin yerə salmadı.
Yenə bir hiylə qurdu,
Tilsiminin toruna
Vurdu, min ilmə vurdu.
Yandı, o Kərəm yandı,
Yandı vüsal gecəsi.
Əslisi də odlandı,
Yandı vüsal gecəsi.
Külü külə qarışdı,
Demə, dünya barışdı.
Beləcə Şamil baba,
Bitirdi hekayəti,
Yandırdı məhəbbəti.
Neçə illərdən bəri,
Şirvanda söylənilən,
Yazıq dərdli Kərəmin
«Beşdaş səfəri»di bu.
Gözlərimdən axır su.
O nakam aşiqlərin,
Gözdə qaldı arzusu.
Yandı, ay Şamil baba!
Eşqin məbədi yandı
Vallah, bu sevgi qandı.

## «ZOĞAL PİRİ» - GÖZƏL PƏRİ

Kim bilir ki, «Zoğal piri»,

Sən bir pərisən, pəri.
Dağlardan endin ki, düzə
Gülüm, gəldin yaman gözə.
Qaldı Dağıstan dağları,
Qaldı o buz bulaqları
Səni biri alıb qaçdı,
Altında at qanad açdı.
Bilməzdin ki, aran nədi?
Orda Günəş, burda Günəş,
Bəs qəlbini yaran nədi?
Elə bil, təndirə düşdün,
Bir andaca yandın, bişdin.
Sevgilinin qolu üstə,
Qız, yarımçıq yolu üstə
Sən can verdin, vaxtsız köçdün,
Nakam qız, qürbətə düşdün.
Heyf, heyf, dağlar qızı.
Bu könlümün ağlar qızı.
Ormanlıqda o tək məzar,
Üstündə bir möcüzə var.
Burda bir zoğal zoğ verdi,
Sırğaların qulağında.
Dörd tərəfin laləzarlıq,
Yatırsan gül yatağında.
Toy olan qız əlləriylə
Gəlin tək bəzəyər səni.
Ruhundan alqış alar,
Oxşayar, əzizlər səni.
Adın qalmış «Zoğal piri»[8],
Uyu, uyu Gözəl Pəri.

[8] Zoğal piri – Qax rayonunun İlisu kəndi yaxınlığındadır.

# II Hİssə

# POVEST

## SÜLEYMAN DAYI

Dedilər, Süleyman kişinin başına hava gəlib. O, ötən gecələrin birində, doqqazdakı kötüyün üstündə oturub haçansa zoqquldamışdı, «Ay Həsənim – a şər-şəmədəni kəsənim, hardasan? – demişdi. – Ay Hüsənim – a hər şeydən küsənim, neynirsən? – söyləmişdi. Sonra da sonbeşiyini haraylamışdı: - Ay Süsənim – a ürəyimi üzənim, nətərsən?» Heç yerini də bilmədiyi balalarının xəyalı ilə danışmışdı, ağlamışdı. Kişi dərdini götürüb çölə çıxmışdı ki, ömür-gün yoldaşı, uşaqlarının anası Qızxanım qarını göynətməsin, həmişə ürək-dirəklə ovundurduğu anaya bir çimir yuxunu haram eləməsin. Süleyman kişinin bu dərdi-dilini də hansı oyaqsa, hansı duzsuzsa eşitmişdi; o da öz tayının birinə demişdi. Bu söz bircə nahar vaxtınacan boş qab-qazana səhər ertə doldurulan su kimi ağsaqqalların, ağbirçəklərin qulaqlarına çatmışdı, sonra da hərəsi bunun üstündən ala-ala, üstünə qoya-qoya bu gerçəyin «dinini-donunu» dəyişmişdi. Qarıların bəzisi boşuna belə heyi çatmayan cürdəyini götürüb yol basa-basa onların suatına gəlmişdi. Gen tumanını altına sərib arxın qırağında oturmuşdu. Yalandan qurdalanmışdı ki, Qızxanım qarı həyət-bacada, doqqazda görünən kimi ona bir «sabahın xeyir» desin, ağzını ağzına çatdırsın, ordan-burdan «şər-şürə» kəsə-kəsə onların içini-içliyini öyrənsin. Bəzisi doqqazı, suatı boş, qapı-

bacanı kimsəsiz görəndə ötüb qonşudan soruşmuşdu:

- Az, nə var, nə yox?

- Sağlığın, ay nənə.

- Ağırlığını yola salmışlarınız nətərdi, ay imanım?

- Duaçıdırlar, iman yiyəsi olasan.

- Gədələrdən nə var, ay işığım?

- Kağızları gəlir, ay nənə. Yazırlar ki, davanın yaman yerindəyik, amma bu qırğın-qiyamət yaxın vaxtlarda qurtaracaq, gedənlərin hamısı, biz də onların içində, qayıdıb gələcəyik.

- Allah eləsin… Allah eləsin… Allah su bulandıranın suyunu bulandırsın… Ayrı nə var, nə yox, a qadan alım?..

-Ayrı daha nə var, nə ola, ay nənə, sağlığın…

-Az, bu qonşularınız nətərdilər? Bu Qızxanımgili deyirəm e… Bir çölə çıxanları da yoxdu, adam görə onların gədələri nə yazırlar. İki oğuldan birini evləndirmədilər ki, qabaqlarında gəlin hərlənə, nəvə dığırlana, belə gündə qata onların başını.

- Yaxşı ki, evləndirməyiblər, ay nənə, bu da onlara bir gözdağı olardı.

- Az, ağzını xeyirliyə aç, nolub ki, onlara?

- İki oğlu gedib, bir qızı gedib davaya, bundan artıq nə olasıdı, ay nənə?

- Ayrı nə olub, a bala?

- Ayrı heççə nə, ay nənə.

Qarı görürdü ki, bu qonşu qızı onun eşitdiyinin ucundan-qulağından heç nə demir, o da ağartmırdı. Axı, Qızxanım qarı xeyirdə-şərdə onun üzünə çəkib deyərdi ki, «az, ay imanı yanmış, həmişə gəldiyin ev deyilmi, niyə böyrümüzdən ötüb halımızı qonşudan

xəbər alırsan? Bağda ərik vardı, salammǝlik də vardı, bağda ərik qurtardı, salam-məlik qurtardı? Soruşmursuz, ölmüşük, ya qalmışıq? Süleyman taxtdan düşəndən sonra, deyəsən, bizi heç tayəlli də tutmursunuz. Süleyman atdan düşdü, nolar, - gec-tez düşməliydi, hansı atanın oğlu düşməyib o atdan? Gədələrin biri minər o ata, allah qarğamayıb, ikisindən biri qayıdıb gələcək; o Süleymanın yerini bu Süleyman tutacaq…»

Bəzisi də istəyirdi bir kasa qatıq-süd götürüb, pay-püşla gəlsin, görsün bu deyilənlər gerçəkdimi, yalandımı? Yaxınlı-uzaqlı hamının gözü onların doqqazında, bağ-bağatında olurdu. İstəyirdilər Süleyman kişini görsünlər. Onun hal-havasını hərlənişindən biləcəkdilər. Qıraq-bucaqdan göz qoymağa da qorxurdular. Tükü-tükdən seçən Qızxanım qarının dilinə, çənəsinə düşənlər, gərək baş götürüb bu kənddən birdəfəlik köçəydilər, bu tərəflərdə bir də görünməyəydilər.

Amma heç kim Süleyman kişinin dəli olmasını istəmirdi. Ona əvvəllər də «Dəli Süleyman» deyirdilər, amma o «dəlilik» bu «dəlilikdən» deyildi. Süleyman kişinin o «dəliliyi» düz iyirmi il çəkdi. Onda Süleyman kişi qırğı baxışlı, iti gözlü, Koroğlu bığlı bir oğlan idi. Belində tapançası, çiynində tüfəngi, şahqatarı, meşin şapkası vardı. Elə ki, Səkil kürənin belinə qalxırdı, at onu dağlara, meşələrə aparırdı. Başının dəstəsi səkilin qoyub getdiyi karvan süzüşlü toza təpilirdi. Çox keçmirdi ki, dağlardan, meşələrdən Səkilin kişnərtisi, Dəli Süleymanın nərəsi, həmişə dabanda olan tüfəng, tapançasının şaqqıltısı gəlirdi.

Dəli Süleyman o illərdə nə qədər güllə atdı, hamısı havaya getdi, bircə adam da öldürmədi,

yaralamadı. Onların bəyi-xanı da vardı, qaçaq-qulduru da, haya-küyə düşüb onlara qoşulanı da. Onun nər kişilərə, nər oğullara heyfi gəlirdi, camaatın içində onlara bircə kəlmə də ağır söz demirdi. Camaatın içində onları dindirib-söylətmirdi ki, bunların da hərəsi bir kişidir. Onsuz da keflərini boğazlarına dolayıblar, bu son ayaqda, bu ağır köçdə toxunaqlı söz götürməzlər. Birinin əvəzinə beşini qaytararlar. Allah alıb bunların ağlını, fikirləşmirlər ki, qış göydə keçməz, yerdə qışlayar. Sən başını meşəyə soxmaqla canını qurtarmayacaqsan? Təzə sənə nə deyir ki, tərsə çəkirsən? Deyir: Torpağını ver, sürünü, naxırını, ilxını ver, qoy elliyinki olsun, hamınınkı olsun, təkcə sənin ağzın ağarmasın, sənin bığın yağlanmasın, təkcə sənin üzün lalıxmış zoğal kimi qızarmasın, bunlar da sənin kimi adamlardır, qoy bunlar da bu dünyada bir dad dadıb, bir tam duysunlar. «Mənimkidi» deyib nə bərk yapışmısan bu dünya malından? Bu hardan səninki oldu? Yerini əkib-becərən mən, mal-qoyunu qışın zığ-zımrığından çıxaran mən, ununu-dənini, yağ-yavanlığını dəcləyib-durulayıb yığan-yığışdıran da mən. Bəs, a köhnə dəyirman, mənə bir xəşillik ard unu da qalmasın? İndi bu kişinin oğulları deyirlər ki, hamı hər şeydə tən gərək. Düz demirlər? Bəs biz də insan deyilik? Sizi ana doğub, bizi yox?

Dəli Süleyman mərkəzə bir çapar qaçırırdı. Onun yollara sərdiyi toz yatmamış «Troyka» gəlirdi. Hərəsinin altına bir çanaq qoyurdular, qabaqlarına da birini. Qabaqlarına qoyduqlarının üstünə güllü yaylıq sərirdilər. «Troyka»nın ortada oturan başçısı, meşin pencəyinin qoltuq cibindən qatlaqlı bir qalaq kağız çıxarırdı, karandaş çıxarırdı. Kağızların da hamısı yazılı olurdu, hazır gətirirdilər. Başçı onların

birinin adını soruşurdu, sonra onun adına yazılmış kağızı tapırdı. İrəli qaçırırdı, şəhadət barmağının başını özünə tüpürcəklətdirib karandaşın şiş ucu ilə gömgöy boyayırdı. Kağızın ayağına barmaq basdırırdı: «Get», - deyirdi. O adam yoldaşlarının yanına üz tutanda ona acıqlanırdı:

- Ora yox, bu yana!

Ona kimsəsiz tərəfi göstərirdi, qoynundan tapançasını çəkirdi.

Süleyman özünü qabağa verirdi:

- Dayan, əl saxla. Qoruq basmış heyvandı? Malını aldıq? Aldıq! Torpağını böldük? Böldük. Mülkünü elliyinki eləyib, içində idarə qurmuşuq? Qurmuşuq! Arvad-uşağı biz deyəni deyir? Deyir. Bəlkə, özü də biz çaldığımız havaya oynayacaq? Yıxmağa nə var, hünər tikməkdədir.

Dəli Süleymanla «Troyka»nın sözü düz gətirmirdi, çəpləşirdilər, mərkəzə gedirdilər. Hamının gözü yollarda qalırdı. Yola, yalaşana baxırdılar, gündüzlər o tərəfdən, yəhər dağın qılıcında görəcəkləri qaraltıdan biləcəkdilər ki, Dəli Süleyman necə gəlir – sözü keçib, ya keçməyib. Səkil kürən ox kimi süzəcəkdisə, Dəli Süleymanın «dəliləri» də onun dalınca muncuq-muncuq düzüləcəkdisə – apardıqlarının birinə də güllə atılmayıb, o hazır kağızlar təzədən yazılıb. Yox, əgər dəyirman ulağı-qatırı kimi qulaqlarını sallayıb, ölüm-zülüm yeriyəcəkdisə – deməli, Dəli Süleymanı Gizir oğlu Mustafa bəy çaya basıb buraxıb.

Amma Dəli Süleymanın belə səfərdən gəldiyini bircə dəfə görmüşdülər. Onda da onun yalaşandan nə zaman çıxdığına, kəndə hansı hal-havada girdiyinə fikir verməmişdilər. Görmüşdülər ki, kefi özündədi – meşin şapqasının dalı təpəsinin

ortasındadı, boğazlı çəkmələri par-par parıldayır, bığları şeşpərlənib, hərəsi bir buynuz kimi qalxıb. Baş barmağının hərəsini bir yandan kəmərinə keçirib.

Dəli Süleyman həmişə gecə qayıtmışdı. Səkil kürəni həmişə də yalaşanda kişnəmişdi. Bu kişnərti evlərin hamısında gözaydınlığı kimi eşidilmişdi. Meşələrə, dağlara düşmüşdü, bundan sonra çaylar züy tutub zümzümə demişdi. Meh bu sorağı götürüb çöllərdə, düzlərdə oxuda-oxuda dərələrə axıtmışdı, axırda da Dəli Süleyman şikəstə çəkmişdi:

***Əzizim, Qarabağı…***
***Gəncənin qara bağı…***
***Tülək-tərlan uçurdum,***
***Ayaqda qara bağı…***

O vaxt Qızxanımın da yaxşı vaxtıydı. Komsomol özəyinin böyüyü idi. Ağ yallı qara bir atı vardı. Yeriyəndə dabanı oturacağını, dizi döşünü döyən, bığ yeri təzəcə tərləmiş, səsi təzəcə kədərlənmiş oğlanlar, gədələrlə «eşşəkbeli» oynayan, öz dədə-nənəsinin də üzünə çəmkirən, dilotu yemiş qızlar da onun başına yığışmışdılar. Kəndin altındakı örkəndolanmaz çinarın altı onların mərəkə yeri idi. Bir də görürdün, hərəsinin yedəyində yəhəri-yüyəni də yox, çıl-çılpaq, boğazı çatılı bir yabı, bir ürkə, yığılıblar ora. Ortada da Erkək Qızxanım. Erkək Qızxanım küpəyir onların qabırğalarına, yumruğunun birini havada oynada-oynada danışır, elə bil taxtaya, divara mismar çalır. Elə ki, Erkək Qızxanım öz Ağyalına atılırdı, günün hansı vaxtı-vədəsi olur-olsun, onlar qızmar sacda partlaşan quru qarğıdalıya dönürdülər. Hərəsi də öz

yabısına, ürkəsinə sıçraşırdı. Kəndə gurultu ilə girirdilər, hərəsi bir doqqaza burulurdu, çin-oraq götürüb öz atlarını çöllərə çapırdılar, zəminin bir tərəfindən salışıb dərzi-dərzə söykəyirdilər, ya da hərəsi çiyninə bir kərənti alıb, biçənəyin bitilisini yanı üstə qoyurdular. Xırman döyüb, taxıl sovururdular. Belə ilanyalı tayalar vururdular, belə qoyun qırxırdılar. Belə yer şumlayırdılar, belə qoyunu-malı sandan keçirirdilər, demə gördüm ər-kişilər… çoxu saz çalan idi, oxuyan idi, özündən, sinədən söz deyən idi. Oyun havaları da çalırdılar, oynayırdılar. Nağaraları, dəfləri də, çəpikləri də olurdu, havanın qalxımında, enimində, dönümündə əllərini elə tappıldadırdılar ki… Səs çıxmırdı. Onun-bunun sözlərini oxumurdular, özlərinin düzüb-qoşduqlarından deyirdilər. Hər qoşmaları, hər gəraylıları, hər müxəmməsləri, hər həcvləri bir adamın öz dilindən, qohum-qonşusunun, ata-anasının tapşırmasından nizamlanırdı. Təxəllüs bəndində də həmişə «komsomolçu» olurdu, «komsomol özəyi» olurdu, böyük bir dəstənin bütün el-obaya çatdırılması ərzi-halına çevrilirdi. Erkək Qızxanım «beyniqan, sırtıq, həyasız», amma, adamın üstündə allah var, gərək haqqı nahaqqa verməyəsən, qoçaq dəstə başçısıydı. Hərdən bir ör-kəndolanmaz çinarın altında «qəmədiyə» hazır-layırdılar, camaatın boş-behtin vaxtlarında kəndin ortasında «qəmədiyə» göstərirdilər. «Qəmədiyələri» də həmişə tənbəldən, gizirdən, qızını məktəbə, arvadını axşamlar savad kursuna qoymayan, bunu biqeyrətlik sayan atalardan, kişilərdən danışırdı, onlar necə vardılarsa eləcə, olduqları kimi ortalığa-aralığa qoyulurdu.

Bir dəfə «anbardar qəmədiyəsi» qurmuşdular. Bu «qəmədiyənin» adı, yığcam məzmunu, göstəriləcəyi tarixəcən bildirilən elanlar, iri kağızlara yazılıb kəndin hər tərəfində, yol üstündə bir neçə ağaca xəmirlə yapışdırılmışdı. O axşam «qəmədiyə» bir az gec başlandı. Erkək Qızxanımın adamları çoxdan torpaq töküb ayaqladıqları, təpikləyib bərkitdikləri «Gərk» yerinin yan-yörəsinə sancdıqları haça payalardan fanarlar asmışdılar. «Qəmədiyə»də bir anbardar vardı, bir anbar gözətçisi, bir də onların arvad-uşaqları. Anbardar gözətçi ilə himləşirdi, anbarın qapısını açırdı: qabaqca gözətçinin payını verirdi, sonra öz çuvallarını doldururdu, arvad-uşağının çiyninə, kürəyinə aşırır, özü də ən yekəsini, ən ağırını götürürdü. Anbardarla gözətçinin evində o gecə bişirib düşürürdülər, yeyib-içirdilər. Aradan az keçmiş onların hərəsi qarnını tutub, bir tərəfdə yumaqlanırdı. Hamısı: «Oy… Qarnım» - deyib bağırırdı. Hamısı: «Oy… Qarnım cırıldı» - deyib qışqırırdı. Onların qarnından kənddəki adamların səsləri gəlirdi: «Mənim payımı niyə yedin? Mənim balalarımın halal qismətinə niyə haram əl uzatdın? Yoğurub yapmamışdın. Hazırca kökə tapmışdın? Deşəcək qarnınızı bizimkilər. Zəhərə dönüb zəhərləyəcək hamınızı…»

Anbardar bu səslər çölə çıxmasın deyə arvad-uşaqlarının üstünə yorğan-döşək atırdı, palaz-kilim salırdı.

Gözətçi isə aynalara, qapıya palaz tuturdu. Lakin ört-basdır elədikcə bu səslər daha da güclənirdi. Halal səslər bu evlərdən dustaqdan qaçan kimi çıxıb qaçmaq, özlərini öz sahiblərinə çatdırmaq istəyirdilər.

Bu yandan anbardarın, o yandan da gözətçinin evinə bir koma adam doluşurdu. Soruşurdular:

- Anbardar, bu camaat nə gəzir burada, səndən nə istəyirlər?

Anbardar qırqınc olurdu, əzilib büzülə-büzülə nazik əriyirdi:

- Başınıza dönüm, gecənin bu vədəsinə toy eləmirəm ki, evimdə yad-yadağa ola? Özümüzünkülərdi… Qulağınız səsə düşüb, qara basıb hamınızı…

Evin hər tərəfində sərilmiş yorğan-döşəyin, palaz-kilimin altından bayaqkı səslər, qışqır-bağırtılar yenidən qopurdular. Danışanın biri Əlidir, biri Vəli. O birisi Hüseyndi, Yasəmən arvaddı, uzun Məhəmməddi, gödək Şəmşəddindi.

Gələnlər yorğan-döşəyi, palaz-kilimi götürüb qırağa sürüdükcə, kənara qoyduqca iş dəyişirdi. Anbardarın doğanağa dönmüş arvad-uşaqlarının hər birinin qarnına, sanki, bir radio qoşmuşdular. Elə bil ki, evindəkilərdən savayı kəndin nə qədər adamı vardısa, uşaqlı-böyüklü ora yığışmışdılar. Dilsiz körpələr ağlaşırdılar. Analar qarğış yağdırırdılar, kişilər haqq divanı qururdular, anbardarla gözətçini ortaya çəkirdilər, dindirirdilər, ikisini də cəhənnəmə yazırdılar. Deyirdilər: el əmanətinə xəyanət olmamalıdır. Xəyanət cəzasız qalmamalıdır.

Erkək Qızxanımın dəstəsi o iki adamın xəlvət işini elə yerli-yataqlı açmışdı, elə «qəmədiyəyə» qoymuşdu ki, baxandan sonra anbardarla gözətçi bir qaranlığa çəkilib təklikdə bir sorğu-suala başlamışdılar:

- Ə, səninkilər bilmişdilər ki, apardıqların hardandı?

Gözətçi xırıldamışdı:

- Yox, başın haqqı.

Anbardar bir əlini onun çiynine basmışdı:

- Ə, yavaş danış, bunu da eşidərlər. Bəs bu Erkəyin gədələri kimnən eşidiblər?

Gözətçi çiyinlərini çəkmişdi:

- Onlar şeytan kimi şeydilər. Elə bil, adamın canına giriblər, qaşıynan gözünün arasında hərlənişirlər. Danışma, bəsdi, bunlar da çatar qulaqlarına. Bunları da qoyallar «qəmədiyəyə».

Onların hərəsi, camaatdan xeyli aralı, bir qaranlığa çəkilib «qəmədiyənin» sonuna baxanda gördülər ki, indicə danışdıqlarını da göstərdilər.

Bir də üz-üzə gəlmək, göz-gözə durmaq istəmədilər. Amma hər ikisi də qaranlıqdan qaranlığa əkildi.

Bu «qəmədiyədən» sonra çoxlarına elə gəlmişdi ki, Erkək Qızxanımın kənddəki evin sayı qədər, bəlkə də daha çox qasidi var, əyyarı var, xəbərçisi, qulaqçısı var. Harada nə danışılsa, hansı dəyədə, hansı komada nə iş görülsə hamısını ona çatdıracaqlar. Əri arvadından da kəmfürsətdir. «Su axıb, çuxuru tapıb». Allah heç kimi onların dilinə, felinə salmasın. Adamı elə biismət eləyərlər ki, ölüm də o biabırçılığın yanında heç nədir.

Dəli Süleymanın gözünün düşməni üzdə düz, ürəkdə əyrilər, əliuzunluq eyləyənlər, gözüdağınıqlar idi. İllah da pis nəfslilər. Toylarda həmişə Ələsgərin «Görmədim» ustadnaməsini dedirdərdi. Aşığı oxudar və qabaqcadan da tapşırardı ki, «tərcüman» elə. Aşıq da hər bəndi oxuduqdan sonra sazını boğazlayıb xırp kiridərdi, məclisdəki pıçıltının da kəsilməyini gözləyib hər bəndi bir ata, bir ağsaqqal kimi söyləyərdi:

***Nəfs aldatdı, hər yetənə xan dedim,***
***Bihudə güllərə gülüstan dedim,***
***Əbəs yerə bivəfaya can dedim,***
***Zəhmətin çox çəkdim, karın görmədim.***

Dəli Süleymana görə bütün yaramazlıqların hamısının kökü nəfsə bağlı idi. Hamısı nəfsdən törəyir, nəfsdən pöhrələnirdi. Bu şaxənin, qol-budağın birini, ikisini qırıb atmaqla nəfsin kökünü kəsmək olmazdı, bunun kökü adamın canında, qanında idi, bunu yox etməkdən ötrü gərək adamın canını alasan, saplaq-saplağa bitişmiş bir salxım kimi qırpıdıb qırağa atasan, qoymayasan böyür-başındakıları da xarab eləsin, çürütsün, məsrəfdən çıxartsın. Amma insan meyvə deyil ki, dadı-tamı xoşuna gəlməyəndə dişləyib atdığın kimi qolazlayasan, itulayana tullayasan. Bu, adamdır! Adam ağılla çıxır sağ-sahmanlığa. Gərək başına ağıl qoyasan. Kim desə ki, «quyunun gərək öz suyu ola», mən inanmaram, belə cəfəng sözlər beynimə heç vaxt batmaz. İnsan daş-dəmir deyil ki, ona söz kar eləməyə! Uçuruma, yarğana Allahın heyvanını da qısnayırsan - getmir, yerimir, irəli itələyəndə də özünü geri verib üstünə yıxılır. Adamın qulağına yaxşı şeyləri əridib doldursan, ən vacibi də özün pis işlərə qurşanmayıb dediyin, öyrətdiyin kimi eləsən, o da bəri dönər. Bəlamız, azarımız onda sağalmaz olur ki, danışanda düzlükdən, halallıqdan, kamillikdən dəm vururuq, amma o yanda canavarın adını bədnam eyləyib dana qarnı dağıdan çaqqala dönürük.

Dəli Süleyman deyirdi ki, bu kəndin prokuroru da mənəm, məhkəməsi də. Mən camaatı ayaqaltı eləmərəm. Amma gərək camaatım da camaat ola,

məni mühafizə eyləyə ki, özümdən böyüklərin qabağında başım sinəmə düşməyə.

O, nəinki kişini arvad yanında, heç öz həmcinsi, tay-tuşu qabağında da danlamazdı. Çağırtdırıb salardı kabinetə, pula döndərib buraxardı. Günahlılar, qələtlilər Dəli Süleymanın kabinetindən qışda da çıxanda buğlana-buğlana, qaynaya-qaynaya, əl-ətəyi ilə boyun-boğazının tərini silə-silə gedərdi.

Bircə dəfə bir adamı yaman döydü. Kabinetində, idarədə yox, kəndin günbatan tərəfindəki dərənin uzaq boğazında - Çayqarışanda. Çayqarışana üç dağın suyu axıb gəlirdi, qayanın başından tökülürdü, daşlara dəyib- çırpılıb dağılırdı, gur-gur bağırırdı, çığırırdı, bu duru suların hirsi-hikkəsi çox zaman qışda da kəsilmirdi. Su qətrələri dərəni doldururdu ki, gün düşəndə ora al-əlvan işartıların oynaşığına, qaynaşığına çevrilirdi.

Dəli Süleyman həmin adamı orda şallağa tutub ayı kimi bağırdanda qışın oğlan çağıydı, çovğun ulayırdı, külək yollardan sovurduğu qarı dərələrə doldurur, sırsıralı ağacları əyib iki qatlayırdı, qol-budağını qırıb yerə tökürdü.

O gecə o adam hey: «Ay Allah, öldüm, ay Allah, yandım», - dedi. Kəndin neçə adamı əlinə dəhrə, yaba götürüb onun harayına getmək istədi. Lakin Səkil kürənin kişnərtisini eşidəndə qayıdıb, təzəcə qızdırdıqları yerlərinə girdilər. Bildilər ki, onu asıb-kəsən Dəli Süleymandır. Bir əli od olsa da, bir əli sudur. Günahkar nə qələtsə eyləyib. Özü də elə-belə xırda iş deyil, böyük axmaqlıqdır. Yoxsa o kişinin dəli keçiləri hər şeydən ötrü bu cür dingildəməz.

İndiyəcən də heç kəs bilmədi ki, Dəli Süleyman həmən o qış gecəsində səsini Çayqarışanın hay-harayına qatıb bağırtdığı kim idi, onu nəyə görə dağ-dağ eləyirdi?!

Dava qəfil başlandı. Xəbər də qəfildən eşidildi. Ondaca Süleyman kişinin gözlərinə tor gəldi. Həsənlə Hüsəni - bu ekiztaylarının ikisini də bir gündə yola saldı. Onlardan ikicə ay sonra da Süsəni göndərdilər.

Süleyman kişi oğlanlarının yekəlib adam olacaqlarına qətiyyən inanmazdı. Hələ o vaxt, ekiztayları dünyaya gələn zaman həkimlər uşaqların atasına demişdilər ki, «Anormaldır, amma süddən kəsilib yeməyə başlayan kimi bunlara göy-göyərtini, şorba şiləsini, meyvəni çox yedirtmək lazımdır. Kökün də gərək qədəri olmasın. Gərək həmişə işləsin bunların çənəsi, üyütsünlər vaxt-bivaxt». Doğrusu, onlar əllərinə nə gəldi tıxayanda da hərəsi bir topalaq boyda idi. Hərəsi bir cırtdana oxşayırdı, Süleyman kişi hər onları görəndə yadına «cırtdanın nağılı» düşürdü. Fikirləşirdi ki, iki yaşdan keçiblər, amma yenə də eşşəyin qulağına sığışası boydadırlar. Amma gözlərini yumub onların səslərinə, danışıqlarına qulaq asanda, təsəvvürün dəyişir; deyirsən, yox, bunların hərəsi on-on iki yaşlı uşaq ağıldadırlar.

«Gədələr» körpəlikdən diribaş idilər. Yaman höcətlikləri, dalaşqanlıqları vardı. Gücləri çatmayanı dişləyirdilər, bunu da elə-beləcə yox, sıxıb buraxmırdılar. Siçan dişlərini kimin ətinə batırırdılarsa, əsir-yesir eyləyib dallarınca süründürürdülər, onlara yalvardıqca gözləri yaşara-yaşara gülürdülər. Kimin danası, düyəsi onların doqqazından keçirdisə, kimin inəyi onların suatından

su içirdisə, çəyirtkə kimi atılıb quyruğundan yapışırdılar, danalar mozalan sancmış təki götürülürdü, düyələr böyürürdü, inəklər fısqırıb öz çiyinlərini buynuzlaya-buynuzlaya qaçırdı. Oğlanları da sürüyüb öz quyruqlarında aparırdılar. Süleyman kişinin evinin yanından örüşə gedən, naxırdan qayıdan mallar «gədələri» elə tanımışdılar ki, onların siçan qulaqları kimi başlarından yuxarıda görünən qulaqlarını gözləri çalanda geri götürülürdülər.

Əllərinə kimin eşşəyi keçsə şərtləşirdilər, eşşəklər soncuğa qalxanda yekə başda yaxşı durmayan papaq kimi yerə dığırlanırdılar, qalxıb yenə minirdilər. Axşamacan heyvanın başına döyür, quru nar tikanı ilə bizləyirdilər. Onları eşşəklər də görəndə anqırışır, balasını döşünə alıb, özlərini sıldırımlığa verirdilər, kol-kosluğa girirdilər.

Elə ki, məktəbə getdilər – əlaçı oldular, ev tapşırıqlarını məktəbdə elədilər, sabahkı dərslərə də orda hazırlaşdılar. Bir dəfə eşitdikləri, bir dəfə oxuduqları hafizələrindən silinmirdi, bir dəfə gördükləri yaddaşlarından pozulmurdu. Dərsdən sonra, istirahət günlərində, qış, yaz-yay tətillərində özlərindən böyüklərin dərsliklərini alıb oxuyurdular. Müəllimlər deyirdi ki, bu uşaqlar möcüzədir, özləri beşdədir, amma səkkizin-doqquzun məsələ-misallarını həll edirlər. İnsafından dön, Nizaminin «Leyli və Məcnun»unu tapşır, səhərəcən əzbərləyəcəklər, səhər də soruş, birnəfəsə döşəsinlər. Bəzi müəllimlərin belə dili çətin tutan Füzuli qəzəllərini xəbər al, onları əruzun üstündə elə qiraət etsinlər ki, özünün də xoşuna gəlsin. Əşi, bu zalım balaları elə bir patifon vallarıdı, nə durğusunda səhv buraxırlar, nə vurğusunda.

Müəllimlər Süleyman kişiyə məsləhət görmüşdülər ki, Həsənlə Hüsəni humanitara salmasın, bu, onların gücünə görə çox yüngül ixtisasdır, bunu təhsil görmədən, sərbəst mütaliə ilə də qazana bilərlər. Onlarınkı fizikadır, kimyadır, onlar bununla dünyamıza böyük xeyir verərlər.

Süleyman kişi də ekiztayları öz həvəslərinin ixtiyarına buraxdı, meylləri də onları çəkib fizikaya apardı.

İnstitutu bitirdilər. Müəllimlər onları buraxmadılar, institutda saxladılar, hətta, xüsusi dəvətnamə ilə Süleyman kişini Bakıya çağırdılar, orada dedilər: «Bu balaların böyük gələcəyi var, hələlik biz onları öyrədirik, amma çox da yox, az vaxtdan sonra biz onlardan öyrənməli olacağıq. Halal olsun sənə, belə övladlar böyütdüyünə görə…»

O cırtdanlar, dəcəlxatalar instituta girəndən sonra necə boy atdılar, ilahi?! Qış tətilinə gələndə çox adam onları tanımadı. O fındıq boyda başları da iriləşmişdi. Kürəkləri arşınla ölçüləsi olmuşdu. Yeriyəndə, iki barmağın arasından sıxılıb çıxan zoğal tumu kimi süzən balaca balalar, indi hər addımlarında bir ləngər vururdular, adam beş-altı ay bundan qabaqkı dingilişliklərini indi qətiyyən yaraşdırmırdı. Necə də hörmətcil olmuşdular: uzaqda, yaxında, harda ağsaqqal, ağbirçək görürdülərsə özlərini onların üstünə salırdılar, kef-hallarını soruşurdular.

Dava başlananda tətilə gəlmişdilər. Süleyman kişiyə demişdilər ki, «dissertasiyanı yazıb hazırlamışıq, kiçik müzakirədən keçib, elmi rəhbərimizdədir, onun da qeydləri olacaq, hamısını

bir dəfəyə işləyib qurtaracağıq, bu payız da olmasa, gələn ilin əvvəllərində müdafiə edəcəyik».

Jurnallarda, qəzetlərdə çıxan elmi məqalələrini özləri ilə gətirib Süleyman kişiyə oxutmuşdular. Ömründə içməyən, içəndən də zəhləsi gedən Süleyman kişi onda dizləri qara, gözləri qara bir erkək kəsmişdi, ocaq çatmışdı. Cızhacızlı, hər tikəsi adamın damağını bir dəfə cızan kabab bişirmişdi, çaxırın «küpünə» girmişdi, aşığın sazını gətirmişdi, hey çalmışdı, oxumuşdu, Qızxanımı oynatmışdı, demişdi: «Ay arvad, bu da bir toydur. Dur oğlanlarının toyunda sındır». Çala-çala özü də süzmüşdü, «doxdurluğun» son kursunda oxuyan Süsən balanı da «dingildətmişdi»…

Kolxozun ilxısında necə madyanlar, necə köhlənlər, dayçalar, qulanlar vardı, ay Allah! Hərəsi bir şəkil. Dayaz kasanı doldur, bellərinə qoy, dağdan arana sal, bulaq suyunun bir damcısını da sıçradıb yerə salmasın, elə süzsünlər, deyəsən xanım sallanışıdır.

Hərbi komissarlıqdan bir zabit gəldi, ilxının içindəki gözəgəlimlilərin hamısını seçirdi, Süleyman kişinin Səkil kürənini də onlara qatıb apardı.

Süleyman kişi atının yəhər-yüyənini, rəşməsini də almadı, dedi, qoy üstündə getsin, ayrı yəhərə belini basdırarlar, bunlar indən sonra mənim nəyimə lazımdır.

Həmin gündə də ərizə yazıb idarəyə göndərdi: Xahiş edirəm yerimə bir adam qoyun. Gözüm görmür. Ürəyim də sarsaqlayıb, hərdən məni pencər kimi sıxır. İndiki işin elə bir çətinliyi də yoxdur, at hamının neynədiyini bilir. Qoymahaqoymaya ehtiyac, at oynatmağa da lüzum yoxdur. Hamı arı kimi daraşıb bu «çiçəkliyin» canına.

İndi ən əfəl adam da ayıqlaşıb. Neynəsinlər? Görürlər ki, kəndin başıpapaqlıları, bir qoşunun işini görüb, bir ordu saxlayası kişiləri qızıl güllənin qabağına gedir, boyunduruq düşür arvad-uşağın, qoca-qoltaqların boynuna.

Süleyman kişiyə yuxarıdan da, aşağıdan da çox dedilər ki, əşi, heç nə eləmə, eləcə gəl, get, sənin quruca qaraltın bəsdi, məsləhətin bəsdi, həm də evdə oturduqca pislik basır. Adamı qərəmət üstələyir, fikir-zikir yeyir, əriyir, çürüdür adamın canını. Sənin qaraltın ürək-dirəkdi camaata, sənin səsin, avazın bir qələbədi, sən bunlardan özünü də, kəndi də əskik eləmə.

Süleyman kişi dediyindən dönmədi. Onu özünə genəşmədən «pojarnik» qoydular. Kolxozda sədrlik eləyən, başı əsməcəli, əlləri titrətməli, amma kəndin hər qarış yerinin xasiyyətinə bələd, harda hansı birin yüz olduğunu bilən Qoca kişi böyür-başındakılara tapşırdı ki, Süleymanın özünə hələ heç nə çatızdırmayın, tırrayıb durar, deyər, mən ortada yeyib, qıraqda gəzənlərdən deyiləm, sayıl, dilənçi də olmamışam, istəmirəm elə müftə qazancı, elə havayı baş girələməyi.

Qoca kişi demişdi ki, qoyun aradan bir az keçsin, özüm gedərəm yanına, danışaram, onsuz da xırmanın, mərəyin, ot tayalarının yanında hər iş görülüb, tövlələrin, yataqların da elə bir qorxusu, qorxuluğu qalmayıb, hər gün özüm də hərlənib baş çəkərəm, həm də hər adam bir gözdür, xırmana, mərəyə düşsə yanğını su ilə yox, öz canı ilə söndürər. Özünü, öz canını yandırar, bir dənin, bir çöpün külə dönməsinə aman verməz. Lap bədəbəddə Süleyman kişiyə taxıl-təräni yardım fondundan aylıq-illik ayırıb verərik. Elliyinkindən nə

götürsələr, nə aparsalar onlara halaldı, ərli-arvadlı can qoyublar kolxoz yolunda, Şura yolunda.

Bu sirri nə qədər gizli saxlasalar da Süleyman kişi bildi: özü də lap tez eşitdi. Bu xəbər ona Qoca kişinin ağzından tapşırıq çıxan axşam çatdı.

Səhər durub devikə-devikə idarəyə getdi. Fəhm ilə getdi, yanından keçənləri, idarədəkiləri fəhmlə tanıdı.

- A Qoca kişi, - dedi, - Qızxanıma düşən bəsdi bizə. Ora əsgər ailəsinin birini yaz. Biz iki adamıq, necə olsa yola gedərik. Onları dolandırmaq lazımdır.

Bu, Süleyman kişinin kolxoz idarəsinə axırıncı gedişi oldu. Gündüzlər qapı-bacasında da seyrək göründü. O öyünməli, güvənməli səs eşidilmədi. Qonşular deyirdilər ki, gündüzlər yatır, gecələr səhərəcən oyaq qalır. Hərlənir həyətdə. Hərdən ayağı dolaşır, dombalaq aşır; yıxılanda da elə-belə səs-səmirsizcə yıxılmır, deyirsən köklü palıd qopur yerindən. O cür yıxılan adam ağrımamış olmaz, amma Süleyman kişi bircə dəfə də ufuldamır. Onun canı, elə bil arvadındadır. O, hər dombalaqlananda Qızxanım qarı içini çəkir, «can, can» deyir, hıqqanır, gücənir. Hiss olunur ki, kişini yerdən çətinliklə qaldırır. Birdən düşdü Süleyman kişi. Dağ boyda adamı bala dərdi əydi, yaman tez əydi. Qızxanım qarı ona baxanda cühərlidi, dözümlüdü; o olmasa Süleyman kişi bircə ayın içində o yanlıqdı ki, var…

Kənddə hamı belə fikirləşirdi: dava qopan kimi, kişinin də ürəyi qopdu. Adam ürəklə yaşayır, ürək ki, üzüldü, sozalacaq; nə ölüyə hay verəcək, nə də diriyə pay, gecənin, gündüzün birində, qəfildən keçinəcək.

Amma bir məsələni Süleyman kişinin özündən, bir də hərbi komissardan savayı heç kim bilmirdi: onun səkil kürənini də, yəhəri-yüyəni üstündə, ilxıdan seçilənlərin arasına qatılanda Süleyman kişi şil-şoqqaq bir yabı minib, axşamdan az keçmiş, hərbi komissarın evinə getmişdi. Kişini evində tapmışdı, özü də hazırlaşıb harasa getmək istəyirdi - yerində oynaqlayan, havalı bir kəhəri dirəkdən açmışdı. Görünür, yedəkləyib həyətdən çıxandan sonra belinə qalxacaqdı. Süleyman kişini həyət qapısının ağzında görəndə dayandı:

- Buyur, yoldaş Süleyman, - dedi, - eşidirəm.

- Tələsirsiniz?

- Bəli. Daşqaya kəndinə getməliyəm, orada ispalkomluqda məni gözləyirlər. Onların təsərrüfat kitabı ilə, bizə təqdim etdikləri siyahı arasında xeyli yaş uyğunsuzluğu var. Biz beş nəfər çağıranda onlar on adam göndərirlər; yaxud da əksinə. Burada deyiləsi deyil.

Süleyman kişidən ötrü bura ilə oranın elə də təfavütü yox idi. Sözünü evə, yaxud idarəyə deməyə gəlməmişdi, işi hərbi komissarlıqdan aşacaqdı, ona görə də:

- Bir xahişim var, - dedi, - bilmirəm sözümü tutacaqsınızmı?

Hərbi komissar maxorka qutusunu çıxarıb açdı; kəsili-biçili qəzetin birini götürüb arasına maxorka tökdü, bükdü eşməni damağına aldı. Taxtadaraq kibritin iki dişini qoparıb alışdırdı, eşməsini yandırdı. Bir - iki qullab vurandan sonra Süleyman kişiyə dedi:

- Buyur, yoldaş Süleyman, eşidirəm.

Süleyman kişi gülümsündü, bunu hərbi komissar görə bilməzdi, çünki həyət qaranlıq idi,

ancaq onun irəli-geri tərpəndiyi nəzərindən qaçmadı, hiss etdi ki, bu hörmətli kənd sovet sədri yüngül xahişdən ötrü gəlməyib.

Bir də:

- Yoldaş Süleyman, - dedi, - eşidirəm.

Süleyman kişi xırıldadı:

- Yoldaş Hüseynov, olarmı məni də atprafka eləyəsiniz?

- Yox, yoldaş Süleyman. Qətiyyən olmaz. Əvvəla sən yaşda adamları cəbhəyə göndərmirik; ikincisi də bacarıqlı kadrlar burda da lazımdır. Bir də arxa cəbhədə çalışmaq kim deyir ki, asandır?

Süleyman kişi utandı, ona deyə bilmədi ki, «yoldaş komissar, oğlanlarım getdi, qız balam getdi, səkil kürənim də getdi, daha burada mən niyə qalım? Qoy elə öz atımla gedim, nə qədər ölüvay olsam da naşıların, öyrədilmələrin çoxundan yaxşı güllə atıram, həm də səkil kürənin ki, belində oldum - iyirmi il bundan qabaqkı Dəli Süleymana dönəcəyəm». Lakin demədi. Söhbətin o biri başından qorxdu.

Süleyman kişi ordan vağzala getdi, gördü onların kəndindən gətirilən atları vaqona doldururlar. Səkil kürən yerdə hərin-hərin hərlənir, az qalır taxta arakəsmənin üstündən atılsın, qaçsın. Lakin sürəkçilər əllərindəki paya ilə onu qorxuzurlar.

Səkil Kürən Süleyman kişinin iyini alarkən kişnədi, arakəsmənin qıraqları boyu ləhrəm bir qaçışla səkdi. Sahibini görəndə isə gəlib onun qabağında zıq dayandı. Qulaqlarını yapırdıb ağır-ağır başını yırğaladı, sağ qolunu qaldırdı, sanki Süleyman kişi ilə görüşmək istəyirdi, «xoş gördük, a mənim yiyəm», - deyirdi, - bilmirsənmi səhərdən acam, susuzam, - söyləyirdi, - niyə qoydun məni ilxıya

qatsınlar? Bəlkə, xəyanət etmişəm sənə? – gileylənirdi, - bəlkə, bir namərdlik görmüsən məndən? Axı, bir dəfə də büdrəməmişəm?!

Süleyman kişi səkil kürənin biləyindən tutdu, bir balaca sıxdı, silkələdi: «necəsən, a can-ciyərim, a ömrüm-günüm… İstədim voenkomdan… Dedim. Axı, davadır, a qanadım mənim, qeyrət vaxtıdır. Özün gördün ki, balalarım da getdi. Getməliydilər. Elə mən özüm də getmək istədim, sənnən getmək istədim, voenkomun yanına da onnan ötrü gəlmişdim… Get, uğur olsun. Ya qismət, bir də görüşəcəyikmi, görüşməyəcəyikmi…»

Hamı dayanmışdı, hamı onlara baxırdı. At başını yerə dikib ağlayırdı. Süleyman kişi də özünü saxlaya bilmədi, o da ağladı. Sonra arakəsmənin üstündən aşırılıb içəri keçdi, bir qolunu səkil kürənin boynuna doladı, yalını tumarladı, qaşqasını sığalladı, dəsmalını çıxarıb gözlərini sildi, gözlərindən öpdü, üzünü başına söykədi, bir müddət beləcə qaldı. Başını qaldıranda at qabaqca onun ayaqlarını imsilədi, sonra dodaqlarını tərpədə-tərpədə ağzını sinəsində, boyun-boğazında gəzdirdi, axırda da özü kişidən aralandı, ilxının qoymahaqoyma ilə qısnanıb təpildiyi səmtə yönəldi, taxta ayaqaltdığı qalxdı, siyirtmə qapağın hər tərəfində dayanıb içəri zorla doldurulmuşları çölə çıxmağa qoymayan, əlləri dəyənəkli iki adamın arasından vaqona keçdi, həm də bəridə, gözgörəndə dayanmadı, vaqonun qaranlıq tərəfinə getdi, sanki sahibini də, özünü də əritmək istəmirdi.

Süleyman kişi çox at minmişdi, hərəsinin bir xasiyyəti xoşuna gəlmişdi: bir ay, para aydan sonra dəyişmişdi. Səkil kürən isə onların heç birinə bənzəmirdi. Axı, bu tərəflərdə heç belə at da

olmamışdı, hamının gözü bunda qalmışdı. Tay-tuşları zarafatca Süleyman kişiyə demişdilər ki, «yaxşı atın yiyəsi olmaz, bir də görəcəksən yekələrin biri sino getdi sənin bu səkilinnən ötrü. Qalacaqsan çar-naçar. Verim? Necə verim? Verməyim? Necə verməyim?» Süleyman kişi onların hamısına bir güllə atmışdı: «ölərəm, amma vermərəm».

Heç kim də üz vurmamışdı. Heç olmasa, bircə dəfə də deməmişdilər, ver bir kərən minək, bircə saat hərlənək, bir bizim də ürəyimizə təpər gəlsin.

Deyirdilər, Süleyman kişi atına dil öyrədib, hər himini göydə alır. Ancaq Süleyman kişi nə özünü belə əziyyətə salmışdı, nə də onu incitmişdi. At öz yiyəsini duymuşdu, yaxşı tanımışdı, həm də bunu da gözəlcə anlamışdı ki, sahibi onu çox istəyir, yağı kimi minib çapmır, arpanın ən durusundan yedirdir, özü qaşovlayır, özü çimizdirir, çaydan-sudan çıxarandan sonra cib dəsmalını yalına, sağrısına çəkir, lap azca kir görəndə təzədən başlayır, nal ki, bir balaca laxladı, yeyildi, əlüstü nalbəndə aparır.

Süleyman kişi heç vaxt səkilini yedəkləməzdi. Cilovunu yəhərin qaşına keçirib yola düzələrdi, at da öz nəfəsinə onun kürəyini döydürə-döydürə dalınca gələrdi. Bəzən sahibi ilə yanaşı addımlayardı, elə bil danışır, məsləhətləşir, söhbət edirdilər. Süleyman kişi dilxor olanda istəyirdi ki, onu götürüb uzaqlara getsin. Sahibini meşələrdən, tarlalardan keçirsin, bulaqların başında dayansın, yarpızın, nanənin, reyhanın ən çox ətir saçdığı bu bulaqların şədlərini öz yiyəsinin ruhuna axıtsın, ona əzəlki sarsıntılarını unutdursun. Səkil bir dəfə, doğrudan da Süleyman kişinin sözünə baxmamışdı, fınxıra-fınxıra köndələn

səkmişdi, bir yanı üstə süzmüşdü, sahibi onun boynunu öz evinə sarı döndərsə də, onu ram edə bilməmişdi, sonra başını buraxmışdı, taleyini ona tapşırmışdı. Onda səkil Süleyman kişini kənddən dünyanın bu laləzar genişliyinə gətirmişdi. Sahibinin hərdən gəlib dincəldiyi bulağın başında dayanmışdı, kişnəmişdi, çırpınmışdı. «Düş, - demişdi - ondakı kimi yuyun, bu bulağın gözündən iç, pencəyini altına sər, qolunun birini də başının altında qatla, çimir elə, - söyləmişdi, - sinirləri yığılan o götürülməzlər bu cənnət havasında, bu cənnət nəğmələrində, bu cənnət güllərinin, çiçəklərinin bihuşedici ətrindən tez uçub gedəcək…»

Süleyman kişi səkili sınamışdı, o bir yola ki, getmədi, demək, o səmtdə təhlükə var, atı məcbur etmək olmaz.

Bir dəfə rayon fəallarının yığıncağından gec çıxmışdı, bundan sonra mərkəzdəki dostları əl çəkməmişdilər, qollarından sallaşıb qonaq aparmışdılar. Qonaqlıq gecəyarı qurtarmışdı. Səkil yolun yarısında, meşənin sarı talasının bu başında fınxırıb dayanmışdı, geri eşələnmişdi, dala dönmüşdü, götürülmüşdü. Bəzən başını Süleyman kişinin başı bərabərinə qaldırıb arxaya baxır, irəli cumur, dördnala çapırdı.

Səkil Süleyman kişini uzaq yola gətirdi. Ağ köpük içində idi, qan-tərə batmışdı. Sahibi ona bircə təkan da vurmamışdı, onu bircə dəfə də tələsdirməmişdi, amma hiss etmişdi ki, at çaqqal, canavar, ayı görüb qorxmayıb, onu insandan qaçırıb.

Səkilin yəhərini alıb çulladı, axuruna azca arpa tökdü, bir qoltuq göy ot basdı.

Qızxanım ata baxıb:

- Allah insafını kəssin, - dedi, - dalınca hay gəlirdi? Allahın heyvanını niyə bu günə salmısan?

Süleyman kişi danışdı ki, Sarı talada ürkdü, irəli getmədi, nəsə görmüşdü, deyəsən adam idi.

- Sənin yolunu kəsmişdilər? – Qızxanım təlaşla xəbər aldı. Dünyanın qoymahaqoyma vaxtında heç belə eləyənin olmadı, bu nəydi belə, xeyir ola?

Süleyman kişi də fikirli-fikirli dindi:

- Elə mən də məəttələm…

Obaşdan durub Sarı talaya gəldi, talanın qıraqlarını dörd dolandı. Baxdı ki, bir yerdə yançaq, dirsək izləri var, özü də iki adam imiş, qabaq-qabağa uzanıblarmış, «Kazbek» kötükləri var, amma yarımçıq çəkiblər, deyəsən, qulaqları tez-tez şıqqıltı, yeriş alırmış.

Süleyman kişi çox götür-qoy etdi, ağlına gətirə bilmədi ki, onu öldürmək istəyən olar. Ancaq düşündü ki, bunlar, kimisə gözləyiblər, pusquya da ona görə yatıblarmış. Bəlkə öldürmək istədikləri günahlı deyil, belə şeylər azmı olub? Hər halda qanına susadıqları adam Süleyman kişinin kəndindəndir, axı burda da ömrü gödəldiləsi kim var ki… Köhnələr qaldı köhnədə, o vaxtkı qanlılığı qurdalayan da yoxdur, sanki Allahın verdiyi bir bəla imiş, onun da ziddinə getmək qətiyyən olmaz. Bəs bu təzə qələtli kim ola?

Süleyman kişi kimin əlinin, dilinin, ürəyinin tərpəndiyini, niyyətinin onu hara çəkdiyini bilirdi. Bəs bunlar kim idi ki, onun yolunu kəsmişdilər?

Süleyman kişi üç dəfə axşamüstü Sarı talaya gəldi. Gün batmamış həmən pusqu yerinin yaxınlığında uzandı. Gecə yarıyacan gözlədi, heç

kim görünmədi, amma o, yolla keçənlərin əksərini tanıdı, bildi ki, hardan qayıdır, nəyə gedibmiş.

Dördüncü axşam, qaranlıq qarışandan azca sonra hiss etdi ki, meşənin qalınlığından xəzəlləri, çör-çöpləri ayaqlaya-ayaqlaya budur, düz onun üstünə gəlir, amma tək deyil, ikidirlər, bunu onların yerişləri, biri dayananda digərinin addımlamağı deyir.

Onlar ulğunluğa çıxanda Süleyman kişi ikisinin də qaraltısını aydın gördü, çiyinlərindən asdıqları tüfənglərin lülələri başlarının yanında nizə kimi göyə diklənmişdi.

- Tərpənməyin.

Onlar özlərini ora-bura vurmaq istəyəndə Süleyman kişi, başlarının üstündən bir güllə atıb ikisini də qurutdu:

- Çiyninizdəkiləri atın yerə, yaxın gəlin, görüm kimsiniz.

Qabaqdakı xırıldadı:

- Süleyman dayı, bizik.

- Siz kimsiniz?

- Mənəm.

- Ə, adın yoxdu?

- Bayramam.

- Hansı Bayram?

- Hasan oğlu Bayram.

- Bə o biri kimdi?

- Bacım oğludu.

- Yola çıxın, düşün qabağıma görüm bu vədə siz buralarda neynirsiniz? Xeyirli cıdıra oxşamırsınız.

Bayram səsi tutulub açıla-açıla kəkələdi:

- Süleyman dayı, Allah sirr açmayıb, bəndə niyə açsın?

- Yaxşı, yaxın gəlin, danışın görüm, bu nə məsələdi.

- Dərdimiz var, Süleyman dayı, namus məsələsidir, ona görə düşmüşük çöllərə.

- Namus?

Bayram:

- Bəli, - dedi, - Süleyman dayı, namus.

Bayram danışdı ki, bir bacım qızı var, sizin kənddən Gödək Çərkəzin uzun oğlu onu başdan çıxardıb. Qız nişanlıdır. Oğlan hərdən gecə atnan gəlir, atı da ulğunluqda bağlayıb görüşdükləri vədələrdə qız çöldə hərlənəndə qapıdakı tuta, ya da evin yanından axan çaya bir daş atır. Qız da hamını yuxuya verəndən sonra ulğunluğa gəlir. Anasına deyib ki, nişanımı qaytarın, yoxsa qoşulub özgəsinə gedəcəm. Bunun hər ikisinin məqsədi Süleyman dayı, bizi yerə vurmaqdır, papağımız xirtdəyimizə keçəcək. Anası bir gecə yatmayıb, qız evdən çıxanda qarasınca gedib, üstünə düşüb gədəyə deyib, ay bala, səni qan hərləməsin, bir də buralara hərlənmə. Qız ki, nişanlıdır - özgənin də namusudu, atası evində bir əmanətdi, bizi el-oba içində üzüqara eləmə.

Gədə yenə gəlir. Böyüklərin ağzını arıtmışıq. Gədələrinin bu işindən onların xəbəri yoxdur. Fikirləşdik ki, keçi ölməsə qoturu kəsilməz. Gədənin bu axşam da gəlmək vədəsidir. Qardaşı, qızı qaratuluq eləyəndən sonra öyrənib bu axşam görüşməli olduqlarını. Süleyman kişi onları evlərinə apardı, o nəslin-kökün ağbirçəklərini, ağsaqqallarını çağırtdırdı, hamısını başa saldı ki, ürəyə hökm eləmək olmaz. Qızın nişanını qaytarın, özü də sabah axşam, birisi gün axşam da qapınıza Gödək Çərkəzin elçiləri gələcəklər. Bu, binamusluq deyil ki,

utanasınız, ömür-gün sevdasıdır. Bu, baş yoldaşlığında da gərək taylı-tayını tapa ki, günü axvayla keçməyə…

***

Uşaqlardan tez-tez kağız gəlirdi. Üçü də davadan yazırdı: biri sudan, biri qurudan, biri də havadan. Havadakı yazırdı ki, «Öz qırğımı almanlar tərəfə iki yüz yetmiş beşinci dəfə də süzdürdüm. Onların iki kor yapalağını yandırdım, bir əsas istehkamlarını bombaladım. Ali baş komandanın adından qırx yeddinci təşəkkürnaməni də aldım. Ongünlük məzuniyyət-istirahət verdilər. Sabah Həsənin yanına yola düşürəm, oradan da Süsənin hospitalına gedəcəm. Vaxt qalsa, dədə, sizinlə də görüşəcəm. Amma inanmıram, çünki yollar çox təhlükəlidir, onlar qovulduqca yolları viran qoyurlar, sürətimizi azaldıb özlərinə yeni qüvvə toplamaq, heç olmasa, ciddi müqavimət göstərmək istəyirlər. Amma bu səfehlər kəllələrinə vurmurlar ki, qarınınkı qurandan keçib, ölü bir də dirilməz…»

Həsən Murmanskıdan yazırdı. O, davadan çox uzaqda idi. Şəkillərinə baxanda bilinirdi ki, oradakıların keyfi babatdır.

Amma Süsənin hər məktubu bir hekayət idi, hərəsi bir əsgərin, bir zabitin taleyindən danışırdı. Özü də o bəxtləri elə təsvir edirdi ki, o iqballardan elə dost, qohum, həmdəm yetkinliyi ilə danışırdı ki, ellərə gələn bir bəlanın ayrı-ayrı müsibətlərini elə bil öz gözlərinlə görürdün.

Balalarından gələn hər məktubu  Qızxanım qarı gözləri yazı - pozunu çətin seçən Süleyman kişiyə oxuyurdu. Onun özünə də elə gəlirdi ki,

sözlərin, sətirlərin arasında gizlənmiş hansı vacibsə birinci oxuda yaxşı almayıb, diqqəti götürməyib.

Onların ikisi də: «Balalarımız sağ-salamat qayıdacaqlar», - deyə düşünür, bu inam – etiqadla özlərini ovundururdular. Lakin Qızxanım qarı duyurdu ki, Süleyman kişi üzdə özünü toxdaq göstərsə də, ürəyinə karvanlar gətirir, karvanlar yola salır. Kişinin sir-sifəti birdən elə tutulur ki, deyirsən bu saat ağlayacaq.

Bir axşam soruşdu: - Ay Süleyman, bir də dava olacaq?

- Hə, olacaq.

- Bunnan sonra ha…

- Hə.

- Elə bu dava qurtaran kimi?

- Onu bilmək olmaz. Amma inanmıram, heç olmasa otuz-qırx il ara verməlidi.

Qızxanım qarının qırışığı açıldı.

- Bə, a pir olmuş, daha nəyin köçünü arana-dağa çəkirsən? Mən də ürəyimdə deyirəm, yəqin, balalarımızı buraxmayacaq, orda saxlayacaq, bu dava kəsilən kimi o birisinə aparacaqlar, Süleyman da bunu bilir, aynası da ona görə açılmır.

Süleyman kişi dərdli-dərdli köksünü ötürdü:

- Ay Qızxanım, naşükür deyiləm, balalarımın səs-sorağı yaxşı gəlir. Onnar sarıdan, ürəyim bütövdür. Amma bir dostum, yoldaşım da vardı, onnan heç bir xəbər-ətər yoxdu, məni əyən odu.

Qızxanım qarı kişinin kimdən danışdığını bilmədi, həm də fikirləşdi ki, bu necə əziz dost – yoldaşdır ki, Süleyman onun adını bu evdə, bu komada bir dəfə çəkməyib, onu bu ocaqlığa gətirməyib?

- Kimdi o, a Süleyman, mən niyə tanımıram?

- Hamıdan yaxşı tanıyırsan, arvad?

- Qonağın-qaran çox olub Süleyman, vallah, hamısına da gəldi-gedər kimi baxmısan. Hansına bir seçilən gözlə baxmısan ki, mən də indi deyəm, filankəsdir.

- Bilmək istəyirsənmi, Qızxanım?

- Xiffətini elədiyin, səni günay qarı təki əridən dostunu niyə tanımayım, a kişi?

- Onda səhər tezdən alaqaranlıqda kəs o poçtalyonun qapısının ağzını, deynən poçtu götürən kimi bura gəlsin. Poçtu götürən kimi ha!… Ayrı vədə yox!

Qızxanım qarı ərinin hər sapa vurduğu düyünü açmışdı, amma yanıltmacasından baş aça bilmədi. Poçtalyon da çaş-baş oldu. O da fikirləşdi ki, Süleyman kişinin bir yerə-səmtə, bir dost-tanışa çatdırılası kağızı, sözü vardısa, bunu niyə o, mərkəzə gedəndə vermirdi, qayıdana saxlayırdı?

Nə o, nə də Qızxanım qarı bu ağa-qaraya çəkmənin axırını durumlu-dayanımlı bir axıra çıxara bilmədilər.

Bir gözü sovrulub quyunun dibinə düşmüş, digər bəbəyi isə böyüyüb alnına çıxmış, quru daqqanaq poçtalyon ağır çantasını çiynindən yerə qoyanda nəfəsini dərdi:

- Salam, ay Süleyman lələ, - dedi, - mən Əmirulla qolu bağlı bir qara qul kimi sənin qulluğunda hazır.

Süleyman kişi qaraltısından, səsindən, dilinin itiliyindən tanıdığı Əmirullanı əli ilə yaxınına çağırdı, taxtının ayaq tərəfində ona yer göstərdi:

- Poçtun başını açmısanmı?

- Əstəğfürullah, lələ! Heç elə xəyanət olar? Söz dəyirmandakıdı.

- Onda aç görək poçtunu. A Qızxanım, sən də dəftər-qələm gətir. Əsgərlərimizin adresini götür. O desin, sən də yaz.

Qızxanım qarı Əmirullanın üzünə təəccüblə baxdı:

- Allah xeyirə calasın, bu neynəməkdi?

Əmirulla da çiyinlərini çəkdi, boynunu bükdü, dodaqlarını da elə büzüb uzatdı ki, elə bil, turş alça yemişdi: vallah, bu işdən mənim də başım çıxmadı, deyəsən, kişi azdırır axı…

Çantadan çıxan əsgər məktublarının ünvanları köçürülüb qurtardıqdan sonra Süleyman kişi döş cibindən bir beşlik sivirib Əmirullaya verdi:

- Bunun hamısına paket al gətir. Sabah çatdıra bilərsənmi?

- Yaman çətin tapılır, Süleyman lələ.

- Böyüyünüz genə o Turabovdurmu?

- Hə, odu.

- Ona deynən Süleyman kişiyə lazımdı.

- Baş üstə, lələ!

Paket gətirilənəcən Süleyman kişi Qızxanıma bu kənddən əsgərlikdə olanların sayı qədər «şanlı» məktub yazdırdı. Hamısı da eyni cümlələrlə başlanırdı: «Biz sağ və salamat varıq, sizin də sağ və salamat olmağınızı təbiətin var qüvvəsindən arzu edirik…»

Bundan sonra öyüd-nəsihət gəlirdi: «Özünüzdən muğayat olun, başınıza dönüm, davanın qurtarmasına az qalıb, nemesdər başlarını itiriblər, yaman qaçıllar. Hara qaçacaqlar, o tərəfləri də kəsilib…»

Axırda Süleyman kişinin sorğu-sualları düzülürdü: «Kəndimizdən kim var yaxınınızda?

Qıraq kəndin biz tanıdıqlarımızdan da varmı sizin dəstədə?…»

Lakin son cümləni təzə sətirdən yazdırırdı: «Kəndimizin ilxısının ən yaxşı atlarını da seçib davaya apardılar. Budyonnunun atlıları sizinkilərnən bir yerdəmi gedir davaya?»

Süleyman kişi bu xəbəri-sorğunu Qızxanım qarıya bir də oxutdurdu ki, görsün kağıza onun ağzından çıxan kimimi, onun ürəyindən keçən təkimi köçürülüb?

Yetmişdən çox məktub hazır olandan sonra Qızxanım qarı:

- A Süleyman, - dedi, - deyirdin birdi, maşallah, nə çox dostun varmış?

- Bir idi, Qızxanım!

- Bir olsa, məktub da bir olardı, Süleyman!

- Ona məktub yazmamışıq, Qızxanım!

Qızxanım qarı da lal-məyus qaldı. Dost bildiyinə niyə məktub yazdırmadı?

- Ona da yazaqmı?

Süleyman kişi yerə baxa-baxa:

- Ona məktub çatmaz.

- Niyə, adresi yoxdu?

Süleyman kişi gec dilləndi:

- Adresi də yoxdu.

- Tapmaq olmaz?

- Yox!

- Sağdırsa niyə tapmaq olmur? Soruşarıq voenkomdan, yerini-yatalğasını örgənib deyər bizə.

Süleyman kişi dirsəkləndi, təsbehini çevirməyə başladı, cütləyib irəli, geri ötürdüyü muncuqların sap-sağlam şaqqıltısı uzandı, kəsilmək bilmədi.

Qızxanım qarı:

- Kolxozluğa, ya ispolkomluğa gedimmi?

- Niyə?

- Zəng vurum voenkoma, telefonnan deyim sözümü. Annaşıqlı işdən, iki kəlmə sözdən ötrü bu qədər yolu niyə gedim?

- Lazım deyil!

Qızxanım qarı istəyirdi görsün, bu, necə dost həsrəti, nigarançılığıdır ki, kişini kirimiş-kirimiş əridir. Axı, bu kim idi ki, Süleyman kişidən ötrü üç balası bir yana, o da tək bir yana idi? Onun Süleymana nə yaxşılığı keçmişdi? Bir də ki, hər yaxşı adama görə bu, bir belə də fikirləşməzdi.

Qızxanım qarı evlərinə gəlib-gedən qonaqları bir-bir xatırlamağa, onları o günlərdəki təki görüb gözlərinin qabağında saxlamağa başladı. «Bu idimi? O idimi?» sualları ilə o adamlarla Süleymanın görüşlərini, danışıqlarını, bir-birinə necə baxdıqlarını, necə ayrıldıqlarını yadına salmağa çalışdı. Lakin o qədər adamın biri də Süleyman kişini indiki qədər düşündürəsi çəkidə-sambalda görünmədi.

- A Süleyman, - deyə ərinin qabağına bir stəkan çay qoyub, özü də onun yanında oturdu, - sən dədəyin goru, düzünü de, sənin o dostun kimdi?

Süleyman kişi bayaqdan bəri, danışdırdığı təsbehini cibinə qoyub dikəldi:

- Hələ indiyəcən bilmədin mənim o dostum kimdi?

- Balalarımızın adı haqqı, yox, bilmədim.

- Mənim bu dünyada tək bircə dostum var. Qızxanım, sən onu nə tez unutmusan?

Qızxanım qarı ürəyində: «andıra qalsın mənim huşumu. - dedi. – Bu kimdi, ay allah, məndən ötrü cin aparmış iynəyə dönüb, tapılmır ki, tapılmır?!..»

- A kişi, adı dilimin ucundadı e, ancaq gətirə bilmirəm ki, bilmirəm.

- Səkil kürəndi, a Qızxanım, Səkil kürən! Hamının anası var, atası var, qohum-qardaşı var. Çəkillər gedənlərinin dərdini. Kağız yazırlar, amma Səkilin heç kimi yoxdur. Mən ona heyvan kimi baxmamışam, Qızxanım! Allah ona dil verəydi, indi hər sözü bir közə dönüb od qoyardı adama, yandırardı düşdüyü yeri cızhacız. Kim nə bilir o, necə candı.

Kişinin sözləri Qızxanımı da doluxsundurdu, gördü Süleyman ağlayanda özü də dözə bilməyəcək, araya bir «kötük» dığırladı:

- Dünən Qamçı Almuradın oğlu gəlib əsgərlikdən. Deyirmiş ki, nemeslərin son nəfəsidi, onu da beş-altı günə kəsəcəklər. Budyonnunun qoşunundaymış. Qaçan nemeslərinki dalınca atlarını çapırlar. Onlar da can deyillərmi? Canlarını görürlər, qaçıb-gəzməknən qurtara bilməyəcəklər, haxlanan canavar kimi qayıdıblar bunların, bu bizimkilərin döşünə. Qamçı Almuradın oğlu da qabağa gedənnərnən imiş, onnarın əzəl atdıqları bunun çiyninə dəyib. Çiynini çığlayıbmış güllə. Üç ay yatıb doxdurxanada. Deyirmiş ki, dörd illik əməyimi zay eləmək istəmədim, xahiş elədim məni cəbhəyə göndərsinlər, dedilər sən ora çatanacan Hitlerin kəlləsinə bizim bayrağı sancacaqlar.

Süleyman kişi heyrətlə soruşdu:

- Budyonnunun qoşunundaymış?

- Hə, ordaymış.

Məni Qamçı Almuradgilə apar, a Qızxanım, görüm nə danışır Sevindik bala?! Yaman söhbətlər var onda. Qoy danışsın qulaq asım.

Qamçı Almuradın oğlu Sevindiyin ayağı necə düşərli – sayalı oldusa gedənlərin yolu açıldı, nə açıldı. Elə gün oldu ki, dörd-beş əsgərin hərəsi bir tərəfdən gəlib bu vağzalda görüşdülər, muştuluq almaqdan ötrü sino gedən, maşınını yollarda ley kimi şığıdan, papağının dalını qaldırıb hər qapıda, doqqazda aza yaxın durmayan, çox veriləndə mahnı oxuyan, fıştırıq çala-çala qayıdan bir «əhli-kefin» miniyinə doluşdular. Camaat bilmirdi hansının görüşünə tez getsin, hansını axıra saxlasın. Bu gələnlərlə kef-əhval tutub qurtarmamış səs çıxırdı ki, filankəs  də, filankəslər də gəldilər. Kənd elə sevinmədə, elə şadlanmada idi ki, el-oba ömründə belə toy görməmişdi.

Süleyman kişinin üç balasının üçü də qayıdıb gəlmişdi. Ona gözaydınlığına bütün kənd, hətta, qonşu kəndlərdən camaat da axışmışdı.

Onun özü də görüş yerindən qalmırdı. Balalarını, el-obanın nər, sinəsi orden-medallarla dolu oğlanlarını gördükcə gözləri işıqlanmışdı. Hamının yanına gedirdi, onu məclis-mərəkənin lap başına çəkir, altına da döşəkcənin ən qalınını, ən yumşağını qoyurdular. Dünyanı ayaqlayıb gəlmişlərin söhbətləri tükənəndə, onların özləri də, başlarına yığışanlar da danışıqlarından doyanda soruşurdu:

- Budyonunun qoşunu neynirdi, bir kar görürdülər, yoxsa baş girləyirdilər?

Hamısı da eyni cavabları verirdilər:

- Nə danışırsan, Süleyman dayı? Bir də görürdük, bizim yara bilmədiyimiz cəbhəyə yel kimi cumdular. Düşmənin başının üstünü qırğı kimi aldılar, yağıların hamısını əsir-yesir eləyib qatdılar qabaqlarına.

- Çoxu atların hünəridi ha… - deyə Süleyman dayı eyham vururdu.

Onlar da kişinin sözünü gücdən salmayıb öz tərəflərini də ucuza endirmirdilər:

- Əlbəttə, Süleyman dayı, döşlü atın üstündə ürəkli oğul olmasa, neynəmək olar?

- Atların yaxşısı onnarda olardı.

- Bəli, Süleyman dayı…

- Lap seçməsi ha…

- Hə, Süleyman dayı…

Süleyman dayı at söhbətini bundan artıq xatırlamırdı, qorxurdu «mənim Səklimi oralarda gördünüzmü? desə ona gülüşsünlər; üzünə çəkməsələr də ürəklərində yamsılasınlar: Rəhmətliyin oğlu, camaat orda canının hayındadı, kimdi ata-mata baxan…»

Nə qədər əsgər gəldi, onların biri də Süleyman dayının ürəyindən keçəni bilmədi. Amma hamıdan sonra qayıdan dedi ki, sənin Səkil kürənini gördüm, Süleyman dayı, Budyonnu deyildi, ancaq o nisbətdə bir komandir minmişdi. Nemeslər ondan it ağacdan qorxan kimi qorxurdular; adını «çornı smert» qoymuşdular; çünki, Səkil kürənin görünməyi ilə yel kimi uçub o Budyonnu nisbəti, o «çornı smert»i onnarın boynunun kökündə saxlamağı bir olurdu. Mən bir dəfə ona dedim ki, bu, Süleyman dayının atıdır. Mən Leninqraddan buraxıldım. Neva prospektində sənin atının heykəlini də qoyublar, Süleyman dayı. Heykəlin altlığı iyirmi arşından çoxdur. At orada şaxə qalxıb, Süleyman dayı, elə bil dünyaya müharibə etmək istəyənlərin başına atılacaq.

Təkcə bu söhbətdən sonra Süleyman dayıya elə gəldi ki, həmin şəhərdə, həmin küçədədir, həmin

heykəlin yanında dayanıb göylərə qaldırılmış öz Səkil kürəninə baxır, sonra da təzəcə açılan bir dan səhərinin qızartısına bürünmüş dünyaya qürurla boylanır.

# HEKAYƏLƏR

## BARIŞ

Dərələyəzdə Dünyamalı bəylə Nəsib bəy arasında böyük düşmənçilik baş vermişdi. Hər ikisi bir-birinin oğlunu, qardaşını, özünü öldürməyə hazır idi. Bunun üçün bircə məqam, fürsət gərəkdi.

Yay ayı idi, el yaylağa qalxmışdı. Dünyamalı bəyin binələri bir dağın döşünə, Nəsib bəyin köçü də başqa bir dağın döşünə düşmüşdü. Düşmən ocaqlarından qalxan tüstülər göydə burula-burula qara bulud topası yaradırdı. Bir az əvvəl yanaşı otlayan sürülər, naxırlar, ilxılar bir-birindən uzaqda saxlanılırdı. Çobanlar, naxırçılar, ilxıçılar, mehtərlər nəinki yaxınlıq etmirdilər, hətta tütək belə çalmırdılar ki, düşmən tərəf ondan başqa məna çıxardar. Bir sözlə, sevinc bu yerlərdən göyə çəkilmişdi, hamının üzündə silinməz bir kədər vardı.

Bu düşmənçilik Dünyamalı bəyin gözünün ağı-qarası olan cavan oğlu Tahiri hamıdan çox narahat edirdi. Yaşının, dünyagörüşünün az olmasına baxmayaraq, dünya görmüş təcrübəli, ahıl qocalar kimi kamal sahibi idi. Gecə-gündüz düşünüb-daşınırdı ki, bu yersiz, tərəflərin heç birinə xeyir verməyən düşmənçiliyi necə aradan götürsün? Belə düşmənçilikdən ancaq yadlar bəhrələnirlər. Tahir barış barəsində atasına neçə dəfə ağız açmışdısa, bir nəticə hasil olmamışdı. Tərslik geri çəkilmək istəmirdi. Atasının tərsliyi Tahiri fikrindən döndərmişdi.

Günlərin bir günü Tahir ov bəhanəsi ilə evdən ayrılır. Məqsədi düşmən tərəf ilə görüşüb-söhbətləşmək idi. Ancaq bunu rəsmi qaydada etmək mümkün deyildi. Təsadüf burada ən yaxşı vasitə idi. Tahir ova elə «maraqla» qoşulur ki, yamacları, bölənləri aşa-aşa özü bir ov kimi Nəsib bəyin yurduna gəlib çıxır. Uzaqdan Tahiri görən Nəsib bəy atlanıb onun üstünə gəlir və soruşur:

- Bala, sən kimsən və burada nə axtarırsan?

Tahir özünü başqa donda göstərir:

- Əmi, ova çıxmışam, Dünyamalı bəyin oğluyam, adım da Tahirdir.

Nəsib bəy bu asan qənimətdən həm sevinir, həm də təəccüblənir:

- Bəs onda nə cürətlə bizim tərəflərə gəlmisən? Bəs bilmirsən ki, atanla düşmənik?

- Düşmən nədir, əmi?

- Düşmən odur ki, kimin oğlu kimin əlinə keçəndə öldürsün, qardaşı əlinə keçəndə, axırına çıxsın.

- Əmi, əgər bir günahım, bir qəbahətim varsa məni də siz öldürün. Allaha şükür ki, ova çıxmışam, ov zamanı da bir quş belə vura bilməmişəm.

Nəsib bəy qəhərli-qəhərli dillənir:

- Düz deyirsən, oğlum! Sən günahsızsan, sən ova çıxmısan, davaya gəlməmisən. Ona görə də qeyrətdən olmaz ki, dava vaxtı tutulmayan igidi öldürəsən. Amma mən səni girov saxlayacağam. İstəsən bir bəy oğlu kimi qılınc oynatmağı, sərrast güllə atmağı da öyrənərsən. Mənim kimi düşmənə rast gələndə cəngavərlik göstərərsən.

Tahir Nəsib bəyi yaxşı tanıyırdı. Özü üstünü vurmurdu. Daha bundan sonra gizlətmək lazım deyildi. Rəqibin sözləri cavanı sevindirmişdi. Tahir

düşünürdü: «Deməli, düşmənçilik edən tərəfin biri ədalətlidir. Allahın köməkliyi ilə barış mümkün olacaqdır». Tahir deyir:

- İstəyirsiniz məni girov kimi saxlayın, istəyirsiniz oğul kimi. Mən sizin ədalətinizə inandım. Atamı da inandıra bilsəydim, bu yersiz düşmənçiliyi aradan götürə bilərdim.

Nəsib bəy ürəyində Tahirin fikrinə «bərakallah» deyir. Ancaq söz hələ sınaqdan çıxmalıdır:

- Oğul, mən özümü təqsirli bilmirəm. Sadəcə atan tərslik eləyir. O, inadını yerə qoysa, bizə çox-çox lazım olan barış yaranar. Yadların da bu çəkişmədən qazanmaq niyyəti gözündə qalar.

Beləliklə, Tahir Nəsib bəyin yanında qulluğa başlayır. Dünyamalı kişi oğlu Tahirdən əlini tamam üzür. Kimi onu öldüyə, kimi itdiyə çıxır. Bir il keçəndən sonra Nəsib bəy Tahiri geyindirir-kecindirir, yaraqlandırır, at verib evlərinə yola salır. Nəsib bəy girovunu yola salarkən deyir:

- Tahir, mən səni öldürmədim, təlim verdim; bax, budur, salamat evinizə göndərirəm. Mən barış tərəfdarı olduğumu əməlimlə göstərdim. Əgər atan buna qiymət qoymasa, yenə düşmənçiliyimiz yerində qalır.

Tahir ehtiramla cavab qaytarır:

- Azərbaycan bəyləri düşmən yox, dost-qardaş olmalıdır. Belə olmasa, bizi məhv eləyəcəklər. Mən bacardığım qədər buna yol verməyəcəyəm…

… Güləsər arvad sevincək çadıra qaçdı:

- Dünyamalı bəy, Dünyamalı bəy, oğlun Tahir gəldi. Muştuluq!

Hamını heyrət bürümüşdü. Dünyamalı bəy də yerində donub qalmışdı. Piyada ova getmiş oğlu indi at belində qayıtmışdı; özü də yarlı-yaraqlı.

Yaylaqda böyük şənlik başladı. Şülən çəkildi. Neçə gün yemək - içmək oldu. Tahir atası ilə xəlvətə çəkilib başına gələn macəraları ona danışdı. Heç nəyi düzgün qiymətləndirə bilməyən Dünyamalı bəy tez-tez özündən çıxırdı:

- Deməli, o, bu bir ildə oğlumu girov götürmüşdü?! Bax, elə günü sabah hücum çəkib, Nəsib bəyin külfətini, özünü girov götürəcəyəm.

Tahir kədərli-kədərli dilləndi:

- Ata, Nəsib bəy məni girov götürməyib. Əslində mən könüllü ona girov düşmüşəm. Məqsədim qarşı tərəfin fikrini dərindən öyrənmək, sonra sizi barışdırmaq olub. Mən sənin düşmən dediyin adama yaxşı bələd oldum. Daxili çəkişmə bizim axırımıza çıxacaq. Yox, ata, sən bunu etmə! Düşmənçiliyi dərinləşdirmək fikrindən daşın! Barışa üz tut! İkinizin də diriliyi bundadır. Nəsib bəy ədalətli, vicdanlı adamdır. Əgər fikrindən dönməsən, mən onun tərəfini saxlayacağam.

Tahir səhər yuxudan ayılanda eşitdi ki, atası dəstə bağlayıb, Nəsib bəyin üstünə gedib. Tələsik yaraqlandı, atını mindi və Nəsib bəy səmtə çapdı. Tahir atını iki cəbhənin arasına sürdü və ucadan dedi:

- Ey camaat, eşidin! Dünyamalı bəy atam, Nəsib bəy əmimdir. Ancaq əmim atamdan ədalətlidi. Əmim barışa çağırır, atam qana. Heç bir tərəf güllə atmamalıdır. Elə buradaca barış başlanmalıdır.

Dünyamalı bəy oğlunu fikrindən döndərməyə çalışdı:

- Nəsib bəy mənim ürəyimin közünü qoparıb. Düz bir ildir ki, gözlərim dağda-daşda, yolda-yamacda qalıb. Bu bir ildə qəlbimdən qara qanlar axıb. Bu bir ildə anan Güləsərin göz yaşları yaylaqda dağ gölü yaradıb.

Tahir fikrindən dönmədi:

- Sənin inadkarlığın anamı ağlar qoyacaq, ata! Sizə qəti deyirəm: atəş açılsa, mən ədalət mövqeyində olan Nəsib bəy tərəfindən vuruşacağam.

Elə bil adamların üstünə göydən soyuq su səpilmişdi. Bir adam da güllə atmırdı. Tüfənglər əl ağacı kimi yerə atılmışdı. Bu zaman fürsət, məqam gözləyirmiş kimi hər iki tərəfin ağsaqqalları əldə «Quran» araya gəldilər. Həmin gün barışıq oldu. Dünyamalı bəylə Nəsib bəyi öpüşdürdülər. Adam göndərdilər, Dünyamalı bəyin külfəti, Nəsib bəyin külfəti buraya gətirildi. Görüşdülər, öpüşdülər. Dünyamalı bəy Tahirə işarə ilə dedi:

- Nəsib bəy, mən sənə Tahir kimi oğul verirəm!

Dünyamalı bəyin sözünü Nəsib bəy tamamladı:

- Tahir bəyliyə yaraşan oğuldur. Mən də qızım Qumaşı sənə gəlin verirəm. Allah mübarək eləsin!

Bu sonluqdan şadlananlar bir ağızdan dedilər:

- Allah mübarək eləsin! Oğullu-uşaqlı olsunlar. Qohumluğunuz qayım-qədim olsun!

Həmin gündən düşmənçilik qohumluqla əvəz olundu.

## BULUD SAÇLI GÖVHƏR

Şuşa dağlarının bir gözəli vardı. Bulud saçlı Gövhər. Gövhər İsa bulağına gələndə adamlar boy-boya verər, heyranlıqla onun bulud saçına tamaşa edərdilər. Gövhərin uzun hörükləri çoxlarını yolundan eləmiş, kəməndə salmışdı. Lakin xeyri yox idi. Gövhər bir ceyran kimi çoxdan ovlanmışdı, İsa bəyin nişanlısı idi. Kim görürdüsə: «bəxtəvər İsa bəyin başına» deyirdi.

Toyları oldu. İllər keçdi, İsa bəyin oğlu oldu, adını Şəfi bəy qoydular. Başqaları aybaay, ilbəil böyüdüyü halda, Şəfi bəy nağıllardakı kimi günbəgün böyüyürdü. Şəfi bəy on dörd yaşına çatdı, arxasından bir oğlan, bir qız gəlmədi. Bu, Gövhər xanımın gözəlliyinə yavaş-yavaş kölgə salır, nüfuzuna, ailə məhəbbətinə təsir edirdi. İsa bəyin iki qardaşı, illah da dörd bacısı dil boğaza qoymurdu:

- İsa bəy, bu qədər varın-dövlətin, cah-cəlalın, adın-sanın, qardaş! Bunları bir oğula ümid olmaq olmaz. Şuşada səndən başqa da bəy var. Qoy sənin də olsun iki arvadın. Dünyanın bir yanı uçmaz ki!

Deyərlər ki, tək-tək damcı daşa düşər, ay, il keçər daşı deşər. Bacıları İsa bəyin ağlını oğurlayıb, evləndirdilər. Bir müddətdən sonra Gövhər xanım bundan xəbər tutdu. Gövhər xanım dedi:

- İsa bəy, mən bunu sənə bağışlaya bilmərəm. İcazə ver, bu vilayətdən köçüm.

İsa bəy gözəl bilirdi ki, Gövhər xanım ciddi adamdı, dediyini edəndi, elə onun bu günəcən qorxduğu da bu idi. İsa bəy məyus-məyus soruşdu:

- Gövhər xanım, bizim şərikli bir məhəbbət payımız, yurd nişanəmiz var, o necə olsun?

- O, oğlumuzun öz ixtiyarındadı, mən ona bir kəlmə də söz demərəm. İstəsə səninlə qalar, istəməsə, mənimlə gedər. Bu onun vicdanı ilə bağlı bir şeydi.

İsa bəy oğlunu yanına çağırtdırdı. Hər şeyi açıq danışdı. Onu da bildirdi ki, şəhərimizdə üç-dörd arvadlı bəylər var, ancaq anan Gövhər xanım inad edir, gedirəm deyir.

Şəfi bəy:

- O iş onun öz ixtiyarındadı.

İsa bəy:

- Oğlum, indi ki, belə oldu, de görüm, mənimlə qalırsan, yoxsa, ananla gedirsən?

- Ata, bağışla bir qeyrətsizlik sən edirsən, ikincisini də mənmi edim? Heç olmazsa, anamla gedim; sənin qeyrətini, namusunu mənsə də qoruyum.

İsa bəy etiraz etmədi. Gövhər xanım dedi:

- İsa bəy, bu, taleyin işidi. Bir oğul, bir övlad verən Allah çox da verə bilərdi. Deməli, məsləhət belə imiş. Bir oğul payı da mənə bəsdi. Bizə ana-bala payı nə verəcəksən ver, yolçu yolda gərək.

İsa bəy bir at oğluna, birini də Gövhər xanıma verdi. Xurcununun iki gözünü qızılla doldurdu. Yolları üçün tədarük görüldü.

Gövhər xanım yaxın adamlardan bir bələdçi götürdü. Gəncə şəhərinə yola düşdülər. Bir neçə gün şəhərdə qalandan sonra, Gövhər xanım ixtiyar baba olan Qiyas kişiyə dedi:

- Baba, şəhərdə qalan deyiləm, Gəncəbasarı gəzib özümüzə yurd seçək.

Gövhər xanım Gəncəbasarı oğlu ilə bir neçə gün dolaşdı; Goranboy torpağının Səfikürd kəndi ilə Zeyvə arasındakı ərazini bəyəndi və dedi:

- Oğul, bu torpağın Şuşaya bənzəri çoxdu. Bu torpaq həm arandı, həm dağdı. Gülüstan dağları bir yanda, Kəpəz də ki, bir yanda. Bu torpaq bağ-bağat, əkin, hətta maldarlıq üçün də yararlıdır.

Gövhər xanım əlavə etdi:

- Oğlum, səhər Qiyas babanı da götürüb, Gəncə xanının görüşünə gedək. Razılaşsa, pulunu verib bu torpaqları alaq.

Gəncə xanı Gövhər xanıma baxanda ağlı yerindən oynadı, çox söhbətdən sonra xan dedi:

- Əgər razılaşsan bütün Gəncə torpaqları sizin ixtiyarınızda olar.

- Xan, İsa bəy sizdən çox cavandı, boy-buxunludu. İnsanlığına, yar-yaraşığına da söz ola bilməz. Mən onun üstümə bir arvad almağına razı olmadım. Sizinsə arvadlarınızın sayı qırxı keçir. İkincisi, mən Gəncəyə ərə getmək üçün gəlməmişəm, torpaq almağa gəlmişəm.

Xan:

- Torpağın qiyməti qızılla ölçülür.

Gövhər:

- Xan, İsa bəy nə az, nə çox, bir xurcunun iki gözü dolu qızıl verib.

Gövhər xanım qızıl pulla istədiyi torpaqları aldı. Qadının qeyrəti, cəsarəti xanın xoşuna gəldi.

Gövhər xanım dedi:

- Qiyas baba, bənnalar, memarlar olan yerə gedək. Gövhər xanım neçə-neçə bənna, usta ilə görüşdü, mətləbini dedi. Bildirdi ki, təzə kənd salmaq arzusundayam. Gövhər xanım bir neçə usta, bənna, dülgər, fəhlə cəm etdi. Onlar kənd salınacaq əraziyə gəldilər. Gövhər xanım soruşdu:

- Sizin baş biləniniz kimdir?

- Mən, - deyə usta Nəcəf irəli çıxdı.

Gövhər xanım üzünü usta Nəcəfə tutub dedi:

- Özünlə bərabər bir iş bacaran adam seç götür, azuqə götürüb bu gün Şuşaya yola düşün. Şuşada səs-küy salmadan soraqlayıb İsa bəyin evinin yerini öyrənin, ona doyunca tamaşa edin. İmkan olsa həyətə də girin. Ancaq orada mənim və oğlum Şəfi bəyin adını çəkməyin. Siz burada bir kənd salacaqsınız. Həmin evlərin hansı nəyə oxşayır oxşasın, ancaq Şəfi bəyə tikiləcək ev, İsa bəyin evinin bənzəri olmalıdır.

Ustalar qayıdıb işə başlayırlar. Birinci Şəfi bəyin evi tikilir. Evə baxanda elə bilirdin ki, İsa bəyin Şuşadakı evini əl ilə götürüb buraya gətiriblər. Bütün kənd abadlaşdırıldı. Bu kəndin sakinləri yarandı. Bu kəndin mal-naxırı, qoyun sürüsü, at ilxısı yamaclara yayıldı. Şəfi bəy böyüyüb həddi-buluğa çatdı, evlənmək yaşına yetişdi. Gövhər xanım oğlunu yanına çağırıb dedi:

- Oğul, evlənməkdə gecikmək olmaz. Sən Şuşaya get, orada sənin yaxşı əmilərin, bibilərin var, kökündən ayrılma. Sən pis soydan deyilsən, bəlkə bu işdə İsa bəyin də günahı azdı. Onlarda sona kimi qızlar olur. Qarabağ gözəlləri. Tanışlıq vermədən onların qızlarından birini bəyən, seç! Başqa adla elçi göndər, al! Razılıqdan sonra özünü nişan ver. Onlar sənə toy etmək istədikdə razılıq vermə! De ki, toyum Şəfibəyli kəndində olacaq. Əmilərin, bibilərin atlanıb toya gələcəklər. Çalış ki, toya atan İsa bəy də gəlsin.

Şəfi bəy bir neçə gün idi ki, Şuşada idi. O, şəhəri, bulaqların başını gəzirdi. Bulaq başında bir dəstə qız vardı. Qızlardan biri Hamayıl elə bir baxışla Şəfi bəyin qəlbini ovlamışdı. Hamayıl da gözünü Şəfi bəydən çəkmirdi. Hamayıl əyilib qızların birinə dedi:

- Sən allah, o oğlana bax! Əmim İsa bəyə necə oxşayır.

Fürsətdən istifadə edən Şəfi bəy qızdan soruşdu:

- Bağışlayın, siz kimin qızısız?

- İsa bəyin qardaşı Musanın qızıyam.

Şəfi bəy qızı izlədi, evlərinin yerini öyrəndi. Tanış olduğu adamların köməyi ilə əlaqə yaratdı. Soruşdular:

- Oğlan, haralısan?

- Gəncəbasardanam – dedi.

Nəhayət, elçi göndərib, Hamayılın razılığını aldı. Söhbət toy danışığına gələndə Şəfi bəy tanışlıq verdi. Şəhərdə bir gurultu başladı, gəl görəsən. Bütün nəsil toy içərisində idi. İsa bəy oğlunu bircə dəqiqə gözdən qoymurdu. Gecə-gündüz toya hazırlıq görülürdü. Şəfi bəy qəti bildirdi ki, toy Gəncəbasarda, bizim kənddə olacaq və Gövhər anamın tələbinə görə İsa bəy də oraya toya gedəcəkdir.

Bütün tayfa cerli-cehizli Şəfibəyli kəndinə karvan bağladı. Kəndə çatanda İsa bəyi, qardaşlarını, bacılarını, Hamayıl xanımı heyrət götürdü. Necə olmuşdu ki, İsa bəyin evi əl üstə götürülüb bu kəndə gətirilmişdi? Ev bir yana, həmin evin köhnə xanımı Gövhər də əvvəlki kimi şəstlə eyvanda durub ətrafa tamaşa edir. İsa bəyin ürəyi qəşş etdi. Həsrətlilər görüşüb-öpüşdülər. Neçə gün toy-düyün oldu. İsa bəylə Gövhər xanım toyda qabaq-qabağa həmişə oynadıqları havaya oynadılar.

Şuşa ilə Şəfibəyli arası su yoluna döndü, nəslin yeni əlaqəsi yarandı. O vaxtdan çox sənələr keçib. Gövhər xanımdan, Şəfi bəydən, Hamayıldan

yadigar bir kənd qalıb: Şəfibəyli kəndi. Eləcə də, bir-birindən gözəl nəsil-soy: gözəl övladlar.

# ƏBDÜLKƏRİMİN HEKAYƏTLƏRİ

## 1. İNTİQAM

Əbdülkərimlə Morullu Cəfər Gəncə məscidindəki mədrəsədə birgə oxuyurdular. Onları birləşdirən, dost edən hər ikisinin söz düzüb - qoşmalarıydı. Üstəlik Əbdülkərim tədbirli və hazırcavab idi. Ən çıxılmaz vəziyyətdən o, asanlıqla çıxış yolu tapırdı.

Uğurlu oğlu Cəfər, Şəmkir Moruluna tez-tez gedirdi. Səbəb o idi ki, kəndlərində Seyranə adlı sevdiyi qız vardı. Lakin bu dəfə Morula özü getmədi. Onu evdən vaxtsız çağırdılar. Cəfər həmişəki kimi tez qayıtmadı. Əbdülkərimi nigarançılıq üzürdü:

- Axı bu Cəfər niyə gəlib çıxmasın?

Səhər tezdən şəmkirli uşaqlara qoşulub Morul kəndinə getdi. Əbdülkərimi heyrət götürdü. Cəfərgilin həyətində mağar var idi. Öz-özünə dedi:

- Yəqin Uğurlu kişi vəfat edib…

Evə çatıb hal-əhval tutandan sonra məlum oldu ki, Cəfərin qardaşı zalımlıqda və acgözlükdə ad çıxartmış Salman bəyin suyunu kəsib, taxıl zəmilərinə calamışdı. Bundan qeyzlənən kənd bəyi onu xəncərlə doğramışdı. Uğurlu kişi dedi:

- Balalar, ah-ufdan fayda çıxmaz. Elə eləmək lazımdı ki, qan yerdə qalmasın. Rəiyyəti lap mal yerinə qoyublar. Ancaq elə olmasın ki, yurduma süpürgə çəkilsin. Gözümüzün ağı-qarası Cəfərdi.

Gecə Cəfər tədbirli Əbdülkərimlə bir otaqda qaldı. İntiqam üçün ağıllı yol seçməliydi. Əbdülkərim dedi:

- Cəfər, qardaşının qanını özgəsi alsa, bu hesabdan olmayacaq. Burda ağıl işlətməyə ehtiyac var. Sizin bəy bekara bəylərdən deyil. Salman bəyin Nikolayın yanında stulu var. Gərək sən onu öldürməyəsən, şikəst edəsən. Eybəcər hala salıb diri-diri ona göz dağı verəsən.

Cəfər dilləndi:

- Necə bəyəm?

- Gərək o, hansı qolu ilə qardaşını doğrayıbsa, həmin qolunu dibdən kəsəsən. Qoy təkqanad hərlənsin. Hər dəfə qoluna baxdıqca, o dünyaya gedib-gəlsin. Bu ölümdən betər əzabdır. Öldürsən, divandan qurtara bilməzsən. İntiqamın çəkisi yoxdur.

Cəfər tərəddüdə qapıldı:

- Bəyin qolunu kəsmək, toyuğun başını kəsmək qədər asanmı olur?

Əbdülkərim inamla dilləndi:

- Bəli. Çətini yol tapmaq, qərar qəbul etməkdir. Qulaq as! Mən bir ata minərəm, qucağıma atanın üçatılanını götürərəm. Sən bəyin arxının suyunu kəsərsən. O, qışqıra-qışqıra üstünə gələcək. Ancaq məni görən kimi duruxacaq, silahlı yad adam onu çaşdıracaq. Bax, bu çaşqınlıqdan istifadə edib, öz işini görməlisən. Burda çətin bir şey yoxdur.

İki gənc ağıl-ağıla verib Salman bəyin sağ qolunu yerə saldılar. Bəyi götürüb xəstəxanaya

apardılar. Cəfəri də yaxaladılar. Aradan xeyli keçəndən sonra bəy özünə gəldi. Silis başlandı. Salman bəy dedi:

-Yüz Cəfər olaydı, yüz də nəsli, yenə o mənim qolumu kəsə bilməzdi. Siz Kürən atlı oğlanı tapıb gətirin.

Bir neçə gündən sonra Əbdülkərimi də tutub gətirdilər. Çox keçmədi ki, onu da dostu Cəfərin yatdığı dama saldılar. Əbdülkərim dedi:

- Qorxma, bizə ölüm yoxdur! Bir az əziyyəti olacaq, ancaq qardaşının intiqamını aldın. Bundan sonra el içində başı yuxarı gəzəcəksən.

## 2. NİKOLAYIN ŞƏKLİ

Gəncədə onların məhkəməsini bir rus hakimi aparırdı. Əbdülkərim söz alıb ayağa qalxdı. Sifətindən müttəhim yox, ittihamçı ifadələri oxunurdu. O, onların qəsdinə duranlara bir kələk hazırlamışdı. Əbdülkərim üzünü tərcüməçiyə tutub dedi:

- O rusa deyin ki, onun bizim işimizə baxmağa ixtiyarı yoxdur.

Hakim:

- Niyə?

Əbdülkərim səsini bir az qaldırdı:

- Çünki başının üstündə padşahımız Nikolayın şəkli yoxdur.

Hakimi təəccüb götürdü. Fikirləşdi: «Yox, bu müttəhim əvvəlki müttəhimlərdən deyil». Hakim məhkəməni bir necə günlüyə təxirə saldı.

Nəhayət, məhkəmə başlandı. Doğrudan da, hakimin başı üstündə Nikolayın iri, böyüdülmüş şəkli

asılmışdı. Hakim ayağa qalxdı və üzünü müttəhim Əbdülkərimə tutub soruşdu:

- İndi necə, işə baxmaq olarmı?

Əbdülkərim cavab verdi. Hakimin xəbəri yox idi ki, birinci maneənin həllinə qədər Əbdülkərim ikinci maneəni hazırlamışdı:

- Yox, olmaz! İşə baxmazdan əvvəl, Cəfərin və mənim sizə deyiləsi bir neçə qatar sözümüz var.

Hakim dedi:

- Buyurun, deyin görək.

Cəfər qabağa yeriyib dedi:

***Bəy vurub öldürdü şahı-şahbazım,***
***Getdim divanlara, tutmadı sözüm,***
***Qəzəbim güc gəldi, qalmadı dözüm,***
***Mən də kəsmişəm bir qol, yaranellər.***

Növbə Əbdülkərimə çatdı:

***Naşı namərd kəsə bilməz yolumu,***
***Dal gərdəndən çata bilməz qolumu,***
***Yazmışam yuxarı ərzi-halımı,***
***Vurdum Nikolaya tel, yaranellər.***

Sonra Əbdülkərim sözünü belə tamamladı:

- Necə olur ki, İmirzə igidi öldürən Salman bəy mühakimə olunmur? Günahkarın cinayət törədən qolunu kəsən adam mühakimə olunur? Siz bizim işimizə baxa bilməzsiniz! Böyük Nikolaya tel vurmuşuq. Nə vaxt cavab gələr, onda bizi mühakimə edərsiniz.

Məhkəmə bu dəfə də təxirə salındı. Bir neçə gündən sonra Nikolay padşahdan cavab gəldi. Əbdülkərimlə Cəfəri azad etdilər.

Uğurlu kişi qurban kəsdi və dedi:

- Oğlum, Əbdülkərim, doğrudan da igidsən! Atan Səməd, nişanlın Zeynəb yolunu gözləyir. O Kürən atı da, bu üçatılanı da sənə bağışlayıram.

Pirsultan dərəsindəki kəndlərə səs düşdü: Əbdülkərim Nikolayın məhkəməsini susdurub. Hələ hədiyyə olaraq Kürən at bir də üçatılan tüfəng alıb.

## 3. CIDIR YARIŞI

Bu qələbədən sonra Əbdülkərim yerə-göyə sığmırdı. Atası Səməd kişi ona dedi:

- Oğul, biz sadə nəslin adamlarıyıq. Az at oynat! Tüfəng sənin nəyinə gərəkdi? Bizim ki düşmənimiz yoxdu. Hər işə qoşulma. Bala Hacıqurbanlı, Qaçaq Qafar Çanaxçı dərəsinə sığmır. Bu gün-sabah adam göndərib səndən atı da, silahı da istəyəcəklər - dedi.

Əbdülkərimin göylərdən enmədiyini görən ata:

- Yox, oğul, bu tərpənişlə bizim ailəni qana çalxayacaqsan. Səni Gəncəyə «Quran» oxumağa, molla olmağa göndərmişəm.

- Ata, mollanın, din xadiminin mənliyi, qüruru olmur? Ədaləti qorumaq elə dini qorumaq deməkdir.

Ata ağıllı cavabın qarşısında susdu. Bir gün kənddən gəlin gətirməli oldular. Əbdülkərimin əmisi oğlu Sadıq dedi:

- Əmioğlu, yolumuz Mollahəsənli kəndindən keçəcək. Elə et ki, mənim atım oradan ötəndə birinci olsun.

- Nəyə görə?

- O kənddən bir qızı sevirəm. Qoy mənim qoçaqlığımı görsün, sevgilisi ilə fəxr etsin.

Əbdülkərim dedi:

- Əmioğlu, səni anladım. Yaxşı qulaq as! Sənə Ağdaşkəsilǝndən Turşsuya qədər – düz üç kilometr mənzil verəcəm. Bu boyda məsafədə bacardığını elə. Sonra Kürən vurub keçsə, daha mənim günahım yoxdu.

Atlar cıdıra çıxdı. Əbdülkərim Ağdaşkəsilǝndə Kürənin cilovunu çəkdi. Turşsuya çatanda Sadıq atının başını buraxdı. Kürən bütün atları ötüb keçdi. Sadıq Əhmədli kəndinə çatanda incik halda dilləndi:

- Əmioğlu, axı sənə dedim ki, sevgilim içindən keçdiyimiz kənddədi, mənə şərait yarat özümü göstərim.

Əbdülkərim gülümsünüb yarızarafat-yarıciddi dedi:

- Ə, Sadıq, deyirsən sənin sözünlə, bir qıza görə, heç vaxt yarışlarda basılmayan atımın adını batırım?!

## 4. KÜRƏNİN OĞURLANMASI

Yavaş-yavaş nəinki yadlar, elə qohumlar da Əbdülkərimin paxıllığını çəkməyə başladılar. Hacıqurbanlı əl altından əmisi oğlundan yanıqlı olan Sadığın üstə adam göndərdi: «Əbdülkərimi də götür Çanaxçıya gəl!»

Sadıq gələn adama dedi:

- Ayə, ağlınız başqalarına getməsin. Nə qədər ki, Kürən at Əbdülkərimin altındadı, üçatılan da əlindədi, yüz Hacıqurbanlı ola, yenə quş olub onun yanından səkə bilməz. Əbdülkərimə üstün gəlmək

üçün əvvəlcə atını ələ keçirmək lazımdır. Ancaq bu işi hər adam bacarmaz. Qafara deyin ki, atı Qədimdən başqa heç kəs oğurlaya bilməz. Onu şirnikdirib bu işə razı salmaq gərəkdi.

Çağırıb Qədimə on qoyun verdilər ki, gərək Əbdülkərimin Kürənini oğurlayıb gətirəsən. Qədim razılaşdı.

Əbdülkərim Xoşbulaq yaylağında atdan düşüb, onu bir ağaca bağladı. Çayxanaya getdi. Bir stəkan çay içməmişdi ki, hay-küy qalxdı. Xəbər yaydılar ki, Əbdülkərimin atını apardılar. Bir neçə adam dərhal atlanıb oğrunun arxasınca düşdü. Əbdülkərim də başqa bir ata minib Qədimi qovmağa başladı. O, gördü ki, Dərbənd deyilən yerdə həmkəndliləri Kürənə çataçatdı. Lazımınca qaçarı olmayan atların yel qanadlı Kürəni üstələməsi ona pis gəldi. Əlindən çıxmış Kürənin məğlubiyyətinə dözmədi, qışqırdı:

- Ə, Qədim, atın sinəbəndini (kantarını) kəs, atın qollarını tutur, qaçmağa qoymur.

Əbdülkərim Kürənin məğlubedilməzliyi naminə oğruya kömək əli uzatdı. Qədim atın sinəbəndini kəsdi. Kürən quş kimi uçub gözdən itdi. Həmkəndliləri acıqlı-acıqlı Əbdülkərimə dedilər:

- Biz sənin atından ötrü əldən-ayaqdan düşürük, sən də… Bu hərəkətdən baş aça bilmədik.

Bu uduzmaqda udan Əbdülkərim gülə-gülə dedi:

- Daha sizin atlar Kürəni tutandan sonra Kürəndən Kürən olarmı? O elin gözündə qatır qiymətinə düşər.

Bu əhvalat Qədimə də bərk təsir elədi. O, atı Hacıqurbanlılara vermədi. Başına gələnləri danışdı. Axırda əlavə etdi ki, elə igidin atını əlindən almaq

olmaz. Qədim qərarında düz oldu, atı sahibinə qaytardı.

## 5. KİŞİ PATRONU İLƏ

Bir gün qaçaq Qafar Əbdülkərimin qonşusunu yanına çağırıb deyir:

- Ayə, sizin bu Əbdülkərim çox baş aparır. Onu aradan götürmək lazımdır. Sənə çoxlu pul, qoyun verəcəm.

Qonşu bildirir ki, tüfəngim var, amma patronum yoxdur.

Qaçaq Qafar bildirir ki, Xoşbulaq yaylağına patron göndərəcəm. Saymazyana arvadınla kiçik oğlunu göndər patronu aparsın.

Bundan xəbər tutan Əbdülkərim Zağalı çayında onların qabağını kəsib deyir:

- Bacı, sən yaxşı yerin qızısan. Qardaşlarınla da dostam. Ərini şeytan aldadıb. Çıxart patronları bu çaya tök.

Qadın patronları çaya tökür. Əbdülkərim bir daraq patron çıxarıb oğlana verir. Deyir ki, bacı, sən əlini patrona vurma və ərinə de ki, kişi kişini arvad hiyləsiylə yox, kişi gülləsi ilə öldürər.

## 6. TƏLƏ

Qaçaq Qafar dedi:

-Ya gərək, Əbdülkərimlə qohum olaq, ya da aldillə çağırıb başını piyləyək.

Qafar məktub yazdı: «Əbdülkərim, bizim toyumuza gəl».

Əbdülkərim fikirləşdi: «Gedim, getməyim…» hər dəfə də atası Səməd kişinin dediklərini xatırlayırdı. Nəhayət, getmək qərarına gəldi. Ancaq yenə tədbirsiz tərpənmədi. Ortancıl qardaşını Çanaxçının baxarında gizlətdi və dedi:

- Mən oynayanda havaya güllə atacağam. Sən onda hiss etdirmədən tez-tez yerini dəyiş, kolların, daşların arxasına keç. Ara vermədən güllə at. Qoy bilsinlər ki, dağda güclü dəstə var. Onların adamları toya tək gəldiyimi sanacaqlar, ancaq atışmada çaş-baş qalacaqlar.

Əbdülkərim oynamağa dəvət olundu. Ayıq igid ona tələ qurulduğunu yaxşı bilirdi. Əbdülkərim oynaya-oynaya üçatılandan havaya güllə atdı. Güllə səsinə qarşı dağdan cavab atəşləri açıldı. Qaçaq Qafarı işin bu yerə çatması çaş-baş saldı. Deyəsən, qurduqları tələ boşa çıxacaqdı.

Oyun davam edirdi. Əbdülkərim sıçrayıb Kürənin belindəcə ayaq üstə oynamağa başladı. Nə fikirləşdisə, bir neçə dəfə Kürənin qarnının altından keçdi. Və sonra atı kəndlərinə doğru bir kilometrdən artıq məsafəni güllə çatmayan yerədək sürdü. Burada Kürənin belinə qalxıb quş kimi uçdu. Yolda qardaşı ilə qoşalaşıb Qaraqollar kəndinin içindən keçdi.

Hvcıqurbanlı onların iki nəfər olduğunu biləndən sonra dedi:

- Yox, Əbdülkərim bir çatı ilə boğulan oğul deyilmiş, əsl igidmiş.

## 7. NAMUSUN SƏRHƏDDİ

Kəndə təzə gəlin gəlmişdi. Əbdülkərim bu taydan, o taya Noylu bulağa su gətirməyə gedən gəlinə durbinlə baxdı ki, görsün, geyimi bizimkilərə oxşayırmı? Baxdı ki, Qanlıoğlunun gəlininin donu dizinin gözündədi. Əhvalı dəyişdi, bu taydan, o taya – gəlinin qıçına bir güllə atdı. Gəlin qışqırdı. Əbdülkərimin yoldaşları da bədbəxt hadisə baş verəcəyindən qorxdular. O, yoldaşlarını sakitləşdirdi:

- Qorxmayın! Siz bilirsiniz ki, mən durnanı gözündən vura bilirəm. Ancaq bu durnanı ayağından cızdırmışam. Geyim insanın abırı, həyası, namusudu, xüsusilə qadının. Mən Qanlıoğlunun gəlininə namusun sərhəddini, donun harada duracağını nişanlayıb göstərmişəm.

Bu izahdan sonra nəinki Əbdülkərimi qınadılar, hətta qeyrət çəkən əməlinə görə ondan razı qaldılar.

## 8. ŞAMİLDƏN SONRA ŞAMİL

Aylar, illər ötdü. Əbdülkərim Zeynəblə evləndi. İlk övladı oğlan oldu. Adını Şamil qoydular. Dünya dəyişdi. Nikolay getdi, Şura hökuməti gəldi. Özünə xeyir eləyən divanlar quruldu. «Troyka» başaparanların başını «sığallamağa» başladı. Hüsənin dəstəsi birləşib Əbdülkərimi «Troyka»ya çəkdirdilər. «Troyka» onlara sual verdi:

- Bu gənc adam öldürübmü, yol kəsibmi?

Üçü də birdən dilləndi:

- Qanlıoğlunun gəlininin qıçına o, taydan bu taya güllə atan, adam öldürməz? Həmin güllə o gəlinin qıçının sümüyünü qıra bilərdi.

Qanlıoğunun gəlinini çağırdılar. Olmuş əhvalatı soruşdular. Gəlin dedi:

- Başınıza dönüm, o vaxt Əbdülkərim çox cavan idi. Hamı bilir ki, o, qeyrətli, namuslu, el təəssübü çəkən adamdı. Mən bu kəndə ayrı kənddən gəlin gəlmişdim. Bu kəndin qayda-qanununu bilmirdim. O, hər şeyi mənə başa saldı. Aləm bilir ki, o, igiddi, gözəl nişançıdı, savadlıdı. Onun dik gəzməyini gözü götürməyən çoxdu.

Böhtançılar geri durmaq istəmirdilər. Onlardan biri istədi ki, bəyin qolunu danışsın. Bununla «dağı aşırmaq» olmazdı. Odur ki, Hüsən həmkarının ayağını tapdaladı. Astadan qulağına pıçıldadı:

- Ayə, bu hökumət bəyin, xanın düşmənidi. Sən Şamil məsələsini de. De ki, Əbdülkərim hər yana bəyan eləyib ki, Şeyx Şamildən sonra mənim Şamilim zühur eləyib. Mənim Şamilim ustadı Şamilin işini tamamlayacaq.

Böhtançı həvəslə böhtana başladı:

- Gör ha, məsələ nə yerə çatıb?! Yoldaş Salahov, o rusa tərcümə elə ki, Əbdülkərim oğlunun adını Şamil qoyub. Dağlı Şamil də neçə illər ruslarla vuruşub. Guya, onun oğlu da böyüyüb yeni bir Şamil olacaq. Gələcəkdə ruslarla vuruşub Azərbaycanı əsarətdən qurtaracaq.

Bu söz rusun çox xoşuna gəldi. Xoşuna gəldisə, küləyin necə əsəcəyi hiss olunurdu. Selin qabağını göy guruldamamış almaq lazım idi. Ancaq yığışanlar qorxudanmı, biganəlikdənmi Əbdülkərimi qorumaqdan uzaq idilər. «Troyka»nın yanında

Alıbaba adlı yaşlı bir kişi var idi. O, qınından çıxmayan camaatı ayıltmaq istədi:

- Ay adamlar, Əbdülkərimi mən də yaxşı tanıyıram. Ağsaqqalınız yoxdu, barı qoy igidiniz olsun. Bir kəndə gecə oğru gələndə bir-birinə deyir: «Ə, filan ağsaqqaldan ayıbdı, filan igidə görə yaxşı deyil». Birindən utanırlar, o birindən qorxurlar. O kəndə girmirlər.

Qızıl kimi sözlərin faydası olmadı. Nə valideynləri, nə qohum-əqrabası, nə də həmkəndliləri öz igidlərini qorumadılar.

Əbdülkərim dünyaya bir şahin kimi gəldi. Lakin geniş qanad açıb Qafdan-Qafa uça bilmədi. Qorusaydılar bir elin başçısına çevrilərdi. Zaman imkan vermədi. Axar çaylar dənizlərin girdabına düşüb itdiyi kimi, o da zamanın girdabında boğuldu, şahin qanadları sındı.

## ANA GÜVƏNCİ

Leyli qarı oğul sarıdan korluq çəkmirdi. Sayı bir əlin barmaqlarından çox idi. Ancaq hər oğlundan güvənc olmurdu? O oğula güvənc kimi baxırlar ki, o, anasına da, el-obasına da, xalqına da oğul olsun. Qarı oğlanlarının içərisində güvənc yeri kimi Əbdülkərimi görürdü. Sən demə, yaxşını ana ilə bərabər Əzrail də görürmüş. Əbdülkərim dünyasını dəyişdikdən sonra Leyli qarı, üzünü sonbeşiyi Həsənəliyə doğru çevirdi. Onun işığı Əbdülkərimdəkindən də çox idi. Ana kimi görsə deyirdi:

- Həsənəlini Əbdülkərimin yerinə bitirmişəm. O dünyaya onun çiyinlərində gedəcəyəm. Gözlərimə qara torpağı o, tökəcək. O, da qardaşı kimi savadlıdı, zehinlidi. Kitaba-dəftərə, elinə-obasına vurğundu. Bir nəslin güvənc yeri o olacaq.

Doğrudan da, Həsənəli nağıllarda olduğu kimi aydan-aya yox, gündən-günə böyüyür, çinar kimi boy atırdı. Uzaq şəhərlərin birində təhsilini başa vurub gəldi. Yurdumuzun neçə rayonunda yağ-süd zavodlarında vəzifə sahibi oldu. Əl uzadana ətək verdi. Büdrəyənə həyan durdu. Cavankən elin hörmətini qazanıb güvənc yerinə çevrildi. Bunları görən ananın sevincdən ürəyi köksünə sığmırdı. Bircə toyunu da görsəydi heç dərdi olmazdı.

Həsənəli qardaşı Əbdülkərim kimi toylarda oynayanda, atla nəmər yarışına çıxanda, toy şaxı oynadanda kəndin qız-gəlini tamaşaya çıxırdı. Bacıları da anası Leylinin təlaşına şərik olurdular: «Allah, sən bunu yaman gözdən qoru, yaman gözlərə nar şaxı batsın».

Həsənəli ortancıl qardaşı İbrahimxəlilin evinə yaxın yerdə özünə sahə götürdü, daş-qum tökdürdü, bina yeri üçün özül qazdırdı. Arzusu ev tikdirib, gəlin gətirmək idi. Bir azdan qonşu kənddə gözaltı elədiyi molla qızı Südabəyə elçi göndərdi. Xoş cavab aldı. Bir neçə gündən sonra qız evində «parça biçini»[1] oldu.

Müharibənin qızğın çağı idi. Kənddə başıpapaqlıların sayı yaman azalmışdı.

Hətta Həsənəlinin qardaşı İbrahimxəlil də müharibədə idi. Amma Həsənəlinin bronu (hərbidən qalmaq üçün səlahiyyət kağızı) vardı.

---

[1] «Paltarkəsdi» də deyilir.

Həsənəli nişanlısı Südabənin əmisi ilə iş yoldaşı, dost idilər. Səhər tezdən qapı döyüldü. Gələn qızın əmisiydi. Vaxtsız gəlişdən Həsənəlinin sevincinə bir çaşqınlıq, bir təlaş da qarışdı. Əminin əlindəki iri boxça onu həyəcanlandırmağa başladı. Sual dolu baxışlara cavab vermək lazım gəlirdi. Əmi çətinliklə sözə başladı:

- Həsənəli, sənətimizə görə sənə də, mənə də bron veriblər. Voenkom Hüseynov evimizə gəlib bronu əlimdən aldı və «hazırlaş, əsgər gedəcəksən» dedi.

Həsənəli sümüyü sancmış kimi dilləndi:

- Nəsə, burada bir səbəb var.

Əmi dostunun sözünü təsdiqlədi:

- Bilirsənmi, o, haradasa Südabəni görüb, başqa sevdaya düşüb. Aralarında yaş fərqi çox olsa da, qızın könlü olmasa da, biz, «yox» deyə bilmərik. Yoxsa hamımızı nəsillikcə müharibəyə göndərib nemesə qırdırar.

Qara xəbərdən yerində donmuş Həsənəli çıxış yolu aradı:

- Bəs necə olsun?

Qızın əmisi mızıldandı:

- Məsələ həll olunub qurtarıb, - qonaq əlindəki boxçanı masanın üstünə qoydu. - Bunlar sənin göndərdiyin şeylərdir. Bağışla ki, bir neçə parçanı tələsiyib kəsib-töküblər. Arasında irili-xırdalı iki qayçı da var. Nişan şeylərini geri qaytarmağa məcburuq.

Elə bil Həsənəlini ildırım vurdu, başına qaynar qazan endirildi. Hirslə soruşdu:

- Hüseynov haradadır?

- Bizdə.

Həsənəli atını minib birbaşa qonşu kəndə sürdü. Südabə barının qırağında için-için ağlayır, gözlərini yaylığın ucu ilə silirdi. O, Həsənəlini görüb ayağa qalxdı, amma cəsarət edib bir söz demədi. Çünki Südabəni əmisinin taleyi Həsənəlidən az maraqlandırmırdı.

Həsənəli ilə voenkom Hüseynov üz-üzə gəldilər. İşıqla zülmət, kamalla zor qabaq-qənşər dayanmışdılar. Həsənəli ürəyini boşaltdı. Voenkomu ədalətə, insafa çağırdı. Bu sözlərin cahil üçün nə faydası?! Hüseynov yanındakı köməkçilərlə birlikdə Həsənəlinin bronunu əlindən aldı. Özünü isə rayon mərkəzinə apardılar. Həsənəli baş leytenant kimi ön cəbhəyə göndərildi. Aradan çox keçmədi ki, ondan qara kağız gəldi. Bütün kənd bu qara xəbərdən məyus oldu. Ancaq qara xəbəri gözləri yolda qalan anaya bildirmədilər.

Bir ildən sonra İbrahimxəlil bir qolundan ağır yaralanaraq cəbhədən tərxis olundu. Qardaşının taleyi onu dərindən kədərləndirdi. Qardaş da bu barədə Leyli qarıya bir söz demədi.

Aradan illər keçdi. Ananın ümid dolu nəzərləri yollardan yığılmırdı. O, səbirsizliklə öz güvəncini gözləyirdi. Həsənəlinin qazdırdığı bina yeri quzulamışdı; qumu torpağa qarışmış, daşı mamır bağlamışdı. Ancaq oğul gəlib çıxmaq bilmirdi. Nəvələrdən Şamil bina yerinə daş basıb ev ucaltmaq istəyini bildirdi. Qarı cızığından çıxmış nəvəsinə qəti etirazını bildirdi.

Toy parçasının arasında iki qayçı pas tutmuşdu. Hərdən sandığı açıb dərmanlayırdı. Parçalara güvə düşməsin deyə aralarına tənbəki, tütün yarpaqları düzürdü. «Öz işinizlə məşğul olun, ev tikdirməyə yer tapın. Oğlum gəlib özü orda ev

tikəcək. Heç kimə bir metr parça, bircə dəsmal da verməərəm. Onları Həsənəli balam şövqlə alıb. Onların hər biri onun gəncliyindən bir nişanədir. Oğlum bunları görəndə deyəcək, yenə anam!..»

Leylinin oğul nəvəsi orta məktəbi qurtarıb kamal attestatı almışdı. Bu münasibətlə evdə məclis düzəltmişdilər. Leyli nənəsi də şənlikdə iştirak edirdi. Nəvə ayağa durub, danışarkən diqqətsizlik etdi, nənəsini bir anlığa unutdu:

- Atam məni Həsənəli əmimə oxşadır. Deyir sən də onun kimi bir evin, bir elin güvənci olacaqsan. Mən olandan iki il əvvəl əmimin qara kağızı gəlibmiş. Atam onun iyini məndən alır. Deyir ki, gərək təhsilini davam etdirəsən, əmin kimi savadlı, kamallı bir kişi olasan.

Bu sözləri aynabənddə eşidən Leyli qarı taxta çarpayıdan yerə aşdı. Üzünə su səpdilər, handan-hana özünə gəlib dedi:

- Bu qədər insanmı yaşar?  Mənim tay-tuşlarımın qəbri ot bitirir. Bəxtəvər günümə görə bu qədər yaşamışam?.. Məni ancaq oğul həsrəti yaşadıb. Gecə-gündüz yol gözləmişəm. Bu xəbərdən sonra mən yaşaya bilmərəm. Ancaq yüz belə söz eşitsəm də, Həsənəlinin ölümünə inanmaram. Hazırlıq görün, mən öləcəyəm. Oğul, İbrahimxəlil, məni el qəbristanlığında yox, Xoşbulağa gedən yolun üstdə - kəndimizin girəcəyindəki yarğanın üstündəki laləlikdə dəfn edərsiniz. Oğlum ölməyib, mütləq gələcək. Məni o yerdə dəfn elə ki, qoy Həsənəli gələndə hamıdan əvvəl mənimlə görüşsün. Qoy bilsin ki, sağ vaxtı özüm, öləndən sonra da məzarım onun yolunu gözləyib. Mənim güvəncim o idi, ana güvəncsiz yaşamaz.

Bax, o yarğanın başında, qızıl laləlikdə, ağ quşa bənzəyən tək məzar Leyli qarınındır. O məzar və onun başı üstə qanad çalan ruh aramsız, buludlarla şərikli göz yaşı tökə-tökə oğul yolu gözləyir.

## XALLI BƏBİR

Adına çəkərmiş insan. Adı Yaxşı - özü yaxşı. Qarabağın gözəlliyində belə gözəl yox idi. Yaxşını nəinki doğulduğu Ağdam rayonunda istəyirdilər. Hətta onun sorağı aşıb Bərdəyə də çatmışdı. Aşiqlər arı pətəyi kimi qaynaşırdı. Əslində Yaxşı Azayı, Azaysa Yaxşını istəyirdi.

Bəziləri belə düşünürdü ki, Azay ferma müdiridir, qız ona getməz. Başqaları isə başqa cür düşünürdü: Azay ali təhsilli zootexnikdir, günü elə yaylaqlarda, Ceyran bulağında, Taxta yaylağında, Dəlidağda, Sarıyerdə keçir. Dünyanın zövqü-səfasını görür. Beləsi Yaxşı kimi gözəlin qədrini nə bilər?..

Bir gün Azay bərdəli rəqibi ilə rastlaşır. Bilir ki, hərif bu yerlərdə havayı hərlənmir. Qərara alır ki, oğlanı eyhamla başa salıb, yerini tanıtdırsın. Deyir:

- Ayə, buralarda nə vurnuxursan?

- Elə-belə…

- Deməli bekarsan? Onda sənə bir məsəl çəkəcəyəm. Bizim bu əfətlilərlə bərdəlilərin zarafatını eşitmisənmi?

- Yox.

- Elə isə, mən söyləyim, sən qulaq as, ibrətli şeydi. Bizim bu əfətlilər çox yekəxana olurlar. Çox zaman onlar göyə baxar, özünü dartar, başlarını

əyib ayaqlarının altına nəzər salmazlar. Bunu görən bərdəlilər pərt olurlar. Bir gün bərdəlilər deyirlər ki, yerə bir neçə qızıl ataq. Əfətli keçəndə mütləq əyilib götürəcək. Bununla da biz əfətlinin vüqarını sındırıb əyəcəyik. Bunu qabaqcadan hiss edən əfətli ayağının altına qır sürtür. Gözünün ucu ilə baxa-baxa qızılları qırlı ayağı ilə dənləyir. Bərdəli baxır ki, əfətli əyilmədi. Amma yerdə qızıl da yoxdur. Qurğuları baş tutmayan bərdəlilər pərt olur və deyirlər:

***Əfətli ötdümü?***
***Əyilmədi, götdümü?***

Ay bərdəli rəqib, yaxşı başa düş ki, biz əyilməyib götürən əfətliyik. Allah ruzunu başqa qapıdan versin.

Bərdəli bir söz demədən çıxıb gedir.

Elə həmin gün Azay elçi göndərib Yaxşının «hə»sini aldı. Ancaq toy Taxta yaylağına, Ceyran bulağına qaldı.

Qoyun sürüləri Tərtər çayının sahili ilə dərələrdən, meşələrdən keçərək dağlara qalxırdı. Tərtər çayı bələdçilik edirdi. İki günə Taxta yaylağına çatdılar. Ulduz-ulduz alaçıqlar Taxta yaylağına xüsusi gözəllik verirdi. Altı-yeddi alaçıq da Ayazgil qurdular. Bir neçə gün hazırlıq görüb, toya başladılar. Cavanlar Taxtada cıdıra çıxdılar, nəmər aldılar, şax oynatdılar.

Günlər bir-birindən tez keçirdi. Toydan bir həftə sonra Yaxşı, tay-tuşları ilə Ceyran bulağına suya gələr, ətrafı seyr edər, Dəlidağa, Keyti, Mehdi dağlarına baxıb qanad açardı. Azay başı papaqlı,

atın belində görünəndə gəlinlər-qızlar eyhamlı-eyhamlı bir-birindən soruşardılar:

- Canım, bu gələn hansı bəxtəvərin yarıdı?

Dərhal eyni cavab eşidilərdi:

- Kimin olacaq, Qarabağın maralı Yaxşı xanımın!

Yaxşı yavaş-yavaş ev işlərinə əl atırdı. Çörək yapır, sac qurub fəsəli, yuxa yayırdı. İstəyirdi ki, Azay onun əlinin tamını, ləzzətini bütün varlığı ilə duysun.

Azay da, Yaxşı da elin-obanın diqqətində idi. Eli dağdan qovan soyuq payız ayları yaxınlaşırdı. Bir gün Yaxşı ilə Azay məsləhətləşib arana enməyi qərara aldılar. Azayın ata-anası yaylaqda qaldı; lakin Yaxşı ilə özü Əvəzin yük maşınına yığışıb arana üz tutdular. Sürücü Əvəzin yanında-ortada Azay, böyründə də Yaxşı oturmuşdu. Yağmurlu gün idi. Taxta yaylağında çox yubandılar. Qamışlı körpüsünə çatanda şər qarışmışdı. Dayanıb beş-on dəqiqə istirahət etmək qərarına gəldilər. Yerə düşəndə yenə ayrılığın həsrəti, meşənin payız ətri Yaxşını çəkdi. O, hiss olunmadan meşəyə doğru addımladı. Birdən bir dəhşətli heyvan nəriltisi eşidildi. Yaxşının qışqırtısı ona qarışdı. Azaygil gözlənilməz hadisədən özlərini itirdilər. «Yaxşı!», «Yaxşı!» - deyə haray təpdilər. Yaxşının yerinə bir amansız bəbir peyda olub. Onlar zorla özlərini maşına salıb qoruna bildilər. Xallı bəbir maşının pəncərəsindən diş qıcırdıb yanıdı. Silahın olmamağı Azayı məğmun vəziyyətində qoymuşdu. Bir azdan bəbir aralandı. Ayazgil maşından düşüb ehtiyatla Yaxşını axtarmağa başladılar. Onlar Yaxşının parça-para olmuş cəsədini tapdılar. Yer, göy Azayın başına fırlandı. Onun xoşbəxtliyi necə də birdən-birə puç oldu. Xallı bəbir onun taleyinə faciə

gətirmişdi. Azay elə bu qaranlıq meşədə, Yaxşının cəsədi üstündə and içdi:

- Yaxşı, ya mən də öləcəyəm, ya da sənin intiqamını xallı bəbirdən alacağam.

Yaxşının üçündən sonra Azay silahlanıb Kəlbəcərə yola düşdü. O, birbaşa ovçular idarəsinə gəldi. Yaxşı bir ovçudan məsləhət almaq istəyirdi. Ona bildirdilər ki, bəbir ovu dovşan ovu deyil. Bəbirlə vuruşmaq Əzraillə çiling-ağac oynamaq deməkdir. Bu barədə sizə ancaq ovçu Süleyman kömək edə bilər.

Ovçu Süleyman Azaya təlim keçdi. O, rəqibi xallı bəbirlə təkbətək vuruşacaqdı. Artıq Azay döyüşə hazır idi.

Azay üç gün Qaraçənli, Qamışlı kəndlərini gəzdi, bəbir deyilən heyvana rast gəlmədi. Gündüz fasilə zamanı idi. Azay baxdı ki, bəbir çayın o biri tərəfində xəzəlin arasında uzanıb yatır. Azay ov tüfəngindən başqa, beşaçılan da götürmüşdü. O, bəbiri nişan aldı və ona dalbadal bir neçə güllə atdı. Yaralı bəbir suyun o üzündən bu üzünə yay kimi dartılıb hoppandı. Azay cəld tüfəngi yerə atıb xəncəri çıxartdı. Əlbəyaxa döyüşə girişdilər. Azay yerə yıxıldı. Bəbir onun paltarını dağıtdı, başını, üzünü əlləri ilə şırım-şırım etdi. Azay bu əzablara baxmayaraq, xəncəri bəbirin qarnına yeritdi və onu içəridən burmağa başladı. Bəbir qan itirdikcə gücdən düşürdü. Bu çarpışmaya, nərilti səsinə meşəyə gələn adamlar, ovçular köməkləşib yaralı Azayı və ölmüş bəbiri rayon mərkəzinə gətirdilər. Azayın sözləri adamı titrədirdi:

- Ax, xallı bəbir, səni öldürsəm də, sən mənim qəlbimi ömürlük yaraladın. Sinəmə silinməz dağlar çəkdin. Sən mənim ilk eşqimi gözümdə qoydun.

Yaxşının da, mənim də səadətimizi əlimizdən aldın. Bundan sonra mənim yaşamağımın mənası varmı? Əzizim Yaxşı, bircə təsəllim var ki, sənin intiqamını aldım!

Deyirlər ki, taleyin bir quşu var. Hey yaxşını pisə, pisi yaxşıya oxuyar. Təkcə bir dəfə dili dolaşıb yaxşıdan-yaxşıya nəğmə deyər. Tez də bircə dəfəlik yaxşılığından peşiman olar. Yenə başlayar yaxşıdan pisə, pisdən yaxşıya oxumağa. Dilin qurusun, tale quşu! Sus, tale quşu! Bir də o bəd ağzını açma! Qoy yaxşılar yaxşılara qismət olsun!..

# III Hissə

## SƏFURƏ XANIMA İTHAF

***(Dünyasını dəyişdikdən sonra)***

### AXTARIRAM

Ürəyimin başında,
Qurumaz göz yaşımda,
Gülüm, məzar daşında
Özümü axtarıram.

«Öz» deyəndə özüm sən,
Mənim alagözüm sən,
Qoymadın bir dözüm sən,
Dözümü axtarıram.

Aldın, getdin baxtımı,
Yana yıxdın taxtımı,
Sənli bahar vaxtımı,
Yazımı axtarıram.

***31.07.94***

### YUXUMA GƏL

Behiştdə qalan sonam,
Gecələr yuxuma gəl.
Ayrı cür necə görüm?
Gecələr yuxuma gəl.

Odu sönmüş ocağam,
Şaxta vurmuş bir bağam,
Sənsiz yetim uşağam,
Gecələr yuxuma gəl.

Gündüzüm ahdı-vaydı,
Ömür bir axar çaydı,
Gülüm, kim sənə qıydı?
Gecələr yuxuma gəl.

***7.08.94***

## ÇƏTİNDİ

***Atasız-anasız olmağa nə var,***
***Heç kəs məhəbbətdən yetim qalmasın.***
***Gülnigar Rəhimli***

A Gülnigar, qınamaram heç kəsi,
Məhəbbətdən yetim qalmaq çətindi.
Daha gəlmir bağça-bağdan yar səsi,
Məhəbbətdən yetim qalmaq çətindi.

Yardan ayrı bu dünyanı neynərəm?
Yaş tökərəm, ağlayaram, göynərəm,
Nakam ölmüş aşiqlərdən betərəm,
Məhəbbətdən yetim qalmaq çətindi.

Sədnik deyər: qəmdən payım götürdüm,
Səfurəmi son mənzilə yetirdim,
Dünya boyda bir dünyamı itirdim,
Məhəbbətdən yetim qalmaq çətindi.

***21.08.94***

## BAXIM, BAXMAYIM

Cananım, durmuşam yolların üstə,
Hazıram ölməyə qolların üstə.

Həsrətin çəkməkdən olmuşam xəstə,
Sənsiz ürəyimi yaxım, yaxmayım?!
Sən gələn yollara baxım, baxmayım?!

Dağınıq tellərin ləçək-ləçəkdi,
Şəlalə saçların güldü, çiçəkdi,
Sənin gözəlliyin aydan göyçəkdi,
Sənsiz ürəyimi yaxım, yaxmayım?!
Sən gələn yollara baxım, baxmayım?!

Canımda ruhumsan, damarda qanım,
Borcumdu həmişə yolunda yanım,
Yatmışam, gəl səslə, gülüm, oyanım,
Sənsiz ürəyimi yaxım, yaxmayım?!
Sən gələn yollara baxım, baxmayım?!

Sədnik səni sevir bir aşiq kimi,
Ömrünə, gününə yaraşıq kimi,
Gəl, dol gözlərimə nur-işıq kimi,
Sənsiz ürəyimi yaxım, yaxmayım?!
Sən gələn yollara baxım, baxmayım?!

## SƏN KİMİ, GÜLÜM

Yenidən doğulsaq, sevib-sevilsək,
Mən səni sevərdim, sən kimi, gülüm?!
Dünyaya təzədən baharda gəlsək,
Mən səni sevərdim, sən kimi, gülüm?!

Bitsən dağ döşündə bir lalə kimi,
Tökülsən daşlardan şəlalə kimi,
Çəkərdim başıma piyalə kimi,
Mən səni sevərdim, sən kimi, gülüm?!

Qayalar başında ağ duman olsan,
Sədnikin qəlbində bir güman olsan,
Təzədən dünyaya qayıdan olsan,
Mən səni sevərdim, sən kimi, gülüm?!

## YATIMMI

Duyğularım aman vermir dincəlim,
Bilmirəm, yatımmı, yoxsa yatmayım?
Sən də dillən, a göz vuran ülkərim,
Bilmirəm, yatımmı, yoxsa yatmayım?

Sarıqamış çayı keçir yanımdan,
Soyuq bir gizilti keçir canımdan,
Görünməz olmuşam öz dumanımdan,
Bilmirəm, yatımmı, yoxsa yatmayım?

Qarsın dağlarını sanki çən alıb,
Heç bilmirəm, könlüm nəyə yuxalıb?
Sədniki hansı hiss bu hala salıb?
Bilmirəm, yatımmı, yoxsa yatmayım.

***29.08.94***

## DAŞAMI YAZIM

Qəlbimə yazılmış o gül adını,
A gülüm, götürüb daşamı yazım?
Bulaqlar gözümə təzə yol tapıb,
Yanaqlardan axan yaşamı yazım?

Qayalarda, a qıy vuran tərlanım,
Həsrətinə necə dözüm, dayanım?

A mənim ürəyim, a mənim canım,
Adını hicranla qoşamı yazım?

Sən mənim gözümdə əbədi bahar,
Sədnikinin qəlbi sənsiz qan ağlar,
Səfurəm qoynunda uyuyan məzar,
Yarın gül ömrünü qışamı yazım?

## DÜNYA

***Səfurə xanımın dilindən***

Gülə-gülə məhəbbətdən pay verdin,
Əzəli bal dünya, sonu qan dünya.
Nə qazandın, yarı yardan ayırdın,
Eylədin sən bizi pərişan, dünya?

Tərlan kimi göydə qanad açardım,
Yar eşqiylə şirin şərbət içərdim,
Ay insafsız, bir az yaşar, köçərdim,
Nədən tez verildi bu fərman, dünya?

Bağda gülüm qaldı, gülzarım qaldı,
Yaşanmamış ömrüm, baharım qaldı,
Qəlbi paralanmış öz yarım qaldı,
Ağlar, nalə çəkər, hər zaman, dünya!

## ÇƏTİNDİR

Şirin, bal həyatım, acı, mənasız,
Səndən sonra yaşamaq da çətindir.

Düzləri ceyransız, çölü mənasız,
Səndən sonra yaşamaq da çətindir.

Mən olmuşam deyib-gülən həmişə,
İndi mənəm boynubükük bənövşə,
Qəlbim parça-parça, sınıq bir şüşə,
Səndən sonra yaşamaq da çətindir.

Ey mənim Səfurəm, alagöz yarım,
Sənsiz solub getdi gülüm, gülzarım,
Sədnikin neynəsin, a  şah vüqarım?
Səndən sonra yaşamaq da çətindir.

***14.08.94***

## FƏLƏK

Sən mənim qəlbimə nə dağlar çəkdin,
Sevgilimi nakam aparan fələk?!.
Ağlatdın, gözümdə sellər oynadı,
Ciyərimi çəkib qoparan fələk.

Dedilər, min dərd var, min bir də dərman,
Övladlar anaya dedi yüz qurban,
Niyə yaxşılığa vermədin fərman,
Sənin xoş işlərlə yox aran, fələk.

O alagözlümə sən necə qıydın?!.
Əziz bəndən idim, könlümə dəydin,
Sədniki ağlatdın, qəddini əydin,
Sağalmaz canımda bu yaran, fələk.

***29.08.94***

## GƏLİN

Yüz ağlayım, yüz sızlayım, yüz gəzim,
Tapılmaz sən kimi alagöz gəlin.
Kərəm kimi od tutaram, yanaram,
Qoymusan canıma elə köz, gəlin!

Duruşunda yüz məlahət varıydı,
Sinə mərmər, ağ bədənin qarıydı,
Sənin hər baxışın bir baharıydı,
Ələ düşməz elə qəmzə, naz, gəlin!

Ay camalın, pür kamalın bir yana,
İnsanlıqda tək gəlmişdin cahana,
Sədnik gəzər səni hey yana-yana,
Dolana yüz payız, gələ yaz, gəlin!

## SƏNSİZ

Sənsiz Günəş də doğdu,
Sənsiz yağış da yağdı,
Sənsiz çiçək də bitdi,
Sənsiz bülbül də ötdü.

Sənsiz Günəş doğmadı,
Sənsiz yağış yağmadı,
Sənsiz çiçək bitmədi,
Sənsiz bülbül ötmədi.

Onda bir təsəlli yox,
Təsəllim olar ancaq,
Günəşlə bir doğasan,
Yağışla bir yağasan,

Çiçəklə bir bitəsən,
Bülbüllə bir ötəsən.

***6.08.94***

## DAĞLAR

İtirmişəm nazlı yarı,
Dönür, dönsün üzün, dağlar.
Daha sənə sevinc verməz,
Qəm köynəkli yazın, dağlar.

Yoxdu yarım gülün dərsin,
Çiçəklərə könül versin,
Ağla, sən də, qoy tor görsün,
Mənim kimi gözün, dağlar.

Sədnik çəkər yar həsrəti,
Qana dönər məhəbbəti,
Çəkilməsin çənin qəti,
Görünməsin izin, dağlar.

## ÖMRÜN NİYƏ GÖDƏK OLDU

Ay mənim süsən, sünbülüm,
Ömrün niyə gödək oldu?
Yarıgülü, qönçə gülüm,
Görün niyə gödək oldu?

Şüşə qəlbim paralandı,
Neçə yerdən yaralandı,

Sevinc məndən aralandı,
Ömrün niyə gödək oldu?

Birdən-birə ağ quş oldun,
Öz yuvandan uçuş aldın,
Sədniki qəmlərə saldın,
Ömrün niyə gödək oldu?

***18.09.94***

## MƏNİ

Gəlişini mən bu gecə duymuşdum,
Yatmışdım, olmadı oyadan məni.
Bir doyunca camalına baxardım,
Olmazdı, alaydın röyadan məni?

Cüt çıxardıq Qızılqaya başına,
Bir baxardıq torpağına, daşına,
Dağlar qarışaydı gözüm yaşına,
Ataydın sellərə qayadan məni.

Sədnikəm, min dəfə yatım, oyanım,
Hey alışım, hey odlanım, hey yanım,
Olmaz can sirdaşım, səntək cananım,
Sökələr, tikələr binadan məni.

***20.06.95***

## GƏLƏYDİN

Çox ağırdı, ayrılığın, həsrətin,
Deyirəm, dünyaya təzdən gələydin.

Gəzə-gəzə Daşbulağın üstünə,
Əldə çiçək Baladüzdən gələydin.

Eşidəydim, gülüşünü, səsini,
Yaqut dodaqların xoş kəlməsini.
Bilib bu qəlbimə xoş gəlməsini,
Anangildən, ya da bizdən gələydin.

Sədnikin xəyalı sənlədir ancaq,
Ölüncə surətin gözdə qalacaq,
Yanar can təşnədir, a gözəl bulaq,
Bir öpəydim ala gözdən, gələydin.

***20.06.95***

## DÜZGÜ, BAYATI VƏ RÜBAİLƏR

Sevgilimə nəzər dəydi,
Yaman gözlər qəddin əydi,
Sevgilimi göz apardı,
Sevgilimi tez apardı.

Kim deyir ki, yam-yaşıldı,
Xəzəli yoxdu dünyanın.
Hamı bilir, sonu puçdu,
Əzəli yoxdu dünyanın.
Yarımın taxtına layiq
Gözəli yoxdu dünyanın.

Verdiyin alan dünyadı,
Dərdindən ölən dünyadı.
Mənim hökmdar yarımı
Taxtından salan dünyadı.

Dedim, gedim Qağızmana,
Gəlmədi bir kağız mana,
Ay fələk, yara çatmadım,
Səsləndi bir ağız mana.

Ağ bulud ağladı keçdi,
Qəm canımda şırım açdı.
Ciyər yandı, su istədi,
Bulaqlar gözümə köçdü.

Mənim təkcə quşumsan,
Mənim can sirdaşımsan,
Röyada şirin dünyam,
Gündüzlər göz yaşımsan.

## QƏMLİ ANLARIM

Heç zaman, heç zaman sənsiz olmayıb,
Sevincli anlarım, qəmli anlarım,
Gözlərimə köçüb, qəlbimə köçüb,
Sevincli anlarım, qəmli anlarım.

İtirdim işıqlı dünyada səni,
Görsəm təsəllimsən röyada səni,
Axtarar zəmidə, dəryada səni,
Sevincli anlarım, qəmli anlarım.

Tanrı səni ürəyimdən almasın,
Gül camalın xəyalımda solmasın.
Sədnik istər heç vaxt sənsiz olmasın
Sevincli anlarım, qəmli anlarım.

## ÜRƏYİMDƏN QOPAN AHIMDI SEVGİ

O dağlarda gəzən ahumdu sevgi,
Ürəyimdən qopan ahımdı sevgi.
Hər zaman qəlbimdə, gözümdə yanar,
Günəşim, ulduzum, mahımdı sevgi.

Əzəl yer üzündə nurdun, Səfurə,
Sonra göy sularda durdun, Səfurə,
Dənizdən sıçrayan damla yaşınla
Könlümün şüşəsin qırdın, Səfurə.

Qoca dünya, yoxmuş səndə sədaqət,
Nə bir insaf, mürvət, nə də ədalət.
Qəlbimin evinə bir od vurmusan,
Gözlərimdə alovlanır məhəbbət.

Nə müddətdir susub, lal dayanmışam,
Qalmayıbdı məndə hal dayanmışam,
Məni dara çəkən donmuş baxışlar,
Birdəfəlik canım al, dayanmışam.

Kərəm Ərzurumu dolaşan kimi,
Lələ gədiklərdə yol çaşan kimi,
Haraylarsan, ün salarsan, tapmazsan,
Aşaram dağlardan gün aşan kimi.

Neyləyirdin Ərzurumu, Qazmanı,
Bir dastanam dəftərinə yaz məni.
Nə faydası, bundan belə, ay zalım,
Yüz harayla, axtar məni, gəz məni.

(**Səfurə xanımın dilindən**)

## QAYIT, GƏL

Bu nə  həsrət, bu nə hicran, bu nə qəm?
Gözüm yollardadı, gülüm, qayıt, gəl.
Səndən ayrı heçə dönüb bu aləm,
Gözüm yollardadı, gülüm, qayıt, gəl.

Yasəmən saçların saçaq-saçaqdı.
O ala gözlərin ayna bulaqdı,
Bulaqlarmı donub, belə soyuqdu?
Gözüm yollardadı, gülüm, qayıt, gəl.

Bu necə səfərdi, sonu görünməz?
Bu necə səhərdi danı görünməz?
O xoş günlərimiz hanı görünməz?
Gözüm yollardadı, gülüm, qayıt, gəl.

Günəş dağdan aşar, bir də qayıdar,
Səhər cilvələnər bir də qayıdar,
Günəş şölə çəkər yurda qayıdar,
Sən də bir Günəşsən, gülüm, qayıt, gəl.

Sədnikin Ayı da, Günü də sənsən,
Sədnikin imanı, dini də sənsən,
Sədnikin nəfəsi, ünü də sənsən,
Gözüm yollardadı, gülüm, qayıt, gəl.

***Sədnik Pirsultanlı***

## SƏDNİKİN

***(Ömür-gün yoldaşı Səfurə xanımın itkisindən sarsılmış məşhur folklorçu-alim Sədnik Paşa Pirsultanlıya)***

Ey ozan dədələr, ey saz tutanlar,
Enibdi başından tacı Sədnikin…
Ey hikmət elmindən ocaq çatanlar,
Qalmayıb harayı hayçı Sədnikin…

Bir sinədəftərin mirzəsi idi,
Batman yazıların fəhləsi idi,
Könül otağının şöləsi idi,
Söndü qələminin gücü Sədnikin.

Alim bağçasında elm adlı barın,
Xəzinə dastanın, əfsanə varın,
Üst-üstə qalanan o kitabların,
Üzü Səfurənin, içi Sədnikin.

Qan olub gözünə sağılmamışdı,
Muncuqtək qırılıb dağılmamışdı,
Bir dəfə üzünə ağ olmamışdı,
Nə qədər olsa da suçu Sədnikin.

Elçi-gəzərgidir hər şeydən öncə,
Ona qan ağlatdı bu səfər bunca,
Kərəm olub Ərzuruma varınca,
Kaş ki, qırılaydı qıçı Sədnikin.

Qorqud yolçusunun yolları çətin…
Tutuldu Günəşi, Ayı büsbütün,

Döydü qapısını, döydü qara gün,
Ağardı, ağarmaz saçı Sədnikin.

***Qərib Mehdi***
***30.08.94***

## DAĞCA YÜKƏ DÖZƏNƏ

(***Qələm dostum Sədnik Paşa Pirsultanlıya)***

Eynal taxtı xaqanlığın ağası,
Pələngləşər bələk, nənni çağası,
Xoşbulağın mağarası, zağası-
Yatır mülkü, viranəsi Sədnikin.

Şamançıydıq atəşəcən, qoracan,
İsgəndəri utandırıb gor haçan?
Keyxosrova qan uddurub goracan,
Tomrisi, Nüşabəsi Sədnikin.

Qoç Koroğlu yurdu dağa qaldırar,
Xan Eyvazı durna teli saldırar,
Hər aşığa ürək teli çaldırar,
Telli sazı, tazənəsi Sədnikin.

Dünya gəzər, eldən eli salamlar,
Sirdaşıdır sinədəftər adamlar,
Xalq hikməti, məna dolu kəlamlar-
Cəvahiri, dürdanəsi  Sədnikin.

Dağlar - alay, Dəli Qoşqar – bir sultan,
Tülkülərə çətin olar şir sultan.

Qibləgahı Pirsultandır, Pirsultan-
Qoca Qafqaz piranəsi  Sədnikin.

Xəzinədir el sərvəti məhsulu,
Zənginliyi ötüb doymuş məhlulu,
Keçib Hoca Nəsrəddini, Bəhlulu-
Lətifəsi, kinayəsi Sədnikin.

Baxt ulduzu yaman söndü, ay aman!
Dünyasına bəla endi, ay aman!
Yana-yana külə döndü, ay aman!
Eşq oduna pərvanəsi Sədnikin.

Ətəkləyər dağ-dərəni, düzləri,
Yanar dağdır, haqdan yanar gözləri,
Sarı qızın nur çeşməsi gözləri,
İlahi nur piyaləsi Sədnikin.

Sinəmizə çəkib Əli, Vəli dağ,
Heykəl eylər dağ cüssəli kəli dağ.
Dəli Domrul, Dəli Qoşqar, Dəli dağ,
Aqillərdir divanəsi Sədnikin.

Torpaq daim əjdahatək ov udar,
Xatirələr xörəyini soyudar,
Ovqatını çox çətin ki, ovudar
Qız-gəlinin himayəsi Sədnikin.

Qızılgülsüz bülbül dağlar bağları,
Dağca yükü, vallah, bükər dağları,
Sinəsinin çalın-çarpaz dağları-
Dərdəcərlik divanəsi Sədnikin.

Torpaq oldu ala gözün sürməsi,
Yasa batdı Xan Kəpəzin zirvəsi,
Hanı ilham pərisinin cilvəsi?
Qana döndü peymanəsi Sədnikin.

Yarı yardı bir qənimət kəsiydi,
Səsi, bəlkə Burla xatun səsiydi,
Elə həssas insandı ki, bəsiydi-
Bircə himi, işarəsi Sədnikin.

Haqqı yoxdur haqq yolundan sapmağa,
Diriliyin çeşməsini tapmağa,
Haqqı timsah ağzından da qapmağa
Ola bilməz bəhanəsi Sədnikin.

Müdrik əri Vətən daşa döndərər,
Xiffətini gözdə yaşa döndərər,
Əfsanəvi vətəndaşa döndərər
Əsatiri, əfsanəsi Sədnikin.

Kəramətin çox böyükdür, İlahi!
O qıl körpün-incə tükdür, İlahi!
Çiynindədir, dağca yükdür, İlahi!
Köç gəlini, gecavəsi Sədnikin.

Sərt baxışı şapalaqdır sərt üzə,
Boynubükük göz zilləyər pərt üzə,
Səxavətlə qapı açıb mərd üzə
İran-Turan kaşanəsi Sədnikin.

Ulu Tanrım - dostu səsi bəmlinin,
Atabəyəm, həmdəmiyəm qəmlinin,

Kövrəyiyəm qəmli gözü nəmlinin,
Sonasıdır təranəsi Sədnikin.

***Abbasəli Sarovlu-Atabəy***
***23.10.94***

## GÖRÜNMÜR

(***Dünyalar qədər sevdiyi ömür-gün yoldaşını itirmiş SədnikPirsultanlıya***)

Yoluna həsrətin qılıncı endi,
Bir zaman o göylər, zirvə sənindi.
A dağlar qartalı, niyə bəs indi
Qoşa qanadının biri görünmür?

Yanıltdın dağları öz gümanında,
Hanı ilham pərin, yoxdu yanında.
Eşqinin yuvası Pirsultanın da
Sultanı görünmür, piri görünmür.

Hər gələn kədərə durma sən öndə,
Söndü bəxt ulduzun o şam sönəndə.
Bir mələk uyuyur sənin sinəndə,
Ürəyi daşlara yeri görünmür.

Enibdir nəğməsi bəmə Sahibin,
Batıbdır ürəyi qəmə Sahibin.
Mənim bu günümdə, demə Sahibin
Söhbəti görünmür, şeiri görünmür.

***Sahib Axundlu***

## AXTARIRAM

*(Şair dostum Sədnik Paşa Pirsultanlının kədərindən aldığım təəssurat)*

Sədnik Paşa, səni ovutmaq üçün,
O kövrək qəlbinə iz  axtarıram.
Qəvvasam,  dalmışam söz dəryasına,
Deyilməmiş təzə söz axtarıram.

Matəmli baxışın qəm səpələyir,
Qəmin ələyindən qüssə ələyir.
Ahın göy titrədir, yer sirkələyir,
Məlhəm tapammıram, yüz axtarıram.

Sən tək ağlayan yox könül sirdaşın,
Dağ selinə dönüb axan göz yaşın.
Gedibdi baharın, sərtləşib qışın,
Səni isitməyə köz axtarıram.

Unutma, alimsən, dərdi-sərin var,
Poetik şairsən, söz kəsərin var.
Hələ yazılmamış çox əsərin var,
Odur sənə səbr-söz,  axtarıram.

Sənsiz çox darıxır Pirsultan dağı,
Yolunu gözləyir oba-oylağı.
Şimşəyəm, etdilər məndən sorağı,
Sözümə sadiqəm, düz axtarıram.

***Firuddin Şimşək***

## BURDA YATIBDIR

Dostumun ürəyi, qəşəng mələyi,
Əziz Səfurəsi burda yatıbdır.
Gözdə qaldı, neçə arzu, diləyi,
Ömür pərvanəsi burda yatıbdır.

Toy-düyün etməmiş oğlu-qızı var,
Deyilməmiş diləyi var, sözü var.
Vəfasızsan, dünya, səndə gözü var,
Səyyafın anası burda yatıbdır.

O şair qəlbini qoparıb gedən,
Ağzının dadını aparıb gedən,
Sədnikə vəfalı yar olub gedən,
Ağ sular sonası burda yatıbdır.

***Heydər Qərvəndli***
***31.07.94***

## SƏDNİKİN

***Səfurə xanımın əziz xatirəsinə***

Dar gündə köməyi, son pənahıydın,
Dini-imanıydın, qibləgahıydın,
Gözəllər gözüydün, gözlər şahıydın,
Böyük sultanıydın vəzir Sədnikin.

Bürünüb sevinci dumana, çənə,
Görünmür gözünə dünyada heç nə.
Sənsiz günlərinin sənsizliyinə,
Dözəmmir, kim deyir: dözür Sədnikin?

Ruhu qəbrin üstə ağlayan kaman,
Onun həsrətinə yas tutur zaman,
Səhər də, axşam da, hər yerdə, hər an,
Səfurə axtarır, gəzir Sədnikin.

## SƏFURƏM

***(Poemadan bir parça)***

Qürbət eldə gəlib girdin yuxuma,
Gördüm, uçub sən gedirsən, Səfurəm.
Dərd daraşdı yatağımdan yaxama,
Gördüm, uçub sən gedirsən, Səfurəm.

Duman örtdü zirvəsini dağımın,
Ahı dindi dodağımda ağımın,
Gülü qopdu budağımdan dağımın,
Gördüm, uçub sən gedirsən, Səfurəm.

Ağrı tutdu ürəyimin başından,
Can asıldı kədərimin daşından,
Yer islandı gözlərimin yaşından,
Gördüm, uçub sən gedirsən, Səfurəm.

Həsrətində saldın oda Sədniki,
Gəlib tapdı bəla, qada Sədniki,
Sənsiz qoyub bu dünyada Sədniki,
Gördüm, uçub sən gedirsən, Səfurəm.

***Lətif Zərgər***

## A QARDAŞ

Çox qapılar döymüş vərdişkar fələk,
Sənin də qapını döydü, a qardaş.
Xoşbəxt həyatını, xoş günlərini,
Yolun yarısında qoydu, a qardaş.

Sınaydı qələmi, yazan fələyin,
Qəsdinə girərkən o pak mələyin,
O təmiz vicdanın, o saf ürəyin,
Yoxdu bir günahı, nəydi, a qardaş?

Namərd fələk, qəfil tufan qopardı,
Ailənin sevincini apardı,
O, bir mələk idi cənnətə vardı,
Zərbələri sənə dəydi, a qardaş.

Görüşərkən sən kövrəlib ağladın,
Bu xəbərlə ürəyimi dağladın.
Dilində bayatı, coşub çağladın,
Sözlərin qəlbimi oydu, a qardaş.

Şair qəlbin yandı, yaman inlədi,
Bu ağrını vəfadarın bilmədi,
Son arzu, istəyin sənlə bölmədi,
Kədərin Musanı əydi, a qardaş.

## AY BACI

Bu cəllad xislətli zalım fələyin,
İnsafı, mürvəti yoxdu, ay bacı.
Qardaş deyəndə ki, evim uçubdu,
Beynimdə şimşəklər çaxdı, ay bacı.

Çölün çəmənsiz qaldı,
Sünbülün dənsiz qaldı.
Heyif, sənə, ay bacı,
Qardaşım sənsiz qaldı.

Hurilər də sənə nəzər salardı,
Aqillər ağlına heyran qalardı,
Günəş camalına məftun olardı,
Tayın bu dünyada yoxdu, ay bacı.

Əzizinəm, bağ oldu,
Bağça oldu, bağ oldu.
Sənin vaxtsız ölümün
Qəlbimizdə dağ oldu.

Neçə nəvə gözü yollarda qaldı,
Həsrətin dağ qoydu, onlarda qaldı,
Şirin söz-söhbətin dillərdə qaldı,
Dərdlərin Musanı yıxdı, ay bacı.

Sən Günəşin saçıydın,
Gözəl ana, bacıydın,
Sən qardaşım Sədnikin
Başındakı tacıydın.

***Musa Allahverdiyev***
***(Yevlax, müəllim-şair)***
***4.08.94***

## DE KİM, OLDU?

İlhamına, Sədnik Paşa,
Nicat verən de, kim oldu?

Əldən tutub çəkdi başa,
Vüsət verən de, kim oldu?

Saf döyünən ürəyiylə,
Nəcib arzu, diləyiylə,
Gecə-gündüz köməyiylə
Qüvvət verən de, kim oldu?

Sədaqətlə, səxavətlə,
İnsaf, mürvət, kəramətlə,
Dözüm-durum, qətiyyətlə
Taqət verən de, kim oldu?

Zirvə keçib, dağ aşmısan,
Alnıaçıq, ağ aşmısan,
Kef-damağı çağ aşmısan,
Möhlət verən, de, kim oldu?

Gecə-gündüz yorulmayan,
Taleyimə darılmayan,
İçin-için qırılmayan
Sürət verən de, kim oldu?

Dərrakəsi, kamalıyla,
Əqidəsi, amalıyla,
Məlahətli camalıyla
Ziynət verən de, kim oldu?

Səni yanan şam eyləyən,
Salıb eşqə ram eyləyən,
Zülal dolu cam eyləyən,
Şərbət verən de, kim oldu?

Əsərinin ləllərinə,
Axar-baxar sellərinə,
Xəzan görməz güllərinə
Qiymət verən de, kim oldu?

Eniş-yoxuş yol getmisən,
Zülal çəkib, bal etmisən,
Kim deyər ki, lal etmisən,
Şöhrət verən de, kim oldu?

Diyar-diyar gəzə bildin,
Seyrə çıxıb sözə, bildin,
Qəvvas kimi üzə bildin,
Vüsət verən de, kim oldu?

Zəfər çaldın bala-bala,
Könülləri ala-ala,
Nəzər saldın doğru yola,
Cürət verən de, kim oldu?

Qazanmısan adı-sanı,
Gülü solmaz gülüstanı,
Tanıt bizə o insanı,
Riqqət verən de, kim oldu?

Cəmil Əkbər sənə heyran,
Dönə-dönə yenə heyran,
Bu səs-küyə, yenə heyran,
Qüdrət verən de, kim oldu?

***Cəmil Əkbər***
***28.08.94***

## AY ANA

Buludlar çaxnaşanda,
Sular aşıb-daşanda,
Yarın gəlib çıxanda
Eşitdinmi, ay ana?

Dünya tüğyan eylədi,
Yarın fəğan eylədi,
Canını qurban dedi,
Eşitdinmi, ay ana?

Övlad kəsdi, yar ağladı,
Sinəmizi hey dağladı.
Göydə quş qanad saxladı,
Eşitdinmi, ay ana?

Baş daşın bir tamaşa,
Bulaqların qoşa-qoşa,
Rəhmət söylər, o Ağquşa
Yaxın-uzaq, ay ana.

Sabutayam, yaralandım,
Ürəyimdən paralandım,
Məzarına dolandım
Yana-yana, ay ana.

***02.08.94***

## AXTARIR GÖZÜM SƏNİ

Dağları seyr edəndə,
Çəmənlikdə gəzəndə,

Bulaqdan su içəndə
Axtarır gözüm səni.

Gəlinlərə baxanda,
Kündəni küt yapanda,
Düymənc qatıb yeyəndə,
Axtarır gözüm səni.

Qızılgülün bəhsində,
Bülbülün nəğməsində,
Ellərin nəfəsində
Axtarır gözüm səni.

Sədnikinin sözündə,
Sərvanının gözündə,
Sərvanənin üzündə
Axtarır gözüm səni.
***31.08.94***

## YERƏ ENMİSƏN

Könlüm hey arzular, arzular səni,
İstərəm bir gecə yuxuma gəl, sən.
Eşidəm o şirin söhbətlərini,
Ehtiyac duyuram, yuxuma gəl, sən.
Ay bəşər övladı, mələksənmi sən?
Necə hörmətlisən, nə qüdrətlisən.
Bir nur payısanmı, yerə enmisən,
Sən aydan, ulduzdan göndərilmisən.

## UÇAN GÖYƏRÇİNİM

Ağlayıram için-için,
Mənim uçan göyərçinim.
Nə tez getdin, axı neçin?
Mənim uçan göyərçinim.

Göy çəməndə gəzər idin,
Bulaqları gəzər idin.
Toy-düyündə süzər idin,
Mənim uçan göyərçinim.

Qəlbimdə bəslərəm səni,
Nəğməmlə səslərəm səni.
Ah, necə istərəm səni,
Mənim uçan göyərçinim.

## ANAMIN «ÇAYLAR» ŞEİRİNƏ

Çaylar burula-burula, anam!
Çaylar durula-durula, anam!
Dağlardan enər arana, anam!
Sular yorula-yorula, anam.

***Sabutay Sədnikoğlu***
***19.09.94***

## SƏFURƏ XANIM

***(Hörmətli Sədnik Paşayevin gözəl xanımı Səfurənin vəfatı şairə qəlbimi dilə gətirdi)***

Azəri gözəli Səfurə xanım
Qocaman şairə zərbələr vurdu.
Eşitcək xəbəri qaraldı qanım,
Qəlbimdə qəm quşu bir yuva qurdu.

Başınız sağ olsun, qocaman şair,
Şərikik bu böyük dərdinə biz də.
Bir daha qəm-qüssə görməyin, şair,
Sizə çox hörmət var hər birimizdə.

Heç bir vaxt solmasın sizin çöhrəniz,
Sizə qismət olsun sevincli günlər.
Yaxşı insanlarla dolsun dövrəniz,
Ağrısız, acısız keçsin hər illər.

***Mətanət Kərimli***
***(Gəncə, orta məktəb məzunu)***

## İTİRMİSƏN

***Səfurə xanımın əziz xatirəsinə***

Eşitmişəm, Sədnik qardaş,
Dağ boyda dağ itirmisən.
Gedib əldən güllü yazın,
Güllü yaylaq itirmisən.

Saralıbdı bağça-bağın,
Qırılıbdı qol-budağın.
Susuz qalıb dil-dodağın,
Sən bir bulaq itirmisən.

Cəfər, ağlar, gülməz könül,
Açmaz çiçək, açmaz sünbül,
Bilirəm, yaralı bülbül,
Bir böyük bağ itirmisən.

***Levli Cəfər***

## SƏDNİKİN

Əflatun xəyalı, xub kamalı var,
Aləmə məlumdur işi Sədnikin.
Münəvvər misallı, dür kamalı var,
Tutulubdu Ay-Günəşi Sədnikin.

Tərk elədi süsən-sünbül gülünü,
Budağının yarpağını, dalını,
Dünyadan bimuraz çəkdi əlini,
Vaxtsız köçdü can sirdaşı  Sədnikin.

Murad Qaraxanlı, söylərəm rəhmət,
Mən gedə bilmədim, oldum xəcalət,
Cəbri-zülüm oldu, firqəti - həsrət,
Bahara dönəndə qışı Sədnikin.

***Murad Yıldız Qaraxanlı***
***Qars, 15.09.94***

## ÖLDÜR BU YUXUNU…

*Az dolandır görmədiyim yerləri,*
*Açaram gözümü, ölərsən yuxu.*
*Səfurə Pirsultanlı*

Ruhunu göyəmi çəkdi mələklər,
Ağlatdın çoxunu, Səfurə xanım?
Pak, təmiz, ətirli, qönçə çiçəklər
Bəzədi yaxanı, Səfurə xanım.

Pirsultan qarıydın - bəyaz, dümağdın,
Yayın istisində arana yağdın,
Bir göz qırpımında başına yığdın
Uzağı-yaxını, Səfurə xanım.

Həyətində nə kədərli toy oldu,
Yanan ocağının gözü oyuldu,
Qoçlar xırıldadı, saclar qoyuldu,
Yaydılar yuxanı Səfurə xanım.

Yıxıldı Gəncənin zərif qovağı,
Sürüşdü üzündən sevgi duvağı,
Vermişdi qızına Pirsultan dağı
O boyu-buxunu, Səfurə xanım.

Söz qoşdun Xoşbulaq lalələrinə,
Oxşardın onların əlalarına,
Yedirtdin yarına, balalarına
Gözünün yağını, Səfurə xanım.

Yarından yadigar «Ana bulağı»,
Çağlayan təbindir ilin hər çağı,

İndi də səsdədir yerin qulağı,
Yurd duyur duyğunu, Səfurə xanım.

Əridin, əritdin sağ Pirsultanı,
Pirsultan itirdi ağ bir sultanı,
Ağ bir yağışa dön yağ, Pirsultana
Sevindir dağını, Səfurə xanım.

Oyan Pirsultanın sarı gəlini,
Dara Gülüzarda durna telini,
Bitir tellərində nərgiz gülünü,
Göstər öz səxanı, Səfurə xanım.

Məzar otağında çox uyuyursan,
Sarı saçlarını ağ boyayırsan,
İsti ürəyinlə necə duyursan
Qışın soyuğunu, Səfurə xanım?

Aç ala gözünü, göy təkinə bax,
Başdaşına dönən Sədnikinə bax,
Qəlbinə qalanan qəm yükünə bax,
Öldür bu yuxunu, Səfurə xanım.

***Məmməd Alim***
***16.01.95***

## PİRSULTANIN GÖZƏLİ

***Qardaşım Sədnikin könül vəfadarı***
***Səfurə xanımın xatirəsinə***

Məcnun Leylisini axtaran kimi,
Sədnik də axtarır Səfurəsini.

Dəryatək boşalır, dolur gözləri,
Yadına saldıqca pərvanəsini.

Qərib qürbət eldə yata bilmədi,
Sübhə kimi qərar tuta bilmədi,
Axır, son sözünə çata bilmədi,
O, aşkar görmüşdü qəm röyasını.

O, keçmiş günləri salıb yadına,
Ürəkdən ağladı o pak qadına,
Ana köçən vaxtı ana qoynuna,
Sədnik özü çaldı son laylasını.

Aşiq odur hey yadına sala yar,
Çünki yarsız dünya olar ona dar,
Dindirəndə için-için ağlayar,
Ah çəkər, eşitməz mələk səsini.

Köçdü getdi Pirsultanın gözəli,
Özü şair təbli, ədib kəlməli,
Sədniki eylədi qəmdən şələli,
Yenə də axtarır son nəğməsini.

Allah olsun, qardaş, sənin köməyin,
Çin-çin olsun bütün arzu, diləyin,
Heç gülməsin üzü qanlı fələyin,
Göstərmədi niyə son şöləsini?!.

Darıxanda kitabını al ələ,
Oxu, şeirlərini qoy gəlsin dilə,
Aşıq Mayıs yeddi kəlmə söz ilə,
Köklər Dilqəmiylə təranəsini.

***Aşıq Mayıs Gəncəli***
**05.01.95**

## QARDAŞ

***Sədnik Paşa Pirsultanlının könül sirdaşı Səfurə xanımın əziz və kədərli xatirəsinə***

Elə danışdın ki, ağır dərdini,
Ürəklərin yeri daraldı, qardaş.
Susdu, oxumadı şeyda bülbüllər,
Çəməndə gül-çiçək saraldı, qardaş.

Danışanda şimşək çaxdı sözündə,
Göz yaşların alovlandı üzündə,
Bu kainat heçə döndü gözündə,
Elə bil, Günəş də qaraldı, qardaş.

Onunla yarıymış üzünün nuru,
Kəlmənin bəzəyi, sözünün nuru.
Yaman vaxtsız gedib gözünün nuru,
Zümrüd baxışların koraldı, qardaş.

Mən demirəm bir ağacsan, barın yox,
Bir bədənsən, yarın sağdı, yarın yox,
Gedib gəzmə, o dağları yarın yox,
İndi görüş yerin qar aldı, qardaş.

Qəmkeş, hər şairə Səfurə olmaz,
Onun qızılgülü qışda da solmaz,
Şair yaradandır, yaradan ölməz,
Neçə bağ becərib, bar aldı, qardaş.

***01.01.95***

## SƏNİN

***Sədnik Paşa Pirsultanlının «Ala göz mələyim dağlarda qalıb» rədifli qoşmasına cavab***

Sədnik Paşa, gül nə gəzir dağlarda,
Solubdu çəməndə çiçəyin sənin.
Bənövşə qoxulu, nərgiz bədənli,
Gözəllər içində göyçəyin sənin.

Sən dəryaydın, o, bir qızıl adaydı,
Təb əhliydi, haqdan gələn sədaydı,
Bəşər surətində mələkzadəydı,
Uçubdu cənnətə mələyin sənin.

Elə bil ki, sənə min ildi bir gün,
Tükənib qalmayıb taqətin, gücün.
Dünyada firavan yaşamaq üçün,
Gedibdi ən ali köməyin sənin.

Qəfil  itirmisən elə bir sirdaş,
Ruhun bədənində qalıbdı çaş-baş,
Görürəm ki, ondan qeyri, a qardaş,
Yoxdu bu dünyada istəyin sənin.

Qəmkeş də çox keçib, qəmdən, kədərdən,
Yenə təsəllisin alıb səbirdən,
Elə bil, daşlara çaxılıb birdən,
Neçə arzuların, diləyin sənin.

***Qəmkeş Allahverdi***
01.01.95

## YATMA

***Məşhur folklorçu, şair dostum Sədnik müəllimin xanımı Səfurə Pirsultanlının «Dünya, səndə nəyim qaldı» kitabını oxuyarkən***

Oyan, xalqımızın məleykə qızı,
Hüsnü camalına heyifdi, yatma.
Gülsün ürəklərin baharı, yazı,
Həsrətin elləri əyibdi, yatma.

Xoşbulaq, Qaşqaçay axmır, dayandı,
Lalələr od aldı, alışdı, yandı.
«Daş gəlin» daş oldu, hop-hop boylandı,
Dərdini dərdinə qatıbdı, yatma.

Yanardağ od tutub, təzədən yanır,
Hənalı kəkliyin bikef dayanır,
Qızılgül, qərənfil adını anır,
Gözləyib, yorulub, doyubdu, yatma.

Mehtər bulağının gözü tutulub,
Maral göl, Göy - Gölün üzü tutulub.
Dağların sən gəzən izi tutulub,
Ağ yağış zirvəni tutubdu, yatma.

Zağalı yaylağı, Balçılı bağı,
Xan Kəpəz oylağı, Qızlar bulağı.
Gəz-dolan, səcdə qıl, Pirsultan dağı,
Sözünü dağlara deyibdi, yatma.

Ağladı Murovun, Qoşqarın qarı,
Ağladı Göyçənin qəmli baharı.

Oğlundan, qızından, yarından ayrı,
Küskün nəvələrin heyifdi, yatma.

Yas tutur, açılmır yazı Mahının,
Bir zaman ötərdi sazı Mahının,
Yamanca sevərdi nazı Mahının,
Qara libasını geyibdi, yatma.

Sənə oyan deyir bağçalar, bağlar,
Nərgizli çəmənlər, lilpar bulaqlar,
Səsləyir çiçəklər, gözləyir dağlar,
Bənövşə boynunu əyibdi, yatma.

Bilirəm, bu dünya xətrinə dəydi,
Kaş Sədnik, son səsin  bir eşidəydi,
Dərdini anlayıb, qəmin biləydi,
Nələsin aləmə yayıbdı, yatma.

Səni yaşadıbdır, yaşadır zaman,
Ağlayır, yaş tökür Sərvanə, Sarvan,
Zümrüdün, Vüsalən eyləyir fəğan,
Hicran ürəyini oyubdu, yatma.

Kimsəsiz, tək-tənha olubdu Sədnik,
Sədnik Sədnik deyil, solubdur Sədnik.
Sənsiz nə günlərə qalıbdı Sədnik,
Sanki ürəyini yeyibdi, yatma.

Sən idin bağçada güllərin tacı,
Gözəl dünyasının gözəl möhtacı.
Həsən də səsləyir: - Səfurə bacı,
Aləm sənsizliyi duyubdu, yatma.

## GETDİ

Sədnik Paşa, dözülməzdi bu dərdin,
Gülərüz, mehriban o yarın getdi.
Vəfalı sirdaşın, pak məhəbbətin,
Taleyin, iqbalın, ilqarın getdi.

Almadı dünyadan doyunca kamı,
Niyə vaxtsız söndü taleyin şamı?
Apardı özüylə toyu-bayramı,
Bənövşə ətirli baharın getdi.

Əzəldən təbiət yaranıb belə,
Həm ətir bəxş olub, həm xəzan gülə,
El görür göz yaşın dönübdü selə,
Qüdrətin, qüvvətin, vüqarın getdi.

Əzizinəm, gözdə nəm,
Olmayaydı gözdə, nəm,
Yardan vaxtsız ayrılan
Gəzər dərdli, gözdə nəm.

***Həsən Göyçəli (Kərimov)***

## QALIBDI

***Səfurə xanımın xatirəsinə***

Şair Sədnik, bir səbirli olginən,
Bu adət Adəmdən belə qalıbdı.
Çoxuna təsəlli əzizlərindən
Baxmaq üçün tək məzarı qalıbdı.

Səyyaf, Sabutayın başının tacı,
Sarvanın üstündən əsməsin acı,
Sahibə, Sədafət, Sərvanə bacı,
Sənə onun yadigarı qalıbdı.

Qaşqaçaylı deyər: bəsdir bu qədər,
Ağlama, ömrünü üzər qəm-kədər.
Qoy qatsın başını körpə nəvələr,
Cənnət mələyinin yeri qalıbdı.

## AĞLAMA

Köçdü bu dünyadan Səfurə xanım,
Gəncə yasa batdı, cahan ağladı.
Mehriban anaya, o şairəyə,
Ağbirçək, ağsaqqal, cavan ağladı.

Bir nurlu çırağın söndü şöləsi,
Qəmli şeir yazdı şairlər dəsi,
Ədalət sazının qopdu naləsi,
Habilin əlində kaman ağladı.

Sanki Pirsultanda ildırım çaxdı,
Murov məlul-məlul Gəncəyə baxdı,
Kəpəzin göz yaşı Göy gölə axdı,
Qoşqar da başında duman ağladı.

Səyyafdan yadigar ona bulağı,
Bir mələk bulağı, sona bulağı,
Məzarla üzbəüz «Ana bulağı»,
Dəyişib keçdikcə zaman, ağladı.

Qaşqaçaylı, onsuz qaldı Sədniki,
Dərin xəyallara daldı Sədniki.
Qəmlər qucağına aldı Sədniki,
Sənətkar ağladı, zaman ağladı.

***Məmməd Qaşqaçaylı***
***04.01.95***

## DEMƏYİM

***Sədnik Paşa Pirsultanlının həyat yoldaşı Səfurə xanımın xatirəsinə***

O alim kamallı, o gül camallı,
Ölən Səfurəyə heyif deməyim!
İncə düşüncəli, dərin xəyallı,
Ölən Səfurəyə heyif deməyim!
İnsanlıq haqqını yayıb deməyim!

Haqqın vergisi var, bax, bu qadında,
Yüz məna duyulur onun adında.
Ona tay görmədim qohum-yadında,
Mən belə insana heyf deməyim!
İnsanlıq haqqını yayıb deməyim!

Sədnik Sədnik olub onun əlindən,
Bir kəs inciməyib, əsla dilindən.
Yaşılbaş sonalar uçub gölündən,
Mən belə insana heyf deməyim?
İnsanlıq haqqını yayıb deməyim?

O, nələr yazmayıb, həm yaratmayıb,
Görürsən haqq işi bu gün batmayıb,

Bir gün ağrımayıb, bir gün yatmayıb,
Mən belə insana heyf deməyim!
İnsanlıq haqqını yayıb deməyim!

Cavan Teymur necə ona yanmasın?
O gözəl insanı duyub anmasın?
Bədəndə dövr edən qanı donmasın,
Mən belə insana heyf deməyim!
İnsanlıq haqqını yayıb deməyim!

## EL QIZI

Bu ana yurdumun mələyi getdi,
Sədnik həsrət qaldı, diləyi getdi,
Elə bil, sinədən ürəyi getdi,
Qoydun sağalmayan yara, el qızı.

Əzəldən dostuydun günün-gündüzün,
Taleyin xoş günü yarandın özün,
Sənin hər bir qoşman, bayatın, sözün,
Mərcandı, inciydi aşkara, el qızı.

A Teymur, gələndə yazmağın dəmi,
Tökülür kağıza ürəyin qəmi,
Sədnikin sirdaşı, könül həmdəmi,
Bir timsalsan etibara, el qızı.

***Aşıq Cavan Teymur***

## OLSUN

***Sədnik Paşa Pirsultanlının əzizi Səfurə xanımın vəfatı münasibətilə***

Sədnik Pirsultanlı, istəkli qohum,
Yaradan həmişə həmdəmin olsun.
Həyat yoldaşının vaxtsız ölümü,
Axır dərdin olsun, son qəmin olsun.

Çox məna var ataların sözündə,
Böyük bir dəyanət topla özündə,
Vətənə, övlada baxan gözündə,
Nə kədər görünsün, nə qəmin olsun.

Məhəbbət atəşi sönməz qalandı,
Açan gülün aqibəti solandı.
Desələr də, inanmaram, yalandı,
Bir də Səfurətək sənəmin olsun.

Elə geyin, elə dolan, elə gəz,
Hər dərdli səninlə olmasın əvəz,
Hər kəs sənin şad gününü istəməz,
Ona qarşı silah yöndəmin olsun.

O, gözəl şairə, müqəddəs ana,
Qoyub getdi şeiriyyətdə nişana.
İslam dünyasına, Azərbaycana,
Etdiyi arzular  cəm və çin olsun.

Ağəli unutmaz dünya nəshətin,
O yolu gedənlər, qayıdar çətin,

Səfurə xanıma olan rəhmətin
Hər gündə hesabı neçə min olsun.

*Ağəli Qədiroğlu*
***05.01.95***

**SƏFURƏN**

***Tanınmış folklorşünas Sədnik Paşa Pirsultanlının həyat yoldaşı Səfurə xanımın vəfatına***

Ay Paşa, pərvanən oldu, özünü
Oduna yandırıb-yaxdı Səfurən.
Coşğun bir çay kimi illər uzunu
Ömrünə-gününə axdı Səfurən.

Sənin ilhamını görən yay oldu,
Azdığın ormanda hay-haray oldu!..
Gündüz Günəş oldu, gecə Ay oldu,
Nurunu üstünə sıxdı Səfurən.

İlk dəfə əhdini pozdu o pəri,
Niyə gənəşmədi getdiyi yeri?
Sən Qars səfərindən dönməmiş geri,
Ölüm səfərinə çıxdı Səfurən!..

**GÖYNƏDƏR**

Sədnik Paşa, de  kim pozar yazını,
İtirmisən taleyinin yazını…
Bundan sonra bəxtin qara yazılıb,
Qan ağlayır hər kəlmənin başı da.

Həsrət səni göyüm-göyüm göynədər,
Baş açmazsan tutulubdu göy nədən.
Bu dünyada kənd əhlisən köhnədən,
Odlu eşqin mum eyləyər daşı da.

Göstərsə də qəfil sellər zorunu,
Bulandırmaz sən ilhamı durunu.
Dərd artırar gözlərinin torunu,
Seçəmməzsən baharı da, qışı da.

***Ələsgər Əlioğlu***

***Goranboy, Xanqərvənd kəndi***
***02.01.95***

## SƏDNİKƏ

***Sədnik müəllimin istəkli ömür-gün yoldaşı Səfurə xanımın xatirəsinə***

Solub çəməninin gülü-çiçəyi,
Həyat bir də hörməz çələng Sədnikə.
Köçübdür qəflətən gözəl mələyi,
Tab gətirməz daha ürək Sədnikə.

Dövranı tərsinə dönüb bir anda,
Məhəbbət gəmisi batıb ümmanda,
Onu imtahana çəkib dövran da,
Yamanca toy tutub fələk Sədnikə.

Mikayıl dil açar qəmlə, qubarla,
Şaxta vurmuş bağça öyünməz barla.
Dərdini həsrətlə çəkdiyi yarla,
Torpaqda qovuşmaq gərək Sədnikə.

## SƏDNİKİ

O ilk məhəbbəti daş olub  bu gün,
O gülən gözlərin yaş olub bu gün,
Sonsuz əzablara tuş olub bu gün,
Həsrəti yay kimi sıxar Sədniki.

Göstərib hökmünü o qanlı fələk,
İkiyə bölünüb sanki bir ürək.
Bu dünya qoynuna qəm nişanı tək,
Axşam da, səhər də taxar Sədniki.

Bir daha yetişməz əli bahara,
Yuva tək boş qalır uzana hara,
Köksünü gərərdi sərt tufanlara,
İndi yüngül meh də yıxar Sədniki.

***Mikayıl Rəhimli***

## SAĞ OLSUN

***Əziz Səfurə xanımın xatirəsinə***

Əziz dostum, canım, Sədnik qardaşım,
Şərikəm dərdinə, başın sağ olsun.
Ömür-gün yoldaşın getdi dünyadan,
Şərikəm dərdinə, başın sağ olsun.

Əbədi göz yumdu, ahu, ceyranın,
Sürdü haqq evinə, sürdü karvanın,
Göz yaşı axıtdı kiçik Sarvanın,
Şərikəm dərdinə, başın sağ olsun.

Sərvanə sonbeşik, axtarır ana,
El-oba ağlayır, hey yana-yana,
Zavallı, min rəhmət belə insana,
Şərikəm dərdinə, başın sağ olsun.

## GƏRƏK

Ölüm də, qalım da allah işidi,
Ən çətin dərdlərə dözəsən gərək.
Uçanda əlindən tülək tərlanın,
Əlində şam, çıraq gəzəsən gərək.

Səfurə bacını yadda saxlayıb,
Gəzdiyi dağlara çıxıb, ağlayıb,
Əlvan çiçəklərdən dəstə bağlayıb,
Məzarı üstünə düzəsən gərək.

Ağırdı, dərdini qanır Zavallı,
Qəmini öz qəmi sanır Zavallı,
Alışıb odlara yanır Zavallı,
Bu qəmli dastanı yazasan gərək.

***İsrafil Zavallı***
***Tovuz***

## AĞLAYIR

***Müəllimim Sədnik Pirsultanlıya***

Pirsultanlı, ürəyinə dəyib ox,
Dilin ağı deyir, gözün ağlayır.
Yatağın hənirsiz, otağın soyuq,
Ocağın ağlayır, közün ağlayır.

Ayrılıq həsrəti canını üzüb,
Fələk sinən üstə bayatı düzüb.
Ahından, naləndən ev-eşik bezib.
Oğulun ağlayır, qızın ağlayır.

Çıxmaz yaddan toy-nişanda süzdüyün,
Hər baxışa neçə misra düzdüyün,
Səfurə xanımla qoşa gəzdiyin,
Cığırın ağlayır, izin ağlayır.

Köçüb can sirdaşın, o minagərdən,
Qovrulub bişirsən qəmdən, kədərdən,
Daha yazammazsan ala gözlərdən,
Qələmin ağlayır, sözün ağlayır.

Dağlaroğlu necə çatsın dadına,
Baş əyirik şərəfinə, adına,
Keçən günlər hər düşəndə yadına,
Kamanın ağlayır, sazın ağlayır,
Qələmin, dəftərin, yazın ağlayır.

***Pirverdi Dağlaroğlu***
***(Gədəbəyli)***

## SƏDNİKİM

***Görkəmli folklorşünas Sədnik Paşa Pirsultanlının ömür-gün yoldaşı Səfurə Xanımın əziz xatirəsinə***

Taleyin dəhşətli, ağır günündə,
Soldun çəmən kimi, soldun, Sədnikim.
Səfurətək ömür-gün yoldaşını,
İtirdin, tək-tənha qaldın, Sədnikim.

Mən də bu itkinin yandım halına,
Qarışdı sızıltım dost əhvalına.
Sən dözdün dünyanın qeylü-qalına,
Çaşqın bir xəyala daldın, Sədnikim.

Cəmilli şərikdi bu qara günə,
Qoymaz qəm məşəli köksündə sönə…
Dik durub göz dikdin yarın qəbrinə,-
Özün də baş daşı oldun, Sədnikim!

***İmam Cəmilli***

## QALDI

Ey günəş misallı, xanım Səfurə,
Deyimmi dünyada gör nəyin qaldı?
Qeybanə göyərçin, qeybə çəkildin,
Sınmış qanadından lələyin qaldı.

Günəşi tapmayıb Ay kimi batan,
İmantək naləsi səmanı tutan,
Ruhu məzarında səninlə yatan,
Alimlər içində bir bəyin qaldı.

Xurmayı saçlıydın, sehrli pəri,
Danəndə Sədnikin olub sərsəri,
Bir cənnətməkansan, dönməzsən geri,
Yarımçıq əsərin, diləyin qaldı.

Zəhranı sarsıtdı ölüm xəbərin,
Yaş tökdü, ah çəkdi dərindən dərin,
Müsafiri olsan sabit göylərin,
Sən getdin zülmkar fələyin qaldı.

***Zəhra Mirhəsənli***

## NƏ TEZ SOLDU

***Səfurə xanımın əziz xatirəsinə***

Pirsultanın güllü yazı,
Nə tez soldu, nə tez soldu?
Yetim qoyub telli sazı,
Nə tez soldu, nə tez soldu?

Bu dağların ağ çiçəyi,
Yanaqların nar çiçəyi,
Əl dəyməmiş qar çiçəyi,
Nə tez soldu, nə tez soldu?

Əhdə sadiq yoldaş idi,
Qardaşına qardaş idi,
Sevimliydi, sirdaş idi,
Nə tez soldu, nə tez soldu?

Sinə oldu dərdə hədəf,
Səpələndi sədəf-sədəf,
Getdi ayrılığa tərəf
Nə tez soldu, nə tez soldu?

İçildi qəm piyaləsi,
Əldən getdi can töhvəsi,
Sədnikin xan Səfurəsi
Nə tez soldu, nə tez soldu?

***28.03.95***

## İNSAFSIZ

Əlvida deməmiş köçdün cahandan,
Sevən də bu qədər insafsız olar?
Əydin şax qəddini can sirdaşının,
Sevən də bu qədər insafsız olar?

Sən ki yaşamazdın ondan aralı,
Eylədin qəlbini yardan yaralı,
Ala gözlü, şux yerişli maralı,
Sevən də bu qədər insafsız olar?

Üzükdə mirvari qaşa dönmə gəl,
Sədnikin gözündə yaşa dönmə gəl,
Səfurə, ay bacı, daşa dönmə gəl,
Sevən də bu qədər insafsız olar?

Əzizim getdi, gəlməz,
Zülmümə baxıb gəlməz.
Eşqimi yetim qoydu,
Dərdimi bir də bilməz.

***Fatma Abbasova***

## SƏNİN

Siz ki qoşa gəzərdiniz,
De, hardadı yarın sənin?
Nəğmə deyib gülərdiniz,
De, hardadı yarın sənin?

Səfurənin sarı teli,
Dolanasan tamam eli,
Tapammazsan elə gülü,
De, hardadı yarın sənin?

Səfurənin şirin sözü,
Gülümsəyən ala gözü,
Tale ayırdımı sizi?
De, hardadı yarın sənin?

Göy göl bizim oylağımız,
Hacıkənddi yaylağımız
O Xan Kəpəz nur dağımız,
De, hardadı yarın sənin?

Xoş günləri vurduq başa,
Diləyimiz dəydi daşa,
Gəl, ağlayaq qoşa-qoşa,
De, hardadı yarın sənin?

Qəmər deyər: dərdim çoxdu,
Gözlərimdə şimşək çaxdı.
Səfurə tək mələk yoxdu,
De, hardadı yarın sənin?

***Qəmər Ziyadqızı***

## ELEGİYA

Sızlayır, bir qərib, yetim sızlayır,
«Könül sirdaşımı itirdim» - deyir.
Özünə yer tapmır, yox təsəllisi,
Yumağa dönmüşdür, çıxmayır səsi.
Qovrulan Sədnikdir, itən Səfurə,

Dünyasın dəyişdi, erkən Səfurə,
Sədnik qəm karvanın azdıra bilmir,
Matəm içndədir, danışmır, dinmir,
Sızlayır, bir qərib, yetim sızlayır,
Dönük taleyimdən gileylər deyir.

***Cümşüd Alid***

## OLDU

***Anam qədər sevdiyim***
***Səfurə xanımın əziz xatirəsinə***

Ömrünü gödəldən zalım ölümdən,
Zərif şeirlərin çox üstün oldu.
Şirin oldun yazıq Fərhad Sədnikə,
Çapılmayan dərdin Bisütun oldu.

Şeir dilim tutqun şirin dilintək,
Dünya mənə dardır son mənzilintək.
Yaşadın, ay ana, qız tək, gəlintək,
Qəlbimdə qocalan öz büstün oldu.

Göz aç, bax Sədnikin göy dodağına,
Dil deyib ağlayır yer-göy dağına.
Ustad, günü sönmüş bu göy tağına,
Səfurə anamız bir sütun oldu.

Ölüm-zəlzələdə yer-göyün uçub,
O müqəddəs ruhda taleyin uçub,
Dünyanı dolaşar gileyin uçub,
Məzarda daşınan sükutun oldu.

Piri-Fatiməsən məhəbbətində,
İnsandın bir mələk xasiyyətində.
Yaşadın alimlik cəsarətində,
Ölüm şairliyə sükutun oldu.

Natamam qalsa da yarımçıq ömrün,
Verdi ölümünə bir acıq ömrün.
Yaşadı həyatda gözaçıq ömrün,
Sevgin, sədaqətin büsbütün oldu.

Ürəyimiz qəbrin, son mənzilindir,
Həzin döyüntüsü şirin dilindir,
Gözlərimiz sənin qəm şəkilindir,
Ay ana, sinəmiz tabutun oldu.

Gəzir boynu bükük tək-tənha ustad,
Ölüm yaman batdı günaha, ustad.
Yenə şükür elə, Allaha ustad,
Sənin Səfurətək bir dostun oldu.

Sən Allahın yerdə kölgəsi idin,
Fatimə nənənin bəlkəsi idin,
Sən böyük ədalət ölkəsi idin,
Bilməm, niyə belə süqutun oldu?

***Nizami Səda***

## QARDAŞ

Köçüb yuvasından huri-mələyin,
Demirəm, kədərin əbəsdi, qardaş.
Qurğusu belədir ulu tanrının,
Taleyin yolunu o kəsdi, qardaş.

Müqəddəs anaydı, sığışmır dilə,
Qadınlıq isməti örnəkdir elə.
Səfurə anaya qara yel belə,
Heyif, fürsət tapıb tez əsdi, qardaş.

Çox əmək sərf etdin can sirdaşına,
Məlumdur aləmə, dost-tanışına.
Səbrli ol, hər kim çıxsa qarşına,
Desinlər, nə qədər sərbəstdi, qardaş.

Olub-keçənləri bir fikir elə,
Görüləsi işlər daldadır hələ,
Dünyanın işini sən bilə-bilə,
Bu nə sızıltıdı, nə səsdi, qardaş?

Gəl, keçir nəzərdən sol ilə sağı,
Böyük xatirədir «Ana bulağı».
Sədnik, qəmsiz yaşat, oğul-uşağı,
Abbasam, deyirəm, bu bəsdi, qardaş.

***Abbas Bağırov***

## DÜŞDÜ

Gül bacımın məzarıyla görüşdüm,
Gözlərimdən yanağıma yaş düşdü.
Elə bildim, Şəmşir köçdü dünyadan,
Bəsti dedi: üzüyümdən qaş düşdü.

Nəğmələrin dilimdəydi, ay bacı,
Xoş söhbətin elimdəydi, ay bacı,
İndi bildim, zülm nəydi, ay bacı,
Özün bahar, qismətinə qış düşdü.

Vaxt yaman əyibdi qəmli Cəfəri,
Çoxdan qoyub gözü nəmli Cəfəri,
Bacım kim tanımır Levli Cəfəri?
Yük əyildi, qürbət elə daş düşdü.

***Levli Cəfər***

## AĞLAMA

Gedən getdi, bir də geri qayıtmaz,
A qardaş, qəlbini üzüb ağlama.
Məcnun kimi səhraları yüz dolan,
Tapammazsan, dağ-daş gəzib ağlama.

Hamımıza əziz bacı Səfurə,
Getdi başımızın tacı Səfurə.
Sədnikin qüdrəti, gücü Səfurə,
Sinə gər bu dərdə dözüb, ağlama.

Fəxr edərdi, nəsilimiz, soyumuz,
O, gələndə şənlənərdi toyumuz.
Cəmil, oldu fələkdən nur payımız,
Əldə qələm-dəftər yazıb, ağlama.

***Cəmil Həsənov***

## GEDİBDİ

Sədnik Paşa, nə çəkirsən, bilirik,
Bağban ağlar, bar əlindən gedibdi.
Nigar sədaqətli, Həcər qeyrətli,
Səfurətək yar əlindən gedibdi.

Sinəmdə var çalın-çarpaz, o dağlar,
Fəryadına yaş inildər, od ağlar,
Bir özün bax, ah-nalədi o dağlar,
Çünki bəyaz qar əlindən gedibdi.

Çox çətin yarana o şair xilqət,
O loğman kamallı, o mələk sifət,
Səndə olsun səbir, dözüm, dəyanət,
O bir qeyrət, kar əlindən gedibdi.

Olub Həmidoğlu, lalə həsrəti,
Ömürlük qəlbində qalar həsrəti,
«Yar» deyən yar, altı bala həsrəti
İntizarı var əlindən gedibdi.

***Aşıq Xalıqverdi Həmidoğlu***
***8.04.95***

## LAYLA

***Səfurə xanım Pirsultanlını yuxuda ziyarət edərkən***

Bu gecə yuxumda ziyarət etdim,
Sən ey Pirsultanın gözəli, layla.
Şəkil də çəkdirib, bulağa getdim,
Şirin söhbətləri məzəli, layla.

Ağ yağış üzümü yudu ağardım,
Ana Səfurəni durub çağırdım,
Çəməndən gül dərib, çiçək yığırdım,
İlham bulağının əzəli, layla.

Adına yazıldı gör neçə şeir,
«Dünya, səndə nəyim qalıbdı» deyir.
Gülnigar tanrıdan küsüb inciyir,
Şairin nəğməsi, qəzəli, layla.

***08.05 95***

## ANAM MƏNİM

***Gənclər Səfurə xanımı «ana» deyərək çağırdığı üçün mən də ona «Anam mənim» şeirini ithaf edirəm***

Göy göldən rəng alıb gözün,
Ey yaşılbaş sonam mənim.
Səndə vardır şirin, şəkər,
Dil, mehriban anam mənim.

Saçların dağ şəlaləsi,
Dodağın gül piyaləsi,
Yanaqların çöl laləsi,
Gül, mehriban anam mənim.

Çəmənlərdə izin qaldı,
Ürəklərdə sözün qaldı,
Ocağında közün qaldı,
Gəl, mehriban anam mənim.

Kəpəz dağımın sonası,
Göy göl gözünün aynası.
Uçdu Sədnikin binası,
Bil, mehriban anam mənim.

Gülnigar gizlər dərdini,
Sınar dostların mərdini,
Bilir dünyada qədrini,
El, mehriban anam mənim.

## EŞQSİZ ÜRƏK BELƏ YETİM QALIRMIŞ

*Sevimli şairimiz Sədnik*
*Paşa Pirsultanlıya*

Tənhasan, sən məni duyarsan, atam,
Məhəbbət yetimi necə olurmuş.
Bağbansız bağçanın əlvan gülləri,
Necə saralırmış, necə solurmuş.

Yardan ayrı bir dünyadı, bu dünya,
Yarsız qorxunc bir röyadı, bu dünya,
Nakam eşqə iftiradı, bu dünya,
Dərd-qəm qəlbə belə hakim olurmuş.

Gülnigaram, daş üstə gül bitirdim.
Baharımda öz yarımı itirdim.
Kirpiyimlə ocaqdan od götürdüm,
Eşqsiz ürək belə yetim qalarmış.
***Gülnigar Rəhimli***

## SƏFURƏ XANIM

Vaxtsız köçdün, vaxtsız yumdun gözələrin,
Elimizdə qaldı ayaq izlərin,
Bizə yadigardı inci sözlərin,

Mirvari, gövhərdi, ləldi sözlərin,
Ürəklərdə yaşar Səfurə xanım.

Yazda açan gül-çiçəklər solacaq,
Torpaqdan yaranmış torpaq olacaq,
Dünya Süleymanlar yola salacaq,
Bir yaradan, bir də cahan qalacaq,
Hamının əzizi Səfurə xanım.

Kədər, qüssə, qəmi biz də bilirik,
Dünya vəfasızdır, biz də görürük,
Ölənlə ölmürük, biz də ölürük,
Həssas qadın idin, Səfurə xanım,
Gözəllik vurğunu Səfurə xanım.

Siz üstün tutmusuz eşq-məhəbbəti,
Sevmisiz Vətəni, həm təbiəti,
Sazı, muğamatı, incəsənəti,
Adət-ənənəni, mədəniyyəti,
Ziyalı, pürkamal Səfurə xanım.

Alagöz, şirin dil, ay üzü güləş,
Gecələr Ay idin, gündüzlər Günəş,
Düzdə ceyran idin, suda yaşılbaş,
Səmimi, qeyrətli Səfurə xanım,
İzzətli, ismətli Səfurə xanım.

Bir nişandı qranitdən başdaşın,
Baxdıqca ağlayır qohum-qardaşın,
Anan, bacın, nəvən, övlad, yoldaşın,
Yaxşı qonşuların, dostun, sirdaşın,
Ana, Pirsultanlı Səfurə xanım.

O al Günəş Ağyoxuşdan çıxanda,
Pirsultandan Daşlıdağa baxanda,
Bu dağlara duman, çiskin qalxanda,
Qoşqar çayı sakit, həzin axanda,
Xatırlar sizi Səfurə xanım.

Anam Məhsətiyə oldunuz bacı,
Qoşqarın vüqarı, başının tacı,
Sədnikin ürəyi, taqəti, gücü,
Nizami nəvəsi Səfurə xanım,
Gəncə şairəsi Səfurə xanım.

***Yunis Əliyev***
***27.01.95***

## DÜZÜBDÜ

***Ömür-gün yoldaşı Səfurə xanımı itirmiş qələm dostum S.P.Pirsultanlıya***

Deyirlər, ulduzlar qoşa yaranıb,
Biri göydə, biri yerdə gəzibdi.
Canlı-cansız kainatda dayanıb,
Biri iməkləyib, biri süzübdü.

Oxşarlar birlikdə nəfəs alıblar,
Bir baxışla bir-birlərin anıblar,
Dərin xəyallara birgə dalıblar,
Biri söyləyibdi, biri yazıbdı.

Yaranan qalaq-qalaq əsərləri,
Dürr qoxuyan şeirləri-qəzəlləri,

Üzə çıxan mirvariylə – zərləri,
Sədnik səpib, Səfurəsi düzübdü.

Vətənin üstündə əsəndə tufan,
İldırımtək haray qopardı asiman,
Biri göylərdə çalxanan zaman,
Biri yerlərdə – sellərdə üzübdü.

Bütün çətinliyə sinə gəriblər,
Ağacı becərib, barın dəriblər,
Xeyirlə-şəri də yarı bölüblər,
Biri dözəmməyib, biri dözübdü.

Təklikdə dostumun halına vardım,
Ötən günlərini yadına saldım,
Solğun çöhrəsindən bir cavab aldım,
Vəfasız dünyadan o da bezibdi.

***İmam İrani – İntizar***
***Gəncə. 14.04. 95***

## SƏNİ GƏZİR YAZILARDA

***Səfurə Pirsultanlının «Dünya səndə nəyim qaldı» və «Ağ yağış» kitablarını oxuyarkən***

Bu dünyadan sual etdin,
«Dünya, səndə nəyim qaldı»?
Son mənzilə uçub getdin,
Tükənməyən səyin qaldı.

Hun gözəli Ayla xatun,
Göytürk qızı Altıntelli.
Saçlarının hörüyündə
Gəlib oldu bizə bəlli.

Öz şəxsində ucaltmısan
Dağlar qızı şöhrətini.
Dönə-dönə əvəz etdin
Xan qızını, Məhsətini.

Doğru sözlü Cəfərzadə
Sənə bacı əzəl gündən,
Şairətək istedadın
Bəlli olur ön sözündən.

Qoç Nəbinin Həcərini,
Koroğlunun Nigarını.
Təsdiqlədin əməlinlə
Abbasın Gülgəz yarını.

Övladların ürəyində,
Xatirədir hər bir sözün.
Əbədilik qazanmısan,
Silinməzdir heç vaxt izin.

Sədnik Paşa Pirsultanlı
Gecə-gündüz ahu-zarda.
Təsəllisi budur ancaq,
Səni gəzir yazılarda.

Şimşək yazmır elə-belə,
Bu ömür bir böyük dastan.

Xalqımıza nümunədir,
Səfurədən hər nə yazsan.

***Firudin Şimşək***

## KÜSÜB GETDİN

***(Mərhum Səfurə xanıma ithaf edirəm)***

Çıxıb getdin gözəllərin gözündən,
Qışa döndün, daşa döndün dözümdən.
Küsüb getdin bu dünyanın özündən,
Bulud kimi, duman kimi, ay kimi.

Sellər, sular ağı deyib ağlayır,
Od lalələr məzarını qalayır,
Nə zamandı həsrət səni sınayır,
Bulud kimi, duman kimi, ay kimi.

Bir mələksən zirvələrdə dayanan,
Ayrılığın həsrətində hey yanan.
Zülmətləri gözlərində boyayan,
Bulud kimi, duman kimi, ay kimi.

## ANASISAN

Çaylar sənə layla çalır,
Lalələr yanır, qaralır.
Gözəllərin qan ağlayır,
Bulaqların aynasısan.

Oxşadın çəməni, düzü,
Çiçəklərin gülmür üzü,
Ayrılığın batsın gözü,
Gözəlliyin sonasısan.

Baxışların incə-incə,
Ayrılıqdan demə bircə,
Sədnik sənsiz dözsün necə,
Bu ellərin anasısan.

***Solmaz Şəms***

## MÖHTACAM

Günəşin şəfəqi, günün istisi,
Gözəllərin məhəbbəti, sevgisi,
Silə bilmir bu istəyi, həvəsi,
Qızdırmır canımı, eyləmir əlac,
Ana istisinə möhtacam, möhtac.

Sürəti gözümdən getməyir bir an,
Yalnız xəyalımda yaşayır anam,
Yoxluğu ruhumu ağrıdır yaman,
Allah! Bu möhnətə eylə bir əlac,
Ana istisinə möhtacam, möhtac.

Ana bərabəri, ana torpaqdı,
Ana – torpaq hərarətdə ortaqdı,
Səyyaf nəhayət də, bu sirri tapdı,
Torpağın qoynudur dərdimə əlac,
Ana istisinə möhtacam, möhtac.

## BU DÜNYADA

Xatirəni daşıyıram,
Sənsiz olan, bu dünyada.
İndi sənsiz yaşayıram,
Sənsiz olan, bu dünyada.

Altı övlad Allah yazdı,
Üçü oğlan, üçü qızdı,
Qəlblərinə qanlar sızdı,
Sənsiz olan, bu dünyada.

Bilməz idi nədir dərd-qəm,
Ömür dostun çəkir sitəm.
Saçlarına düşübdür dən,
Sənsiz olan, bu dünyada.

Çıxarmırlar səni yaddan,
Nəvələrin Samir, Sübhan,
Onları da üzür hicran,
Sənsiz olan, bu dünyada.

Görüşürük xəyallarda,
Bir də şirin yuxularda.
Ölüm haqdır, budur qayda,
Sənsiz olan, bu dünyada.

## ANAM

Bağrımın başı göynəyir,
Düşəndə yadıma anam.
Bu dərd içimi çeynəyir,
Düşəndə yadıma anam.

Əzrayıl vermədi aman,
Vaxtı çox tez oldu tamam.
Ovudammır məni zaman,
Düşəndə yadıma anam.

Odlanıram, qovruluram,
Qəm-qüssəylə yoğruluram,
Qəhərlənib boğuluram,
Düşəndə yadıma anam.

Gözümdə yaşım göllənir,
Yanaqlarımdan sellənir,
Ahım göylərə millənir,
Düşəndə yadıma anam.

Allah! Bu qəza nəydi nə?
Səyyafı saldın çətinə.
Dözəmmirəm həsrətinə,
Düşəndə yadıma anam.
Canından ayrılmış canam.

***Səyyaf Sədnikoğlu***
***1996***

# *XATİRƏLƏR*

## *IV Hissə*

## BÜTÜN ƏSƏRLƏRİNDƏN UCA İSTƏK

Səfurə xanımla tanışlığımız 22 il bundan əvvəl olub. Kənd Təsərrüfatı İnstitutunun tələbəsi idim. Onlara getmişdim. Sədnik müəllim evdə yox idi. Mən gözlədim. Səfurə xanım yenicə çapdan çıxan kitabımı vərəqlədi. Çox böyük iftixar hissilə ərinin də şair olduğunu bildirdi. Mən isə Sədnik müəllimin əfsanələrdən ibarət kitabını oxumuşdum. Onun şeirlərindən isə xəbərim yox idi. Qadın mənə yoldaşının şeirlərindən oxudu. Mən hələ onda təəccüb qalmışdım ki, adicə bir evdar qadın ərinin şairliyini necə yüksək qiymətləndirir. O zaman təəccüb qalmışdım ki, mən niyə Sədnik Paşayevi yaxşı tanımıram?

Səfurə xanımın gözəl, uzun hörükləri məni şeirlərdən və əfsanələrdən də artıq valeh eləmişdi. O, isə elə hey Sədnik müəllimdən danışır, onunla keçirdiyi xoşbəxt günlərdən söhbət açırdı. Evdə uşaqların adları çəkildikcə diqqətimi «S» hərfi cəlb elədi. Fikir verdim, bu evdə hamının adının baş hərfi «S» ilə başlayır. Bunu Səfurə xanımdan soruşdum. O, bildirdi ki, Sədniklə mənim adımdan başqa uşaqların hamısının adının «S» ilə başlanması bilərəkdəndi. Yəni Sədnik özü uşaqların hamısının adının baş hərfinin «S» olmasını istəyib. Bu istəyin özü Səfurə xanıma olan istəyin bir təzahürüdür.

Çox ailələr görmüşəm, çox ailələrdə olmuşam. Çox kişilər, çox arvadlar dünyasını dəyişib. Çox ailələrdə ər-arvad münasibətlərini elə adicə görmüşəm. Dul qalanlar da elə bir-birinə

oxşayır. Bu yazını mənə yazmağa vadar eləyən Sədnik müəllimlə Səfurə xanımın bir-birinə olan qeyri-adi istəyi, məhəbbəti oldu. Və illah da ki, Səfurə Pirsultanlının «Dünya, səndə nəyim qaldı» adlı ilk şeirlər kitabını oxuyandan sonra qərara aldım ki, mən də onlardan nəsə yaza bilərəm. Mənim bu iki istəkli haqqında yazmaq istədiklərim bunlardır.

Qəfil ölüm sevimli, sevgili qadınını gözləmədiyi bir vaxtda Sədnik müəllimdən ayırdı. Bu amansız ayrılıq hörmətli alimi sarsıtdı, çaşdırdı. O, da istəkli, gözəl qadınıyla ölsünmü? Ölməklə istəklisinə istədiyi kimi xidmət eləməli olacaqmı? Yox. Onsuz da məlumdur, doğulan bir gün öləcək. Sədnik müəllim əziz qadınının xatirəsini yaşatmaq qərarına gəldi. Hələ çoxlarına məlum olmayan şair ürəkli qadınının yazılarını kitab şəklində dünyaya gətirdi. Mən «Dünya, səndə nəyim qaldı» kitabını nəzərdə tuturam. Gördüm ki, indən belə bu kitab da daxil olmaqla Sədnik müəllimlə Səfurə xanımın neçə kitabları çıxır-çıxsın, yenə də onların hər ikisinin məni heyrətdə qoyan MƏHƏBBƏT və İSTƏKLƏRİNDƏN ucada dura bilməz.

Buna bənzər, bundan artıq, bundan əskik yüzlərlə kitab dərc oluna bilər. Lakin onların (xüsusən də Sədnik müəllim) istəyindən, bəlkə də heç görməmişəm, heç eşitməmişəm. Bu elə bir istəkdir ki, başqalarına örnək ola bilər. Bir istək ki, uzun illərdən bəri tükənməyə, azalmaya, zaman dəyişdikcə daha yüksək formaya düşə, daha da təkmilləşə, bu elə ən qiymətli əsərə dəyər.

Mənə elə gəlir ki, Sədnik müəllimi yaşadan yenə qadınına olan sonsuz, qədərsiz istəyidir. İndi Sədnik müəllim əzizinin ruhunu şad eləmək üçün yaşayır. O, istəkli qadınının unudulmaz xatirəsi üçün

varından-yoxundan keçir. Hələ Səfurə xanımın sağlığındaykən körpətək nazıyla oynadığı kimi Sədnik müəllim indi də yorulmaq, usanmaq bilmədən sevgili qadınının əsərlərini üzə çıxarır, onların nazıyla oynayır. Mən isə bunları görüb yuxarıdakı sözümü yenə təkrarlayıram:

-Sədnik müəllimlə Səfurə xanımın bir-birinə olan məhəbbəti, istəyi onların bütün əsərlərindən UCADA durur.

***Aləmzər Əlizadə, şairə***
***29.12.94***

## İNSANLARIN QƏLBİNƏ AXACAQ

Mən Səfurə xanımı həyatda heç bir vaxt görməmişəm. Ancaq onun şeirləri məni məftun elədi. 21 mart 1995-ci ildə Gəncə şəhər meydanında bahar bayramı keçirilirdi və birdən hörmətli professor Sədnik Pirsultanlını gördüm, onunla salamlaşdım və gec də olsa yoldaşının vəfatı münasibətilə baş sağlığı verdim və bir az təsəlli vermək istədim. Sədnik Paşa mənə bir kitab bağışladı. Çox sevindim. Mən o günə qədər bilmirdim ki, onun sevimli ömür-gün yoldaşı, gözəl nazəndə – mələk bu cür gözəl şeirlər yazır. Onun bizim Vətənimizi, təbiəti və öz sevgisini necə məharətlə tərənnüm etməsi məni heyran etdi. Xüsusilə, onun zarafatyana yazdığı şeirləri də çox xoşuma gəldi.

***Bu gün Sivasdasan, sabah Təbrizdə,***

***Səfurəyəm, dözüm qalmadı bizdə,***
***Əlimi çəkərəm, qalarsan düzdə,***
***Gözləyən yoxdumu Vətəndə səni?***

Onun övladlarına olan sevgisi, məhəbbəti də yaradacılığında mühüm yer tutur. Bu baxımdan «Yarıyandan ol», «Bu qızın», «Qızlar» şeirləri narahat bir ananın ürək çırpıntılarıdır. Səfurə xanımın təbiətə vurğunluğu onun mirvaritək düzdüyü «Qaymaq çiçəyi», «Nərgiz», «Qızılgül», «Lalələr», «Bulaq» şeirlərində çox gözəl əks olunur. Sanki bu şeirləri oxuyarkən oxucu özünü həmin bulaq üstə, çiçəklərin arasında hiss edir, onların ətrini duyur. Mən S.Pirsultanlının ürəyimi daha çox vəcdə gətirən şeirlərindən bir neçəsini seçmişəm ki, təsniflərin arasında ifa edim. Onlardan «Bülbül», «Qızılgül», «Yarıyandan ol», «Axşamlar» şeirləridir.

***Can yaxırsan bu nə səsdi,***
***Yolunu hicranmı kəsdi?***
***Yandırma gəl, bizi bəsdi,***
***Yetər, bülbül, yetər, bülbül.***

Mən, «Kəsmə şikəstə» ritmik muğamını Azərbaycan radiosunun qızıl fondunda lentə yazdırmışam. Və mənə şöhrət gətirən ifalarımdan biri də məhz «Kəsmə şikəstə»dir. Ancaq indi əziz tamaşaçılarıma Səfurə xanımın bayatılarından ibarət yeni «Kəsmə şikəstə» təqdim etmək fikrindəyəm.

***Əzizinəm, göy nədi,***
***Yaşıl nədi, göy nədi?***
***İnsafsız yar ucundan***
***Yandı canım, göynədi.***

*Əzizinəm, dərdi nə?*
*Qalım yarım dərdinə.*
*Mənim dərdim yar dərdi,*
*Bilməm, yarın dərdi nə?*

*Əzizinəm, güləm mən,*
*Yasəmənəm, güləm mən.*
*Gəl bağçama bülbül ol,*
*Gör,  necə bir güləm mən.*

*Əzizinəm sən də gəl,*
*Dumanda gəl, çəndə gəl.*
*Hamının yarı gəldi,*
*İnsaf eylə, sən də gəl.*

Yeri gəlmişkən deyim ki, «Axşamlar» şeiri kimi Səfurə xanımın bir çox  şeirləri öz axıcılığı ilə məni cəlb edir. Mən inanıram ki, yaxın gələcəkdə bizim bir çox müğənnilərimizi və hörmətli bəstəkarlarımızı Səfurə xanımın lirikası cəlb edəcəkdir və bu gözəl şeirlər şirin və həzin nəğmələrə çevrilib müğənnilərin dodağından süzülüb milyon-milyon insanların qəlbinə axacaq və orada məskən salıb yaşayacaqdır.

***Şahnaz Haşımova,***
***Respublikanın əməkdar artisti***
***31.03.95***

## «BULUD SAÇLI GÖVHƏR BACIM»

Üç bacı, üç qardaş idik. Mən böyük bacıları, ikinci - qardaşım Nurəddin, sonra iki ekiz tayı qardaşlarım Novruz və Qoşqar, bacım Səfurə və son beşiyimiz Səmiyə idi.

Atam Əli müharibədə qaldı. Bizi müharibə başlayandan (1941) sonra anamız tək gücü ilə, zəhmətilə böyütdü. Əmi-dayı köməyi də görmədik. Anam atamızı əvəz edirdi. Arana taxıl biçininə gedirdi, dağda dəryazla ot çalırdı. Evin böyük qızı kimi evdə anamı mən əvəz edirdim. Bacı-qardaşımı başıma yığıb, həyətyanı torpağımızı becərirdim, onları dolandırırdım, təhsillərinin davam etmələrinə nəzarət edirdim. Bir həqiqəti deyim ki, o ağır illərdə məktəb direktoru olan qazaxlı Asiya Batıyeva bizim ailəyə çox yardım edirdi. Bacım Səfurə «əlaçı» olması ilə əlaqədar olaraq tez-tez evimizə gəlib baş çəkirdi. Hər dəfə də əlidolu gəlirdi. Biz deyəndə ki, Asiya müəllimə, heç nə lazım deyil, o deyərdi: - Bu əsgər ailəsidir, təkcə mən yox, hamı sizə kömək etməlidir.

Məncə, yazın son ayı olardı, ya da yayın əvvəlləri. Anam arana, «Ağ yer» deyilən yerə atımızı da götürüb, kəndin başqa qadınları ilə taxıl biçininə getmişdi. Evi mən idarə edirdim. Əkinimiz, mal-qoyunumuz, sağınımız da vardı.

Müharibə təzəcə qurtarmışdı. Evimizə yaşlı, orta boylu, əlində iri torba olan bir kişi gəldi. Onun ilk sözü bu oldu:

-A bala, ananız Zümrüd hanı?

Mən bildirdim ki, arana, taxıl biçininə gedib.

Kişi tanışlıq verdi:

-Bala, Gəncə yaxınlığındakı Çobanabdallı kəndindən gəlmişəm. Atanız Əlinin dayısı Qarayam.

Hamımız onun dövrəsinə toplaşdıq. O, bir-bir bizi öpdü. Təkcə bacımız Səfurə evdə yox idi. Birdən Səfurə də qaça-qaça gəldi. Tanımadığı kişini görüb duruxdu.

Qara kişi soruşdu:

-A bala, bu qız kimdi?

Dedim ki, bacımdı.

Qara kişinin əhvalı dəyişdi, bacımı bağrına basıb hönkür-hönkür ağladı. O, dedi:

- Bala, siz ata nənənizi, bacım Gövhəri görməmisiniz. Torpağı sanı yaşasın, Səfurə ala gözlü, sarışın, bulud saçlı bacım Gövhərin özüdür ki, durub gözüm önündə.

Səfurəni qucağına aldı. O, isə utandığından cəld kişinin qucağından çıxdı, yerə düşdü. Qara kişi torbasından qarpız, yemiş çıxarıb kəsdi. İlk qarpız dilimini Səfurəyə tərəf uzatdı, o isə götürmədi, bayıra çıxdı, mən qarpız dilimini aparıb ona çöldə verdim. Onu deyim ki, ehtiyac içində böyüsək də, biz bacı-qardaşların gözü-könlü tox olub, biz ələbaxımlıqdan uzaq olmuşuq. Hamımız uşaqlıqdan əməyə, torpağa bağlı olmuşuq.

Doğrudan da Səfurə hamımızdan fərqlənirdi, biz bacılar qarayanız olduğumuz halda, o, sarıbəniz idi. Qara kişi ölüncə qapımızdan ayağını kəsmədi, «bulud saçlı Gövhər bacı»sının əvəzi Səfurəni unutmadı, yaddan çıxarmadı.

Bacım Səfurənin ağ günü, ağ yaylağı vardı. Ömrünün sonuna qədər zəhmətdən, işdən ayrılmadı. Ev-eşiyi onun əlləri ilə cənnətə dönmüşdü. Bir gün zarafatla dedim:

- Ay bacı, nəyin çatışmır? Həyət-bacada az işlə.

O, mənə dedi:

- Bacı, bağçada səhər-axşam işləməyi sevirəm. Eşit və yadında saxla. Bu dünyada torpaqdan ədalətli bir şey yoxdur. İstər onu kasıb becərsin, istərsə də varlı, istər atalı becərsin, istərsə də atasız, onu xan becərsin və ya nökər, kim ona nə qədər zəhmət çəksə, can yandırsa, nazıyla oynasa, o da həmin adama o qədər cavabını qaytarar, məhsul verər. Çox zəhmət çəkənə çox, az zəhmət çəkənə də az pay verər. Öləndə də hər kəsə, varlıya da, kasıba da, atalıya da, atasıza da boyuna görə yer verəcək. Torpaq hamı üçün anadır, ana isə övladının heç birinə fərq qoymaz. Bax, budur, ədalət. Anaların hamısı ədalətli olur. Bizim anamız kimi.

Bacım ağıllı, kamallı idi. O, təkcə biz bacı-qardaşlar üçün deyil, bütün qohumlarımız və yaxınlarımız üçün bir işıq idi. Onun işığı hamımızın evinə düşürdü. Toylarımızın, mərəkələrimizin yar-yaraşığı idi. İndi məclislərdə bacımızın yeri görünür. Gözümüz hey onu axtarır.

***Dursun Əli qızı,***
***Səfurə xanımın böyük bacısı***

## ATAM ÖZ HÖKMDARINI AXTARIR

Atam, qəzetçiliklə, müəllimliklə yanaşı, şifahi xalq ədəbiyyatı nümunələri toplamaqla əlaqədar olaraq səyyar həyat keçirirdi. Tez-tez, ayrı-ayrı bölgələrə səfərlər edirdi.

Ev işləri və bizim təlim-tərbiyəmizlə məşğul olmaq anamızın ixtiyarında idi, dərslərimizə də o,

nəzarət edirdi. Atamız nə qədər mülayim idisə, təbiəti etibarı ilə nikbin olan anamız çox ciddi adam idi. Atam onu «Ayka», «Hökmdar» deyə çağırırdı. Anam da şuxluqla deyirdi:

- Görün, mənim vəzirim nə deyir.

Atamla-anam arasında həmişə səmimiyyət, istək görmüşük. Bir ciddi iş olanda onlar bizim yanımızda məsləhətləşməzdilər. Şəhər istirahət parkına gedər, saatlarla gəzə-gəzə məsləhətləşər, hər hansı məsələ haqqında öz aralarında qərar qəbul edərdilər. Amma deyim ki, hər hansı məsələdə anamızın sözü keçərdi. Çünki atama nisbətən anamız həyat məsələlərini, məişəti daha dərindən bilirdi. Atamız, elə bil, təkcə elm üçün, şeir-sənət üçün yaranmışdır. Evimizin səliqə-sahmanı, həyətimizdə göy-göyərtinin becərilməsi, ağaclara qulluq, bir sözlə evimizin idarə olunması anamızın ixtiyarında idi. Eyni zamanda,  anamız yorulmaq bilmədən, atamın topladığı folklor materiallarını çeşidləyib yazı makinasından çıxarar, xüsusi qovluqlara yığar, sonra da atamla bərabər çapa hazırlayardı. Atamın işinə anamız həvəslə, maraqla, könüllü olaraq kömək edərdi. Anam özü də bütün varlığı ilə Azərbaycan folkloruna bağlı idi. Onu sevirdi, xalq incilərini toplayıb nəşr etdirməyi fədakarlıq sayırdı. Bu sahədə atamı ilhamlandırırdı.

Anam çox nikbin insan idi. Olduqca cavan qalmışdı. 54 yaşında aramızdan gedərkən belə anamızın sədəf dişlərindən biri tərpənməmişdi, saçlarına dən düşməmişdi. Atam razı olmazdı ki, biz ona «ana» deyə müraciət edək. Övladları sadəcə olaraq, ona Səfurə, gəlinləri isə «bacı» deyərdilər. Anamız nəinki toya-nişana gedəndə, hətta ev şəraitində də səliqəli geyinərdi.

Yadıma gəlmir ki, atam bir dəfə də olsun Səfurənin sözündən çıxsın. Onun təkidi ilə Tovuzun Ağdam kəndindəki Aldədə, Göyçənin Sarıyaqub kəndindəki Miskin Abdal, Masallının İstisuyundakı Fatma nənənin təndirinə, Yanardağda, Beşbarmaq dağında və başqa yerlərdəki ocaqlara, pirlərə qurbanlar aparıb kəsmişlər.

Atam səfərlərdən qayıdandan sonra evimizdə maraqlı hadisələr danışardı. Anamız həyat hadisələrinə, qeryi-adi məsələlərə xüsusi maraq göstərirdi. Bir dəfə atam söhbət etdi ki, Qəbələdə bəzi məhəllənin qadınlarının hamısı istirahət günlərində bir evə toplaşırlar. Qadının biri bacardığı xörəkləri bişirir, mürəbbə hazırlayır, bir sözlə, ev mətbəxində öz qabiliyyətini nümayiş etdirir. Bəyənilən xörəkləri bişirməyi o biri qadınlar da öyrənirlər. Bu adət anamın xoşuna gəldi. Onsuz da hər bir bölgədə atamın istənilən qədər dostu vardı.

Şənbə günü atamla anam maşınımızla Qəbələyə getdilər. İstirahət günü anam «mətbəx yarışı»nda iştirak etmiş, bu adət xoşuna gəlmiş, o, qəbələlilərin qarağat mürəbbəsi bişirmələrini, döşəməli və səbzi plovlarını bəyənmişdi.

Anamın atama dediyi aşağıdakı sözlər yadımdadır:

-Sədnik, xalqın iqtisadi bazası, var-dövləti, bol məhsulu olmasa, adətlərini yaşada bilməz. Allah bilir, xalqın nə qədər adət-ənənəsi, mərasimi ehtiyac üzündən müharibə illərində yoxa çıxıb.

Anam atamla Dərbəndə, Gürcüstana, Qazağa, Qubaya, Göyçəyə, nə bilim, haraya, haraya səfərlər edib qayıdandan sonra günlərlə qonşulara, bizə gördüklərini danışar və atamdan razılıq edər, ağız dolusu onu tərifləyirdi.

Anam əvvəllər atamıza «müəllim» deyə müraciət edərdi, biz də «ata» deyərdik. İkinci qardaşımız Sabutay iki-üç yaşında olanda atam onu üzü tüklü öpür, tük uşağın üzünü dalayır. Sabutay dili tutar-tutmaz «qocadır» - deyir. Bu söz anamın xoşuna gəlmişdi. Həmin gündən anam və biz atama «Qoca» deyərdik. Anam deyərdi:

-Qızım, Qocaya zəng et, bazardan filan şeyi alıb gətirsin.

İki qardaşım, iki bacı biz ailə qurmuşuq. Başqa ailələr də görmüşük. Mən ömrümdə atamla anam arasıda olan məhəbbəti heç kəsdə görməmişəm.

Demək olar ki, atam anamızın sağlığında «Bulaq», «Ozan» və başqa saz-söz verilişlərində tez-tez çıxış edirdi, mən onları maqnitofon yazısına köçürürdüm. Bunu bizə anamız öyrətmişdi. O, atamızın bir parça kağızını yerə düşməyə, itməyə qoymazdı, göz bəbəyi kimi qoruyardı. Kitabxananı səliqəyə salardı, evimizə gələn qonaqlara atamızdan xatirələr danışardı. Atamın şeirlərinin çoxunu əzbər bilərdi və bizə də əzbərlədərdi. Öz şeirlərini söyləməzdi, biz onları dəftərdə, vərəqdə tapıb oxuyardıq.

Ümumiyyətlə, atamla anamın bir-birinə olan məhəbbəti, istəyi bir möcüzə idi. Bu gün etiraf etdim ki, atam Səfurənin ayrılığına dözmür. Atam öz «hökmdarını» xatirələrdə axtarır.

***Sahibə Sədnik qızı***

# V Hissə

# Rəylər

## ÖN SÖZ

***(Səfurə Pirsultanlının «Dünya, səndə nəyim qaldı» kitabına yazılmışdır)***

Səfurə xanımı mən bir insan kimi çoxdan tanıyırdım, qonağı da olmuşdum. Hər dəfə Gəncəyə gələndə məni arayıb tapar, qonaq aparar, bişirdiyi ləziz yeməklərdən süfrə açardı. Həm zahiri, həm daxili aləmi gözəl bir insan, sədaqətli, nazəndə bir ömür yoldaşı, qayğıkeş, həssas, zəhmətkeş bir ana kimi tanıyırdım onu. Amma şair olduğunu bilmirdim. Onun vəfatından bir neçə ay sonra ömür-gün yoldaşı professor S.Pirsultanlı Səfurə xanımın əsərlərindən seçmələri mənə gətirdi. Niyə məhz mənə? Təəccüb edilməməlidir. Axı, mən uzun illərdi ki, Azərbaycanın Cənublu və Şimallı aşıq və şair qadınlarının əsərlərini toplayıb, həyat və yaradıcılıqları haqqında məlumat verərək nəşr etdirməklə məşğulam. «Könül çırpıntıları», «Azərbaycanın aşıq və şair qadınları» (iki nəşr) kitabları buna misaldır. Hazırda sonuncu kitabın II cildini hazırlamışam ki, buraya çağdaş azəri aşıq və şair qadınların əsərləri daxil edilir. Şübhəsiz ki, indi bu kitabda Səfurə xanımın lirikası da öz yerini tutacaqdır. Bir neçə ay vəfatından xəbər tutmadığım, geniş dünyagörüşünə malik, incə ürəkli, sən demə şeir yazmaq istedadı da olan Səfurə

xanımın xatirəsinə qoy bu, ön sözüm, həm də gecikmiş bir nekroloq olsun.

Vaxtilə S.Pirsultanlının bir folklorşünas kimi tanıyanların hamısı bilmirdi ki, Səfurə xanım onun sağ əlidir. Qovluqlar dolusu, bir evə sığmayan folklor materiallarını toplayan o idisə, onları üzləyən, səliqəyə salan, makinadan çıxaran məhz Səfurə xanım idi. Səfurə xanım o folklor evinin dayağı, evin gəlini, ağbirçəyi idi.

***Ona ilham verən nazəni mənəm,***
***Qalın kitabların yazanı mənəm,***
***Mirvaritək ipə düzəni mənəm,***
***Tək olsa dənizdə üzərdi Sədnik.***

***İstəməyə, məhəbbətə qalanda,***
***Yazı-pozu, ya zəhmətə qalanda,***
***Soruşsalar, həqiqətə qalanda,***
***Səfurə yanında vəzirdi Sədnik.***

Bu baxımdan Səfurə xanımın səciyyəsini ona şeir ithaf etmiş şair qardaşım Qərib Mehdi çox gözəl vermişdi.

Səfurə xanımın yaradıcılığında üç aparıcı mövzu vardır. Birinci təbiət, ikinci ana, üçüncü övlad. Əlbəttə, içərisində nisbətən zərif, yalnız öz hissləri içərisində qovrulan bir aşiqin – şairin şeirləri də olması təbiidir. Amma söylədiyimiz mövzularda Səfurə xanım birinci növbədə Azərbaycan təbiətinin məftun aşiqidir. O, ana təbiəti elə ağız dolusu, elə ürəkdən, elə məftunluqla mədh edir ki!.. Zümrüd donlu, başı ağ cunalı dağlar, buz bulaqlar, güllər, çiçəklər, təbiətə gözəllik gətirən quşlar, heyvanlar aləmi, Vətən məhəbbətini təlqin edir oxucuya.

Səfurə xanımın şeirlərini oxuduqca oradakı yer adları, Azərbaycan coğrafiyası, toponimika zənginliyi, əlvanlığı, şairanəliyi ilə oxucunu heyran qoyur: «Sənəkuçan», «Daşağıl», «Ballıca», «Ziyarət bağı», «Pirsultan dağı», «Ağ qaya», «Daş gəlin» və s.

Səfurə xanım ana mövzusunda yazanda təkcə öz anasının simasında azəri anasının mənəviyyatını Vətən səviyyəsində vətənlə qoşa verməyə çalışır və onun anaya, anasına məhəbbəti Ana Vətənə məhəbbəti kimi səslənir. Bir qism şeirlərində Səfurə xanım ananın övlada məhəbbətini, qayğısını səsləndirir. Bayaq o, ana qarşısında övlad idisə, o böyük, o ülvi məhəbbət qarşısında uşağa çevrilirsə, burada o, övladları qarşısında uca, tərbiyəçi anadır. Övladların bütün zəhmətlərini çəkən, qayğısına qalan, indisini və gələcəyini düşünən və elə buna görə də erməni bəlasına, müharibələrə bütün varlığı ilə nifrət bəsləyən Anadır.

Hazırda heç bir yazı yazacaq halda, redaktə, düzəliş aparacaq vəziyyətdə deyildim. Amma Səfurə xanımın xatirəsi qarşısında imtina etməyi bacarmadım və çalışdım ki, qüsurlu saysam belə heç bir kəlməsinə toxunmayım onun. Qoy, Səfurə xanımın ilk oxucusu onun ilk kitabını şairənin qəlbindən süzülən şəkildə oxuyub tanış olsun.

Səfurə xanıma ulu Tanrıdan rəhmət diləyirəm.

**(«Dünya, səndə nəyiм qaldı», Bакı, 1994)**

## ÖN SÖZ

*(Səfurə Pirsultanlının*
*«Ağ yağış» kitabına yazılmışdır)*

Səfurə xanım Pirsultanlının ikinci kitabını da xeyir-dua ilə çapa göndərmək mənə qismət oldu… Və mən deyim ki, bundan xeyli məmnunluq duyuram. Nəşrə göndərdiyim «Dünya, səndə nəyim qaldı?» kitabı ilk dəfə yaradıcılığı ilə tanış olduğum bir şairə və onun qələminin məhsulu olan incə, Vətən məhəbbətli, övlad və ana duyğulu şeirlər məndə dərin heyrət, sevinc və deyərdim ki, kədər hissi oyatmışdı. Niyə? Axı çoxdan tanıyırdım Səfurə xanımı. Axı az qala, imkan olsaydı, ana-bacıdan çox, rəfiqə ola bilərdik. Yaş fərqinə baxmayaraq. Sevmişdim, dərin hörmət və məhəbbətimi qazanmışdı. Ömür yoldaşının yaradıcılığından, folklor toplayarkən çəkdiyi zəhmətlərdən, kənd-kənd, oba-oba, el-oymaq gəzməsindən elə danışardı ki!.. Bu böyük məhəbbət və inam hissi başqa bir şeyə – yəni Səfurə xanımın özünün də şairə olmasına, qələm çalmasına düşüncə yeri qoymazdı. Hər şey balalarının atası, baş yoldaşı və alim dostun adıyla bağlıydı. Bütün söhbətləri!!! Özünə yer yox idi bu müsahibələrdə. Özü də yalnız, o yaradıcı ərin katibi, makinaçısı, köməkçisiydi bu müsahibələrdə!!! Oxucusuydu, fərəhlə başqalarına da təbliğatçısıydı!!! Sevindiriciydi! Vəssalam!

Yaradıcı sənətkar, böyük-kiçikliyindən asılı olmayaraq bir «mən» hissinə, bir yaradıcı həsəd deyə bilmirəm, həvəsinə malikdir; istər ki, oxucusu olsun, kiməsə qəlbindən qələminə süzülən hissiyat təəssüratını bilsin. Yazan, həmişə dinləyənə möhtacdır. Bəs Səfurə xanım? Bəs bu gün Səfurə Pirsultanlı adıyla «Ağ yağış»ını oxucuya təqdim etdiyimiz yaradıcı necə? Onun belə dinləyiciyə ehtiyacı yox idimi? Hətta ömür yoldaşı professor S.P.Pirsultanlı belə onun yaradıcılığıyla vəfatından sonra ondan tam şəkildə xəbər tutmuşdur. Başqalarını bilmirəm, mənim üçünsə bu, olduqca böyük səbr, dözüm, fədakarlıq tələb eləyən hadisədir… Və mən də bu hadisəylə ömrümdə, araşdırmalarım boyu ilk dəfə rast gəlmişəm.

İkinci kitab: «Ağ yağış»! Hələ o qalın-qalın qovluqlar, xalq yaradıcılığı nümunələrinin toplandığı cildlər arasında daha neçəsinə rast gələcəyik? Bilinməz ki!.. Bu kitab isə «Ağ yağış»dır. Səfurə xanım Pirsultanlının bir neçə şeirində başlıq kimi, leytmotiv kimi işlənən bu sözün, kitabın adına çevrilməsi də təsadüfi deyildir. Məncə, Səfurə xanım Pirsultanlı özü də ağ yağış idi; ağ yağış misallı analar kimi yağdı dünyamıza, həzin-həzin, sakit-sakit, ağappaq… Suvardı ANA TORPAĞI!.. Özündən sonra həm də təkcə ANA kimi – övladlarını, yaradıcı kimi isə əsərlərini qoyub getdi, bu AĞ YAĞIŞ! Tanrının, Göy türklərin ulu GÖY TANRISI kimi rəhmət yağdırdı dünyamıza bu AĞ YAĞIŞ! Ağ yağış – nemət yağışı, bərəkət yağışıdır. Yağış yağanda giley edənə, narazılıq bildirənə «Nə danışırsan? Sus! Nur yağır, nemət yağır» deyərlər aqillər. Səfurə xanım Pirsultanlı kimi ana-yazıçılar da cəmiyyətə nur kimi çilənən ağ yağış – nemət,

bərəkət yağışıdır. Qızıl sünbüllər yetirən ana torpaq kimi onlar da cəmiyyətdə yalnız yaxşılıq, sülh, əmin-amanlıq yaradan ulu qüvvədirlər.

Diqqət olunarsa, Səfurə Pirsultanlının şeirlərində ağ rəng üstünlük təşkil edir. Paklıq, bəkarət, aydınlıq, işıq, nur rəmzi olan ağ rəng. Səfurə xanım Pirsultanlı yağışı da, buludu da («Ağ buludum»), qazı da («Ağ qazım»), gecələri də («Bəyaz gecələr»), gülləri də («Bəyaz güllərim») ağ görür. Doğrudur ağla yanaşı, yaşılı da («Yaşıldı, yaşıl»), yasəməni də («Yasəmən») görür, sevir şairə. Amma əksər halda ağ rəng üstünlük təşkil edir ki, bu da onun şeirlərinə tünd qara rənglərdən uzaq bir şəfəq, hardasa işıq, nur dolu bir aləm gətirir.

Səfurə xanım təkcə xasiyyəti, insaniyyəti, səmimiyyəti böyük ANALIQ və BAŞ YOLDAŞI hissiylə deyil, həm də, zahirində gözəl idi. Mərmər ağlığındakı üzünü, ala gözlərini gur qıvrım qızılı-xurmayı saçlar – hörüklər haşiyələnib bəzəyirdi. Elə vurğun idim bu hörüklərə ki! Hər görüşdə əllərimlə toxunmaq, sığal çəkmək istərdim. Deyəsən, elə buna görə də Səfurə xanım mənim «Eldən elə» romanımdakı Altuntelli adlı qız üçün portret olmuşdu. Bu telləri təsvirdən doymurdum. Amma yox! Ondan daha əvvəl Göy türklərin, Hunların gözəli Ayla xatunun sürətini çəkəndə gözümün qabağında Səfurə xanım canlanardı. Hun gözəli Ayla xatunun mavi kasnı çiçəkləri ilə hörülmüş qızılı hörüklər də Səfurə xanımınkıydı. Amma heç bilmədim, «Hun dağı»nı oxumuşdumu Səfurə xanım, oxumuşdusa özünə bənzərliyi görmüşdümü? Bilmədim! Yəqin ki, görüşdə mən soruşmaqdan, o da özünü tərifdən utanmışdı.

Təkcə poetik zahiri ilə deyil, Səfurə xanım Pirsultanlı poetik duyumu, həyata, insanlara poetik münasibətilə nəzəri daha çox cəlb edən şair, nasir və insandı. Qədim adət və ənənələrimizin təkcə tərənnümçüsü deyildi. Həyatda, öz gündəlik həyatında da bu adət və ənənələri qoruyur, saxlayır, ən başlıcası, işlədirdi. Professor S.P.Pirsultanlı mənə danışmışdı ki, hər səhər o, evdən çıxıb işə gedəndə, Səfurə xanım, onun önünə üç dəfə su töküb üstündən keçirər, ərinin uğuruna özü çıxar. «Allah, Məhəmməd, ya Əli» deyib yola salar, ardınca da su atıb: «Sağ get, salamat qayıt, uğuruna bəd niyyətli adam çıxmasın» deyərmiş.

Səfurə xanım qız və gəlinlərinə məsləhət və nəsihətlərində, gənc oxucu analara isə şeirlərində elə tapşırıqlar verərdi ki, bu bizim millətin ən dərin zamanlardan baba və nənələrin övlad tərbiyəsində mühüm sayılırdı. Uşağa məhz ana südü vermək, «malış»dan qaçmaq lazım olduğunu anladardı. Ana südü mayadır, ağuzdur; uşağın sümüyünü körpəlikdən bərkidir, həyatı ANA döşüylə dadızdırır insana. Belə deyərdi nənələr və Səfurə xanım nənə – şairə də gəlin və qızlara körpələri ana məhəbbəti hopmuş laylalarımızla yatırmağı məsləhət görür. «Laylanı anaların gül nəfəsi» hesab edən Səfurə xanım qızlara – yəni gənc analara müraciətlə deyir:

***Əyləş, cavan ana, beşik başında,***
***Nələr var körpənin gör, baxışında,***
***O sənin dünyandır durur qarşında,***
***Övladı laylasız böyütmən, qızlar!***

Səfurə xanım qız və gəlinlərinə deyirmiş ki, layla deyə-deyə beşiyə doğru gedəndə ananın

döşünə süd gələr, qurumaz. İnək inəkliyilə «oxşatma» oxuyanda südünü bol verir. «Südlə gələn sümüklə çıxar» məsəlini unutmayın! «Malış»la nə övlad, nə nəvə? Körpə həyatı ananın südüylə dadmalı, öyrənməli və qanmalıdır.

Səfurə Pirsultanlının «Dünya, səndə nəyim qaldı?» ilk kitabına yazdığım ön sözdə demişdim ki, onun yaradıcılğında üç əsas mövzu var: Ana Vətənə, onun gözəlliklərinə, doğma yurda, onun dağlarına, meşələrinə, bulaqlarına vurğun bir şairə tərənnümü; ANA məhəbbəti, Övlad məhəbbəti. Bu kitabda Səfurə xanımın mövzu dairəsi, onun povest və hekayələri hesabına genişlənsə də, hər halda təbiətlə, təbiətin şairanə mənzərələrinə məftunluq üstünlük təşkil edir. Həm də Səfurə Pirsultanlı təbiətin təkcə məftunu deyil. (Sıralanmış dağları «qol-qola tutuşub» rəqs edən, yallı gedən rəqqas dəstəsinə bənzədir). Həm də bu gözəllikləri duymaqla yanaşı, onu tanıyır, bilir. Səfurə xanım bu əlvan təbiətlə təmasda olub, gəzib, görüb.

Uzaqdan eşitməklə, maşın pəncərəsindən seyr etməklə yazmayıb. Ayaqla gəzən insanın, - şairin nəfəsi duyulur, ürəyi çırpınır bu şeirlərdə. «Dağlar», «Çaylar», «Qartal», «Pirsultan çiçəkləri», «Pirsultan dağı», «Araz», «Kür» (Xüsusən, «Koroğlu» və «Kür çayı» əfsanəsi ilə bağlı)… Və onlarla başqaları… Təkcə başlıqlar nə demir? Bütün bunların hamısı da canlı, şəxsləndirilmiş kimi.

Səfurə Pirsultanlının şeirlərində, lap istəsəniz nəsrində də poetik tapıntılar heyrətamiz dərəcədə sadə, səmimi və gözəl azəri türkcəmizin incilərindən gəlir. İlk bahar günlərində bağlarda ağ çiçək açan ağaclar Səfurə xanımın dilində «Ərikdən, alçadan ağ yağış yağır» kimi misralanır. Qız bəkarətindən, qız

gözəlliyindən danışanda «Səfurə, qız ki var, hər fəsil yazdı» deyir. Başqa cür sanki bu gözəlliyi heç nəylə müqayisə etmək olmaz. Payızda çinar yarpaqlarının tökülməsini toylarımızda rəqs edən gənclərimizin başına yağdırılan şabaşa bənzədir.

Səfurə Pirsultanlıya görə yaşıl donlu qız, Baharın bənövşəsiymiş… Yaxası şəlaləni, sular qayalardan töküləndə hörükləri xatırladırmış…

Səfurə Pirsultanlı dağ, yaylaq həyatını incəliklərinə qədər bildiyindən, başlıcası duyduğundan, yaratdığı dağ mənzərələri, yaylaq həyatı əvəzsizdir. Dağlardan, yaylaqlardan ayrılıq zamanı gələndə ürəyi əsir və oxucuya da bu dağlar məhəbbətini təlqin edə bilir.

Mən ilk kitabında Səfurə xanımın poetik duyumundan danışdığımdan, burada onun folklorumuzla sıx bağlı bayatı, düzgü, qoşma və gəraylılarından ayrıca bəhs etmək fikrindən daşınıb, nəsri üzərində dayanmaq istəyirəm.

«Ağ yağış» kitabında Səfurə Pirsultanlı yaradıcılığının ikinci qoluyla tanış olduqca, heyrətim daha da artdı. Axı yaxından tanıdığım bir insanın yaradıcılığı ilə onun vəfatından sonra tanış olmaq nə qədər gözlənilməz, qəribədirsə, bu yaradıcılığın rəngarəngliyi, başqalarını bilmirəm, şəxsən məni sevindirdiyi qədər də kədərləndirdi. Səfurə xanım sən demə, şairanə bir nasirmiş həm də.

Kitaba onun beş hekayəsi («Barış», «Bulud saçlı Gövhər», «Əbdülkərimin hekayələri», «Ana güvənci», «Xallı Bəbir») və bir də «Süleyman dayı» povesti daxil edilmişdir. Bəlkə yenə də var. Hələ ki, bilmirik. Amma elə bunların özü də Səfurə Pirsultanlı haqqında maraqlı bir nasir kimi danışmaq imkanı verir. Xüsusilə «Süleyman dayı» povesti böyük

həvəs və ilhamla yazılmış bitkin, dolğun, dəyərli əsərdir. Mövzusu o qədər də uzaq olmayan, lakin artıq xalqımız üçün qara səhifəli tariximizdən alınmışdır. Otuzuncu illərin… Məşum 37-nin bəlalı dövrünün bir səhifəsini əks etdirir. Qara meşin pencəklilərin, qara qələmli «troyka»ların dövrüdür bu dövr. Səfurə xanım yəqin ki, o illərdə körpəydi. Amma eşidib, az-çox gördükləri qəlbində elə dərin bir iz salmışdır ki, hadisələrin yanından keçə bilməmişdir.

Səfurə xanım o illəri, eləcə də 30-cı illəri .. o dövrün kənd həyatını, xüsusilə müharibədən əvvəlki «troyka»lar, «meşin pencəklilər»in dövrünü elə onda da el içində, vəzifə sahibləri arasında belə namuslu, «dəli süleymanların» həyatını yaxşı öyrənib bilib, düzgün işıqlandırmağı bacarıb. Bir kəlmə də şablona, kimisə təkrara yol vermədən, özü duyduğu, özü bildiyi kimi. O zamankı «dəli Süleymanların» dili də, davranışı da, heç «üçlüklərin belə» təsirinə düşməməsi millətin saf qocalarına, ədalətli insanlarına inam hissi yaradır. Axı hamı qorxaq, hamı satqın, hamı gözüqıpıq, qapazaltı deyildi. «Dəli süleymanlar» var idi dünyada və dünya onların üzünün suyu hörmətinə bərqərardı. Səfurə xanım sanki bunları düşünərək «Dəli» Süleymanı dilləndirir: «Dayan, əl saxla! Qoruq basmış heyvandı! Malını aldıq? Torpağını böldük? Böldük. Mülkünün elliyinki eləyib içində idarə qurmuşuq! Qurmuşuq! Arvad-uşağı biz deyəni deyir? Deyir. Bəlkə də özü də biz çaldığımız havaya oynayacaq? Yıxmağa nə var? Hünər tikməkdədi!» Bunu deyən həmin Süleymandı ki, ədalət naminə özü cəza verməkdən çəkinməzdi. Amma işin, məsələnin əslini anladıqdan sonra Süleyman kişinin gəldiyi nəticə əvəzsizdir. Elə

Süleyman obrazının özü də bu növ ədəbiyyatımızda maraqlı surətlərdən biridir.

Povestdə bir də Səkil at surəti var. Bəli, bəli, məhz surət. Səkillə Süleyman kişinin münasibəti elə bir şairanə həzinliklə təsvir olunur ki, bu evdar qadının bir minici, əsl atcıl kimi at xislətini bilməsinə heyrət etməyə bilmirsən.

Povest və hekayələrdə tərəkəmə həyatı, adət və ənənələri, o dövrün insan münasibətləri, anlayışları, indi çoxu unudulmaqda olan terminlər mühüm, öyrənilәsi yer tutur. Əbdülkərimin bir neçə kiçik parçada bütöv və maraqlı surətini yaradan Səfurə xanım, «Ana güvənci» hekayəsində həzin, müharibə və onun dəhşətlərinə qarşı nifrət, sevən ana ürəyi, ana məhəbbəti hisslərini oxuculara aşılamağa çalışır. Hekayələrin bəzisi adi hekayət danışmaq tərzindədir, görünür hələ ilk qələm təcrübəsidir: Əbdülkərim, Tahirə, müstəsna olmaqla, tam insan surəti hələ alınmamışdır. Buna baxmayaraq böyük maraqla oxunurlar. İki səbəbdən: Birincisi, təsvir olunan həyat tərzi şəhər oxucusu, xüsusilə gənc nəsil üçün yenidir. O tərəkəmə həyatı, köçlər, yaylaqlar….

İkincisi hekayələrin, xüsusilə povestin dili. Bu dil, bu ifadə tərzi xalq yaradıcılığı – folklor materialları içində bişmiş, bu materialları cani-dildən yaşamış qələm sahibinin dilidir. Mənə həmişə elə gəlib ki, sözün də «suyu» var: Mirvari kimi, almaz kimi, brilyant kimi. «Sulu daş»… Ən gözəli, ən qiymətlisidi. Brilyant kimi «suyu» - gözəlliyi ilə qiymətləndirilən sözü deyirəm. Nəsrdə bu dil rəngarəngdir, əsl xalq dilidir, əlvan danışıqdır. Səfurə xanım Pirsultanlı da məhz özünəməxsus tərzdə işlədir bu söz xəzinəmizin incilərini. Sanki söz

«icad» eləyir, amma icad eləmir, hansı bir babanınsa, nənəninsə dilindən alıb, sapa düzüb onları. Gözəldir, axıcıdır, nağılvari xalq dili, danışıq ifadələri… həm də təkcə obrazların dilində deyil, nasirin öz dilində də belədir.

Məncə, povesti bütünlüklə beləcə bir şirin dil nümunəsi kimi misal gətirmək olar və səhv etməzsən.

Səfurə Pirsultanlı yaradıcılığı çox təəssüf ki, zəmanəsinə düşməyib. Bu qanlı-qadalı illərimizdə, günlərimizdə oxucunun başı iqtisadiyyatının ağrı-acılarına rast gəldiyi zamanda, oxucu və münəqqidlərin nəzərini cəlb etsə, bu, özü xeyli uğurdur.

Mən çox ümid edirəm ki, Səfurə Pirsultanlının arxivindən, daha doğrusu, folklorşünas-alim, ömür-gün yoldaşının topladığı saysız-hesabsız ağız ədəbiyyatı materialları içərisindən yeni-yeni əsərləri çıxacaq və onun vəfalı dostu, baş yoldaşı tərəfindən xalqa çatdırılacaq; amma hətta, o ümid etdiyim yenilər tapılmasa belə, təkcə bu iki kitabı: «Dünya, səndə nəyim qaldı?» və «Ağ yağış» Səfurə xanım Pirsultanlıya təkcə ər və mehriban, tərbiyəli, bacarıqlı və gözəl dilli nəsr həvəskarı – oxucuların da bu incə qəlbli, insansevər İNSANIN unudulmamasına, ürəklərdə yaşamasına kifayət edər.

***(«Ağ yağış», Bakı 1995)***

***Əzizə Cəfərzadə,***
***professor***

## SƏNDƏN XATİRƏDİ QALAN…

***(«Dünya, səndə nəyim qaldı» Bakı, 1994)***

Səfurə Əli qızı Pirsultanlı 1938- ci il dekabrın 29-da, yəni 1939-cu ilə bir-iki gün qalmış, Gəncə yaxınlığında olan Pirsultan dağının ətəyindəki Qazaxyolçular kəndində anadan olmuşdur.

Pirsultan toponimi Təbrizin 60 kilometrliyindəki Pirsultan kəndi adı ilə eyniyyət təşkil etsə də, hələlik bu adlar arasındakı tarixi-etnik əlaqə və bağlılıq tam araşdırılmamışdır. XVI əsrin görkəmli söz ustası Pirsultan Abdalın (məzarı Türkiyənin Sivas vilayətinin Banaz köyündədir) soyadını konkret olaraq hansı coğrafi məkanla bağlı olduğu da bu günə qədər sirr olaraq qalır. Ata-babalarımızdan üzü bəri, nəsildən-nəsilə söylənə-söylənə gələn rəvayətlərdən başqa bu əlaqəyə aid heç bir məlumat yoxdur.

Pirsultan soy adının birinci dalğası Pirsultan Abdalın adı ilə bağlıdır. Pirsultan bəlkə də, əsl adı Heydər olan bu sənətkarın ya soyadı, ya da onun doğulduğu məkanla bağlı qəbul etdiyi təxəllüsdür. Əlbəttə, bunlar hələlik ilk ehtimaldır.

Pirsultan soyadının ikinci dalğası Eynal və Sultan adlı qardaşların adı ilə bağlıdır. Təxminən XIX əsrin əvvəllərində Gəncənin Bağbanlar hissəsindən olan iki qardaşın: Eynalın hazırda Eynal taxtı adlanan yerə, Sultanın isə Pirsultana yaylağa çıxdıqlarını, ikinci qardaşı, yəni Sultanı ocaqzadə kimi tanıdıqlarından onu Pirsultan deyə çağırdıqlarını, hətta dağın adının bu addan götürüldüyünü  söyləyənlər də var. Məhz Pirsultan soy adının ikinci dalğası bu rəvayətlə bağlıdır.

Eynal taxtı və Pirsultan toponimlərinin əski çağlarla səsləşdiyini də nəzərə alsaq, onu da demək olar ki, bizdə, tarixən babanın, məşhur, əziz və yaxın olan adamların adının nəvəyə verilməsi, bu yolla da soyadını yaşatmaq ənənəsi var və həmin ənənə bu gün də davam etməkdədir.

Pirsultan ta qədimdən Gəncə və Gəncəbasar əhalisinin inandığı, tapındığı, ziyarət etdiyi müqəddəs bir yer olmuşdur. Elə buna görə də biz həmin adı özümüzə soyadı kimi qəbul etmişik. Bundan başqa, ömür-gün yoldaşım Səfurə xanım və mən Pirsultan dağının ətəyində dünyaya göz açdığımız üçün Pirsultan adını özümüzə təxəllüs seçmişik. Beləliklə, Pirsultan soyadının üçüncü dalğası yurdumuzda bizim ailəmizlə bağlıdır. Gəncəbasarda günümüzə qədər bizim ailədən başqa Pirsultan soyadını daşıyan yoxdur. Nəsil-soyumuzun uzaq mənşəyi Gəncədən başqa Qazağın Qıraqkəsəmən, Ağköynək və Kosalar kəndləri, Samux rayonundakı Çobanabdallı kəndi, eləcə də Miskin Abdal ocağı ilə sıx əlaqəlidir.

Səfurə Pirsultanlı 1994-cü il iyul ayının 30-da dünyasını dəyişmişdir. O, 54 illik ömrünün 35 ilini Gəncə şəhərində yaşamışdır. Səfurə xanımdan 6 övladım (üç oğlum: Səyyaf, Səbutay, Sərvan; üç qızım: Sahibə, Sədafət və Sərvanə) olmuşdur. Səfurə xanım övladlarını qayğı ilə böyütmüşdü, onların təlim-tərbiyəsi, ali təhsil almaları üçün əlindən gələni etmişdir. Övladlarından dördünün toyunu və səkkiz nəvəsini, o cümlədən oğul nəvələrini Samir, Sübhan, Sədvar, Vüsal, Elmir və Mahir, qız nəvələri: Vüsalə və Zümrüdü görmüşdür. Bu adları, çəkilən övladlar da Pirsultan soyuna mənsubdur.

Səfurə Pirsultanlının məzarı Gəncə şəhərindəki «Səbiskar» adlanan qəbristanlıqdadır. Onun xatirəsinə düzəldilmiş «Ana bulağı» isə qəbristanlığın qarşısındakı uca bir çinarın yanındadır. Lakin, məncə, Səfurə xanımı zaman-zaman yaşadacaq əsas faktor bunlar yox, onun özünəməxsus, bənzərsiz və olduqca maraqlı mənəvi dünyasıdır. Səfurə xanımın zəngin mənəvi aləmi ilə tanışlıq onun barəsindəki təsəvvür və düşüncələri xeyli genişləndirir. S. Pirsultanlı gözəl ana, sədaqətli ömür-gün yoldaşı olmaqdan başqa, həm də incə, rübabi duyğularla yaşayan şairə – ana, milli mənəvi sərvətlərimizin təəssübünü çəkən, onları canıyananlıqla qoruyub saxlayan və təbliğ edən, yüksək erudisiyaya və intellektual səviyyəyə malik bir ziyalı qadın idi.

Mən ömrümün qırx ilə yaxın bir dövrünü Azərbaycan folklorunun toplanmasına, nəşrinə və tədqiqinə həsr etmişəm. Səfurə xanım bu çətin, lakin şərəfli işdə mənim ən yaxın köməkçim olmuş, topladığım şifahi xalq ədəbiyyatı örnəklərini, «Ağdabanlı Qurban və müasirləri» adlı namizədlik, «Azərbaycan xalq əfsanələri və onun tədqiqi problemləri» adlı doktorluq dissertasiyalarımı, «Lalə» (Aşıq Bəsti, 1969), «Yaşayan əfsanələr» (1973), «Xəstə Qasım» (1975), «Yurdumuzun əfsanələri» (1976), «Nizami və folklor» (1976), «Yanardağ əfsanələri» (1978), «Azərbaycan xalq yaradıcılığının inkişafı» (1981), «Nizami və Azərbaycan əfsanələri» (1983), «Bayatılar» (1985), «Azərbaycan əfsanələrinin öyrənilməsi» (1985), «Azərbaycan xalq əfsanələri» (1985), «Azərbaycan folkloru və aşıq yaradıcılığı» (1989), «XIX əsr Azərbaycan aşıq yaradıcılığı» (1990), «Öz səsim»

(1990), «Azərbaycan xalq söyləmələri» (1992), «Pirsultan bulağı» (1994) adlı kitablarımı, çapa hazırlanan «Xalqın söz mirvariləri» adlı folklor toplusunu, «Ozan-aşıq sənəti», «Azərbaycan eposu və xalq əfsanələri», «Mənzum atalar sözləri» əsərlərimi öz əlləri ilə yazı makinasından çıxarmışdır. Əlbəttə, bu siyahını bir qədər də genişləndirmək olardı.

S.Pirsultanlı mənim xalqın söz sənəti incilərini toplamaq, nəşr və tədqiq etmək kimi xeyirxah təşəbbüsümə həmişə mənəvi təkan verir, qonşu respublikalarda, Qazaxıstanda, Orta Asiyada, Qaraçay-bolqar diyarında, Türkiyədə, İranda, Almaniyada və başqa ölkələrdə keçirilən mötəbər elmi yığıncaqlarda, simpozium və elmi konfranslarda iştirak və çıxışlarımla yaxından maraqlanırdı. Səfurə xanım mənimlə bərabər həyatını Azərbaycan folklorunun itib-batmaqda olan nümunələrinin üzə çıxarılmasına, yeni həyat qazanmasına həsr etmiş və bu sahəyə olan sonsuz maraq, fakt toplama və çap işləri ona ali təhsilini davam etdirməyə imkan verməmişdir. Bununla belə, Səfurə xanım bir an belə mütaliədən əl çəkməmişdir. Mənim ardıcıl elmi işlə məşğul olmağımla əlaqədar o, alim və şairlər mühitinə çox yaxın idi. Akademiklərdən Həmid Araslı, Məmmədağa Şirəliyev, professorlardan Məmmədhüseyn Təhmasib, Mirəli Seyidov, Yəhya Seyidov, Yaşar Qarayev, Zərifə Budaqova, Mürsəl Həkimov, Qara Namazov, Bəhlul Abdullayev, İsrafil Abbasov, Uzdiat Bəşirovna Dalqat, Bahadur Sarımsakov, alim-folklorşünas Əkbər Yerevanlı, şair və yazıçılardan Əzizə Cəfərzadə, Qasım Qasımzadə, Teymur Elçin, İsmayıl Qarayev, Hüseyin Arif, Məmməd Aslan, Taleh Həmid, Eldar

Nəsib və başqaları dəfələrlə evimizdə olmuş, Səfurə xanımın evimizdə təşkil etdiyi kitabxananı, zəngin folklor arxivini öz gözləri ilə görmüşlər. Səfurə xanım klassik və müasir poeziyanın vurğunu idi. O, bir neçə dəfə Qasım Qasımzadəyə, Aşıq Şəmşirə öz şeirlərini oxumuşdu. Aşıq Şəmşir 1971-ci il iyun ayının 28-də Səfurə xanımın şeirlərini dinlədikdən sonra ona «Doğrudan da» rədifli beş bəndlik bir qoşma həsr etmişdir. Oxucular üçün maraqlı olacağını nəzərə alaraq qoşmanı burada bütöv veririk:

***Fəhmi-fərasətdə, əqli-kamalda,***
***Bu balam hünərdə təkdi, doğrudan.***
***Səfurə simada, hüsni-camalda,***
***Göydən enmiş bir mələkdi, doğrudan.***

***Səmayə şəms olur, təzə mah kimi,***
***Ərzə işıq salır, o, sabah kimi,***
***Sənəmlər fonunda, padişah kimi,***
***Hökmü-fərman edəcəkdi, doğrudan.***

***Bəxtəvər ölkənin bəxtəvər qızı,***
***Azad ellər qızı, şən diyar qızı,***
***Daşkəsənin gör nə gözəl var qızı,***
***Bağçalarda gül-çiçəkdi, doğrudan.***

***Tavusdan qəşəngdi, tamaşası var,***
***Münasib həmdəmi, mərd butası var.***
***Qaşlarında əbrin sürəyyası var,***
***Dan yerinə min bəzəkdi, doğrudan.***

***Şəmşir əhsən desin, qurğu cəlala,***
***İstərəm cəlalı hər an ucala,***

***Mən onun atası, o mənə bala,***
***Məndə olan pak ürəkdi, doğrudan.***

***28.06.1971***
***(Əlyazması arxivimizdədir)***

Müasir türk dünyasının görkəmli folklor bilicilərindən olan Ürfan Ünvər Nəsrəddin oğlu 1990-cı ilin əvvəllərində bizim ailənin qonağı olmuş, Səfurə xanımın şeirlərini dinləmiş və Türkiyəyə qayıtdıqdan sonra İstanbulda çıxan «Sizə» jurnalında bizim ailəmiz haqqında yazı (şəkillə birlikdə) dərc etdirmiş, həmin yazıda Pirsultanlılar ailəsi, Səfurə xanımın qabiliyyəti və istedadı haqqında geniş söhbət açmışdır. Türk folklorşünaslarından və sənət adamlarından Zeynalabdin Makas, Ənvər Araz, Şahin Gögtürk, Adbulqadır Sezgin, Almaniyada yaşayan şair-aşıq Yusif Poladoğlu, qazak akını Xıdırbek Yunanbayev və başqaları evimizin qonağı olmuşlar. Səfurə xanım Ənvər Araza və Şahin Gögtürkə öz lirik şeirlərini oxumuşdur.

Səfurə xanımın həyatı ilə bağlı bir əhvalatı da xatırlamaq yerinə düşərdi. 1966-cı il iyun ayının sonları idi. Mən o zaman Kəlbəcərdə çıxan «Yenilik» qəzetinin redaktoru idim. İstedadlı şairimiz, folklorumuzun gözəl bilicisi Məmməd Aslan məni Cahid Camalla tanış etdi və bildirdi ki, bu, Azərbaycanın görkəmli rəssamlarından biridir, özü də Monqolustanda işləyir, bir aylıq məzuniyyət götürüb Kəlbəcərə istirahətə gəlib. Onu da əlavə etdi ki, məramı bir azərbaycanlı gözəlin portretini yaratmaqdır. Sonra məlum oldu ki, Cahid Camal kinodan çıxanda Səfurə xanımı mənim yanımda

görmüş, uzun-uzadı söhbətdən sonra o, məndən razılıq alıb, Səfurə xanımın portretini çəkmək qərarına gəlmişdi. Doğrudan da, Səfurə xanımın öz şeirlərində dediyi kimi, «şəlalə hörükləri», ala gözləri, sarışın üzü, qızılgülə bənzər yanaqları diqqəti cəlb edirdi.

Peşəkar və tanınmış rəssam Cahid Camal Səfurə xanımın portretini Kəlbəcərin ecazkar mənzərəsi fonunda, qoşa hörükləri dağ şəlaləsi kimi çiyinlərinə tökülmüş vəziyyətdə çəkmişdi. Onda S.Pirsultanlının 28 yaşı hələ tamam deyildi. Bu şəkil mənim də, Səfurə xanımın da ürəyincə idi. Lakin, portret bizə qismət olmadı. Belə ki, Cahid Camal gecəykən çıxıb getmiş və həmin portreti özü ilə aparıb dünya muzeylərindən birinə vermişdi. Şair Məmməd Aslan bu işin şahididir. Biz bu günəcən nə rassam Cahid Camalı tapırıq, nə də Səfurə xanımın gəncliyini özündə yaşadan portretdən bir xəbər tuta bilirik. İndi o şəkil də, o şəkildəki gözəl də mənim üçün əlçatmaz, ünyetməz bir varlığa çevrilib.

Səfurə xanımın sağlığında ona «ana» deyəndə inciyərdi. Amma indi nədənsə, bu söz qəlbimin hovunu alır. Onun xatirəsinə düzəldilmiş bulağın da adı «Ana bulağı»dır. Gənc qızlar, oğlanlar da ona «Səfurə ana» deyirlər. Doğrudan da, Səfurə xanım öz xarakteri, paklığı, insanpərvərliyi, həyatsevərliyi ilə hər kəsə ana ola biləcək dərəcədə yüksək bir şəxsiyyət idi.

Səfurə xanım mütaliyəni çox sevirdi. O, Məhsəti xanımın, Səməd Vurğunun, Bəxtiyar Vahabzadənin, Nigar Rəfibəylinin, Mədinə Gülgünün, Məmməd Arazın, Məmməd Aslanın, Musa Yaqubun və başqalarının əsərlərini sevə-sevə oxuyurdu. Adları çəkilən sənətkarların bir çox

əsərlərilə yanaşı, «Arzu-Qəmbər», Lələnin həyatı ilə bağlı «Yaxşı-Yaman» bayatılı dastanları əzbər bilirdi. Aşıq Əmrah Gülməmmədovun saz ifaçılığını, Aşıq Şəmşirin poeziyasını, Zülfiyyənin və Aşıq Ulduzun istedadını yüksək qiymətləndirirdi. Müğənnilərimizdən Hacıbaba Hüseynovu, Fatma Mehrəliyevanı, Rübabə və Mahrux Muradovaları, Qəndab Quluyevanı, Səkinə İsmayılovanı, Mələkxanım Eyyubovanı, Alim Qasımovu həvəslə, heyranlıqla dinləyirdi. Mavi ekranda Firudin Şuşalının apardığı musiqi tarixinə həsr olunmuş verilişləri maraqla izləyərdi.

Səfurə xanım Azərbaycan təbiətinin, doğma yurdumuzun əsrarəngiz gözəlliklərinin vurğunu idi. Qəribə idi, mən respublikamızın müxtəlif regionlarından, folklor materialı toplayıb qayıdan kimi Səfurə xanım əvvəlcə onları seçib yazı makinasından çıxarar, sonra həmin söz inciləri haqqında fikir söyləyərdi. Hansı qala, pir, göl, çay və s. xoşuna gələrdisə, mən Səfurə xanımın xahişi ilə həmin yerlərə onunla birlikdə yenidən qayıtmalı olardım. Məsələn, Dərbənd qalalarına, Masallıdakı Yanardağa, Fatma nənənin təndiri adlanan tarixi abidəyə, Tovuzdakı Aldədə ocağına, Murova, Kəpəzə, İncə çayına, Zivlən çayına və başqa yerlərə birgə səfərlərimiz elə bununla bağlıdır. O, Moskvada Şimali Qafqaz kurortlarında, eləcə də Rusiyanın bir çox şəhərlərində olmuş, diqqətini cəlb edən maraqlı faktları yaddaşına həkk etmişdi. Səfurə xanım poeziyaya və musiqiyə çox bağlı idi. Onun təxminən 60-cı illərdən sonra xırda lirik şeirlər yazdığını bilirdim. O, şeirlərini bir neçə övladı olandan sonra üzə çıxarmağa başladı. Səfurə xanımın öz dəsti-xətti ilə yazdığı qalın bir dəftərdə xeyli şeir var. Özünün

qeydlərindən aydın olur ki, bu, onun qələm məhsullarının hamısı deyil. Şeirlərin bəziləri çoxsaylı arxiv qovluqları, vərəqlər arasında itmişdir. Hələlik imkan daxilində onun gəraylı, qoşma, rübai, düzgü və bayatılarından ibarət «Dünya, səndə nəyim qaldı» adlı şeirlər toplusunu çapa hazırlamışıq. Səfurə xanım sağlığında öz dəsti-xətti ilə yazdığı qeydində şeirlərini «şehli çiçəklər» adlandırmış və qabağında mötərizədə «mənim nəğmələrim» sözlərini yazmışdır.

Mən burada Səfurə xanımın şeirlərini təhlil etmək və ya onları bədii cəhətdən qiymətləndirmək fikrində deyiləm. Ömür vəfa qılsa, yaradıcılıq planıma daxil etdiyim «Sənli-sənsiz günlərim» adlı xatirə-romanda çox şeydən, o cümlədən S. Pirsultanlının şəxsiyyətindən, zövqündən, şeirlərinin yurdlarından, onunla bağlı xatirələrdən geniş söz açacağam. Ola bilsin ki, onun şeirləri içərisində bədii cəhətdən mükəmməl olanları da var, olmayanları da. Hər halda bu şeirlər özündə pak və müqəddəs ana duyğularını, həyəcan və narahatlığını əks etdirdiyi üçün maraq doğurur.

Səfurə xanımın özü kimi, şeirləri də səmimidir. Bu şeirlər saf və ülvi duyğulardan yaranmışdır.

Kitaba Səfurə xanım dünyasını dəyişdikdən sonra ona həsr olunmuş şeirlər də daxil edilmişdir. Mən Səfurə xanıma gənclik illərindən üzübəri, ömür-gün yoldaşı olduğumuz 38 il ərzində çoxlu şeirlər yazmışam və həmin şeirlər «Öz səsim» (1990) və «Pirsultan bulağı» (1994) adlı kitablarımda çap olunmuşdur.

Türkiyədə idim, Ankaradan Qarsa gəldim. 1994-cü il iyulun 28-də Qarsda Qafqaz

Universitetinin alimləri ilə görüşüm oldu. İyulun 29-u gecə mehmanxanada yatırdım. Yuxuda Gəncədəki həyətimizdə güllə səsləri eşitdim. Yuxudan hövlnak qalxdım. Gecə saat 4 idi. Pəncərəni açıb şəhərə baxdım, heç nə yox idi. Paltarımı geyinib səhərin açılmasını gözlədim. Qulaqlarımda hələ də güllə səsləri eşidilirdi. Tezdən Terminala, oradan da avtobusla İqdirə gəldim. Lakin Naxçıvan avtobusuna çatmadım. İkinci avtobus sərhəddə ləngidi. Naxçıvana çatanda məlum oldu ki, Gəncəyə uçan təyyarə getmişdir. Təyyarə ilə Bakıya uçdum və səhərə qədər avtobusla yol getdim. Həyəcanım getdikcə güclənirdi. Səhər saat 8-də qabağıma böyük oğlum Səyyaf çıxdı. Dərhal soruşdum: - Evdə nə var, nə yox? O, dedi: - Ata, özünü sıxma, anam bir az xəstədi. Sonra özünü saxlaya bilməyib hönkürtü ilə ağladı: - Ata bağışla, anamı saxlaya bilmədik – dedi. Dərhal bayıldım, özümə gələndən sonra evin ikinci mərtəbəsinə qalxdım. Evə əlavə xalı döşənmişdi, Səfurə xanımın üzərinə ipək örtük salınmışdı. Üzünə salınmış örtüyü qaldırıb onun üz-gözündən öpdüm, fəryad qopardım, o, bunu eşitmədi. Çöhrəsi dəyişmişdi. Önümdə xəstəliyin nə olduğunu bilməyən bu adam, elə bil, çəmənlikdə yatmışdı. Səfurə xanımı iyulun 31-də dəfn etdik. Bu səmimi insan təkcə şəhərimizi yox, mən deyərdim ki, uzağı da, yaxını da ağlatdı. Yurdumuzun hər guşəsindən adamlar gəlmişdi. Həmin gündən başlayaraq «Özümü axtarıram», «Yuxuma gəl», «Məhəbbətdən yetim qalmaq çətindi» və başqa şeirlərim yarandı. Şairlərdən Qərib Mehdi, Abbasəli Sarovlu–Atabəy, Firudin Şimşək, Sahib Axundlu, Heydər Qərvəndli, Musa Allahverdiyev, Cəmil Əkbər, Lətif Zərgər, orta məktəb məzunu Mətanət

Kərimli, Sabutay Sədnikoğlu, Cəfər Levli və başqaları öz şeirləri ilə mənim kədərimə şərik oldular. Bu şeirlərin ümumi məzmunu Səfurə xanımın doğrudan da mənim yaxın köməkçim, «qanadım», «qəlbim», «başımın tacı», gözəl bir ana olduğunu özündə hərtərəfli əks etdirir. Səfurə xanımın xasiyyətində, şeirlərində olan səmimi duyğular bu bədii nümunələrdə də öz dolğun ifadəsini tapmışdır.

Səfurə xanımın vəfatı ilə əlaqədar Türkiyənin Qars şəhərində yaşayan şair Murad Yıldız Qaraxanlı da qəmli bir qoşma yazıb göndərmişdir.

Səfurə xanım həm də şəhid anadır, şəhid şairədir. Bir il özündən öncə Səfurə xanımın qardaşı dünyadan köçdü. Qarabağ dərdi, soydaşlarımızın öz dədə-baba torpaqlarından didərgin düşməsi, torpaqlarımızın əldən getməsi, qardaşının ölümü Səfurə xanımı gecə-gündüz göynədirdi. Onun şəhid ana olduğunu «Yurdum», «Şəhidlər», «Əylənmə, durnam», «Görünməz», «Ürəyim», «Dururmu» şeirləri, bir sıra bayatı və rübailəri də təsdiqləyir.

Mənim əziz, istəkli, unudulmaz ömür-gün yoldaşım! Sənin yoxluğun mənim üçün də, həsrətlə yollara boylanan övladların və doyunca nənə nəvazişi görməyən şirin-şəkər nəvələrin üçün də çox ağırdır, çox.

## HƏR SÖZÜN BİR XATİRƏDİR

***(«Ağ yağış», Bakı 1995)***

Səfurə Pirsultanlının bundan əvvəl «Dünya, səndə nəyim qaldı» adlı şeirlər kitabı (1994) çapdan

çıxmışdır. Həmin kitaba «Səndən xatirədir qalan» adlı ön söz əvəzində onun həyat və yaradıcılığı haqqında müxtəsər şəkildə, qismən məlumat verilmişdir.

Ön söz əvəzində deyilirdi: «Səfurə xanımın öz dəsti-xətti ilə yazdığı 96 səhifəlik bir dəftərdə xeyli şeirləri qalmışdır. Özünün qeydlərindən aydın olur ki, bu, onun qələm məhsullarının hamısı deyil. Şeirlərin bəziləri çoxsaylı arxiv qovluqları və vərəqləri arasında itmişdir. Hələlik imkan daxilində onun gəraylı, qoşma, rübai, düzgü və bayatılardan ibarət «Şehli çiçəklər» adlı şeirlər toplusunu çapa hazırlamışıq. Səfurə xanım sağlığında öz dəsti-xətti ilə yazdığı şeirlərin qeydində «Şehli çiçəklər» adlandırmış və qabağında mötərizədə «Mənim nəğmələrim» sözlərini yazmışdı». Kitab çapa gethagetdə mərhum şairənin böyük qızı Sahibənin bir yuxusu ilə kitabın adı dəyişdirilib «Dünya, səndə nəyim qaldı?» olmuşdur.

İş prosesində ikinci kitabın da adı dəyişmişdir. Bir şeirə görə Səfurə Pirsultanlının ikinci kitabının adını «Pirsultan çiçəkləri» qoymuşuq. Fəlsəfə elmləri namizədi, yazıçı Azər Əyyublu Səfurə Pirsultanlının şeir, povest və hekayələrini oxuduqdan sonra bildirdi ki, onun bədii yaradıcılığında «Ağ yağış» obrazı vardır. O, kitab üçün bu adı daha münasib saydı və biz də onun fikri ilə razılaşırıq.

Səfurə Pirsultanlının 35 səhifəlik «Süleyman dayı» adlı povestini hamımızdan öncə yazıçı-dramaturq Altay Məmmədov oxudu və maraqlı fikirlər söylədi. Hörmətli yazıçımız onu da bildirdi ki, Səfurə xanımın nəsrdə bundan əvvəl ilk təcrübəsi olmasa, o, birdən-birə belə iri həcmli povest

yazmağa girişə bilməzdi. «Süleyman dayı» povestindən sonra Səfurə xanımın beş hekayəsini tapdıq. Mən bu povest və hekayələr haqqında rəy söyləmək niyyətində deyiləm. Lakin bu povestlə bağlı yaddaşımda qalan bəzi məqamları qeyd etmək istəyirəm. O, doxsanıncı illərdən sonra «Ləzgi qızı» adlı bir yazı üzərində işləyirdi. Həmin yazının povest və ya hekayəmi olduğunu yada sala bilmirəm. Yazıda göstərilirdi ki, Şəfi bəyin qız nəvəsi ləzgi qızını könüllü olaraq Doqquzpara Dağıstanın Aktısından Kəpəz dağlarının ətəklərinə, Todan kəndinə qaçırmışdı və yeddi qardaş yeganə bacılarını axtarırdı. Əsər bitdi, bitmədi bilmirəm.

Səfurə xanım altmışıncı illərdən sonra redaktor olduğum qəzetlərdə korrektor işləmişdi. Qəzet səhifələrindəki bədii yazılar, işlədiyim rayonların rəngarəng təbiəti və b. amillər, nəhayət evimizdəki ədəbi-bədii, elmi mühit onda bədii yaradıcılığa erkən meyl və maraq oyatmışdı. Daşkəsənin Zivlən, Qaşqaçay, Xəlpərəng meşələrindən, Xoşbulaq, Qırxbulaq, Çənlidağ, Yelliboyun, Güllüboyun, Eynaltaxtı, Pirsultan yaylaqlarından sonra Mingəçevir dənizi, Kəpəz, Murov, Canbaz, Yeddiqardaş, Şahdağ, Tufan dağı, Talıstan və başqa dağlarla tanışlıq onun poetik təxəyyülünə güclü təsir göstərmişdi. Mən Göranboyda və Kəlbəcərdə redaktor olarkən Səfurə xanım Qarabağın, Kəlbəcərin və ona yaxın olan Göyçənin ecazkar təbiəti ilə daim təmasda olmuş, ondan bədii-estetik zövq almış, ilhamlanmışdır və bu yerlər onun üçün bir yaradıcılıq qaynağı olmuşdur. Kəlbəcərdə olarkən biz hər həftə Göyçənin kəndlərində olurduq. Miskin Abdal, Şair Məmmədhüseyin, Göyçəli Aşıq Musa, Mirzə Bəylər,

Zodlu Məhəmməd, Aşıq Ələsgər, Zodlu Abdulla, Aşıq Aydın, Alıncalı Məhərrəm, Növrəs İman, Qoşabulaqlı Mirvari və başqalarının şeirlərini, dastanlarını toplayırdıq. Eləcə də, Kəlbəcərdə Ağdabanlı Qurbanın, Bimar Əlinin, Aşıq Bəstinin, Növrəs Firudunun, Aşıq Şəmşirin, Çəpli Məmmədin, Qamışlı Rüstəmin və başqalarının şeirlərini yığırdıq. Toplanan bütün bu şeirləri, dastanları, söz yurdlarını, rəvayətləri Səfurə xanım yazı makinasından çıxarırdı. Yetmişinci illərdən sonra yaradıcılıq laboratoriyamız dəyişdi. Qəzetçilikdən elmi işə keçdim. Mən bir folklorşünas kimi yurdumuzu gəzib folklor nümunələri toplayırdım, Səfurə xanım da öz növbəsində bu örnəkləri makinada yazırdı. Bundan əlavə, dərs dediyim pedoqoji institutun proqramına uyğun olaraq, yaz-yay aylarında I kurs tələbələri ilə səkkiz dəfə yurdumuzun müxtəlif regionlarına, o cümlədən Qəbələyə, Şəkiyə, İsmayıllıya, Ağdama, Bərdəyə, Goranboyun Gülüstan və Ağsu, Ballıqaya ərazilərinə, Tovuza, Qazağa, Şəmkirə, Borçalıya və başqa rayonlara folklor nümunələri toplamaq üçün iri avtobuslarla səfərlər edirdik. Səfurə xanımın bu səfərlərdə iştirak etməyə xüsusi marağı vardı. İyirmi ildən artıq bir müddətdə Səfurə xanım bu səyahətlərdə davamlı olaraq iştirak etmişdir. Məsələn, «Əbdülkərimin hekayələri», «Ana güvənci» hekayələri, «Süleyman dayı» povesti ana nənəm Leylinin söylədikləri təəssüratlarla bağlı olduğu kimi, «Bulud saçlı Gövhər» hekayəsi və tapa bilmədiyimiz «Ləzgi qızı» əsəri Şəfibəyli kəndinin qocaman sakini Müseyib kişinin folklor materialları toplama zamanı söylədiyi maraqlı epizodlarla, tarixi xatirələrlə bağlı meydana çıxmışdır. «Xallı bəbir» hadisəsi biz 1966-cı ildə Kəlbəcərdə olarkən yaxın

günlərin hadisəsi kimi çoxları tərəfindən, müxtəlif variantlarda danışılırdı. Bu faciəli hadisə başqaları kimi Səfurə xanımı da kədərləndirirdi. Səfurə xanım bədii yaradacılığa altmışıncı illərin sonlarından başlasa da, ilk qələm məhsullarını yetmişinci illərdən sonra üzə çıxarırdı və öz şeirlərini Aşıq Şəmşir kimi söz bilicilərinə oxuyurdu. O, doxsanıncı illərdən sonra şeirlərini çapa hazırlayırdı. Əlbəttə, Səfurə xanımın şeirləri də, bədii nəsri də, onu əhatə edən təbiətlə, adamlarla bağlı yaranmışdır. Qələm dostları onun şeirləri, povest və hekayələri haqqında ümidverici fikirlər söyləyirlər.

Səfurə xanım (29.XII.1938 – 30.VI.1994) humay quşu kimi uçub getmiş, əlçatmaz, ünyetməz olmuşdur. Bu gün mənə təsəlli, təskinlik yalnız və yalnız onunla bağlı xatirələrdir. Qələm dostlarımın ona həsr olunmuş bir kəlmə sözü, bir misra ona həsr olunmuş şeiri mənə təsəlli, təskinlik verir, qəlbimin hovunu alır.

Səfurə xanımın şeirlərində Pirsultan dağı Azərbaycan torpağının bir dilbər guşəsi, bir parçası kimi, sözün geniş mənasında torpağın, Vətənin rəmzi kimi təsvir və tərənnüm olunur.

Səfurə xanımın nəinki şeir və hekayələri, hətta adi bir sözü belə, mənim üçün ölməz xatirədir. Səfurə xanım bu xatirələrdə yaşayır, mən onun ömrünün davamını bu unudulmaz xatirələrdə və əsərlərdə görürəm.

## KÖNLÜM SƏNSİZ DEYİL

***(Ön söz: «Şeirim, sözüm qalar» kitabına)***

Həyat nədir? – Əzəli yaşıl yarpaq, sonu qara torpaq. İnsanı ağladan, sızladan zamandır, onun nakamlığı və amansızlığıdır. Səfurə xanımı da bizdən bu kəmfürsət, amansız zaman ayırdı. «Bir ayrılıq, bir ölüm, heç biri olmayaydı» dedik, heyfsiləndik, ağladıq, sızladıq. Bütün bunlardan nə fayda?! «Gedən karvan bir də geri dönməz» deyərlər.

Xoşbəxt o adamdır ki, həyatda özündən sonra bir iz qoyub gedir. Bu iz əslində onu ölümsüzlüyə, əbədi ömrə qovuşdurur. Başqa sözlə, bu iz insanın zaman-zaman yaşamaq, bütün nəsillərin yaddaşında özünə möhkəm yer tutmaq haqqıdır. Səfurə Pirsultanlının qısa, lakin mənalı və ibrətli ömür yolu çoxları üçün əsl örnək ola bilər. Bu gözəl və nəcib, səmimi insan, şair qəlbli, qayğıkeş, fədakar ana, qeyrətli ömür-gün yoldaşı ilə bağlı təəssüratları hörmətli oxucularla bölüşdürmək ehtiyacı məni aşağıdakı sətirləri qələmə almağa vadar etdi.

Gənclik ömrün yaz çağıdır. Ömrünün yaz çağında Daşbulaqda gördüyüm Qoşa hörüklü, sarışın, ala gözlü bir gözəl ilk andan qəlbimə hakim kəsildi. O gözəl bu gün gözümdə, könlümdə ömrümün yaz çağında necə görmüşdümsə, eləcə də yaşayır. «Ay Sarı qız, sarım qız», «Bənövşə» şeirlərim məhz həmin günlərin yadigarıdır. Səfurə xanım da sonralar bu şeirlərə münasibətini şeirlə bildirmişdi.

Mən Səfurə xanımdan əvvəl də, onunla yaşadığımız xoşbəxt günlərdə də el qızının gözəlliyini vəsf edən neçə-neçə şeirlər yazmışam. Həmin şeirləri Səfurə xanım makinada yazıb, şeir kitablarıma daxil etmişəm. Lakin hər cür gözəlliyə

heyranlığım mənim Səfurə xanıma olan sonsuz məhəbbətimin üzərinə kölgə sala bilməmişdir. Məni yaşadan, hisslərimi, duyğularımı pərvazlandıran da elə məhz bu məhəbbət olmuşdur. İndi Səfurə xanımsız keçirdiyim günlər mənim üçün dözülməz dərəcədə ağır və üzüntülüdür.

Şeir yaradıcılığına Səfurə xanımla həyat qurmazdan xeyli əvvəl başlamışam. Bununla belə, ən səmimi məhəbbət şeirlərimi Səfurə xanıma yazmışam və «Öz səsim» (1990), «Pirsultan bulağı» adlı (1994) şeir kitablarımda çap etdirmişəm. Gəncliyimizdən yadigar qalan, yuxarıda adını çəkdiyim şeirlərdən bəzi misraları xatırlamaq yerinə düşər:

***Ay Sarı qız, sarım qız,***
***Dağlarda ağ qarım qız,***
***En gəl, Daşlıbulağa,***
***Gəl, səni aparım, qız,***
***Sən ol mənim yarım, qız.***

Səfurə xanım məndən xeyli gənc idi. Şeirlərimdə də buna işarə etmişəm:

***Buz bulaq başında, on beş yaşında,***
***Bir gözələ söz açmışam, bənövşə.***

Səfurə xanım günbəgün, aybaay, ilbəil gözlərim önündə böyüdü, vəfalı ömür-gün yoldaşı, gözəl və qayğıkeş ana, işgüzar bir qadın, həssas qəlbli bir şairə oldu, yaşadığı mühitdə tanındı, sayıldı, seçildi.

Səfurə xanımla evlənən zaman «Yeni Daşkəsən» qəzetinin redaktoru idim. Yanında

qayınana, qayınata, baldız olmayan Səfurə xanım evdə tək darıxırdı. Buna görə də tez-tez iş yerimə zəng vururdu. Mən bunu nəzərə alaraq, onu redaksiyaya işə düzəltdim. Makinada yazmağı, korrektorluğu öyrəndi və təhsilini davam etdirməyə başladı. Artıq bir ildən sonra şeir və məqalələrimi savadlı şəkildə makinada yazırdı. Səfurə xanım qəzet səhifələrində çap etdiyimiz bədii yazılara xüsusi maraq göstərirdi. Onun maraq dairəsinin coğrafiyası genişlənirdi. «Azərbaycan» jurnalı, «Ədəbiyyat və incəsənət» qəzeti, şeir kitabları əlindən düşmürdü.

Bir məsələni də etiraf edim ki, ilk övladımız dünyaya gələndən sonra Səfurə xanım əvvəlki kimi «müəllim, bu belə olsunmu, olmasınmı» - deyə müraciət edib danışmırdı. Artıq o, özündə xeyli cəsarət tapmışdı. Hətta, bir günahım, suçum olanda üzümə deyirdi. Bu, mənim xoşuma gəlirdi. Çünki onun dedikləri səmimi idi. Ürəkdən gələn sözlər idi. O sözlər mənim gələcəyimi parlaq görmək istəyi ilə bağlı idi.

Mən jurnalist olmağı ürəkdən sevirdim. Ömrümü bu peşə ilə başa vurmaq arzusunda idim. Bununla yanaşı, ayrı-ayrı mətbuat səhifələrində, qəzet və jurnallarda şifahi xalq ədəbiyyatı, xüsusilə aşıq yaradıcılığı haqqında vaxtaşırı yazılarım dərc olunurdu. Nizami adına Ədəbiyyat İnstitunun dissertantı kimi elmi-tədqiqat işi ilə məşğul olurdum.

Bir gün günorta fasiləsində evə nahara gəlmişdim. Gördüm Səfurə xanım pərişandı. Özü də sözlü adama oxşayır. Qəlbimdə özümlə haqq-hesab çəkdim, bir şey tapa bilmədim. Soruşdum:

- Nə var, nə yox? Bir az pərişan görünürsən?

Səfurə xanım dedi:

- Heç nə olmayıb, müəllim, sən qəzetdən başqa bir işdə işləyə bilməzsən? Şeir yazırsan şair ol, elmi işini tamamla, müdafiə et. Mən makinada yaza bilirəm, gündə bircə səhifə elmi işini işləsən, bir ilə əsər tamamlanar.

Səbəbəni soruşdum:

- Axı, nə olub?

Səfurə xanım bulaqdan su götürəndə tanımadığı bir qadın ona demişdi:

- A qızım, sən o Sədnik Paşayevin yoldaşısan? A bala, dəlinin sahibi olmazmı? Yetənə yetir, yetməyənə bir daş atır. Ona ağıl ver, de ki, hər adamın dörd nəsli olur: ata nəsli, ana nəsli, arvadının ata-ana nəsli. Sənin o yazıq ərin tək ağacı görür, arxasındakı meşəni görmür. Ondan soruş gör, özü haqqında elə felyetonlar yazsalar, dözərmi? Vallah, qızım, özü qoçaq olar, altdan çıxar, ancaq onun heyfini gələcəkdə günahı olmayan oğlundan, qızından çıxarlar.

Səfurə xanımın qəzetə olan marağını tanımadığımız yaşlı bir qadın daşa çırpıb billur qab kimi çilik-çilik eləmişdi. Səfurə xanım həmin gündən sonra makinada bir sətir də olsun qəzet məqaləsi yazmadı. Folklordan, aşıq sənətindən bəhs edən yazılar çap edirdi. Artıq işimin yönü dəyişir, yaradıcılığım başqa axara düşürdü. Altmışıncı illərdən sonra folklor materialları toplamaq məqsədi ilə Kəlbəcərə, Göyçəyə, Gədəbəyə, Dərbəndə, Şirvan – Muğan bölgələrinə səfərim başlandı. Elmi işimlə əlaqədar 1966-cı ildə əmək fəaliyyətimi Kəlbəcərdə davam etdirməli oldum. Səfurə xanım mənimlə hərdən Ağdama, Göyçəyə səfər edir, topladığımız aşıq şeir və dastanlarını yazı makinasından çıxarırdı. Aşıq Bəstinin «Lalə» şeirlər

kitabı (1969) çapdan çıxanda çox sevindi. Mən namizədlik dissertasiyasını müdafiə etdikdən sonra onunla birlikdə Xəstə Qasımın şeirlərini və əfsanələrini çapa hazırlamağa başladıq. Səfurə xanım elmi işlə yanaşı bədii yaradıcılıqla məşğul olurdu.

Uzunmüddətli və gərgin elmi araşdırmalarım bir neçə il bundan əvvəl doktorluq dissertasiyamın uğurlu mudafiəsi ilə başa çatdı. Günlərin bir günü ömür-gün yoldaşım dedi:

- Səni elmi işlərdən çox, şeirlərin yaşada bilər.

Bir qədər zarafat, bir qədər də ciddi deyilmiş bu sözlərdən az sonra iki şeirlər kitabım çapdan çıxdı. İkinci şeirlər kitabım çapdan çıxandan sonra Səfurə xanım dedi:

- Bu dəfə növbə mənimdir.

Mən Səfurə xanımın gizlin-gizlin şeir yazdığını sezmişdim. Buna görə də onun əlyazmaları ilə yaxından tanış olmaq qərarına gəldim. «Şehli çiçəklər» adlandırdığı yaşıl şeir dəftərini vərəqlədim. Gözəl bədii nümunələrə rast gəldim. Lakin bununla belə, Qazaxıstan, Dağıstan, Almaniya, İran, Türkiyə səfərlərimlə bağlı şeirlərimi çapa hazırlamağa başladım. Səfurə xanım öz şeirlərini bir kənara qoyub, mənim şeirlərimi makinadan çıxartdı. Heyf ki, Səfurə xanım nə mənim son şeir kitabımın, nə də öz şeir kitabının çapını görə bilmədi. Təsəllim təkcə bu oldu ki, Səfurə xanımın o günlərdə şəkli, bədii yaradıcığından nümunələr İstambulda çıxan «Sizə» jurnalında çap olundu və o, bunu gördü.

Əlbəttə, bu kiçik yazıda həyat hadisələrini təfərrüatı ilə izləmək, ifadə etmək imkan xaricindədir. Sevincli günlərimizdən birini burada xatırlamaq istəyirəm. Türk xalqlarının (bəlkə də bu

adət başqa xalqlarda da var), o cümlədən azəri türklərinin əski çağlardan qalma bir mərasimi var. Ər-arvad otuz beş il səmimi yaşayırsa, oğul-uşaqları, nəvələri onların «gümüş», qırxıncı ildə isə «qızıl» toylarının (altun düyünlərini) keçirirlər. Biz oğul və qızlarımızın, gəlin və kürəkənlərimizin, nəvələrimizin iştirakı ilə bir neçə il əvvəl evimizdə musiqi sədaları altında «gümüş toyumuzu» keçirdik. Çalan da, oxuyan da, şeir deyən də, rəqs edən də öz ailə üzvlərimiz idi. Səfurə xanımla mən oğlumuz Sabutayın qarmonda çaldığı «Ruhani» havasını oynadıq. (Biz bütün toylarda «Ruhani» havasına qoşa oynayırdıq). Məclisin şirin yerində uşaqlardan biri soruşdu:

- Ata, bu məclisdə əyləşənlərin içərisində ən çox istədiyin kimdir?

Mən tərəddüd etmədən dedim:

- Övladlarım, mən Səfurə xanımı alanda sizin heç biriniz yox idiniz. Hamınız bu məhəbbətin qığılcımından yaranmısınız. İndi siz özünüz deyin, mən kimi çox istəyirəm?

Səfurə xanım gülə-gülə dilləndi:

- Bəs siz necə düşünürsünüz? Mən Sədnikə ömür-gün yoldaşı olmamışam, gen gündə, dar gündə ona qardaş, arxa olmuşam. Məndən əvvəl Sədnikin belə şəraiti olmayıb. Biz bu evi qaranquş kimi cüt qurmuşuq. Atanız çöldən daş, qum, ağac daşıyıb, mən də bənna kimi tikib qurmuşam. Gözünüz nəyi görürsə, ikimiz halal zəhmətlə yaratmışıq.

Səfurə xanımın həyat haqqında öz qənaətləri vardı:

1. Dünya gör-götür dünyasıdır.
2. Gözəllik ondur, doqquzu dondur.

3. Ərə də bir dəfə, gora da bir dəfə.
4. Halallıq insan üçün ən böyük sərvətdir.
5. İnsanın üzü zəhmətlə ağ ola bilər.
6. Dünyanın açarı düzlüyün, həqiqətin əlindədir.
7. Səmimiyyət gözəl duyğularla bağlıdır.

Doxsanıncı illərdə Almaniyada idim. Aradan bir ay keçmişdi. Frankfurtdan Kölnə gəlirdim. Maşında məni yuxu tutdu. Bir səs məni oyatdı:

- Sədnik, bəs gəlmirsən?

Səfurə xanımın surəti gözlərim önündə dayandı. Maşında «A ceyran» qoşmasını yazdım. Şeirin bir bəndində deyilirdi:

***Güneyyurdda löyün-löyün moy olar,***
***Körpə dərsən yarpaqları göy olar,***
***Ömrün payızında qızıl toy olar,***
***Qızıl toya bir sınaqdı, a ceyran.***

«Körpə dərsən yarpaqları göy olar» misrası Səfurə xanımın sevgi çəmənindən erkən dərilməsinə işarə idi.

Eyni zamanda dördüncü misrada «qızıl toy»umuza az bir vaxt qıldığı xatırlanırdı. Mən bu ayrılığı aramızda bir sınaq kimi mənalandırdım.

Onu deyim ki, 1996-cı ilin may ayında toyumuzun qırx ili tamam olur. Qızıl toyumuza o qədər də vaxt qalmırdı. Tale buna aman vermədi. Səfurə xanım (29.12.38-30.7.94) dünyasını dəyişdi. Əgər mən həmin günə qalaramsa, övladlarımla, nəvələrimlə «qızıl toyumuzu» təşkil edəcəyəm. Məzarıstana gedəcəm, torpağına səcdə edib, gəlsə də, gəlməsə də Səfurə xanımı öz toyumuza dəvət edəcəyəm. Səfurə xanım dünyasını dəyişsə də,

onunla bağlı «qızıl toyun» müqəddəsliyi, paklığı, ülviliyi qalır. «Qızıl toy» sahibi olan bu ana ömrünü, gününü namusla, qeyrətlə başa vurmuşdur.

Daha bir xatirə. 80-ci illərdə, qış ayında Səfurə bir gün dedi:

- Gedin, Yevlaxdan, Ağdaşdan balıq alın gətirin.

Biz Ağdaşda balıq tapmayıb, Xanabada getdik. Balıq alıb qayıdarkən Yevlağa yaxın ərazidə uşaqlar yolun qırağında quş satırdılar. Mən alaburun, tükü zil qara bir ev ördəyi aldım. Ördəyi həyətimizdəki quş damına saldım. Səhər erkən oyanmışdım. Baxdım ki, ördək həyətdə qarın içərisindədir. Onu asanlıqla tutub, quş damına apardım. Bağlı qapını açıb, ördəyi içəri atdım. Səfurə xanıma bildirdim ki, deyəsən, quş damının uçuq yeri var, ördək həyətdə idi. Səfurə xanım dedi:

- Damın uçuq yeri yoxdur. Yəqin gecə o biri tayı uçub gəlib.

Mən güldüm:

Ağdaşın Qumlaq kəndində bir dostuma ünvan vermişdim, o, gəlib Gəncədə bizim evi tapa bilməmişdi.

Səfurə xanım dedi:

- İnanmırsan dur get, bax.

Doğrudan da alıb gətirdiyim ördək quş damında idi, o birisi gecə uçub gələn ördək idi.

Gündüz bütün yaxın qonşulardan soruşduq. O biri ördəyə sahib duran olmadı. Hələ də bu, bizim üçün sirdir: ördək Ağdaşdanmı uçub gəlmişdi, yoxsa şəhərimizin başqa bir yerindənmi? Yəqin ki, ördəyi bizim həyətə məhəbbət çəkib gətirmişdi.

Mən bu yazıda qəlbimi tez-tez kövrəldən bir hadisəni də xatırlamaq istəyirəm. İnstitutu təzəcə

bitirmişdim. Daşkəsən rayon qəzetinin redaktoru idim. Qəzetin məsul katibi də bir gənc qarabağlı jurnalist oğlan idi. İkimiz bir otaqda qalırdıq. Bu oğlan bir qayda olaraq, hər səhər saat 6-da bir anlığa oyanar, özünəməxsus bir avazla: «Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz» deyə oxuyar, sonra da dərhal yuxuya gedərdi. Mənimsə yuxum dağılar, ərşə çəkilərdi. Bir gün oğlana dedim:

- Qardaş, məni yatmağa qoymursan, ya sənə başqa ev tapım, köç, ya adətini tərgi.

Oğlan dedi:

- Müəllim, bu mahnının kədərli bir tarixçəsi var. Atamla-anam bir-birlərini sonsuz məhəbbətlə sevirdi. Anam qəflətən vəfat etdi. Üç qardaş, bir bacı anasız qaldıq. Atam aramıza girib yatardı. İşdən evə tez qayıdardı. Atamız hər səhər saat 6-da Üzeyir bəyin məşhur «Sənsiz» romansını qəmli bir səslə oxuyardı. Atam anamın həsrətinə dözməyib tez öldü. Həmin mahnı biz övladlara yadigar qaldı.

Düzdü, o vaxtlar bu sözlər mənə indiki qədər təsir etməmişdi. Düz qırx ildən sonra Üzeyir bəyin bu məşhur romansı mənim üçün təzələndi. Səfurə xanımın ölümündən sonra hər səhər saat 6-da oyanıb «Sənsiz»i oxuyuram, lakin kədərim uşaqlarıma sirayət etməsin deyə səssiz, içimdə oxuyuram. Daha doğrusu, oxumuram, qəzəldəki kədər içimdə təzə şırım açıb, qəm seli həmin arxla axır.

Yaxın dostlarımdan biri qəribə bir söhbət etdi. Dedi ki, kəndimiz bir malakan kəndi ilə qonşu idi. Malakanlar azəri türkcəsini gözəl duyurdular. Biz uşaqlar bağ qoruqçusu olan qoca bir malakana sataşardıq. Ağır sözlər deyərdik, qarğayardıq,

«qohumun ölsün, özün öl» və başqa sözlər deyərdik. O, bundan pərt olmazdı. Elə ki, «arvadın ölsün» - deyərdik, o, bizi döyməmiş buraxmazdı. Deyərdi: - Gör, ha. Qarımı öldürmək, balalarımı pis günə qoymaq istəyirlər. Belə yaman günə dözmək olar?

Dünən adi görünən bir bayatı da bu gün məni kövrəldir:

***Yaşıldı başın, ördək,***
***Qaradı qaşın, ördək,***
***Həmişə cüt gəzərdin,***
***Hanı yoldaşın, ördək?***

Türk professoru Mühsinə Yavuz çapa hazırladığı bir kitabın «Bakı izləmələri» bölməsində ailəmiz haqqında yazır ki, akademiyanın kitabxanasını gəzərkən, günlərlə «Azərbaycan xalq əfsanələri» kitabını aradığım, Azərbaycan xalq bilicisi Sədnik Paşayevlə qarşılaşmağım mənim üçün ayrı bir sevinc qaynağı oldu. Son dərəcə dostcanlı, xoşsöhbət Sədnik bəy məni Gəncəyə dəvət etdi və bildirdi ki, hər zaman «dağ olub arxamda duran», heç bir zaman «önümü kəsməyən» həyat yoldaşımla tanış ol, söhbət et, çox şey duyarsan.[1] Professorun kitabında qeyd olunduğu kimi, Səfurə xanım doğrudan da həyatı boyu dağ olub arxamda dayanmış, heç bir zaman dağ olub önümü kəsməmişdir.

Bir gün işdən evə dönərkən baxdım ki, Səfurə xanım kitabxananın qapısını bağlayıb, pəncərənin də şüşəsini çıxarıb.

Səbəbini soruşduqda o, dedi:

---

[1] İlaxır çərşənbə, Kızılay – Ankara, 1992, səh. 67.

Kitablarının üstündə göyərçinlər yuva qurub. Narahat adamsan, göyərçin bala çıxarıb, balalarını uçurana qədər kitabxananı açmağa qoymaram.

Bu gün göyərçinin bir cüt balası kitabların üstündə qoşa dayanmışdı. Səfurə xanım dedi:

- Qoşa dayanmış bala göyərçinlərin şəklini çəkdir.

Mən buna macal tapmadım. Göyərçinlər uçub getdilər.

Hər səhər mən evdən çıxanda Səfurə xanım qənşərimə su səpər və darvazadan bayıra məndən əvvəl çıxar, geri dönər və «uğuruna mən çıxdım» - deyərdi. Evimizdə yuva qurmuş göyərçinlər son günlər bizim qabağımızca darvazaya qədər gedər, biz qapıya çatanda uçardılar. Səfurə xanım dünyasını dəyişdikdən sonra göyərçinin biri görünməz oldu. Qaynım Novruz ikinci göyərçini Səfurənin başdaşının üstündə görmüşdü. Bir qədər sonra həmin göyərçinlər nə həyətimizə, nə də məzarın üstə gəlmədilər, perikib harasa uçdular.

Oxucuların mühakiməsinə təqdim olunan bu topluda şairənin arxivindən tapılmış bəzi şeirləri, habelə ona hörmət və ehtiram duyğusundan yaranmış müxtəlif janrlı yazılar dərc olunmuşdur.

Səfurə xanım hələ öz sağlığında onu tanıyanların əzizinə və sevimlisinə çevrilmişdi. Onun vaxtsız ölümü təkcə məni və övladlarını deyil, çoxlarını sarsıtdı. Az vaxt içərisində bu unudulmaz şairə – anaya neçə-neçə şeir həsr edildi. Bu şeirlərin bir qismi S.Pirsultanlının «Dünya, səndə nəyim qaldı?» adlı kitabında (1994) çap olunmuşdur. Həmin şeirləri mənim qələm dostlarım Qərib Mehdi, Abbasəli – Sarovlu – Atabəy, Sahib Axundlu, Firudin Şimşək, Heydər Qərvəndli, Lətif Zərgər, Musa

Allahverdiyev, Cəmil Əkbər, Səbutay Sədnikoğlu, Mətanət Kərimli, Levli Cəfər, Qarslı Murad Yıldız Qaraxanlı və başqaları yazmışlar. Ona həsr olunmuş şeirlərin, xatirələrin çoxluğunu nəzərə alaraq, üçüncü kitabın çapına ehtiyac duyduq. Bu kitaba Səfurə Pirsultanlının öz şeirləri, mənim, Rəfiqə Əliyevanın, müğənni, əməkdar artist Şahnaz xanım Haşımovanın, ədəbiyyatşünas Afaq Yusiflinin, fəlsəfə müəllimi Məmməd Məmmədovun, professor Abbas Səmədovun, fəlsəfə elmləri namizədi Azər Əyyubovun maraqlı qeydləri, şairlərdən Ələsgər Əlioğlunun, Aləmzər Əlizadənin xatirəsi, Məmməd Alimin, Mayıs Gəncəlinin, Allahverdi Qəmkeşin, Həsən Göyçəlinin, Məmməd Qaşqaçaylının, Cavan Teymurun, Ağəli Əliyevin, Mikayıl Rəhimlinin, İsrafil Zavallının, Pirverdi Dağlaroğlunun, İmam Cəmillinin, Zəhra Mirhəsənlinin, Fatma Abbasovanın, Xalıqverdi Həmidoğlunun, Lətif Zərgərin, Qəmər Ziyad qızının, Cümşüd Alidin, Nizami Sədanın, Abbas Bağırovun, Levli Cəfərin, Cəmil Həsənovun, Firudin Şimşəyin, İman İrani – İntizarın, Sabutay Sədnikoğlunun şairəyə həsr etdikləri şeirlər daxil edilmişdir.

Gələcəkdə Səfurə Pirsultanlı haqqında hələ çox deyiləcək, çox yazılacaq. Ölümündən keçən az vaxt ərzində özünün iki şeirlər kitabı çapdan çıxmış, qəzetlərdə həmin kitablar haqqında rəylər dərc olunmuş, respublika radiosunda, eləcə də televiziyanın «Kitab köşkü»ndə, «Karvan» verilişində xoş sözlər deyilmişdir. Hazırda bəstəkarlarımız onun sözlərinə mahnı bəstələyir.

Bütün bunlar hamısı bizim üçün təsəllidir. Təki Səfurə xanımın adı unudulmasın, həmişə gözümüzdə, könlümüzdə yaşasın.

*(«Şeirim, sözüm qalar» Bakı, 1995.)*

*Sədnik Paşa Pirsultanlı,*
*professor*

## ANALIQ ZİRVƏSİ, SƏNƏT VURĞUNU

İnsan ömrü coşğun çay kimi kükrəyir, zirvələrə qanad çalır, yaşamaq, yaratmaq eşqiylə yüksəlir. Mənəvi zənginliyə, geniş dünyagörüşünə, dərin təfəkkürə və bilik dairəsinə, zəngin nitq mədəniyyətinə və bədii-estetik zövqə sahib olan insanın qəlbi həmişə Vətənə və xalqa məhəbbətlə dolu olur. Onun arzusu, amalı, istəyi və məqsədi Vətənin azadlığı, xalqın xoşbəxtliyidir. Haqqında söhbət açmaq istədiyimiz səmimi, mehriban, təvazökar İNSAN analıq zirvəsinə yüksələn, sənət vurğunu Səfurə xanım Pirsultanlıdır. 1966-cı ilin Novruz bayramında müəllim yoldaşım Sədnik Paşayev bizi qonaq çağırmışdı. Onun həyat yoldaşı Səfurə xanım bizi yüksək qonaqpərvərliklə qarşıladı. Zahiri görkəmi və daxili aləmi ilə hamıya xoş təsir bağışlayan qayğıkeş, nurani Səfurə xanım həssaslığı, etik və estetik davranışı ilə mənim qəlbimdə silinməz izlər buraxmışdı. Mən həmişə onun ləziz yeməklərlə zəngin süfrəsinin qonağı olmuşam. Ona doğma bacım Qaratel kimi hörmət etmiş, xatirəsini əziz saxlamışam.

Vətənin cənnət güşələrini məhəbbətlə gəzib, onun təbii gözəlliklərindən estetik zövq alan Səfurə xanım mahir qələmini süngü kimi işlətmiş, xalq universiteti bitirmiş, xalqın mənəvi sərvətindən bəhrələnmişdir.

Xalqın həyat və peşəsi, müdriklik və bilicilik bulağı olan folklor, dünya ədəbiyyatı və

mədəniyyətinə Xaqani, Məhsəti, Nizami, Füzuli kimi dahi söz ustadları bəxş etmiş milli ədəbiyyatımızın şanlı tarixi şairə Səfurə xanım üçün yaradıcılıq mənbəyi, ilham çırağı olmuşdur. Qayğıkeş və tələbkar ana, əməksevər və humanist şəxsiyyət kimi yüksək nüfuz qazanan Səfurə xanım onu tanıyanların qəlbində özünə ədəbi abidə qurmuşdur. Bütün fəaliyyətində, davranışı, hərəkətləri, danışığı ilə gözəl təsir bağışlayan Səfurə xanımın yaradıcılıqla məşğul olması haqqında təsəvvürüm yox idi. Ömrünün çiçəkləndiyi bir vaxtda dünyasını dəyişməsinə qətiyyən inanmazdım. Ona görə ki, sağlam, səliqəli, şux, nikbin, gümrah şəxsiyyət, sözün həqiqi mənasında nazəndə xanım idi. İnsana münasibəti, böyüyün və kiçiyin yerini bilməsi, nitq mədəniyyəti, ünsiyyəti ilə hamını valeh edir, dərin hörmət qazanırdı. Təbiətin təbii hökmü ona bütün əxlaqi keyfiyyətləri bəxş etmişdi.

Səfurə xanımın ölüm xəbəri mənəvi aləmimi sarsıtdı, lakin məni inandırmadı. Bəli, sevərək və sevilərək yaşayan insanlar ölmürlər, yaşayırlar, çünki onların ölümü yalandır, ölən bir quru candır. Səfurə Pirsultanlının «Dünya, səndə nəyim qaldı?» adlı şeirlər kitabı Vətənin tər çiçəklərini, şehli bənövşəsini doyunca dərmədiyini, ölümün qılıncına vaxtsız rast gəldiyini, hətta ömür-gün yoldaşı Sədniklə də görüşə bilmədiyini poetik sözün qüdrətilə əsaslandırırdı. Oxucu belə bir qənaətə gəlir ki, Səfurə xanım Pirsultanlının bu dünyada ölməzliyi, müdrikliyi, paklığı, müqəddəsliyi, saflığı, əməksevərliyi, Vətənə və xalqa sonsuz məhəbbəti, ömür çırağını yandıran övladları, nübar nəvələri, qəlbinin sevgili vəziri Sədnik, pünhanda yazıb-yaratdığı zəngin poetik irs, bənzərsiz mənəvi aləmi,

insan qəlbini təlatümə gətirən xatirələri qalmışdır. Bunlar da hamıya qismət olan nemətlər deyil, müdrik şəxsiyyətlərin qazanıb vətəninə və xalqına hədiyyə etdiyi ərmağanlardır.

Səfurə xanım Pirsultanlının «Dünya, səndə nəyim qaldı?» poetik toplusunu, könül nəğmələrini böyük məhəbbətlə təkrar-təkrar oxuyur, mənəvi zövq alıram.

Görkəmli ədəbiyyatşünas – yazıçı, ictimai xadim Əzizə xanım Cəfərzadəyə qəlbimdə əbədi kök salmış məhəbbətim bir daha tüğyan etdi. Səbəbi Səfurə xanımın xatirəsi qarşısında sonsuz ehtiram göstərməsi, onun ürək çırpıntılarının poetik ifadəsi olan nəğmələrini düzəlişsiz, olduğu kimi, orijinal çapa hazırlamasıdır. Azərbaycan qadınlarından ibarət aşıq və şairlərimizin əsərlərini böyük məhəbbətlə toplayıb oxucuların mütaliəsinə verən Əzizə xanımın kitaba yazdığı qısa, lakin çox təsirli və dərin mənalı ön sözü hikmət tövsiyyəsidir. Səfurə xanıma ümumxalq məhəbbətinin canlı ifadəsidir.

Doğma Vətənini və xalqını alovu sönmək bilməyən məhəbbətlə sevən Səfurə Pirsultanlının poeziyasında nurani ananın hikmətli kəlamı, fikrən, xəyalən, ruhən şeir-sənət aləmi ilə yaşayan istedadlı, şairin zəkası oxucunu ovsunlayır, valeh edir. Pirsultanlının yaradıcılıq istedadı ilə yaradıcılığındakı xəlqilik vəhdəd təşkil edir. Vətənin insan qəlbini talatümə gətirən təbii mənzərəsini canlı və inandırıcı cilalayır. Şairin ürək çırpıntıları, hiss-həyəcanları ölməz poeziyasında öz coşğun bədii ifadəsini tapır. Poetik misradakı dərin məna dolğunluğu oxucunu düşündürür, ahəngdarlıq, axıcılıq, hərarət və təravət ona bədii-estetik zövq verir, yüksək əxlaqi keyfiyyətlər aşılayır.

Alovlu ürəyi insanlara sonsuz məhəbbət hissi ilə dolu olan Səfurə xanım yaradıcılıq qüvvələrinin çiçəkləndiyi bir dövrdə dünyasını dəyişməsi böyük təəssüf hissi doğurur. Yazılmamış, yarımçıq qalmış könül rübabının nəğmələri oxucunu kədərləndirir, qəm karvanını qüvvətləndirir, bahar çiçəklərini xəzana döndərir, ömrün çırağını söndürür, poeziya tablosunu matəm tablosuna çevirir.

Gəncliyi mübariz, cəsarətli, qətiyyətli, rəşadətli olmağa, qəhrəmanlıq və qələbə əzmiylə yaşamağa çağıran şairənin poeziyası öz dərin kökləri ilə milli ədəbiyyatımıza bağlanmışdır. İnsanpərvərliyi, əməksevərliyi və səmimiliyi ilə oxucuların hörmətini qazanan, onları heyran edən şairin əsərləri gözəl təsir bağışlayır, onun sadə və təvazökar şəxsiyyət olduğunu təsdiqləyir.

Mahir tərbiyəçi ananın, təbii istedadlı şairənin əsərlərində təbiətin tərənnümü, ana və övlad məhəbbəti kimi mövzular xüsusi yer tutur. Belə ki, təbiətin vurğunu olan Səfurə xanımın poeziyasında Vətən məhəbbəti ön plana çəkilir, ana və övladın tərənnümü Vətən sevgisi ilə vəhdətdə qələmə alınır. Şairin rəngarəng, zəngin poeziyası gənc nəslin mənəvi aləminə işıq salan qüdrətli tərbiyə vasitəsidir. Buna görə də oxucular Səfurə xanımı «ilham verən nazənin», elçi-folklorçu Sədnik Paşa Pirsultanlının topladığı folklor nümunələrini «mirvari tək düzüb, nizama salan fədai», «qalın kitabları makinada yazan cəfakeş», «mütaliədən zövq alan kamil insan», «yüksək əqidəli müdrik şəxsiyyət» adlandırırlar. Bu da sənətkara ümumxalq məhəbbətinin sonsuz ifadəsi kimi qiymətləndirilməlidir.

Səfurə xanım Pirsultanlının «Dünya, səndə nəyim qaldı?» kitabı müqəddəs yadigardı, əbədi abidədi, oxucular və onu tanıyanlar üçün həmişəyaşar şairəyə xatirədir. Şairənin poetik tablosunda gəraylıları, qoşmaları, bayatıları, ağıları, rübailəri, düzgüləri, müxtəlif şeirləri, «Sənəkuçan» və «Daşağıl» mənzum hekayələr toplanmışdır. Səfurə xanıma, dünyasını dəyişdikdən sonra həsr olunmuş iyirmi şeirin kitabda verilməsi yaxşı təsir bağışlayır. Ona görə ki, həmin poetik sənət nümunələri Səfurə xanımın şəxsiyyətini, mənəvi zənginliyini, yüksək əxlaqi keyfiyyətlərini, şərəfli əməyini, mahir tərbiyəçi ana, təbii istedadlı sənətkar olduğunu inandırıcı və real şəkildə səciyyələndirir. Maraqlı haldır ki, Qərib Mehti, Abbasəli Sarovlu-Atabəy, Sahib Axundlu, Firudin Şimşək, Heydər Qərvəndli, Musa Allahverdiyev kimi ədəbiyyat və sənət aləmində tanınan şairlər Səfurə xanım Pirsultanlıya olan dərin məhəbbətlərini poetik əsərlər vasitəsilə ümumiləşdirirlər.

Türkiyənin Qars şəhərindən şair Murad Yıldız Qaraxanlının göndərdiyi şeir Səfurə xanımın matəm tablosudur.

***Dünyadan beymuraz çəkdi əlini,***
***Vaxtsız köçdü canqardaşı Sədnikin…***
***Cəbri-zülm oldu, firqəti-həsrət,***
***Bahara dönmədi qışı Sədnikin.***

Şeirdə Sədnik Paşa dünyasına çərxi-fələyin vurduğu çarəsiz dağın ağırlığı çox təsirli verilir. Əlbəttə, folklorşünas alim-şair Sədnik Paşa Pirsultanlının Səfurə xanımın vəfatından sonra keçirdiyi üzüntüləri xatırlamaq çox çətindir. Lakin

təskinlik tapmaq, səbr etmək üçün Sədnik Paşanın Səfurə xanım Pirsultanlıya tikdirdiyi romantik günbəz, əsən küləyin, yağan yağışın illər boyu poza bilməyəcəyi əfsanəvi başdaşı, çəkdirdiyi «Ana bulağı», milyonların mütaliəsinə verdiyi «Dünya, səndə nəyim qaldı?» adlı könül dəftəri, poetik ərmağan toplusu tam əsas verir ki, ömür gün yoldaşı bütün imkanlarından səmərəli istifadə etmiş, mənəvi vicdan borcunu ödəmişdir.

Analıq zirvəsini tutmuş, sənətin vurğunu olmuş Səfurə xanım Pisultanlının «Şehli çiçəklər» adlandırdığı nəğmələr kitabına əsaslı rəy yazmağı, kitabdakı nadir sənət nümunələrini, poetik nümunələri təsvir etməyi qarşıma məqsəd qoymamışam. Mənim yeganə məqsədim Səfurə xanıma sonsuz məhəbbətimi, onun zəngin mənəviyyatlı müdrik şəxsiyyət olduğunu, əsərlərində Vətən, Ana və Övlad mövzusunu sənətkarlıqla cilaladığını, sözün dəqiq mənasında şəhid ana, şəhid şairə kimi fəaliyyət göstərdiyini oxuculara bildirməkdir.

Aşıq Şəmşirin «əqli-kamalda, hünərdə, simada, hüsni-camalda göydən enmiş mələk», «sənəmlər içində padşah», «pak ürək» adlandırdığı Səfurə xanımın xalqımızın inandığı, ziyarət etdiyi müqəddəs Pirsultan dağının adını təxəllüs götürdüyü və özünün haqlı olaraq həmin müqəddəs ananın övladı saymağı böyük xoşbəxtlikdir. Prof. Sədnik Paşayevin Pirsultan haqqındakı axtarışları, mülahizələri inandırıcıdır, qənaətləri ağlabatandır. Görkəmli söz ustası Pirsultan Abdalın soy adı haqqındakı rəvayət bu müqəddəs ocaqdan yaradıcı şəxsiyyətlərin çıxmasını əsaslandırır. Deməli, Səfurə xanım da bu nəsil – soyun övladıdır, onun bədii

yaradıcılığı təsadüfü hal deyil, əsası, mənşəyi olan ənənəvi bir həqiqətdir. Atalar gözəl deyib ki, ot kökü üstə bitər, yovşan bəsləməklə çəmənzar olmaz. Bir həqiqəti də aşkarlamaq mütləq lazımdır. Sədnik Paşa xəstə idi. Şimali Qafqaza sanatoriyaya gedirdi. Mən onunla görüşməyə getdim və yola saldıq. Həmin ərəfədə Səfurə xanım dedi ki, Sədnikin kitabxanası çox pis gündədir, nə qədər səliqə-sahman yaradıramsa, yenə də öhdəsindən gələ bilmirəm. Mən S.Paşayevə dedim ki, bu səliqə və gözəllik mücəssiməsindən öyrənmək, tövsiyyəsinə əməl etmək lazımdır. Biz gülüşdük. Onu da deyim ki, Səfurə xanım kitabxananı mütəxəssis biblioqraf, peşəkar kitabxanaçı kimi düzəltmişdi. Klassiklərin əsərlərini, monoqrafiyaları, dərslikləri, metodik vəsaitləri, folklor materiallarını, arxiv sənədlərini, xüsusilə aşıq ədəbiyyatını, poetik (şeir) kitabları, siyasi ədəbiyyatı, ədəbiyyatşünaslığı, dilçiliyə, tarixşünaslığa aid materialları yüksək səliqə ilə ayrı-ayrıca yığmışdı.

Əlbəttə, ədəbi prosesi mükəmməl bilən insan kitabxananı mövcud prinsip əsasında qaydaya sala bilər. Səfurə xanım geniş dünyagörüşlü, hazırlıqlı, zəngin hafizəli, xeyirxah, tələbkar və çox qayğıkeş bir müdrik şəxsiyyət idi. Bütün bu keyfiyyətlər onun poeziyasında ətraflı, bədii ifadəsini tapmışdır. Məhz buna görə də Səfurə xanım Pirsultanlının əsərlərini cəsarətlə təlim-tərbiyə məktəbi adlandırmağı zəruri bilirəm.

Allah sənə rəhmət eləsin, Səfurə xanım. Qəbrin nurla dolsun, məzarın qu quşunun tükü kimi yumşaq olsun.

***Abbas Səmədov,***

*professor*

## HƏMİŞƏYAŞAR POEZİYA

Dünya ədəbiyyatına Xaqani, Nizami, Nəsimi, Füzuli, Natəvan, Sabir, Cavid kimi sənət korifeyləri vermiş bir ölkədə – Azərbaycanda ələ qələm alıb şeir yazmaq çox zor işdir. Lakin dünyanın cənnət guşəsi olan Azərbaycanda yazmamaq da mümkün deyil. Gözəl təbiət gözəl təbiətli insanlar yetişdirir. Bu insanlar onun dağları kimi uca, qüdrətli, qürürlu, təbiəti kimi saf, büllur, kindən, riyadan uzaqdırlar. Ona görə də hissiyatlıdırlar, coşğundurlar, ilhamlıdırlar. Yazmaya bilməzlər.

Səfurə Pirsultanlı da bu torpağın saf təbiətli yetirməsi olan istedadlı şairədir, nasirdir. Torpağının, el-obasının, xalqının vurğunu, böyük vətəndaşdır. Səfurə Pirsultanlı Azərbaycan xalqının qadınlıq rəmzlərini - gözəlliyi, saflığı, abır-həyanı, qeyrəti, namusu, sədaqəti, vicdanı özündə birləşdirən Ana şairədir. O, Vətəninin vurğunudur. Onu qarış-qarış gəzmişdir. Onun hər daşına, qayasına, bulağına, çayına, gülünə, çiçəyinə bələddir. Kitabda toplanan şeirlər sadə, anlaşıqlı bir dillə, Vətənə ana məhəbbətini ifadə edir. Səfurə xanım qartala müraciətlə yazır:

***Yerin zirvələrdi, zirvədə dayan,***
***Dağlarda keşik çək, Vətənə, qartal.***
***(Qartal)***

Bu şairənin xalqın qartal övladlarına müraciəti kimi qəbul olunmalıdır. Axı bizi Şuşa həsrətimiz rahat buraxa bilməz.

***«Sənsiz məzarım da qor olur, Şuşa»***

Bu həsrət «Gəlmişəm» şeirində yaşayır.

***«Səfurə, Dərbəndin qoynunu dolan,***
***Mən anamın ağuşuna gəlmişəm».***

Çox təəssüf ki, çoxlarımız bu ana ağuşundan məhrumuq, onun həsrətini çəkirik.

Şairə Azərbaycanın təbiətini vurğunluqla tərənnüm edir. Onun «Çaylar», «Külək», «Səhər-səhər», «Xəzər», «Duman», «Yaşıldı, yaşıl» şeirlərində Azərbaycan təbiəti ilhamla tərənnüm olunur. Bir yaz günündə «ərikdən, alçadan ağ yağış yağır» yazan şairə baharı belə təsvir edir:

***Səfurə, yazımız belə yazlanar,***
***Bülbül ötər, qızıl güllər nazlanar.***
***Gül içində gəncliyimiz gizlənər,***
***Gülü gözdən qoyma, dər səhər-səhər.***
***(«Səhər-səhər»)***

Şairə hər təbiət şeirində bir poetik lövhə yaradır. Bu lövhələrdə Səttar Bəhlulzadə fırçası ilə Səfurə xanımın təsvirlərinin qovuşaraq əsrarəngiz gözəllik yaratdığını görürük:

***Yuxu tutub, yarı yolda qalıbdı,***
***Səhərə, dağlara çatmayıb duman.***
***(«Duman»)***

Xalq ədəbiyyatının qaynaqlarından bəhrələnən şairə «Görünməz», «Dağları», «Ağ buludlar», «Xəzər», «Yaşıldı, yaşıl», «Külək» şeirlərində elə lövhələr yaratmışdır ki, onlarda Göy gölü, Kəpəzi, Xoşbulağı və bütünlüklə Azərbaycanı görürük.

Şairə Səfurə xanım Pirsultanlının şeirlərində qəribə bir realizim, səmimiyyət oxucunu özünə cəlb edir. Bu onun «Laylası mənəm», «Ceyran nədir ki», «Qızlar» şeirlərində daha qabarıq özünü göstərir. Ana altı övladının laylasıdır. Ona görə də ərklə xəbərdarlıq edir.

***Bilirəm gəncliyin o dağlardadı,***
***Məhəbbətin məndə, uşaqlardadı.***
***Səfurə bilir ki, qəlbin hardadı,***
***Sərvan ürəyindir, anası mənəm.***

«Qızlar» şeirində şairə qızlara  üz tutaraq deyir:

***Övladı laylasız böyütmən, qızlar.***

Çünki laylalar uşaqlarımızı milli hissdə böyüdür, laylalar nəğmələr, mahnılar yaradır. Vətən məhəbbətinin ilkin carçısı da laylalardır. Qızlarımızın gözəlliyi də onların milliliyindədir. Səfurə xanım qızlarımızı belə tərənnüm edir:

***Bir baxışı yüz ceyrana əvəzdi,***
***Qızların qəmzəsi canımı üzdü.***
***Səfurə, qız ki  var, hər fəsil yazdı,***
***Qızların yanında ceyran nədir ki?***

*(Ceyran nədir ki)*

Bu misralar Aşıq Ələsgərin, Dədə Şəmşirin poeziyasının layiqli davamıdır. Şairənin bu tipli şeirləri göstərir ki, o, aşıq ədəbiyyatına bələd olmuş, onu ürəkdən sevmişdir. «Bu sevgi qandı» dastan-şeiri dediklərimizi təsdiq edir.

Səfurə Pirsultanlı özünəməxsus yazı üslubu olan, mövzu rəngarəngliyi ilə fərqlənən, cəmiyyətdə baş verən hadisələrə, proseslərə öz baxışı olan nasirdir. Oxucularımıza təqdim olunan bu kitabda Səfurə Pirsultanlının bir povesti və beş hekayəsi cəmlənmişdir.

«Süleyman dayı» povestinin mövzusu yaxın keçmişimizdən alınmışdır. Əsərin qəhrəmanı Sovet hökumətinin qurulmasında həyat yoldaşı Qızxanımla birlikdə yaxından iştirak etmişdir. Müharibənin də ağrı-acısını görmüşdür. Əsərin qəhrəmanı Süleyman dayı bütün dövrlərdə, bütün vəziyyətlərdə haqqın, ədalətin tərəfində durur. Kollektivləşmə dövründə Süleyman dayı bir kənd soveti sədri kimi öz həmkəndlilərini müdafiə edirdi. Süleyman dayı heç kimin şəxsiyyətinə toxunmur, Sovet quruluşu ilə barışmayıb mübarizə aparanların da «troyka» tərəfindən mühakimə olunmasına yol vermir. Onların əhv olunması üçün çalışır və hətta buna bəzən nail olur. Onun həyat yoldaşı Qızxanım da xaraktercə özünə bənzəyir. Ədalətsizliyə qarşı mübarizə aparır. Süleyman dayı ləyaqətli övladlar böyüdür. Onun övladları da ümumi vətən adlanan məkanda öz vətəndaşlıq borclarını ləyaqətlə yerinə yetirirlər. Lakin bütün bunlara baxmayaraq Süleyman dayı və onun ailəsi xoşbəxt deyil. Onlar hər addımda sosializim adlanan quruluşun ziddiyyətləri ilə

üzləşməli olurlar. Müəllif bu ziddiyyətlərin mahiyyətini belə açıqlayır: «Dəli Süleymanın gözünün düşməni üzdə düz, ürəkdə əyrilər, əliuzunluq eləyənlər, gözüdağınıqlar idi. Dəli Süleymana görə yaramazlıqların kökü nəfs idi. Hamısı nəfsə bağlı idi, hamısı nəfsdən qalxırdı, nəfsdən pöhrələnirdi. Açıq deyilməyən həqiqətdir ki, acların qurduğu hökumətdə adamların nəfsi heç vaxt doymayacaq. Ona görə də Süleyman dayının bir nəfər də olsun ürək dostu yoxdur. O, mehrini Səkil Kürənə salır. Vəfalı, etibarlı Səkil Kürən. Heç kimə ürək edib deyə bilmədiyi sözləri Səkil Kürənin qulaqlarına pıçıltı ilə demək olar. Lakin Səkil Kürəni də Süleyman dayının əlindən alırlar. Səkil Kürəni müharibəyə aparırlar. Ayrılıq səhnəsi daha kövrəkdir. Müəllif Səkil Kürənlə Süleyman dayının vidalaşmasını dərin psixoloji ovqatla, real cizgilərlə vermişdir. Süleyman dayının təsəllisi ondadır ki, Sankt-Peterburqda bir at heykəli var. Yazıçı inandırmağa çalışır ki, həmin heykəl Səkil Kürənindir».

«Əbdülkərimin hekayələri» hər biri yeddi müstəqil hekayədən ibarət olsa da vahid bir qayədə birləşir. Bu öz ağlı, bacarığı, igidliyi ilə fərqlənən bir Azərbaycan türkünün çətin, keşməkeşli həyatını təsvir edir. Əbdülkərimə görə ədaləti qorumaq, elə dini qorumaq deməkdir.

«Namusun sərhəddi» hekayətində elin adətini bilməyən gəlinə Əbdülkərim qəribə ibrət dərsi verir. Gəlinin qıçına bir güllə atır və hərəkətini belə izah edir: - Geyim insanın abrı, həyası, namusudur, xüsusilə qadının. Mən Qanlıoğlunun gəlininə namusun sərhədini, donun harada duracağını göstərmişəm.

«Şamildən sonra Şamil» hekayəti də çox ibrətamiz bir məsələyə toxunur. Azərbaycan əhalisini itaətkar qula çevirmək üçün onun namuslu, qeyrətli kişilərini məhv etmək istəyən Sovet hökuməti yerli satqınlardan məharətlə istifadə edirdi. Əbdülkərim də belə satqınlığın qurbanı olur.

- Gör ha, məsələ nə yerə çatıb. Yoldaş Salahov, o rusa tərcümə elə ki, Əbdülkərim oğlunun adını Şamil qoyub. Dağlı Şamil də neçə illər ruslara qarşı vuruşub. Guya bunun oğlu da böyüyüb yeni bir Şeyx Şamil olacaq. Gələcəkdə ruslarla vuruşub Azərbaycanı əsarətdən qurtaracaq.

Yazıçının uzaqgörənliyini təsdiq edən bu sözlər artıq danılmaz reallıqdır. Bu duyum Vətənin azadlığı həsrətində olan bir yazıçıda ola bilərdi. Əbdülkərimin qədrini bilən cəsarətli adamlar da olmuşdur. «Troykanın» yanında Alıbaba adlı yaşlı bir kişi vardı. O, qınından çıxmayan adamları ayıltmaq istədi:

-Ay adamlar, Əbdülkərimi mən də yaxşı tanıyıram. Ağsaqqalımız yoxdur, barı qoy igidlərimiz olsun. Bir kəndə gecə oğru gələndə bir-birinə deyir: «Ə, filan ağsaqqaldan ayıbdır, filan igidə görə yaxşı deyil. Birisindən utanırlar, o birisindən qorxurlar». Çox təəssüf ki, Alıbabaların sözü eşidilmədi, Əbdülkərimləri qoruya bilmədik. Ona görə də bu günə qaldıq. İndi xalqımızın əbdülkərimlərə nə qədər ehtiyacı var.

Yazıçının «Ana güvənci», «Xallı bəbir», «Bulud saçlı Gövhər», «Barış» hekayələri də səmimi məhəbbət, işıqlı duyğular aşılayır. Müəllifin qənaətinə görə o oğula güvənc kimi baxırlar ki, o, anasına da, el-obasına da, xalqına da oğul olsun. Belə bir xoşbəxtlik ilk növbədə müəllifin özünə –

Səfurə Pirsultanlıya da nəsib olmuşdur. Təsadüfi deyil ki, bu keyfiyyətləri özündə birləşdirən şairə uzaqgörənliklə yazırdı.

***Bağçayam-bağam mən,***
***Bir bulağam mən.***
***Öz çəmənimlə,***
***Axasıyam mən.***
***Hiss etməz yoxam,***
***Ağ yağış olub,***
***Yağasıyam mən.***
***Bir nəğməmlə,***
***Olasıyam mən.***
***Saf ürəklərdə,***
***Qalasıyam mən.***

Ağ yağış ilin bütün fəsillərində yağır. Xalqımızın vətənpərvər, istedadlı qızı – şairə Səfurə Pirsultanlı özünün bütün nəğmələri ilə türk xalqlarının qəlbində əbədi qalasıdır, əbədi yaşayasıdır.

***Azər Eyyublu,***
***fəlsəfə elmələri namizədi***

## MƏNƏVİYYAT DÜNYASINDA SƏNİN ABİDƏN QALDI

***Səfurə Pirsultanlı. «Dünya, səndə nəyim qaldı?» kitabı haqqında düşüncələr. Bakı, 1994***

Bəzi peşə sahibləri haqqında həqiqət ancaq vəfatından sonra məlum olur. O da həmişə yox. Belə adamların fəaliyyəti, necə deyərlər «kadr

arxasında qalır». Üzdə olan, görünən, məşhurlaşmış professor Sədnik Paşa Pirsultanlını xeyli vaxdır tanıyıram. Bu şəxs xalq mənəviyyatının səpələnmiş qızıl tozu olan folklor nümunələrini toplayır və bir-birinin dalınca çox qiymətli kitablar çap etdirir. Adama elə gəlirdi ki, bu tədqiqatçının bir «gizli sexi» var. O, geoloq kimi çöl işlərini görür. Kimsə «sexdə» materialı yerbəyer edir.

İndi məlum olur ki, bu fikir həqiqətdən o qədər də uzaq deyilmiş. Demə, Sədnik müəllim ölkələr gəzəndə çox böyük dağ kimi arxası var imiş. Ev dərdindən, uşaq qayğısından onu azad edən, işinin əhəmiyyətini sözsüz başa düşən və bu işə həvəslə girişməsi üçün hər cür mənəvi şərait yaradan var imiş.

Beləliklə, bacım, mifləşmiş həqiqi ömrün qaldı; öz yarısını tapmış Sədnik Paşa qaldı. Sənin mənəvi dayağın, hər ikinizin folklorlaşmış həyatınızı davam etdirməyə kömək edəcək; o yaratdığın müqəddəs ailən qaldı. İnsanlığa, qadına, anaya ucaldılmış abidən qaldı; torpaqdan, təbiətdən, cəmiyyətin saf duyğularından qidalanmış poetik təfəkkür dünyanız qaldı; səni görən yaradıcı şəxsiyyətlərin verdiyi qiymət qaldı; mütləq bu mənəvi sərvəti və həqiqi həyatı özü üçün örnək götürəsi nəsil qaldı, kövrəkliklə dəyanətin üzvi birləşməsi kimi poetik xatirə qalır!

Bu da bir tale işidir ki, sən qabağa düşdün. Yoxsa bu zərif dastan söylənməzdi, bilinməzdi. «Kadr arxasında» qalan ömrünü başqasına, sonra da yaratdığını başqalarına dinməz-söyləməz həsr eləməyə adət etmiş adam Sədnik kimi bütün hərəkətlərində, ünsiyyətində, itik axtarmağında belə, nəfis kitab çap etdirməkdə, yazdıqlarında bu canlı

folkloru yaya bilməzdiniz. Bununla da xalqımız daha çox şey itirə bilərdi. Tale buna razı olmayıb. Heç sən də razı olmazdın: sevən qəlbin taleyin bu hökmü ilə razılaşardı.

Bu münasibət dövrümüzün həqiqəti kimi, folklorun bir janrı olan dastanların real həyatdan götürülməsinin sübutu kimi, elmi və bədii yaradıcılıqda öz əksini tapsa, hərtərəfli aktuallığı ilə mənəvi dünyamızı zənginləşdirər. Real həyatımızda qədim əfsanələrdən, insanı riqqətə gətirən məhəbbət, dəyanət, fədakarlıq nümunələri yaşayır. Amma, nədənsə daha çox mənfi nümunələr həm zehnimizi, həm də emosiyamızı, daha çox diqqətimizi özünə cəlb edir. Bunun özü də bağışlanmaz ədalətsizlikdir.

Müəllifin kitaba verdiyi adı — «Dünya, səndə nəyim qaldı?» — sual kimi qəbul etsək: təxminən belə bir cavabı düzgün sayıram. Xalqımızın mənəviyyat aləmində ülvi məhəbbətə, sədaqətə, fədakarlığa çağıran, nümunə göstərən bir dünyan qaldı, abidən qaldı. Məhəbbət aləminin başqa dastanları kimi, bu ülviyyətdə, yəqin folklorlaşacaq, əbədiyyət qazanacaqdır. Böyük bir qəlbin yaratdığı ailən qalır! Bü isə Ananı yaşadan canlı abidədir, çünki bu abidədə sənin qəlbin döyünür!

***Məmməd Məmmədov,***
***fəlsəfə müəllimi***
***21.01.95***

**ŞAHİDİ OLDUĞUMUZ ƏFSANƏ**

Səfurə Pirsultanlının «Dünya, səndə nəyim qaldı?» şeirlər kitabını oxuyanda şairənin poetik zövqünə və obrazlarına, dünyanı duymaq və sözü yerində işlətmək bacarığına bələd olduğundan onun «Ağ yağış» adlandırılmış ikinci kitabının əlyazmasında da həmin məqamları axtardım. Yenə də həmin poetik duyum, həmin incə zövq…

Forma və məzmunca müxtəlif olan bu şeirlərdə təkrarlanan, təkrarlandıqca ucuzlaşan qafiyələr yoxdur. Özü də həm birinci, həm ikinci kitabdakı qoşmalarda, gəraylılarda, bayatılarda hisslər, duyğular hökmrandır. Hər birimiz daimi və əbədi gözəlliyi ilə qəlbimizi, ruhumuzu oxşayan təbiətdən zövq alırıq, yaşadığımız dünyanın narahatlıqlarını ağlımızın süzgəcindən keçirərək yaşayırıq. Lakin yalnız şairlər bir anın duyğularını, həsrəti və qəmi, hicranı və sevinci hər birimizin hissləri kimi səsləndirə bilirlər. Səfurə xanımın şeirlərində hökmedilməz, qarşısıalınmaz zamanın, külək buludu qovduğu kimi yox etdiyi, ağ yağış kimi incə, Pirsultan dağı kimi əbədi hisslər qələmə alınmışdır. Bəzən rəssam tablosuna, bəzən həzin, zərif bir nəğməyə, bəzən şirin, məstedici bir laylaya, bəzən təkrarolunmaz bir Ana duasına bənzəyir bu şeirlər…

Səfurə xanımın şeirlərindəki obrazlılıq, zəngin aşıq ədəbiyyatımıza söykənən vəzn və quruluş onun povest və hekayələrinin də xüsusi, maraqlı üslubunu müəyyənləşdirib. Yalnız şeirlə yaradıcılığa başlayan nasirlərin əsərlərində bu cür yığcamlıq, sözçülükdən, qeyri-təbii ifadələrdən, heç bir məna yükü olmayan cümlələrdən uzaqlıq vardır. Səfurə xanımın povest və hekayələrində bütün bunlarla yanaşı bir qadın səliqə-sahmanı duyulur. «Süleyman dayı»

povestində Qızxanımın teatr tamaşalarına hazırlığı və onların keçirilməsini qısa bir parçada yerli-yataqlı təsvir edən nasir elə ifadələrdən istifadə edir, dialoqları o qədər canlı verir ki, heç bir əlavə detalla ağırlaşdırılmamış, uzunçuluqdan uzaq canlı bir hadisənin şahidi oluruq.

Səfurə xanımın povest və hekayələrinin bir xüsusiyyəti də çox maraqlıdır. Bu əsərlərdə Gəncəbasarda işlədilən şivə sözləri, xüsusi isimlər boldur. Yəni bu əsərlər süni şəkildə ədəbi dilə uyğunlaşdırılmamış, nasirin xüsusi maraq doğuran üslubu, şivə sözlərdən, toponim, potonimlərdən istifadə tərzi saxlanmışdır. Müqəddimədə deyildiyi kimi, həqiqətən baş vermiş hadisələrin əsasında qələmə alınan bu əsərlər şair təbiətli bir nasirin qələmilə dolğunlaşmış, reallıqdan əfsanəyə doğru addım atmışdır.

Səfurə xanımın öz həyatı da belədir. Tanıdığımız və tanımadığımız Səfurə xanım öz qələmilə əfsanəyə, bir elin, bir nəslin anasından hər sətrində incə, həssas bir qəlbin çırpıntıları duyulan sənətkar qadına çevrildi.

***Afaq Yusifli,***
***ədəbiyyatşünas***

## QƏLBLƏRDƏ MƏHƏBBƏTİN QALDI

Mən düşünürəm ki, illərin amansızlığı gözə görünməyən dərəcədə sürətlə keçməsidir və insan ömrünün gülşən çağlarını payız yarpaqları kimi saraldıb xəzana çevirir. Ömrünü çox ləyaqətlə

yaşamış, dünyadan vaxtsız köç eləmiş Gəncənin sevimli, nəğməkar qızı, şairə Səfurə xanım Pirsultanlı özünəməxsus poeziya vurğunu olmuş, nəinki Azərbaycan, eləcə də Şərq klassiklərini sevə-sevə oxumuşdur. Səfurə xanım təbiətin füsunkar gözəlliklərini elə gözəl vəsf etmişdir ki, şeirlərini oxuyan hər bir oxucu özünü o aləmdə, o gözəllikdə hiss edə bilsin, buna nail olan şairə nəinki özü yazıb yaratmış, eyni zamanda yaradıcılığına, folklor aləminə pərəstiş etdiyim sevimli alimimiz Sədnik məllimə ruh vermiş və öz sözü ilə desəm, onun ilham pərisi olmuşdur. Səfurə xanım çox qonaqsevər qadın idi, ləziz yeməkləri çox könülləri oxşamışdır. Mən Sədnik müəllimin açmaq istəmədiyi bir sirri qeyd eləmək istəyirəm. Vaxtilə xalqımızın şairə qadını Xan qızı Natavan şeir məclisi təşkil edərdi, bax həmin ənənənin davamçısı mən deyərdim ki, Səfurə xanım olmuşdur. Bu bir həqiqətdi ki, həmin məclislərdə daim iştirak eyləyən şairlər, aşıqlar, ziyalı alimlərimiz bunu təsdiq eləyərlər. Bu gözəl ananın, gözəl şairənin arzularını amansız ölüm yarımçıq qoysa da, onun poeziyası gələcək nəsillərə yadigar qalacaq.

***Dünya əbədidir, insan köçəri,***
***Qaytarmaq olarmı ötən günləri.***
***Yadigar olaraq deyirəm bunu,***
***Çünki ayrılıqdır həyatın sonu.***

Vətənini, xalqını sevən bu zərif xallı, mələk misallı şairə ruhlu bu qadın dost-tanışın məsləhət yeri, söz güvənci idi. Mən dəfələrlə Səfurə xanımla çay masası arxasında oturmuş, onun gözəl şeirlərini dinləmişəm və ürəyimdə düşünmüşəm ki, ilahi, belə

də qələbə olar, bu qadında nə qədər söz hikməti, söz təlatümü var, qəlbi dağ şəlaləsini andırır. Bu ziyalı ailəsinin daş-divarı da şeir toplusudur desəm, səhv etmərəm. Şeirləri sevilə-sevilə oxunan bu şairənin bir amalı vardı – aydın səma, ürəklərdə məhəbbət, çünki özü ləyaqətli ömrünü belə yaşadı – xalqına, ailəsinə, övladlarına məhəbbət.

***Sevgimdən özümə bir qala qurdum,***
***Ömrü bu qalada mən başa vurdum.***
***Dünyanı özümə haram buyurdum,***
***Yaşadım həyatı tək bir şərtlə mən.***

İndi mənə sual versələr ki, Səfurə xanımın şeirlərini nə dərəcədə sevirsən və nə arzu edərdin? Mən belə cavab verərdim ki, kaş keçən günlərin heç olmasa birini qaytarmaq mümkün olaydı və bu gözəl insan sinədəftər şeirlər söyləyəydi, mən xəyala dalaydım, əfsus, xəyala dönən bir istək.

***Xatirələr şirin-şirin,***
***Qəlbimdədir, göynər yerin.***
***Duzlu yaşı gözlərimin,***
***Səndən mənə qalan oldu.***

Alaçıqlarımız Qoşqar dağının ətəyində idi. Şırşırın yanında samavar qoyub oturmuşduq. Səfurə xanım iri daş güzgü ilə güzgülənirdi. Arxaşandan şimşək çaxa-çaxa gəlirdi, Qoşqara çatanda şimşək ətrafa işıq saldı. Mən dedim, Səfurə bacı qaçaq. O, bildirdi ki, yağış Qoşqarın üstündən Yeddiqardaş dağlarına ötdü, olsa-olsa göy buluddan üstümüzə bir-iki damcı salar. Mən dedim:

- Səfurə bacı, mən sənin dəftərinə, sən də mənim dəftərimə  yağış haqqında bir bənd şeir yazaq. O mənim dəftərimə yağış haqqında aşağıdakı şeiri yazdı:

***Başımın üstündə oynama,  bulud,***
***Qumlu bulaq kimi qaynama,  bulud.***
***Çəməndə oturub güzgülənirdim,***
***Gözündən yaş saldın aynama,  bulud.***

Mən qafiyələri tuta bilmədim və ağladım. Dedim ki, sənin yoldaşın şair olduğu üçün səni öyrədib, mənim isə yoldaşım sürücüdür.

Təbiət vurğunu füsunkar qadın! Hələ gəzəsi, yazası, görüləsi işlərin çox idi, arzuların yarımçıq mahnı olub, özünün vəsf etdiyin dağlarda qalsa da, xatirələrin şeirsevər oxucularının qəlbində özünə əbədi yer tapacaq və seviləcək, xalqına, övladlarına məhəbbətin bir kövrək xatirə olaraq qalacaq. Əgər tale sənə yar olsaydı, hələ çox yazıb yaradardın, çox könül oxşayan şeirlərin oxucularına ərmağan olardı. Təəssüf, mənim zərif xallı, nazənin bacım. Əlimdən gələn odur ki, Ulu Tanrımızdan sənə ulu müqəddəslik diləyim və öz sözünlə xatirələrimə son qoyum:

***«Dünya, səndə nəyim qaldı?»***
***Qəlblərdə xatirə – məhəbbətin qaldı.***

***Rəfiqə Əliyeva***
***2.01.95***

## SƏFURƏ PİRSULTANLI DÜNYASI
### *(Monoqrafiya)*

Bu enişli-yoxuşlu, bu yazlı-qışlı dünyamızda quş dili bilən də varmış, daş dili bilən də. Yağış dili bilən də varmış, qamış dili bilən də… Bu enişli-yoxuşlu, bu yazlı-qışlı dünyamızda təbiətin dilini köklü-köməcli bilənlərimiz də az deyilmiş. Beləlstartindən biri də Səfurə Pirsultanlı imiş.

S. Pirsultanlı 29 dekabr 1938-ci ildə Qoşqar çayının sağ sahilindəki Qazaxyolçular kəndində dünyaya göz açmışdır. Bu kənd Kiçik Qafqaz dağlarından sayılan Pirsultanın ətəyində «lövbər salmışdır». Bir yandan dağ havası, bir yandan da oymağın ululuğu bu torpaqda boya-başa çatan Səfurə xanımın qəlbinə hələ yeniyetmə yaşlarından bolluca ilham bəxş etmişdir.

S. Pirsultanlıgilin ailəsi evin dirəyi – Əli ata, evin çırağı Zümrüd ana, üç oğlu və üç qızdan ibarətmiş… Qırxbirinci ilin od-alovu evin dirəyini öz ağuşuna alandan sonra Pirsultanlılar ailəsinin sayı azalır. Ancaq çox keçmir ki, gedənin yeri boş qalmır... Ailədə say yenidən «düzəlir». Ailəyə bu qədəm qoyan ehtiyac imiş… Ehtiyac bu ailənin yaxasını elə tanıyır ki, illər uzunu evin həndəvərindən bir addım da uzaqlaşmır. Dünyanın hər ağrı-əzabına dözən Zümrüd ana altı uşaqla yanaşı ehtiyacın da cövr-cəfasına sinə gərir. Ehtiyac bu ailənin sinəsindən bərk-bərk yapışdıqca, bu ailə də torpağın yaxasından bərk-bərk yapışır. Hələ nazı ilə oynanılmalı olan bu cocuğun özü nazla oynamalı olur. Torpaq nazı ilə…

Tale Səfurə xanımı ilk gənclik çağlarından bu gün hamımızın yaxşı tanıdığımız folklorşünas-alim Sədnik Paşa ilə qovuşdurur. Bünövrəsi məhəbbət, sədaqət və səmimiyyət üzərində qoyulan bu ailə qırx ilə yaxın bir dam altda şad-xürrəm ömür sürür. Şad-xürrəm ömür sürəcəkdi də… Ancaq 1994-cü ilin 30 iyul günü olmasaydı. Həmin gün dağlar qızı Səfurə xanım Gəncəmizin qoynunda əyləşib, böyüyüb-ərsəyə çatdığı çalmalı dağları düşünə-düşünə, nəğməli bulaqları ana-ana bir parç buzlu suyu başına çəkməsəydi. Həyat mənbəyi saydığımız su bu dəfə ölüm mənbəyinə  çevrildi… Beləliklə, bu bir parç su, qəlbi sonsuz arzularla döyünən bir şairə ömrünə nöqtə qoydu…

* * *

S.Pirsultanlı hələ ilk gənclik çağlarından şeirə-sənətə vurğun olmuş, şeirlə-sənətlə nəfəs almışdır. Bu vurğunluq ona doğma təbiətin səxavətindən, Pirsultan dağının əzəmətindən, Qoşqar çayının qüdrətindən keçmişdir… Pirsultan dağının ətəyindən qıvrıla-qıvrıla axan Qoşqar çayı Ana Kürə qovuşur. Ana Kür də Xəzərə… Səfurə xanım da ilhamı illər boyu beləcə qıvrıla-qıvrıla almış, lakin bugünkü poeziya ümmanına qovuşmağa tələsmiş, ağ-ağ vərəqlər üstə göllənmişdir. Sağ olsun Sədnik Paşanı… Gec olsa da, uzun illər ağ-ağ vərəqlər üstə göllənib qalmış bu şeiri-sənəti nəhəng poeziya ümmanına qovuşdurmağa səy göstərmişdir. Beləliklə, onun xeyirxahlığı sayəsində S. Pirsultanlının üç kitabı («Dünya səndə nəyim qaldı?», Bakı, 1994; «Ağ yağış», Bakı, 1995;

«Şeirim, sözüm qalar», Bakı, 1995.) işıq üzü görmüşdür.

S.Pirsultanlının yaradıcılığını nəzərdən keçirərkən heyrətlənməli olursan, ilahi! Orasına-burasına döyə-döyə birtəhər «dağla-bağı» qafiyələndirməyi bacaranların əlindən tərpənmək mümkün olmadığı bir əyyamda, gözəl-gözəl sənət nümunələri sahibinin illər boyu susmağına, əlyazmalarını gizli saxlamağına heyrətlənirsən. Şairənin oxucularla əlamətdar poetik görüşü əsasən o, dünyasını dəyişdikdən sonra baş tutmuşdur…

S. Pirsultanlı yaradıcılığını «saf-çürük» edərkən görürük ki, şairə hər nədən yazırsa-yazsın, bütün mövzuların fövqündə ana təbiət dayanır. Buna görə də onun yaradıcılığını üç yerə ayırmaq məqsədə uyğundur: lirik şeirlər, uşaq şeirləri, nəsr əsərləri.

Səfurə xanımın lirik şeirlərinin bədii dəyərinə toxunmazdan qabaq bu şeirlərdə işlədilən toponimlər üzərində dayanaq. Bəzən döşümüzə döyə-döyə dünyanın o başından danışırıq. Amma doğma Azərbaycanımızın neçə guşəsindən hələ xəbərsizik. Hələ çoxumuz bilmirik ki, yurdumuzda Çobandağı, Qaşqaçay, Comadaş, Əmcəklidağ, Zivlən çayı, Maldaşadolan, Qanlıdağ, Xəlpərəngin meşəsi, Ayrantökülən, Ağqaya və s. vardır. Bulaqlar da saysız-hesabsız: Bayda bulaq, Sinsar bulaq, Əməni bulaq, Gavalı bulaq, Damcılı bulaq, Dilqəm bulaq, Sarı bulaq… Ürəyin istədiyi qədər! Könlündən hansı keçirsə, get, axtar. Tap, dizlərini qatla, başını söykə, doyunca iç!..

S. Pirsultanlının lirik yaradıcılığının özəyini gəraylıları və qoşmaları təşkil edir. Bu gəraylı və qoşmaların hər birində təbiətin bir parçasını görürük.

Ancaq sənətkar fotoqraf olaraq qalmır. Təbiət insan nəfəsi ilə daha da canlanır, daha da rəmzləşir. Bu baxımdan tənqidçi Rəhim Əliyevin fikri çox maraqlıdır: «Poeziyamızın fikri, axtarışları baxımından şairlərimizin təbiət haqda yazdıqları nümunələri nəzərdən keçirərkən görürük ki, şeirimiz ümumən təbiətə müraciətində yeni bir mərhələyə qədəm qoymalıdır».[1]

Bu ənənəvi mövzuda yazıb-yaradan şairənin əsərində də təbiətə müraciət, fikir axtarışları və yenilik ruhu bütün incəlikləri ilə üzə çıxır. Hər an təbiət insan nəfəsi ilə qızınır. Buna görə də təsvir olunan təbiət bizi öz qoynuna alır və cansıxıcı olmur, hər addımda gözəlliklə qarşılaşırıq:

***Çəmənlər naxış-naxışdı,***
***Hər xalısı uçan quşdu.***
***Bu baxış özgə baxışdı,***
***Dilimdə sözlər nazlanır.***
***(«Nazlanır»)***

Hər bir misra axarlıdır. Amma dördüncü misranın üzərində xüsusi dayanmaq istərdik. «Dilimdə sözlər nazlanır» ifadəsi nə qədər yeni, nə qədər təbii səslənir. Yerinə düşərmişsə, sözlər də qəşəng-gözəl bir qız kimi nazlanarmış…

S. Pirsultanlı heç zaman təşbihlərə aludəlik göstərməmiş, daim deyim tərzi ilə qazanan bir sənətkar olmuşdur. Onun yüksək poetik səmimiyyəti sayəsində, hamımızın həyatda gördüklərimiz və görə bilmədiyimiz anlar, hadisələr, məfhumlar çox sərrast şəkildə ifadə olunur. İlk baxışdan adi

---

[1] Rəhim Əliyev, « Poeziyanın təbiiliyi », «Yazıçı». Bakı, 1982.

görünən misraların sətiraltı mənası handan-hana üzə çıxır:

***Dəryadamı batıb gəmin,***
***Hardadı könül həmdəmin?!***
***Gəl, üstümə tökmə qəmin,***
***Dərd sinəmdə bitər, bülbül.***
***(«Bülbül»)***

Bənddəki poetik fikrin gözəlliyinə söz ola bilməz. Burada dərdi ağaca bənzətmək çox uğurlu tapıntıdır. Doğrudan da, ağac torpaqda bitib-boy ata bilər. Lirik qəhrəman ürək sızıltılarına belə bədii don geyindirməklə daha da dərinliklərə baş vurmuşdur. Poeziyanın böyüklüyü də ondadır ki, dərdlə-qəmlə bağlı sözlər belə, insanın qəlbində gələcəyə böyük ümidlər oyadır. Dərd-qəm insan gözündə müqəddəsləşir. Axı insanın təkcə sevinclə qol-boyun ömür-gün sürməsi müşkül məsələdir. Həyat yollarının hansı dayanacağındasa, onu dərd də gözləyir, ələm də…

S. Pirsultanlının gəraylılarındakı poetik çağırış çox ucadan eşidilir. Bu çağırış bizi təbiətin, dağ-dərənin, eniş-yoxuşun, çayın, bulağın, meşənin gözəlliklərini duymağa ruhlandırır:

***Dağlar durdu xəyalımda,***
***Dağlar nurdu xəyalımda.***
***Dünya qurdu xəyalımda,***
***Yaylaqlar yadıma düşdü.***
***(«Yadıma düşdü»)***

Şairənin «Toğanadan gələn gəlin» gəraylısını oxuyarkən, lirik «MƏN»in necə də böyük ürək sahibi

olduğuna heyran qalırıq. Yarını çaşdıran gözəlin mədhi hər ürək sahibinin işi deyilmiş. Belə ürək sahibi olmaq ancaq Səfurə xanım kimi bir nəğməkarın işi imiş, sən demə!.. Misralarda xüsusi bir incəlik nəzərə çarpır:

***Saçların sünbültək sarı,***
***Bəyaz sinən dağlar qarı.***
***Çaşdırdın yanımda yarı,***
***Toğanadan gələn gəlin.***
***(«Toğanadan gələn gəlin»)***

S. Pirsultanlı şəstlə dünya ilə üz-üzə dayanır. Onun qarşısında məğrur dayanmaqla yanaşı öz umu-küsüsünü də gizləmir. «Bir ucu olumlu, bir ucu ölümlü» dünyanı bir az «tərpətmək» istəyir. Onun dünyaya xitabı emosional bir tərzdə qələmə alınmışdır. Şeirin deyim tərzi də oxucu diqqətindən yayınmır:

***Mən ki səndən razıydım,***
***Dünya, xətrimə dəydin.***
***Hər fəsildə yazıydım,***
***Dünya, xətrimə dəydin.***
(***«Dünya, xətrimə dəydin»)***

Bəli, dünya xətrinə dəydi Səfurə xanımın.

Hələ bu işıqlıqda doyunca ömür-gün sürməmiş, qara torpağın altına apardı onu… Yazılmamış neçə-neçə nəğmə torpağa gömüldü. Amma, bu şairə ömrü boyu dünyanın xətrinə dəymədi. Bir qarışqa yuvasını da tapdamadı, bir qəlbə də toxunmadı…

S. Pirsultanlı şeirlərinin qələm-kağızı onun hər an coşğun hisslərlə qaynayıb-daşan ürəyi, bir də

ən sərt qayalardan möhkəm yaddaşı olmuşdur. Bu ürək və bu yaddaşın möcüzələri sayəsində adi sözlərə də belə dərin məna qazandırır:

***Torpaq mənim həqiqətim,***
***Torpaq mənim məhəbbətim,***
***Gül olum, sinəndə bitim,***
***Mənim Pirsultan dağlarım.***
***(«Mənim Pirsultan dağlarım»)***

İnsan mənəvi keyfiyyətlərinin əsl meyarlarından sayılan həqiqət və məhəbbəti torpaqda hiss edib, torpaqda axtaran, torpaqda tapan şairənin Vətən istəyi yuxarıdakı bənddə necə də təbii şəkildə üzə çıxır. Burada bəzək-düzəyə, müxtəlif rənglərə meyl duyulmur. Sənətkar səmimiyyəti, sənətkar deyim tərzi hər cür bəzək-düzəyi, hər cür rəngi kölgədə qoyur. Beləliklə, bu səmimiyyət, bu deyim tərzi oxucu qəlbini asanlıqla ələ alır.

Şairənin şeirlərində torpağa bağlılıq qabarıq bir surətdə özünü göstərir. O, hara, kimə, nəyə üz tutursa-tutsun, torpağı ayaqları altda bir pyedestal kimi təsəvvür edir:

***Getmə quşum, getmə quşum,***
***Qızıldı torpağım, daşım.***
***Vətəndə bahardı qışım,***
***Hara köçürsən, qaranquşum?!***
***(«Qaranquşum»)***

S. Pirsultanlının «Yadıma düşdü», «İnləmə», «Xatırlarsan», «Yadındamı», «Deyərsən», «Yurdum, səndən» və s. gəraylıları istər poetik baxımdan,

istərsə də sənətkarlıq xüsusiyyətləri etibarı ilə diqqəti cəlb edir. Bu gəraylıların hər birində lirik qəhrəmanın öz dünyasını görürük. El ədəbiyyatından qaynaqlanan müəllif mövzuların hər birini öz təzə-tər nəfəsi ilə «ətə-qana» doldurmuşdur. Buna görə də gəraylıların hər biri şairənin öz dünyasının bar-bəhrəsidir. Bu bar-bəhrə də duyğularımıza daim qol-qanad verir.

* * *

S. Pirsultanlı yaradıcılığını diqqətlə izləyərkən belə bir qənaətə gəlirik ki, mayası ilhamla yoğrulmuş qələm əhli üçün «köhnə mövzu» heç zaman problemə çevrilə bilməz. O, «Nərgiz», «Bulaq», «Meşələr», «Çaylar», «Qızlar» və s. bu ilk baxışda «çeynənmiş» mövzularda qələm işlədərkən yenə də öz sözünü deyə bilmişdir. Səfurə xanım hətta eyni bir mövzuya qoşa şeir də həsr etmişdir. Ədəbi tənqiddə isə çox zaman belə faktlara mənfi münasibət bəslənir. S. Pirsultanlının hər iki «Qızlar» şeirini oxuyuruq. Bu şeirlər bizə əkiz uşaqları xatırladır. Həmişə də dünyaya əkiz uşaq gətirən anaları alqışlayırıq. Necə olur ki, dünyamızda əkiz uşaqlar ola bilir, əkiz şeirlər yox! Özü də bir-birindən gözəl şeirlər… S. Pirsultanlının bu «əkizləri» zahiri oxşarlığını saxlasa da, istər məna, istərsə də məzmunca bir-birindən seçilir. «Dünya, səndə nəyim qaldı?» kitabında verilmiş «Qızlar»dan nümunə çəkirik:

***Eşqiniz, sevginiz pünhan röyadı,***
***Hər biri səmada gizlənən aydı.***
***Dünya qəlbinizdə böyük dünyadı,***

***Siz də bu dünyada dünyasız, qızlar.***

İndi isə «Ağ yağış» kitabına daxil edilmiş «Qızlar»dan bir bəndə diqqət yetirək:

***Layla anaların könül səsidi,***
***Övladı laylasız qoymayın, qızlar.***
***Layla anaların gül nəfəsidi,***
***Övladı laylasız qoymayın, qızlar.***

Elə düşünürük ki, əlavə şərhə ehtiyac yoxdur. Şeirlərin hər birində məna çalarları müxtəlifdir. Buna görə də şeirlərin hər ikisini də uğurlu saymalıyıq.

Rəssam hamımızın dəfələrlə gördüyümüz rəngləri müxtəlif həddə bir-birinə qarışdırmaqla yeni bir rəng alır. Bu, tanıdığımız bütün rənglərdən seçilir. İlk dəfə həmin rəssamın fırçasından doğulur bu rəng… Belə ki, bu rəngin tanrısı məhz həmin rəssam sayılır. Bütün bunları deməkdə məqsədimiz odur ki, S. Pirsultanlı da bir rəssam kimi sözlərdən yeni-yeni rəng almağı bacaran sənətkardır. Onun əsərlərində rəng çalarları çox əlvandır. «Çəkəydim» qoşmasının son bəndinə nəzər yetirək:

***Səfurə, laləzar üzə çıxanda,***
***Gözəllər dərədən düzə çıxanda,***
***Ürəyin sevgisi gözə çıxanda,***
***Təbiətin alqışını çəkəydim.***

Buradakı təsvir olduqca dəqiq və yerli-yataqlıdır. Lirik qəhrəmanın arzu-istəyi bütün qabarıqlığı ilə üzə çıxır. Şairənin rənglər palitrasındakı zənginlik oxucu nəzərindən yayınmır.

O, qələmini-fırça, sözünü-rəng əvəzinə işlədə bilir. Beləliklə, şeirlərində yadda qalanına həyacanım, tablolarında isə, bir sənətkar ömrünün dərin izlərini görürük.

S. Pirsultanlı yaradıcılığında misraların arxasından ürəyi sonsuz məhəbbətlə çırpınan təbəssümlü bir qadının baxışlarını görürük. Bu qadın məhəbbəti daim uca tutmağı bacarır, onu yüksək qiymətləndirir. Məhəbbət odunda alışıb yansa da, məğrurluğunu heç zaman əlindən vermir. Onun el-el, oba-oba gəzib-dolanan ömür-gün yoldaşı folklorşünas alim Sədnik Paşaya zarafatyana bir tərzdə yazdığı qoşma fikrimizə daha əsaslı sübutdur:

***Bu gün Sivasdasan, sabah Təbrizdə,***
***Səfurəyəm, dözüm qalmadı bizdə.***
***Əlimi çəkərəm, qalarsan düzdə,***
***Gözləyən yoxdumu vətəndə səni?***

Sənətkarın cismən yaşamağı o ulu tanrıdan asılıdırsa, mənəvi ömür sürməsi onun özündən, öz mənəvi dünyasından asılıdır. Sənətkar öz yaratdığının donoru ola bilirsə, əbədiyyət qapıları onun üzünə taybatay açılır. Bunları kökündən duyub, dərk edən şairə insanları öz mənəvi dünyasının tamaşasına çağırır:

***Hər gələn səhərin öz mənası var,***
***Oyan, belə yatma, dur səhər-səhər.***
***Bağçamızda ötər sona bülbüllər,***
***Hər nəğmə bir inci, dürr səhər-səhər.***
***(«Səhər-səhər»)***

Niyə məhz səhər-səhər!? Müəllif hər bir poetik detalı həmişə də həssaslıqla işlədir. Onun poetik məqamları əksər hallarda özünü doğruldur. Gözəllik aləminə səfərə çıxarkən ən uğurlu dayanacaq səhərdir. Bu dayanacaqda ətrafa göz gəzdirə-gəzdirə gözəllikdən zövq almaq da olar, bu dayanacaqdan gözü yumulu ötüb keçmək də… S.Pirsultanlı gəraylılarında olduğu kimi qoşmalarında da təbiət təsvirlərinə geniş yer verir. Fransız tənqidçisi Bualonun «Poeziya sənəti»[1] kitabını da oxuyuruq: «Qələmə aldığın əhvalatı həmişə incə və qəşəng bir sadəliklə nağıl etməyə çalış. Elə et ki, bəzək-düzəksiz xoşa gəlsin». Bu baxımdan, Səfurə xanımın şeirləri də olduqca incə və qəşəng bir sadəliklə qələmə alınmışdır. Onun ilk baxışda sadə görünən təsvirləri, psixoloji anların cazibəsində ən adi görünən fikirləri bizi düşüncələrə daldırır:

***Ayrılıq üzünə sarılıq salıb,***
***Dərdini deyirsən kollara, nərgiz.***
***Sənindəmi yarın qürbətdə qalıb,***
***Tikmisən gözünü yollara, nərgiz?***
***(«Nərgiz»)***

***Səfurə, dağlardan doyarmı ürək,***
***Könlünü oxşayır burda hər çiçək.***
***Örtmüsən başına bir sarı ləçək,***
***Necə də gözəlsən, qaymaqçiçəyi.*** və s.
***(«Qaymaqçiçəyi»)***

[1] Bualo, «Poeziya sənəti», Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1969.

Səfurə xanım sözü yüksək qiymətləndirməyi bacaran bir sənətkardır. Sözün üstə yarpaq kimi əsərdi. Şeiri bəndlərlə, bəndləri misralarla, misraları sözlərlə hörməyi gözəl bacarırdı. Şairənin şeirlərində bəzən səslər də bir-birini izləyir. Bu isə dilə bir az da gözəllik gətirir. Fikrimizin əyaniliyi üçün «Çaylar» qoşmasına nəzər yetirməyimiz kifayətdir:

***O qarlı dağlardan baş alıb gələr,***
***Axar aram-aram arana çaylar.***

Bəndi qəsdən tamamlamırıq. Bu bir beytin üzərində dayanırıq. Çaylar haqqında nə qədər təbii, nə qədər poetik informasiya verilir. Bu beyt haqqında bu bəs edərmi? Bununla kifayətlənmək olarmı? Əlbəttə, yox!.. Beytə yenidən diqqət yetirərkən yeni sənətkarlıq xüsusiyyətlərini üzə çıxara bilərik. Belə ki, bu beytdə «a» saiti düz on yeddi kərə işlənmişdir. Sonrakı beytə keçək. Şairə bəndi belə yekunlaşdırır:

***Can atar qoynuna körpə bulaqlar,***
***Gərək qətrə-qətrə yarana çaylar.***

Yəqin ki, insafını gözünə «çeşmək» tutub, bu beyti oxuyan ən «vasvası» oxucu da yuxarıdakı fikrə öz münasibətini bildirər. Bu beytdəki konkret uyarlıq mövzunun təsir dairəsini daha da gücləndirir.

S. Pirsultanlının «Dünya, səndə nəyim qaldı?» kitabı haqqında yazdığımız «Qu quşunun nəğməsi»[1] adlı resenziyada qeyd etmişik ki, Səfurə xanım Azərbaycan torpağının xəritəsini çəkməyə

---

[1] Ələsgər Əlioğlu, «Qu quşu»nun nəğməsi. «Gəncənin səsi» qəzeti, 4 fevral 1995-ci il.

girişibmiş… Biz şairənin poetik külliyatı ilə dərindən tanış olandan sonra bu fikri bir qədər genişləndirmək istərdik. S. Pirsultanlı nəinki Azərbaycanın, ümumiyyətlə, türk dünyasının xəritəsini çəkmək arzusundaymış:

***Durna olub dolanaydım göyünü,***
***Dolanaydım, ay Pirsultan dağları.***
***Sivas ellərində Banaz göyünü,***
***Hey anaydım, ay Pirsultan dağları.***
*(«Pirsultan dağları»)*

***Qonaq oldum Qaraçayda, Bolqarda,***
***Mən hörmət görmüşəm, olmuşam harda.***
***Gəzmişəm, bənzəmir bu yurd o yurda,***
***Səfalı qoynunu azmı gəzmişəm?!*** və s.
*(«Azmı gəzmişəm»)*

Atalar yaxşı deyib ki, sən saydığını say, gör fələk nə sayır… Əcəl imkan vermədi şairənin türk dünyasının poetik xəritəsini tamamlamağa. Neçə-neçə oba, neçə-neçə oymaq düşmədi bu xəritəyə… Amma onu da nəzərdən qaçırmamalıyıq ki, bu poetik xəritə bir gün yaddaşımızdan «asılıb», bizim özümüzə qayıtmağımıza, özümüzü dərindən tanımağımıza təsir göstərən «əyani vasitədir…» «Gəlmişəm» şeirini oxuyarkən ulu torpağımızın itkilərini xatırlayırıq. Bu itki misra-misra şairənin ürək ağrılarına çevrilir. O, zərif duyğularla fikrini belə yekunlaşdırır:

***Şair Qumrumuzdu yaddaşda qalan,***
***Tuti Bikəmizdi xatirə olan.***

***Səfurə, Dərbəndin qoynunu dolan,***
***Mən anamın ağuşuna gəlmişəm.***

S. Pirsultanlı dövrümüzün ağrı-acılarını öz yaradıcılıq süzgəcindən keçirərkən zamanın yaralarına məlhəm üçün şirin-şəkər sözlər arayıb-axtarırdı. Xalqın həyatı və taleyi onun üçün ən böyük narahatlığa çevrilmişdi. Fikrimizlə bağlı böyük yazıçımız Mirzə İbrahimovun «Ədəbiyyatımızda müasirlik»[1] məqaləsindən kiçik bir parçaya diqqət yetirək: «Ədəbiyyat insanların şüurunu, əxlaq və mənəviyyatını istiqamətləndirməkdə müstəsna təsirə malikdir. Lakin ədəbiyyat o zaman bu məsələlərin öhdəsindən gələ bilər ki, o, ictimai mühitlə, xalqın həyatı və mübarizəsi ilə bağlı olsun, ictimai ideyaların qaynar bulağına çevrilsin». İtirdiyimiz torpaqlar da, əsir düşmüş insanlar da, tar-mar olan maddi mədəniyyətimiz də Səfurə xanımın qəlbində sonsuz ağrılar yaradır. O, xalqımızın düçar olduğu bəlaya durnaların da belə düçar olmadığını arzulayır. Hətta, durnalara xəbərdarlıq etməyi də unutmur:

***Yad ellərdə körpə balalar qalıb,***
***Ceyranlı, cüyürlü talalar qalıb…***
***Gör neçə alınmaz qalalar qalıb,***
***Gəl get, bizim yerdə əylənmə, durnam.***
*(«Əylənmə, durnam»)*

S. Pirsultanlı el sənətkarlarımızla birgə nəfəs alan bir şairə idi. Onun şeirlərində Dədə Şəmşir, Uğurlu Salman, Şair Cavad, Aşıq Zülfiyyə və başqalarının adları əzizlənə-əzizlənə çəkilir. Səfurə xanım yaradıcılığına ürəkdən bağlılığı ulu el

---

[1] M.İbrahimov, «Xəlqilik və realizim cəbhəsindən», Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1961.

sənətkarlarımızı da sonsuz bir məhəbbətlə xatırlayır. Sarı Aşıq, Dilqəm, Ələsgər və başqalarının ruhunu ehtiramla yad edir. Sənətkar itkisi Səfurə xanım üçün sözün əsl mənasında faciədir. Lap şirin-şirin ləhcələri ilə könüllər ovlayan aşıq Nabatın ölümü kimi:

***Qumrutək xoş ləhcə-zəban bilirdim,***
***Sənətdə bir dünya, cahan bilirdim,***
***Səfurə, gözümdə ümman bilirdim,***
***Gözümdə bir damla yaş oldu, getdi!***
*(«Getdi»)*

S. Pirsultanlının bir qism şeirlərinin özülü dastanlar, nağıllar, əfsanələr üzərində qoyulmuşdur. Buna görə də onun əsərlərinin mənəvi dəyərini qiymətləndirmək üçün xalq ədəbiyyatına dərindən bələdlik olduqca zəruridir. Əks təqdirdə, bu əsərlərin bədii tutumu oxucu üçün qaranlıq qalar. Şairənin «Görünməz», «Çobandağı», «Paltar zağası», «Ay qara gözlüm», «Dilqəm bulağı», «Düşüb» və s. qoşmaları həmin səpgili nümunələrindəndir. «Çobandağı» şeirində oxuyuruq:

***Səndədimi, «Cavad-Xırda» dastanı?***
***Başlanıb onların burda dastanı.***
***Tapşırıb getdilər yurda dastanı,***
***Onları da yada sal, Çobandağı.***

Gəncəbasarda geniş yayılmış, iki sevən gəncin ülvi məhəbbətindən bəhs edən «Cavad-Xırda» dastanı haqqında təsəvvürü olmayan oxucu bu misraların təsirindən yəqin ki, o dərəcədə

həyəcanlanmaz. Şeirin fikir qatlarına enmək üçün həmin dastan bir açar rolunu oynayır.

S.Pirsultanlının «Qoşqarım» şeirini oxuyarkən görkəmli tənqidçimiz Qulu Xəlilovun bir fikrini xatırlayırıq: «Həyatı kənardan müşahidə etmək azdır, onun mürəkkəb səbəblərini dərk etməyi və həqiqi sənət dili ilə təsvir etməyi də bacarmaq lazımdır»[1]. Şairənin bu şeiri mifologiyamızla bağlı bir şəkildə yaranmışdır ki, burada biz lirik qəhrəmanın daha da dərinliklərə üz tutduğunu görürük. «Nuhun tufanı» ilə bağlı rəvayətlərin xatırlanması şairənin həyat mürəkkəbliklərinə daima can atdığını göstərir. Qoşmanın dili olduqca axıcıdır:

***Səfurə, bürüyüb lala dağları,***
***Nuhun yadigarı qala dağları.***
***Sən qoyma pərişan qala dağları,***
***Düşməni sındırıb, əyən Qoşqarım.***

Biz şeirin son bəndini nümunə gətirdik. Ancaq onu bütünlükdə oxuyarkən, Qoşqar dağı haqqında çox yığcam və dərin təsəvvür yaranır. Bu dağın ucalığı, vüqarı, əzəməti göz önündə canlanır, koroğlular, nəbilər yurdu olduğu açıqlanır…

Ümumiyyətlə, şairənin bu səpgili şeirləri ulu keçmişimizdən süzülüb gələn bədii təfəkkürə söykənir. Əsərlərdə verilən faktorlar sözün işığında daha aydın, daha inandırıcı görünür…

Qeyd etməliyik ki, S.Pirsultanlının klassik aşıq şeirimizdən bəhrələnən gəraylıları və qoşmaları müasirlik ruhu ilə seçilir. Həmin əsərlərin hər birini şair öz dəsti-xətti ilə möhürləmişdir.

---

[1] Qulu Xəlilov. «Həyat yaradıcılıq çeşməsidir». Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1974.

Səfurə xanımın lirik yaradıcılığında bayatı xüsusi yer tutur. Onun xalq poeziyasının bu janrında yazdığı nümunələr bütövlükdə bir boyunbağı təsiri bağışlayır. Yaşadığımız günlərin ab-havası, ağrı-acısı, hiss-həyəcanı ulu qaynaqlarımızdan qidalanan, «su içən» bu bayatılardan yan keçmir. S.Pirsultanlı bayatılarının ruhu doğma yurda bağlılıq, torpağa sonsuz məhəbbət, insanlara inam, sədaqət, etibar və s. bu kimi mənəvi-əxlaqi keyfiyyətlər üzərində köklənmişdir. Yazıçı Mehdi Hüseyn «Zəngin xəzinələr»[1] adlı məqaləsi haqqında yazır: «Bayatı yaradan müəlliflərdə həyat eşqi, mübarizə və qələbə meyli son dərəcə qiymətlidir». Bütün bu keyfiyyətlər şairənin bayatılarında da cəmlənmişdir. Azərbaycanımızın ən cazibədar guşələrindən biri saydığımız Şuşa haqqında qələmə alınmış bayatı düşmənlərimizin başımıza açdığı müsibətlərdən bir damla təsiri bağışlasa da, bizə çox şeyi xatırladır, sətiraltı mənası ilə unutqanlığımıza qarşı çıxır:

***Şuşada bulud ağlar,***
***Başını əyər dağlar.***
***Düşmən verən bu dərdi,***
***Canım əmanət saxlar.***

Dəqiq şəkildə ümumiləşdirilmiş mühakimədir. Düşmən verən dərd, doğrudan da, canda əmanət saxlanılmalıdır. Bu əmanət daim bizi ayıq-sayıq olmağa, başımıza gələn müsibətlərdən nəticə çıxarmağa səsləməlidir. Bu mövzulu başqa bir bayatıda oxuyuruq:

---

[1] Mehdi Hüseyin. «Ədəbiyyat və sənət məsələləri», Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1958.

***Qarabağ da talandı,***
***Dərdimə dərd calandı.***
***Neçə muzey, məqbərə,***
***Yandı, oda qalandı.***

Maddi mədəniyyətimiz sayılan neçə-neçə muzey, neçə-neçə məqbərənin düşmənlər əlində talanması şairə üçün bayatılaşmış dərd heykəlidir. Bu bayatıları oxuduqca, qəlbimizdə mübarizə və qələbə ruhu oyanır. Hər misra haray üstə köklənmişdir. Hər misrada bir dünya ağrı-acısı hiss olunur…

S.Pirsultanlının bayatılarında təbiət təsvirlərinə də geniş yer verilir. Ancaq təsvirlər dörd misrada çox böyük sənətkarlıqla ümumiləşdirilir, canlı bir lövhə yaradılır. Bir-iki bayatı ilə özümüzü təbiətin qoynunda düşünürük:

***Ağ yağış çiçəkləri,***
***Ağ yağış ləçəkləri,***
***Pirsultan gül dənizi,***
***Sehrlər ürəkləri.***

Və yaxud:

***Qantəpər, ay qantəpər,***
***Bir çiçəksən təzə-tər.***
***Sarı saçaq kirpiklər,***
***Gözünə keşik çəkər.***

Bayatı vəzncə yeddi hecalı olmalıdır. Ancaq Pirsultanlının yaradıcılığında səkkiz hecalı nümunələrlə də qarşılaşırıq. Külliyyatını diqqətlə izləyərkən görürük ki, şairə klassik şeirimizin bütün

janrlarına dərindən bələd imiş. Bəzi bayatıların səkkiz hecalılığı isə bizdə belə bir fikir oyadır ki, könül nəğmələrində həmişə də o, ilk növbədə fikrin ifadəsi qayğısına qalırmış. Bu şəkilli iki bayatıya nəzər yetirək:

***Dəli dağım, Keyti dağım,***
***A mənim ceyran bulağım.***
***Yollarını yağı kəsdi,***
***Səndən kəsildi ayağım.***
***Oba köçüb, yurd ağlayıb,***
***Ocaq daşı buz bağlayıb,***
***Sən gedəli dərd ağacı,***
***Sinəm üstə budaqlayıb.***

Uğurlu ifadələr, bədii tərkiblər, bənzəyişlər bu bayatıları canlandırır, yaddaşlarda özünə yer tapmasını asanlaşdırır. Lirik qəhrəmanın həzin sızıltıları fikrimizi uzaqlara çəkib aparır…

Şairənin yüksək ümumiləşdirmə qabiliyyəti, lirik həyat müşahidələri bayatılarında konkret fikirlər irəli sürməyə geniş imkan yaradır. Əlbəttə, dörd misralıq bu şeir növündə müvəffəqiyyət qazanmaq olduqca çətindir. Amma Səfurə xanımın təbi bu çətinliyə dov gəlmişdir. Onun bayatıları özünəməxsusluğu ilə seçilir. Coşğun ilhamla çəkilən hər bir poetik mənzərə oxucunun könlünü asanlıqla ələ alır, gözəlliyə məhəbbətimizi daha da artırır:

***Dağlar, gülün bəyazdı,***
***Göyün güzgü, ayazdı.***
***Çəmənin bir gülü də,***
***Nərgiz donlu o qızdı.***

S.Pirsultanlı bayatılarının mil kökü fikrin daha da dərin qatlarına işləyir, yeni-yeni məna çalarları doğurur. Klassik poeziyamızda təbiətin ən zərif faunasından biri saydığımız durna şairlərin xitab yeri olmuşdur. Çox zaman lirik qəhrəmanlar dərdlərini durnalara açmış, həmçinin durnaların halını soruşmuşlar. Bu tərzdə xitaba şairənin yaradıcılığında tez-tez rast gəlirik:

***Qatarın niyə bölündü?!***
***Qəmindən bağrım dəlindi.***
***Durna, səni dərdə salan,***
***Sənin o cığa telindi.***

Yəqin ki, həssas oxucu bu anlarda maralın gözəlliyi sayılan buynuzun meşədə sahibi üçün bəlaya çevrilməsi ilə bağlı bir rəvayəti xatırlayar, bu rəvayətlə yuxarıda nümunə çəkdiyimiz bayatının «qan qohumluğunu» anlaşdırar. Həmin bayatıda cığa telinin durna üçün bəzən bəlaya çevrilməsi poetik fikri işlənir. Beləliklə, bu bir bəndlik nümunə illərin sınağından çıxmış bir rəvayətin açdığı mətləbin yeni donlu dramatik şərhinə çevrilir.

Şairənin könül dəftərində məna çalarları ilə seçilən ağılara, alqışlara, oxşamalara, hətta qarğışlara da rast gəlinir. Bəli, qarğışlara da!.. Şair də qarğayarmı?  Qarğayar, özü də necə?! Aşağıdakı kimi:

***Dağda maral mələməsin,***
***Gözündən yaş ələməsin,***
***Bacım, səni ağladanın,***
***Soyu bələk bələməsin.***

Ana-bacılarımızı gözü yaşlı qoyan düşmənə qarğayarlar, özü də, ancaq yuxarıdakı tərzdə!.. Açığını qeyd etməliyik ki, son dövrlərdə tarixi düşmənlərimizin azğın əməllərini açıb göstərən, mühakimə edən bir sıra yazılarla qarşılaşırıq. Həmin yazıların arasında bədii səviyyəsi etibarı ilə aşağıda dayananları və bayağı təsir bağışlayanları da vardır: S.Pirsultanlının bu bir bəndlik nümunəsi ara-sıra oxuduğumuz «palaz-palaz» yazılardan daha təsirlidir. Belə bir ümumi bir qənaətə gəlirik ki, dörd misra ilə də düşmənə zərbə endirmək mümkünmüş…

* * *

Müasir poeziyamızda rübai janrında yazıb-yaradan sənətkarları barmaqla göstərmək olar. Rübaiyə girişmək müəllifdən yüksək mənəvi zənginlik və yüksək sənətkarlıq tələb edir. Ağıl işığına parlayan, ürək oduna isinən fəlsəfi fikirlərin ümumiləşdirilib bir bənddə təzahür tapması hər sənətkara müəssər olmur. S.Pirsultanlı isə, bu sahədə qələmini sınamış, bir sıra dəyərli nümunələr yaratmışdır. Bu onun yaradıcılığında ötəri bir sınaq kimi qalmamışdır. Müəllif gəraylı, qoşma, bayatı kimi, bu klassik şeir növünə də ömrü boyu sadiq qalmış, bu şeir növünü lirik yaradıcılığının əsas bir qolu kimi inkişaf etdirərək, bir-birindən dəyərli incilər qələmə almışdır:

***Kəpəzimin başı cunalı, Göy göl,***
***Yalçın qayaların xınalı, Göy göl.***
***Sevin ki, qoynuna qonaq gəlmişəm,***
***İndi də olmusan sonalı, Göy göl.***

Bir rübai ilə də kifayətlənərdik, amma fikrimizi daha da canlandırmaq üçün ikinci rübaiyə də əl atırıq:

***Vüqarımı o dağlardan almışam,***
***İlhamımı yaylaqlardan almışam.***
***El bilir ki, duru axan bir çayam,***
***Saflığımı bulaqlardan almışam.***

Hər iki rübai şairənin doğma mövzu və motiv ənənəviliyindən meydana çıxır. Bu rübailərin məğzi ondan ibarətdir ki, təbiət insana xidmət edir, onun mənəvi dünyasına duruluq, saflıq gətirir. Səfurə xanım birinci rübaidə təsvir etdiyi predmetləri uyarlı təşbehlərlə bəzəyirsə, ikinci rübaidə lirik qəhrəmanın xarakterini təbiətin fonunda açıqlayır.

S. Pirsultanlı rübailərinə bu gün qanla yazılan tariximizin də izləri düşmüşdür. Onun torpağımızın bütövlüyü, suverenliyi, azadlığı yolunda şəhid olanlara həsr etdiyi bir neçə rübai vardır. Bu rübailərdə şəhidlərimizin ruhu əziz tutulur, müqəddəs bir amal uğrunda torpağa qovuşduqları işıqlandırılır:

***Kim deyir ki, göz yaşıdı şəhidlər,***
***Tariximin yaddaşıdı şəhidlər.***
***Kərbəlada yatanların doğmaca,***
***İnamı bir qardaşıdı şəhidlər.***

Şairənin yaradıcılığında ruhən Məhsəti Gəncəvi dünyasına yaxın olan rübailər də diqqəti cəlb edir. Bu yaxınlıq nədədir?… Hər iki sənətkarların lirik qəhrəmanları məhəbbətin

yüksəkliyi qarşısında səcdə qılmaqla yanaşı, öz məğrurluqlarını qorumağı da gözəl bacarırlar. Həyata baxışları etibarı ilə hər iki sənətkarın lirik qəhrəmanları bir-birinə bənzəyirlər. Mənəvi nənəsi Məhsətidən ruhən qidalanan Səfurə xanımın rübailərində özünəməxsus notlar, yeni ab-hava, yeni deyim tərzi və s. bu kimi keyfiyyətlər parlaq şəkildə üzə çıxır. Dediklərimizi əsaslandırmaq üçün yumorla cizgilənmiş bir rübaiyə diqqət yetirək:

***Nə çox dolanırsan türk ellərini,***
***Çox da tərifləmə Qars güllərini.***
***Heç bir eldən tapanmazsan ətrini,***
***Bir güldü, gəl qoxla yar tellərini.***

Günlərimizin ən ağrılı yeri, ürəyimizin yarası saydığımız Qarabağ hadisələri S.Pirsultanlının rübailərində də öz əksini tapmışdır. Bu da onu göstərir ki, şairə hansı janrda yazırsa-yazsın, zamanın ağrı-acılarını ön xəttə çəkmişdir. Millətin taleyi bir sənətkar kimi həmişə onu narahat yaşatmışdır:

***Ürəyimin parasıdı Qarabağ,***
***Xançobanın Sarasıdı Qarabağ.***
***Ay Səfurə, yaralanmış qəlbimin***
***Məlhəmidi, çarasıdı Qarabağ.***

Səfurə xanımın rübailərinin də coğrafi ərazisi çox genişdir. Şəmkir, Gəncə, Qarabağ, Qars, Pirsultan dağları… uzatdıqca-uzatmaq olar bu siyahını!.. Xəyalında bu yerləri daim əziz tutan sənətkar qarşısına çıxan bir daşı, qayanı belə, öz qaynar təbi ilə isindirir. Şairənin təsvirlərində təbiət

heç zaman insan nəfəsindən kənarda əks olunmur. Onun rübailərində təbiəti dərk meylləri olduqca güclüdür. Təbiət hadisələrinin mahiyyəti misra-misra araşdırılır. S.Pirsultanlının rübailərində insan mənəviyyatının təmizliyi ucadan-uca tutulur. Lirik qəhrəman insanı şər-böhtandan, fitnə-feldən, kin-küdurətdən uzaq görmək istəyir:

***Şeytan tonqal qalamasın içində,***
***Tülkü meydan sulamasın içində.***
***Qoy qəlbində bülbül yuva bağlasın,***
***Kor bayquşlar ulamasın içində.***

S. Pirsultanlının poeziya aləmini səyahət edərkən, gəraylı, qoşma, bayatı, rübai janrlarında qələmə alınmış nümunələrdən başqa, müxtəlif ölçülü-biçili şeirlərlə də qarşılaşırıq. Bu şeirlərdə sənətkarın yeni-yeni forma axtarışlarına meyl göstərdiyini aydın surətdə hiss edirik. Apardığı forma axtarışları şairənin geniş tematikaya yiyələnməsinə imkan verir, həyat mürəkkəbliklərinə can atmasına şərait yaradır. Görkəmli tənqidçimiz Məmmədcəfər Cəfərov forma axtarışları baxımından maraqlı fikir yürüdür: «Şeirdə bədii forma mədəniyyəti nə qədər zəngin olsa, bir o qədər yaxşıdır. Bu da ancaq iki yolla ola bilər: əsrlərin sınağından çıxmış şeir formalarını inkişaf etdirmək və yeni bədii formalar axtarışını davam etdirmək yolu ilə»[1]. Hər iki yolla, axtarışlarla addımlayan S.Pirsultanlı yaradıcılığı daha da zənginləşmişdir:

[1] Məmmədcəfər Cəfərov, «Sənət yollarında», «Gənclik». Bakı, 1975.

***Qəmsiz bir ürək,***
***Buludsuz göy,***
***Qurumuş göl kimidi.***
***Gülüşsüz könül***
***Pəncərəsi yox,***
***Günəşə həsrət,***
***Bir ev kimidi.***
***(«Dənizdi»)***

Yuxarıdakı lirik parçada nə heca vəzninə əməl olunmuşdur, nə də ki, qafiyə vardır. Lakin hisslərin hərarətindən sözlər bir-birinə möhkəm qaynayıb-qarışmışdır. Bunun la da yeni formalı və tematikalı bir şeir alınmışdır.

S.Pirsultanlı yaradıcılığında ağ rəng simvolik bir səviyyəyə qalxmışdır.

Ağ rəng – saflıqdır!

Ağ rəng – bakirəlikdir!

Ağ rəng – Vətən, torpaq qarşısında öz mənəvi borcunu yerinə yetirən insanın üzüdür!

Ağ rəng - insanın daim arzuladığı və uğrunda mübarizə apardığı gündür!..

Ağ rəngin bu kimi, həmçinin başqa-başqa əlamətlərini şairə yüksək poetik duyğularla müxtəlif aspektdən işıqlandırır. Onun ağ rənglə mayalanan şeirlərini sadalayırıq: «Ağ yağış», «Ağ buludlar», «Bəyaz güllərim», «Bəyaz gecələrdə», «Ağ qazım»… Hələ ayrı-ayrı mövzularla qələmə alınmış nümunələrdə də ağ rənglə nə qədər qarşılaşırıq. Səfurə xanımın poeziyasında ağ rəngin belə gen-bol işıq saçması yeknəsəklik gətirmir, əksinə, onun öz rübabına məhəbbəti daha da artır. Elə düşünürük ki, şairənin şeirlərindəki ağ rəng şairənin bu yer üzünə, bu işıqlı dünyaya, insanlara sonsuz sevgisindən

doğmuşdur. Ağ rəng onun şeirlərinə yüksək obrazlılıq gətirir:

***Bir ağ kəlağaydımı,***
***Mənim bəyaz güllərim?***
***Çəməndə ağ qazdımı,***
***Mənim bəyaz güllərim?***
*(«Bəyaz güllərim»)*

Çəməndəki bəyaz güllərin ağ qaza bənzədilməsi ancaq və ancaq yüksək şairanə düşüncələrdən doğan hisslərin məhsuludur. S.Pirsultanlı şeirlərinin ən mühüm xüsusiyyətlərindən biri də sadəlik və səmimiyyətdən yoğrulmasıdır. Şairənin ürək çırpıntılarını bir nəfəsə oxumaq mümkündür. İlk baxışda hər ifadə, hər söz çox sadə görünür, həmin ürək çırpıntılarının məna çalarlarını hiss etmək, duymaq isə elə də asan deyildir:

***Çəmənlərə baxasıyam, baxası,***
***Gül içində mən olsam da axası…***
***Qız baharın bənövşəymiş yaxası,***
***Yaz donu baharın yaşıldı, yaşıl,***
***Qız donu baharın yaşıldı, yaşıl.***
*(«Yaşıldı, yaşıl»)*

S.Pirsultanlı yaradıcılığındakı forma rəngarəngliyi onun geniş oxucu auditoriyası qazanmasına şərait yaradır. Şairənin lirik qəhrəmanı bu günümüzün ab-havası ilə nəfəs alır, bu günümüzün dərd sərindən kənar qalmır:

***Kimə qaldı Keyti, Mehdi dağlarım***

*Yaşıl meşələrim, buz bulaqlarım?*
*O yerlərdə keçib cavan çağlarım,*
*Dərilməmiş qaldı gülüm-çiçəyim,*
*Yaralandı, göz-göz oldu ürəyim.*
(«Ürəyim»)

Vətən torpağının, doğma yurdun qədir-qiymətini, gözəlliyini duyub dərk edən hər kəs bu ürək qarşısında söz yox ki, səcdə edir. Ona görə ki, bu ürək ağrı-acılarımızın üzərində köklənmişdir. Ona görə bu ürəyin döyüntülərini öz köksümüzdə hiss edirik. Ona görə ki, bu ürək əsl şair ürəyidir.

S.Pirsultanlının «Düzgülər» silsiləsindən olan şeirləri «Kitabi-Dədə Qorqud» dastanındakı mənzum parçaları xatırladır. Şairə ürəyindən keçənləri qəlibsiz-filansız kağızlara hopdurmuşdur. Bəndlərin, misraların «boy-buxunu» müxtəlif olsa da, yenə nəzərimizdə bağban muncuğunu xatırladır:

***Dünyanın ilk mahnısı,***
***Bəşərin ilk nəğməsi,***
***Körpə səsi,***
***Beşik nəğməsi.***
***Bir də, bir də,***
***Dağ şəlaləsi.***
(«Bir də, bir də»)

***Elbrusda, Qızıldaşda,***
***Kəlbəcər dağlarında,***
***Heyran-heyran***
***Şəlalələrə baxmışam,***
***Xəyalən zirvələrə qalxmışam,***
***Ağ sulara qarışıb,***
***Mən də, mən də,***

***Şəlaləylə axmışam.*** və s.

*(«Axmışam»)*

Bu səpkidə qələmə alınmış «Şır-şır», «Gülazar bulağı», «Qaraçay gözəlləri», «Əyilməz başım» və s. lirik nümunələr də oxucu yaddaşında silinməz izlər buraxır.

S. Pirsultanlının söz dünyasında bir qadın məğrurluğu heç zaman gözlərimizin önündən çəkilmir. Şairənin lirik qəhrəmanı öz qədir-qiymətini, abır-ismətini, ləyaqətini, paklığını dünyanın bütün sərvətlərindən üstün tutur. Onun ən böyük sərvəti məhz məğrurluğudur. «Bulaq» şeirinin lirik qəhrəmanı öz sələfləri kimi bir az pərdəli tərpənmir, sevgilisinin adını pünhan saxlayır:

***Məhəbbət gözündədir***
***Əhdi-peymanım, bulaq.***
***Gəlib səndən su içib,***
***İsmi-pünhanım, bulaq,***
***Gözlərinə çökməsin***
***Çənim, dumanım, bulaq,***
***Güzgülənim gözündə,***
***Ləlim, mərcanım, bulaq.***
***İlk eşqi, ilk sevdanı***
***Qoy bir də anım, bulaq,***
***Mən gəncliyə qayıdım,***
***Gəzim, dolanım, bulaq.***

«Bənövşə, bənövşə» şeirinin ahəngdarlığı qulaqlarımıza şən bir musiqi sədalarını gətirir. Oxuyandan sonra uzun müddət bu şeirin təsirindən ayrıla bilmirik. Özümüzü fəsillərin ən gözəli saydığımız baharın ağuşunda hiss edirik. Sanki,

bənövşəni ilk dəfə görürük, ilk dəfə tanıyırıq!.. Çünki müəllif bu çiçəklə bağlı xarakterik əlamətlərə yeni-yeni don geyindirir, ümumiyyətlə, təbiətin müjdəçisi bənövşəni özününküləşdirir. Şeir poetik deyim tərzi ilə də yeni səslənir:

***Görüşünə mən gəlmişəm,***
***Gəl, ay bənövşə, bənövşə.***
***Dara saçlarını, dara,***
***Gül, ay bənövşə, bənövşə.***
***Varlığının ziynətidir,***
***Tel, ay bənövşə, bənövşə.***
***Gözlərimin şəbnəmini,***
***Sil, ay bənövşə, bənövşə!***
***Qız da qızdan gizlənərmi,***
***Öl, ay bənövşə, bənövşə!..***

Səfurə xanım bəzən sözü elə yerində işlədir ki, söz öz leksik mənasını dəyişir, yeni məna çalarları üzə çıxır. Lap «Bənövşə, bənövşə» şeirində işlənən «öl» sözü kimi! Bu şeirdə həmin söz öz ilkin mənasını itirərək, oxucuda həyatla bağlı xoş hisslər oyadır.

S. Pirsultanlının mənzum hekayələri də bədii səviyyəsi ilə seçilir. Mənzum hekayələrin hər birində lakoniklik özünü bariz şəkildə göstərir. Biz hələ şairənin lirik yaradıcılığından söz açarkən onu yüksək qiymətləndirmişdik. Amma onu da deyək ki, bu, onun hekayələrində daha qabarıq şəkildə üzə çıxır. «Bu sevgi qandı», «Sənəkuçan», «Zoğal piri, gözəl pəri» hekayələri olduqca maraqlı bir surətdə, maraqlı bir tərzdə işlənmişdir. Müəllifin folklorumuza dərindən bələdliyi bu hekayələrdə də bütün parlaqlığı ilə diqqəti cəlb edir.

«Sənəkuçan» hekayətini xüsusi olaraq nümunə çəkmək istərdik. Gözəl bir əfsanə üzərində köklənmiş bu hekayət əlvan poetik donda necə də gözəl görünür. Yüksək yaradıcılıq süzgəcindən keçən bu əfsanə yeni bir qiyafəyə bürünür. Sənəkuçanın etimoloji kökü coşğun bir bədii emosionallıqla açıqlanır.

* * *

S. Pirsultanlı uşaqların sirli-soraqlı aləmini, maraq dairəsini, qarşılaşdığı qeyri-adi möcüzələri əks etdirən bir sıra əsərlər yaratmışdır. Onun balalarımız üçün yazdığı şeirlər uşaq ədəbiyyatımızda ədəbi hadisə kimi qiymətləndirilməlidir. Bu şeirlər uşaq ədəbiyyatının tələblərinə hərtərəfli cavab verən nümunələrdir.

Səfurə xanımın bu səpkili əsərləri balaca oxucuların dünyagörüşünün formalaşmasında xüsusi təsir gücünə malikdir. Onun yaratdığı nümunələr uşaqlara mənəvi zövq verir, onların qolundan yapışıb təbiətin füsunkar qoynunda gəzdirir, onları təbiətin zənginlikləri ilə tanış edir. «Qumru» adlı şeirə diqqət yetirək:

***Bağda-bağçada,***
***Hey gəzər qoşa.***
***Meylini salmaz,***
***Kəkliktək daşa…***
***Yön də çevirməz,***
***Yala-yamaca.***
***Məskəni olar,***
***Hər qapı-baca.***
***Çəpərə qonar,***
***Çardağa qalxar,***

***Ağacdan enər,***
***Ağaca çıxar…***
***Tanımayanlar,***
***«Yahu» da deyər.***
***Hələ «qur-qur» da,***
***«Mahı» da deyər.***
***Göyərçinə də.***
***Bənzəyər hələ.***
***Atılıb-düşər,***
***Belədən-belə…***
***Ötər qapıda,***
***Ötər bağçada.***
***Ötər alçaqda,***
***Ötər ucada.***
***Şən-şən oxuyar,-***
***Susmaz qumrular.***
***Arzu, istəyi***
***İlk yaz qumrular!..***

Şeiri oxuyan balacalar bu quş haqqında konkret bədii informasiyaya yiyələnirlər. Bir sözlə, bu nümunədə qumrunun əlamətləri və xarakterik xüsusiyyətləri haqqında ən yaddaqalan detallar verilmişdir. Məşhur rus tənqidçisi V.Q.Belinski demişdir: «…Uşaqlar üçün yazılan o əsərlər yaxşıdır ki, onlar böyükləri də yalnız uşaqlar üçün yazılmış bir əsər kimi deyil, hamı üçün yazılmış ədəbi bir əsər kimi maraqlandıra bilsin»[1]. Bizə elə gəlir ki, «Qumru» şeiri də görkəmli tənqidçinin qoyduğu bu tələbə cavab verir.

Görkəmli sənət adamları həmişə təsdiqləmişlər ki, uşaqlar üçün yazıb-yaratmaq,

---

[1] V.Q.Belinski, «Seçilmiş məqalələr». Uşaq gənc nəşr, Bakı. 1948.

böyüklər üçün yazıb yaratmaqdan qat-qat çətindir. Axı, uşaqlar üçün qələm işlədən kəs həm yazıçı, həm tərbiyəçi, həm də müəllimdir. O, uşaqlarımıza həyat və təbiət haqqında söz açmaqla yanaşı, doğma dilimizin gözəlliklərini də mənimsədir. «Çay quşum» şeirini nəzərdən keçirək. Bu bir bəndlik nümunədəki oynaqlıq, dil şirinliyi, yüksək melodiklik balalarımızın qəlbində təbiətə sonsuz məhəbbət doğurur:

***Çay quşum, çaylaq quşum,***
***Çaylağı aylaq quşum,***
***Uca qala, qəsrdi,***
***Gözündə çaylaq daşım!...***

S.Pirsultanlı uşaqlar üçün hər nədən yazırmışsa, onun da xarakterik xüsusiyyətlərini açmağa çalışırmış. Buna görə də şairənin şeirlərinin əksəriyyəti bədii-ensiklopedik xüsusiyyət daşıyır. «Torağay», «Meşə xoruzu», «Qaranquş» və s. nümunələr balaca oxucuları quşlar aləminə səyahətə çıxarır, quşları onlara tanıdır, quşları onlara sevdirir. «Ağ qazım» şeirində olduğu kimi. Bu kiçik şeiri oxuyan balaca oxucu həmin quş haqqında poetik informasiya alır. Ağ qazın üzünü görməyən uşaqlar belə, onun haqqında konkret təsəvvürə yiyələnir:

***Ayaq sarı, dimdik sarı,***
***Bəyaz bədən dağlar qarı.***
***Qorxutmaz heç zaman səni,***
***Qışın buzu, qışın qarı.***
***Hey gəzərsən göy suları…***

Xalq şairimiz Rəsul Rzanın «Uşaqlar üçün ədəbiyyatın ideya-bədii səviyyəsini yüksəltmək

uğrunda» adlı məqaləsində oxuyuruq: «Uşaq ədəbiyyatının ümumi ədəbiyyatımızın bir qolu olduğunu deməklə bərabər, biz onun xüsusiyyətlərini də nəzərdən qaçıra bilmərik. Uşaqlar üçün yazılmış əsərlər aydın, səlis bir dilə, aydın və sadə bir süjetə malik olmalıdır»[1]. Bu fikirlərin bədii təsdiqini S.Pirsultanlının şeirlərində aydın şəkildə görürük. Onun «Səs» adlı oynaq şeirini nəzərdən keçirək:

***Bülbül səsi,***
***Bulaq səsi,***
***Çay səsi.***

***Külək səsi,***
***Ürək səsi,***
***Toy səsi.***

***Əbədi səs,***
***Əzəli səs…***
***Təbiətin***

***Gözəli səs*.**
***Hər cür səs var.***
***Yarpaq səsi,***

***Ləpə səsi…***
***Ən doğması,***
***Ən əzizi,***
***Körpə səsi!..***

---

[1] Rəsul Rza, «Mənim fikrimcə…», Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1967.

Mücərrəd məfhum sayılan səs haqqında yazılmış bu şeiri özümüz qəsdən nümunə çəkirik. Bunu nümunə çəkməkdə məqsədimiz R.Rzanın uşaq ədəbiyyatından umduğu səlisliyə, aydınlıq və sadəliyə Səfurə xanımın da həmişə əməl etdiyini bir daha təsdiqləməkdir. Qeyd etdiyimiz kimi mücərrəd məfhum sayılan səs anlayışı şeirdə konkretləşir.

S. Pirsultanlının uşaqlar üçün qələmə aldığı «Beşdaş», «Külək», «Quzum», «Bulaq», «Lilpar», «Dəli çay», «Xallı kəpənək» və s. şeirləri də təqdirə layiqdir. Amma bir məsələnin üzərində dayanmağımız olduqca zəruridir. Şairənin çapdan çıxmış kitablarının heç birində uşaq şeirləri ayrı bir bölmədə verilməmişdir. Bu da istər-istəməz oxucuda çaşqınlıq yaradır. Arzumuz odur ki, gələcəkdə Səfurə xanımın uşaq şeirləri ayrıca bir çələng şəklində öz oxucularına təqdim olunaydı…

* * *

Səfurə Pirsultanlının nəsr dünyasını səyahətə çıxırıq. Bu səyahətdə biz gah günəşli, gah da tutqun gündüzləri, gah ulduzlu, gah da zülmət gecələri gəzib-dolanarıq. İstər gündüzlərin, istərsə də gecələrin qoynunda qarşımıza çıxan insanların mənəviyyatları ilə yaxından tanış oluruq. Kimisi ayağımızdan çəkməyə çalışır, kimisi də əlimizdən tutmağa… Kimisi bizi xeyirə səsləyir, kimisi də şərə… Kimisi qatığa qara deyir, kimisi də ağ… bunu çox uzatmaq da olar, nə isə…

S. Pirsultanlının obrazlar sistemini nəzərdən keçirərkən görürük ki, təzadların məngənəsində nə qədər sıxılsa da belə, axırda xeyir şərə qalib gəlir. Ümumiyyətlə, nəticədə «bir düz yüz əyrini kəsir». Səfurə xanım nəsr əsərlərini də şair qələmi ilə

ərsəyə yetirmişdir. Bu əsərlər sanki yazılmamış, söz-söz, sətir-sətir hörülmüşdür. Özü də elə-belə hörgü yox… Əlin gəlməz ki, bircə kərpici, bircə sözü yerindən oynadasan… Elə «Süleyman dayı» povestindən başlayaq. Bu povestdə müəllif öz şair təbiətinə sadiq qalaraq sözləri xəsisliklə işlətmiş, yersiz kəlmələrə, yersiz ifadələrə yol verməmişdir. Hər şeydən öncə onu da qeyd etməliyik ki, «Süleyman dayı» povesti nəsrimizdə əsl mənada ədəbi hadisədir. Bu əsərin aylarla, illərlə saralmış qovluqda yatıb qalmasına təəccüblənməmək qeyri-mümkündür. Bir şeyə də çox təəssüflənirik ki, «Süleyman dayı» hələ öz geniş oxucu auditoriyasını tapmamışdır. Bu əsər humanist duyğular aşılamaq baxımından böyük qırğız yazıçısı Çingiz Aytmatovun «Əlvida, Gülsarı» povestini xatırladır. Lakin, dediyimiz oxşarlığı nəzərə almasaq, nə Süleyman dayı Tanabaya, nə də Səkil Gülsarıya bənzəmir… Süleyman dayının öz dünyası vardır, Tanabayın da öz dünyası. Səkilin öz yerişi vardır, Gülsarının da öz yerişi…

Süleyman dayı bir elin, bir oymağın deyil, bir xalqın ümumiləşdirilmiş obrazıdır. Onun oturuşu-duruşu, ədəb-ərkanı, ümumiyyətlə, bütün davranışı milli psixologiyamızın daxilindən doğur. Əsərdə Süleyman dayı bir portret kimi bütöv görünür. Rus tənqidçisi N.Q.Çernışevskinin bir fikrinə istinad edirik: «Portret onun üçün çəkilmir ki, canlı insanın sifəti bizi təmin etmir; onun üçün çəkilir ki, canlı adam bizim gözümüzün qabağında olmadığı zaman onu xatırlamağa bizə kömək edir və onu görməmiş adamlarda onun haqqında təsəvvür yaradır»[1]. Bu

[1] N.Q.Çernışevski. «Sənətin varlığa estetik münasibətləri», Bakı, 1956.

fikri Süleyman dayı obrazına da şamil etmək olar. Povesti oxuyub qurtardıqdan sonra Süleyman dayı yaddaşımızın əbədi «sakininə» çevrilir. Onun portretini yaddaşımızda daim yaşadırıq.

Fəlsəfə elmləri namizədi Azər Eyyublu «Süleyman dayı» povesti barədə belə fikir işlədir: «…Süleyman dayı və onun ailəsi xoşbəxt deyil. Onlar hər addımda sosializm adlanan quruluşun ziddiyyətləri ilə üzləşməli olurlar». Bu fikirlə razılaşmaq çətindir. Çünki, hansı quruluş olursa-olsun, onun da öz xarakterik xüsusiyyətləri vardır. Həmin quruluş uğrunda mübarizə aparan insan da söz yox ki, müxtəlif ziddiyyətlərlə qarşılaşacaqdır. Ziddiyyətlərlə qarşılaşmaq, bu ziddiyyətlərə qarşı mübarizə aparmaq insanın xoşbəxtliyinin əlindən getməsi demək deyildir. Biz isə əksinə, deyərdik ki, istər Süleyman dayı, istərsə də onun ailəsi olduqca xoşbəxtdir. Süleyman dayının ocağı el-oba arasında böyük hörmət-izzət qazanmışdır. Onun ailəsi nümunəviliyi ilə seçilir. Məgər bu, xoşbətlik deyilmi?…

Süleyman dayının xarakterinin açılmasında həyat yoldaşı Qızxanım və atı Səkil açar rolunu oynayır. Süleyman dayının zahiri görkəmi ilə mənəviyyatı arasında böyük uyarlıq özünü göstərir. Povestin başlanğıcında müəllif onun cavanlıq portretini belə cizgiləyir: «Onda Süleyman kişi qırğı baxışlı, alma gözlü, Koroğlu bığlı bir oğlan idi. Belində tapançası, çiynində tüfəngi, şahqatarı, meşin şapkası vardı». Bu kiçicik portretdə belə, zəngin milli kolorit diqqəti cəlb edir.

Süleyman dayı povestdə el-obanın dövlət quruculuğunda bir bayraqdarı kimi verilir. O, həmişə qayda-qanun tərəfdarıdır. Amma onun humanist

duyğuları heç zaman qayda-qanuna əsir düşmür. Hətta, bu iki hissin arasında bir tarazlıq da duyulur. O, qayda-qanunu da humanist duyğuların ayağına vermir. Ümumiyyətlə, bu tarazlıq Süleyman dayının fəaliyyətində tez-tez nəzərə çarpır.

Müəllif Süleyman dayının ilk quruculuq illərini belə təsvir edir: «Dəli Süleyman o illərdə nə qədər güllə atdı, hamısı havaya getdi, bircə adam da öldürmədi, yaralamadı. Hamısını atdöşü eyləyib kəndin düz ortasına gətirdi. Onların bəyi, xanı da vardı, qaçaq-qulduru da, hay-küyə düşüb onlara qoşulanı da. Onun nər oğullara heyfi gəlirdi: camaatın içində onlara bircə kəlmə də ağır söz demirdi. Camaatın içində onları dindirib-söylətmirdi ki, bunların da hərəsi bir kişidir». Süleyman dayının bu etik davranışı onun daxili aləmini qat-qat açır. O, insan şəxsiyyətini hər şeydən uca tutmağı bacarır. İnsan şəxsiyyətini ən böyük var-dövlət sayır.

Müasir nəsrimizi nəzərdən keçirərkən povestlər kataloquna xeyli əsərlərin daxil olduğunu görürük. Ancaq «Süleyman dayı» povesti bu janrın dərinliklərinə varan qiymətli bir epik nümunədir. Həyatın dərinliklərinə işləyən bu əsərdə quramaçılığa, süni təsvirlərə, yersiz şərhlərə rast gəlmirik. Sənətkar xalq dilindən elə ustalıqla istifadə edir ki, bu da povestə müasir nağıl ruhu bağışlayır.

Övladlarının üçünü də cəbhəyə yola salan Süleyman dayı həyatın bu qanlı sınaqlarına da mərdanəliklə dözür. Amma hadisələrin konflikti Səkildən başlayır. Süleyman dayının Səkilini də ilxıdan seçib başqa atlarla birgə cəbhəyə aparırlar. Dözmür bu dərdə, havalanır Süleyman dayı. Hərbiçilər gəlib Səkili aparandan sonra kişinin daxilində dəhşətli bir boşluq, dəhşətli bir uçurum

yaranır. Qanadları sınmış quşa dönür Süleyman dayı… Səkil həsrəti onun daxilində elə yanğı yaradır ki, müharibənin od-alovu da, oğul-uşağı da heç gözünə görünmür. Özünü birtəhər hərbi komissarlığa yetirib, yüngülcə arın-ağıldan sonra mətləbin bildirir:

-Yoldaş Hüseynov, olarmı məni də «atpravka» eləyəsiniz?

-Yox, yoldaş Süleyman, qətiyyən olmaz. Əvvala sən yaşda adamları cəbhəyə göndərmirik; ikincisi də bacarıqlı kadrlar burada da lazımdır. Bir də arxa cəbhədə çalışmaq kim deyir ki, asandır?

Bu kiçik mükalimədən sonra əli hər yerdən üzülən Süleyman dayı kor-peşman şəkildə özünü vaqona çatdırır. Müəllif Süleyman dayı ilə Səkilin vida səhnəsini gərgin psixoloji anlarla gözlərimizin önündə canlandırır. Bu səhnə oxucunu daha da həyəcanlandırır. Süleyman dayı və Səkillə birgə, oxucu da kədərlənir.

Süleyman dayı Səkili itirən bir gündən dözümünü də itirir. Bir elin-obanın dirəyi kimi tanınan bu ağsaqqal birdən-birə çökməyə başlayır. El-oba hələ müharibə bir yana, onun da dərdini çəkir.

Süleyman dayı el-obanın gözündə mizan-tərəzi olur. O, bir kola da boş yerə daş atmır. Hətta, daş atanla da arası olmur. Amma bir gecə «Suqarışan» adlanan yerdə onun adam döyməsi oxucuya çox şey deyir. Bu səs-küyə köməyə getmək istəyən adamlar Səkilin kişnərtisini eşidib yenidən geri dönürlər. Onlar yaxşı bilirlər ki, Süleyman kişi hər yetən şey üstə adama əl qaldırmaz. Düzdür, müəllif Süleyman dayının həmin gecə kimi döydüyünü açıqlamır. Amma həssas oxucu bundan duyuq düşür. Hiss edir ki, Süleyman

dayı cəzalandırdığı adam yaxşı əməl sahibi deyil, özgə bostanına daş atanın biridir… Buna görə də «payını» alır…

Ömründə müftə çörək yeməyən, müftəxorluğa, əliəyriliyə qarşı həmişə mübarizə aparan Süleyman dayı təqaüdə çıxandan sonra onu kolxoza «pojarnik» qoysalar da buna razılıq vermir. Bu da onun bir sıra müsbət keyfiyyətlərini üzə çıxarır.

Süleyman dayı bir gecə meşə talasından keçərkən Səkilin nəfəs hiss etməsi, səmtini dəyişib başqa istiqamətə sahibinin qapısına götürülməsi novellavari təsir doğurur. Süleyman dayı gözəl başa düşür ki, at insandan xəflənmişdir; nə çaqqal, nə canavar, nə də ayıdan qorxmuşdur… Burada da oxucu dərin düşüncələrə baş vurur. İnsan ki, şər işlərə qol qoydu. O, bütün vəhşilərdən qəddar, bütün vəhşilərdən yırtıcı bir varlığa çevrilir. Səkilin xəflənməsinin sirri açılandan sonra Süleyman dayının bir müdrik el-oba ağsaqqalı olduğu bir daha təsdiqlənir.

Süleyman dayını Səkil həsrəti çökdürsə də, o, bu dərdi ürəyində saxlayır. Dünyanın qana çalxandığı bir vaxtda dərdini ömür-gün yoldaşı Qızxanıma da belə açıb bükməyə arlanır.

Qızxanım Süleyman dayının sadiq bir ömür-gün yoldaşıdır. O, öz davranışları ilə Süleyman dayını bir obraz kimi tamamlayır. Müəllif onların arasındakı dialoqlarla bu ailənin necə sağlam bir özül üzərində qurulduğunu vurğulayır. Qızxanım Süleyman dayı üçün təkcə ömür-gün yoldaşı deyil, eyni zamanda əqidə, məslək, mübarizə yoldaşıdır. Hələ gənclik illərində o, kolxoz quruculuğu fəallarından biri kimi müftəxorluğa, tamahkarlığa, el

malını çapıb-talayanlara qarşı mübarizəyə qoşulur. Qızxanım kənddə iqtisadi inkişafla yanaşı, mədəni yüksəlişə də səy göstərir. Qızxanımın kəndin ortasında anbardar və gözətçiylə bağlı düzəltdiyi məzhəkə çox şeydən xəbər verir. Qızxanımın düzəltdiyi məzhəkə sanki mahir bir rejisorun səhnələşdirdiyi əsər təsirini bağışlayır. Bu da, onun mədəni səviyyəsini üzə çıxarır. Onun atdığı hər addım Süleyman dayının da xarakterini lay-lay açır. Əsərin sonu nikbin bir ruhla tamamlanır. Süleyman dayının övladlarının üçü də cəbhədən sağ-salamat qayıdıb gəlir. Səkil isə geri dönmür. Süleyman dayının gözləri, gecə-gündüz yollardan yığılmır. Süleyman dayı yollara boylana-boylana ümidlə yaşayır. Onu yaşadan cəbhədən sonuncu qayıdan əsgərin Səkillə bağlı düzüb-qoşduğu uydurmalar olur. Süleyman dayı eşidəndə ki, Leninqradın Neva prospektində Səkilin heykəlini qoyublar. Bundan sonra bir az rahat nəfəs alır…

«Süleyman dayı» povestinin dili barədə də bir neçə kəlmə söz açmaq istərdik. Bu əsər canlı danışıq dili etibarı ilə çox zəngindir. Ən adi görünən dastanların və hadisələrin yüksək bədii boyalarla təsviri əsərin oxunaqlığını daha da artırır. S.Pirsultanlının nəsr dili də şeirlərində olduğu kimi obrazlılığı ilə seçilir:

«…Yumruğunun birini havada oynada-oynada danışır; elə bil taxtaya, divara mismar çalır».

«Hamısı nəfəsdən qalxırdı, nəfəsdən pöhrələnirdi».

«Ürəyim də sarsaqlayıb, hərdən məni pencər kimi sıxır».

«…Xırmana, mərəyə düşəsi yanğını su ilə yox, özgə canı ilə söndürər» və s.

Belə obrazlı cümlələrdən istənilən sayda göstərmək mümkündür. Bu obrazlılıq hamısı Səfurə xanımın yazıçı səmimiyyətindən və orijinallığından irəli gəlir. Tanınmış teatrşünasımız Cəfər Cəfərov haqlı olaraq demişdir: «Əgər sənətkar səmimi və orijinal deyilsə, o, həyatın real, həqiqi mənzərəsini yarada bilməz»[1].

S.Pirsultanlının hekayələri də sənətkarlıq baxımından diqqəti cəlb edir. Onun qəhrəmanları şəxsi keyfiyyətləri ilə bir-birindən fərqlənirlər. Xarakterlərin rəngarəngliyi, onlardakı müsbət və mənfi cəhətlər müəllifin daim həyatın özündən çıxış etdiyini əsaslandırır. Bu da bir daha sübut edir ki, S.Pirsultanlı həyata dərindən bələd olan, həyat hadisələrini düzgün dərk edən, dəqiq qiymətləndirən bir sənətkardır. Müəllif qəhrəmanlarını çox zaman bərkə-boşa salmaqla onların mənəvi dünyasını açıb üzə çıxarır. Qoçaq da, qorxaq da, mərd də, namərd də, qeyrətli də, qeyrətsiz də zamanın çətin anlarında ələkdən keçir.

«Barış» hekayəsinin qəhrəmanı Tahir gənc olsa da, ağsaqqalların, ağbirçəklərin adlaya bilmədikləri bir körpünü adlayır. İki düşmən tayfa arasında mənəvi əlaqələr yaradır. Hətta, bu əlaqələrin sonu qohumluqla bağlanır. Beləliklə, bir daha qan tökülməsinin qarşısı alınır. Hekayədən ortaya çıxan ibrətamiz nəticə ondan ibarətdir ki, ağıl və idrak həmişə qılınc və top-tüfəng üzərində qələbə çalır.

---

[1] Cəfər Cəfərov, Əsərləri, (2-ci cild), Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1969.

Səfurə xanımın «Bulud saçlı Gövhər» hekayəsi maraqlı kompazisiyaya malikdir. İsa bəylə Gövhər xanımın ailə münaqişəsi evdə övladlarının tək olmasından başlayır. Gövhər xanım üstünə günü gətirilməsinə razılıq vermir, oğlu Şəfi bəylə bərabər Gəncəbasara gəlib burada yurd salır. Hekayənin finalı İsa bəylə Gövhər xanımın barışıq səhnəsi ilə tamamlanır. Hekayə toponimka nöqteyi-nəzərdən çox maraqlıdır. Belə ki, Gövhər xanımla oğlunun saldıqları yurd sonralar Şəfibəyli kimi məşhurlaşır. S.Pirsultanlının nəsr yaradıcılığında tarixi notlarla da qarşılaşırıq. Tarixi faktorlar üzərində qurulan «Əbdülkərimin hekayələri» ibrətamiz əhvalatlar silsiləsindən ibarətdir.

Həmin silsilədən olan «İntiqam»da haqsız axıdılan qana qarşı Əbdülkərimlə Morullu Cəfərin gördükləri tədbir çox ədalətli sayılır. Əbdülkərimin ağıllı məsləhəti sayəsində Cəfər Salman bəy tərəfindən öldürülmüş qardaşının qisasını alır. Amma necə!? Düşməni öldürmür… Onun xəncər tutan sağ qolunu vurub salır… Cəfərin qisas almaq üçün Salman bəyi öldürməsi, bəlkə də maraqsız görünərdi. Müəllif burada da orijinal bir yolla getmiş, mövzunun canını yeknəsəklikdən qurtarmışdır. Belə ki, düşmənin qolunu itirməsi, onun öldürülməsindən daha təsirli alınır…

«Əbdülkərimin hekayətləri»ndə verilən «Nikolayın şəkli», «Cıdır yarışı», «Kürənin oğurlanması», «Tələ», «Namusun sərhəddi» və «Şamildən sonra Şamil» hekayələri də mövzu və fikir aydınlığı ilə seçilir. «Nikolayın şəkli» ilə əlaqədar olaraq tənqidçi Yaşar Qarayevin «Mənəvi gözəllik üçün məsuliyyət hissi ilə» məqaləsindən bir parça sitat gətiririk: «Bədii əsərdə sırf ictimai motiv, yoxsa

fərdi psixoloji aləm geniş yer tutmalıdır – əlbəttə, məsələni bu cür qoymaq doğru olmaz. Burada faiz, nisbət, kəmiyyət öz-özlüyündə hələ heç nəyi həll etmir. Məsələ ondadır ki, fərdi duyğular, surətin mənəvi aləmi, ictimai dövrü və mühiti nə dərəcədə inikas edə bilir. Təbiidir ki, bütün ictimai hədisələr cəmiyyət üzvlərinin mənəvi həyatında dərin iz buraxır və sənətkar ictimai həyatı bu fərdi-mənəvi aləmin güzgüsündə əks etdirə bilir»[1].

Sitat gətirməklə biz Əbdülkərimin fərdi duyğularının ictimai-siyasi hadisələrinə reaksiyasını əsaslı şəkildə təsdiqləyirik. Bu kiçik hekayədə qələmə alınan dövrün ictimai-siyasi ab-havasını duyuruq. Əbdülkərim rus hakimiyyətinin apardığı məhkəməni yarımçıq dayandırır. O, bəhanə gətirir ki, hakimin başının üstə Nikolayın şəkli asılmadığı üçün məhkəməsini aparmağa onun haqqı yoxdur. İlk baxışda bir qədər gülüş doğuran bu tələb dövrün ictimai-siyasi təzyiqlərini üzə çıxarır.

«Kürənin oğurlanması» hekayətinin də üzərində xüsusi olaraq dayanmaq istərdik. Əbdülkərimin Kürən atını Qədim adlı birisi kənardan öyrətmə ilə oğurlayıb qaçırır. Əbdülkərim başqa bir at minib onun arxasınca düşür. Həmkəndliləri də Əbdülkərimə qoşulurlar. Onlar Qədimin mindiyi Kürəni haqlahahaqlada Əbdülkərim dözmür. O, qeyrətinə sığışdırmır ki, başqa atlar Kürəni ötüb keçsin. İstər-istəməz oğruyaköməklik edir:

-Ə, Qədim, atın sinəbəndini kəs, atın qollarını tutur, qaçmağa qoymur.

Qədim doğrudan da Kürənin sinəbəndini kəsəndən sonra çapıb gözdən itir… Lakin, sonradan öz səhvini başa düşüb Əbdülkərimin atını geri

[1] Yaşar Qarayev, «Poeziya və nəsr», «Yazıçı». Bakı, 1979.

qaytarır. Hekayətdən çıxan ümumi nəticə insanda mərdanəlik keyfiyyətləri aşılayır.

«Ana güvənci» hekayəsi müharibənin insan həyatında fəlakətlər törətdiyini əks etdirir. Cəbhəyə getmiş oğlunun toyunu görmək arzusu ilə yaşayan Leyli qarı yollara ümidlə baxır. Amma oğlundan gələn qara kağızdan xəbərsizdir. Gözlənilmədən, ehtiyatsızlıq üzündən, Leyli qarı bundan xəbər tutur. Bu xəbər daha onu yaşamağa qoymur. Beləliklə, hekayə acı və yanıqlı bir şəkildə tamamlanır: «Bax, o yarğanın başında, qızıl laləlikdə, ağ quşa bənzəyən tək məzar Leyli qarınındır. O məzar və onun başı üstə qanad çalan ruh aramsız, buludlarla şərikli göz yaşı tökə-tökə oğul yolu gözləyir».

Ümumiyyətlə, S.Pirsultanlının nəsr yaradıcılığında vətənpərvərlik duyğuları, xeyirxahlıq, mərdlik, cəsarət, qeyrət və bu kimi başqa-başqa insani keyfiyyətlər canlandırılır. Apardığımız araşdırmalar nəticəsində bizə məlum olmuşdur ki, S.Pirsultanlı «Ləzgi qızı» adlı bir povest də qələmə almışdır. Lakin, bu povestin əlyazmasını hələ nə Səfurə xanımın arxivindən, nə də sorağında olduğumuz başqa yerlərdən axtarıb tapa bilməmişik. Amma tapmaq ümidi ilə yaşayırıq… Atalar yaxşı deyib: «Axtaran tapar!...»

* * *

S.Pirsultanlı ömrünün gül-çiçəkli çağlarında dünyasını dəyişmişdir. Yaradıcılığının qaynar bir dövründə bu şairənin dünyasını dəyişməsi Gəncəbasar ədəbi mühitində dərin izlər buraxmışdır. Sənətkarlarımızın əksəriyyəti onun xatirəsinə bir sıra maraqlı əsərlər həsr etmişlər. Şair Məmməd Alim

Səfurə xanımın ölümünü ürək ağrısı ilə qələmə almışdır:

***Yıxıldı Gəncənin zərif qovağı,***
***Sürüşdü üzündən sevgi duvağı.***
***Vermişdi qızına Pirsultan dağı***
***O boyu-buxunu, Səfurə xanım.***
*(«Öldür bu yuxunu…»)*

Yazıçı Qərib Mehdinin yazdığı «Sədnikin» adlı şeiri də yaddaqalan və xarakterikdir. Səfurə xanım dünyasını dəyişərkən ömür-gün yoldaşı Sədnik Paşa Türkiyədə yaradıcılıq səfərində idi. Bu həyati faktoru Q.Mehdi belə ümumiləşdirir:

***Elçi-gəzərgidir hər şeydən öncə,***
***Ona qan ağlatdı bu səfər bunca…***
***Kərəm olub Ərzuruma varınca,***
***Kaş ki, qırılaydı qıçı Sədnikin.***

Gəncəbasarlı sənətkarlardan Abbasəli Sarovlu, Sahib Axundlu, Firudin Şimşək, Pirverdi Dağlaroğlu, Nizami Səda, İmam Cəmilli, Həsən Kərimov, Lətif Zərgər, Mikayıl Rəhimli və türkiyəli şair Murad Yıldız Qaraxanlı da Səfurə xanımın dünyadan vaxtsız köçməsini hüznlü misralarla yad etmişlər. Şairin ömür-gün yoldaşı Sədnik Paşanın qələmə aldığı şeirlər isə daha təbii səslənir:

***Qəlbimə yazılmış o gül adını,***
***A gülüm, götürüb daşamı yazım?***
***Bulaqlar gözümə təzə yol tapıb,***
***Yanaqlardan axan yaşamı yazım?***

***

***Qayalarda a qıy vuran  tərlanım,***
***Həsrətinə necə dözüm, dayanım?***
***Ay mənim ürəyim, ay mənim canım,***
***Adını hicranla qoşamı yazım?***

***

***Sən mənim gözümdə əbədi bahar,***
***Sədnikin qəlbi sənsiz qan ağlar,***
***Səfurəm qoynunda uyuyan məzar,***
***Yarın gül ömrünü  qışamı yazım?***

Gəncəli şairə Ələmzər Əlizadənin «Bütün əsərlərindən uca istək», Respublikanın xalq artisti Şahnaz Haşımovanın «İnsanların qəlbinə axacaq» xatirələri, professor Abbas Səmədovun «Analıq zirvəsi, sənət vurğunu», fəlsəfə elmləri namizədi Azər Eyyublunun «Həmişəyaşar poeziya», fəlsəfəşünas Məmməd Məmmədovun «Sənin mənəviyyat  dünyasında abidən qaldı» və ədəbiyyatşünas Afaq Yusiflinin «Şahidi olduğumuz əfsanə» məqalələri bizi Səfurə Pirsultanlının artıq nağıllaşmış ağlı-qaralı ömür-gününə, çoxşaxəli yaradıcılıq dünyasına səyahətə çıxarır… Səfurə xanımın oğlu Sabutay Sədnikoğlunun «Uçan göyərçinim», «Anamın», «Çaylar» şeirinə elegiyaları, qızı Sahibə Sədnikqızının «Atam öz hökmdarını axtarır» adlı sızıltılı xatirələri anasızlığın harayına bələnir. Aşağıdakı bəndi Sabutayın ana ruhuna monoloqundan bir parça hesab edirik:

***Çaylar burula-burula, anam!***
***Çaylar durula-durula, anam!***
***Dağlardan enər arana, anam!***
***Sular yorula-yorula, anam!***

Bu haray, bu çağırış bizi göynətdikcə göynədir!.. Anasızlığın nə olduğunu sanki indi hiss edib, indi duyuruq!.. Amma qara torpaq öz işində, öz gücündədir… Udacağını udur!.. Çürüdəcəyini çürüdür!..

Lakin elə şeirlər vardır ki, qara torpaq dov gələ bilmir. Bunlardan biri xoş xatirələr, biri də söz-sənət dünyasıdır… Di bacarsın bunlarla qara torpaq!.. Bacarsın görək!..

***Ələsgər Əlioğlu,***
***şair-publisist***

## DƏLİ SÜLEYMAN VƏ SƏKİL KÜRƏNİN SƏRGÜZƏŞTLƏRİ

Azərbaycan ədəbiyyatı, istər məna çalarları, istər mövzu rəngarəngliyi, istərsə də janr müxtəlifliyi ilə dünyanın ən zəngin ədəbiyyatlarından biri hesab olunur. Bu ədəbiyyatın yaradılmasında kişi yazarlarımızla yanaşı qadın yazarlarımız da böyük əmək sərf etmişlər. Azərbaycanın Xəyyamı adlanan, gözəl rübailər müəllifi Məhsəti Gəncəvi, həmçinin Heyran xanım, Ağabəyim ağa, Xurşudbanu Natəvan, Aşıq Pəri, Aşıq Bəsti, Nigar Rəfibəyli, Mirvari Dilbazi və başqaları yuxarıda sadalananların məntiqi cavabıdır. Çağdaş ədəbiy-yatımızın ən parlaq, ən istedadlı nümayəndələrindən biri də Səfurə xanım Pirsultanlıdır. Ədəbiyyata lirik, incə, bulaq suyu kimi şəffaf şeirlərlə gələn Səfurə xanım çox keçməmiş qələmini nəsr sahəsində də sınamış, Vətənə bir-birindən sanballı olan beş hekayə və

yaradıcılığının zirvəsi sayılan «Süleyman dayı» povesti kimi ədəbiyyatda bənzərsiz olan bir əsər töhfə vermişdir. Səfurə xanımın poeziyasına və hekayələrinə ayrıca müraciət edəcəyimə görə «Süleyman dayı» povesti barədə mülahizələrimi hörmətli oxucularla bölüşməklə kifayətlənəcəyəm.

Əsərin təhlilinə keçməzdən əvvəl bir məqamı xatırlatmaq yerinə düşər. Mərhum şairə və nasirimizin həyat yoldaşı, tanınmış folklorşünas-alim, şair Sədnik Paşa Pirsultanlı ilə dəfələrlə bu mövzu ətrafında etdiyim söhbətlərdən qəti qarara gəlmişəm ki, istər povestin, istərsə də hekayələrin süjetləri real həyatdan götürülmüşdür. Belə ki, Səfurə xanımın hekayə qəhrəmanlarından biri olan Qaçaq Əbdülkərimin anası, Sədnik müəllimin ana nənəsi, 130 il ömür sürmüş Leyli qarının dönə-dönə danışdığı hadisələr onun yaddaşına əbədilik həkk olunmuş, sonralar yazıçı təxəyyülü ilə birləşərək ətə-qana gəlmiş, bir-birindən gözəl nəsr əsərlərinə çevrilərək geniş oxucu kütləsinin rəğbətini qazanmışdır.

«Süleyman dayı» povestinin əsas qəhrəmanı Dəli Süleyman ucqar dağ kəndində yaşayan rəhbər işçilərin ümumiləşdirilmiş obrazıdır. Özü də elə bir obraz ki, onun arxasında heç kəsə əyilməyən, «troyka» üzvlərindən, «meşin» gödəkcəlilərdən fərqli olaraq ağı qaradan seçə bilən, ən çətin anlarda belə günahlı-günahsız tutulanları ölümün pəncəsindən qurtarmağa çalışan, yalnız vicdanın səsinə qulaq asan bütöv, «xırdalanmayan» bir şəxsiyyət dayanır. Deməli, represiya illərində də insanlığını itirməyən, elə-obaya, xalqa canı yanan Dəli Süleymanlar var idi. Bir də, düşünürsən ki, nə yaxşı dünya yaxşılardan xali olmayıb və xali deyil.

Azərbaycan ədəbiyyatında xalqın «köhnə kişilər» adlandırdığı Cahandar ağalar, Kərbalayi İsmayıllar kimi əyilməz, qürurunu sındırmayan, kollektivləşməni, kolxoz kooperativ quruluşunu özləri üçün təhqir sayan tipik obrazlar yaradılmış, bu insanlar hər bir azərbaycanlı üçün güvənc yeri olmuş, kişilik simvolu sayılmışdır. Dəli Süleyman bu obrazlar silsiləsinə daxil olsa da bəzi məziyyətlərinə görə onlardan tamamilə fərqlənir. Səfurə xanım Pirsultanlının istedadının gücü, yazıçılıq məharəti ondadır ki, Dəli Süleyman kənd əhli üçün qorxmazlıq, kişilik və haqq-ədalət mücəssəməsi sayılsa da, onun Sovet rejiminin qurbanı olduğunu sözaltı mənalarla oxuculara çatdıra bilmişdir. Biz bunu Səkil Kürənin seçilərək, vuruşan orduya minik kimi göndərildiyi hissədə, eyni zamanda «troyka» üzvləri ilə sözü düz gətirməyəndə rayon mərkəzinə gedərək üzə çıxarılanları güllədən azad etdirməyə çalışdığı, lakin sözünün yerə salınıb, saya salınmadığı parçada bunu dərindən duyur, Dəli Süleymanın nələr çəkdiyini dərk edirik.

«Dəli Süleymanla «troykanın» sözü düz gəlmirdi, çəpləşirdi, mərkəzə gedirdilər. Hamının gözü yollarda qalırdı. Gündüzlər o tərəfdə Yəhərdağın qılıcında görəcəkləri qaraltıdan biləcəkdilər ki, Dəli Süleyman necə gəlir. Sözü keçib, ya keçməyib. Səkil Kürən ox kimi süzəcəkdisə, Dəli Süleymanın «dəliləri» də onun dalınca muncuq-muncuq düzüləcəkdisə apardıqlarının birinə də güllə atılmayıb: o hazır kağızlar təzədən yazılıb, yox əgər dəyirman ulağı kimi qulaqlarını sallayıb ölüm-zülüm yeriyəcəkdisə, deməli Dəli Süleymanı Gizir oğlu Mustafa bəy çaya basıb buraxıb».

Bax, budur Səfurə xanımın yazıçılıq məharətinin gücü, yazıçı təxəyyülünün ucalığı, novatorluğu və ədəbiyyata gətirdiyi təzə nəfəs. Əsər çox maraqlı bir başlıqla başlayır. Belə ki, birdən-birə dəli Süleymanın başına hava gəlməsi, qapıdakı kötüyün üstündə oturaraq öz-özünə danışması bir an içində bütün kəndə yayılır. Dəli Süleymanın havalanmasının səbəblərini ardıcıl açan yazıçı göstərir ki, onu bu hala salan üç övladının döyüşlərdə olması və xüsusilə də üç övladı qədər sevdiyi Səkil Kürənin əlindən alınaraq müharibəyə göndərilməsi olub. Səkil Kürənin müharibəyə göndərildiyi gün Süleyman kişi yasa batır. Kənd sakinlərinin gözünə görünməməyə çalışır və hətta, ərizə yazaraq vəzifəsindən istefa verir.

Povestdə maraqlı surətlərdən biri də Səkil Kürəndir. Səkil Kürənlə Süleyman kişinin münasibəti o qədər şairanə həzinliklə, bədii detallarla, yüksək insani məhəbbətlə təsvir olunmuşdur ki, tərəkəmə həyatının adət və ənənələrini, o cümlədən, at xislətini Səfurə xanımın bu qədər dərindən bilməsinə heyran qalırsan. Süleyman dayının bütün müvəffəqiyyəti Səkil Kürənlə bağlıdır.

Qədim əsatir və əfsanələrimizdə, «Kitabi-Dədə Qorqud» eposunda, «Şah İsmayıl», «Koroğlu» dastanlarında və digər əsərlərdə sahibinə vəfalı at surətləri olmalıdır. Ancaq Səkil Kürəni Şah İsmayılın Qəmərdayı və Koroğlunun Qıratıyla müqayisə edə bilərik. Qəmərday Şah İsmayılın, Qırat Koroğlunun, Səkil Kürən isə Süleyman dayının ürəyindən keçənləri duyur, çətin anlarda onlara arxa, dayaq olurlar. Səkil Kürəni Qəmərdaydan və Qıratdan fərqləndirən cəhət odur ki, əsatir və əfsanələrdə göstərildiyi kimi o, nə Qəmərday kimi alma

qabığından, nə də Qırat kimi dəniz atından əmələ gəlməmişdir.

Bir sözlə, əfsanədən və əsatirdən qat-qat uzaqda dayanır. Qəmərdayı Ərəb Zəngi, Qıratı isə Keçəl Həmzə minə bilirsə, Səkil Kürəni minmək, onunla yoldaşlıq etmək heç kəsə müyəssər olmamışdır. Süleyman dayının gənclik illərində belində tapançası, çiynində tüfəngi, şahqatarı, Koroğlu kimi bığlı bir oğlan olmasını Səfurə xanım bədii boyalarla təsvir etmişdir. «Elə ki, Səkil Kürənin belinə qalxırdı, at onu dağlara, meşələrə aparırdı. Dağlarda, meşələrdə həmişə Dəli Süleymanın tüfəng, tapança şaqqıltısı gəlirdi». Yazıçının təsvir etdiyi kimi Dəli Süleyman nə qədər güllə atsa da, yüzlərlə qaçağı atdöşü edib kəndə gətirsə də, bir nəfər də olsun belə adam yaralamayıb, adam öldürməyib. Çalışıb ki, hamı üzə çıxsın, sağ-salamat övladlarının yanına qayıtsın.

Dəli Süleyman zəmanənin köhnə kişilərindəndir. Yerişinə, duruşuna fikir verən, camaat içində ən qatı cinayətkara belə güldən ağır söz deməyən bir el ağsaqqalıdır. O, gözü, könlü tox, nəfsi özündə olan, yaramazlıqlara qarşı kəskin mövqedə dayanan bir şəxsiyyətdir. Onu isə şəxsiyyət kimi tanıdan Səkil Kürəndir. Yuxarıda qeyd edildiyi kimi, Səkil Kürən Süleyman dayının ürəyindən keçənləri duyur. Qorxulu anlarda onu ölümün pəncəsindən xilas edir və sözün əsl mənasında ona arxa, dayaq olur. Biz bunu Süleyman dayı rayon mərkəzindən gecə qayıdarkən meşədə iki qaraltı hiss edən kimi Səkil Kürənin geriyə götürülməsində görürük.

«Səkil Kürən bir dəfə doğrudan da Süleyman kişinin sözünə baxmamışdır, fınxıra-fınxıra köndələn

səkmişdi, bir yanı üstə süzmüşdü, sahibi onun boynunu evinə sarı döndərsə də özünü ram edə bilməmişdi.

…Süleyman kişi Səkili sınamışdı. O, bir yolla ki, getməmişdi, demək o səmtdə təhlükə var. Atı məcbur etmək olmaz».

Yazıçının göstərdiyi kimi Səkil qan-tərə batsa da, Süleyman dayını sağ-salamat gətirib evə çıxarır. Bu cəhətinə görə Səkil Kürən Həzrəti Əlinin Düldülünə bənzəyir.

Bir neçə gündən sonra məlum olur ki, iki nəfər adam başqa bir nəfəri öldürmək üçün pusquda dayanıbmış. Süleyman dayı sözü açıq deyən, həqiqi sevgiyə, məhəbbətə yüksək insanlıqla yanaşan, yeri gəldikcə sevənlərə kömək əli uzadan maraqlı bir simadır. Belə ki, meşədə pusquda dayanan iki nəfəri tərkisilah edəndən sonra onların birindən – Bayramdan öyrənir ki, Süleyman dayının öz kəndindən olan Gödək Çərkəzin oğlu ilə onun bacısı qızı sevişir. Qız isə başqasının nişanlısıdır. Buna baxmayaraq onlar hər axşam meşədəki bulağın üstündə görüşürlər. Ona görə də onlar silaha sarılıb həmin oğlanın yolunu gözləyərkən Süleyman dayı ilə rastlaşırlar. Süleyman dayı həmin adamları evlərinə aparır, o nəslin ağsaqqallarını, ağbirçəklərini bir yerə toplayır. Onlara başa salır ki, ömür-gün sevdasında ürəyə hökm eləmək olmaz. Qızın nişanını qaytartdırır. Sonra Gödək Çərkəzi elçilərlə birlikdə həmin qapıya göndərir. Burdan aydın olur ki, mükəmməl təhsil ala bilməsə də Süleyman dayı uzaqgörən, kiməsə kömək etmək üçün ömrünü az qala qurban verməyə hazır olan bir cəngavərdir. Süleyman dayı kəndin hökmi-ixtiyarıdır. Özünün dediyi kimi kəndin prokuroru da odur,

məhkəməsi də. Kənddə günahı olanı danlayan da özüdür, cəzalandıran da. Bizə yaxşı məlumdur ki, Süleyman dayı ömründə bircə nəfəri cəzalandırıb. Özü də kənddən çox uzaqda -Çayqarışanda.

«Dəli Süleyman həmin anda adamı şallağa tutub ayı kimi bağırdanda qışın oğlan çağıydı, çovğun ulayırdı, külək yollardan sovurduğu qarı dərələrə doldurur, sırsıra ağacları əyib iki qatlayırdı, qol-budağını qırıqlayıb yerə tökürdü.

O gecə o adam hey: «Ay Allah, öldüm, Ay Allah, yandım», - dedi. Kəndin neçə adamı əlinə dəhrə, yaba götürüb onun harayına getmək istədi. Lakin Səkil Kürənin səsini eşidəndə qayıdıb, təzəcə qızdırdıqları yerlərinə getdilər, bildilər ki, onu asıb-kəsən Dəli Süleymandır: bir əli od olsa da, bir əli sudur. Günahkar nə qələtsə eyləyib. Özü də elə-belə xırda iş deyil, böyük axmaqlıqdır. Yoxsa, o kişinin dəli keçiləri hər şeydən ötrü dingildəməz».

Əsərdən göründüyü kimi Dəli Süleyman günahkarı cəzalandırsa da, onun kimliyini heç kəsə bildirmir, onu kənddə urvatdan salmır, öz səviyyəsini gözləyir.

Səfurə xanımın böyüklüyü ondadır ki, özündən irəli gələn namus, abır, həya, ismət məvhumunu qələmə alaraq millətin övladlarını təmizliyə, ucalığa səsliyir. Əsərdən göründüyü kimi Səkil Kürəni Süleyman dayının əlindən alıb vuruşan orduya minik üçün göndərəndə onların hər ikisi yazıqlaşır, miskinləşir və birgə həyatlarının sonu olduğunu başa düşürlər. Maraqlı cəhətdən biri də budur ki, Səkil Kürəni orduya göndəriləcək atların içinə qatanda Süleyman dayı atın yəhər-yüyənini, rəşməsini almır. Bunların Səkil Kürəndən sonra gərəksiz olduğunu başa düşür. Elə həmin gündə

ərizə yazıb idarəyə göndərir və ona işdə qalmasına çox minnətçi düşməsinə baxmayaraq o, öz inadından dönmür. Kəndin başbilənləri, o cümlədən, Süleyman dayının yerinə təyin olunan Qoca kişi də xeyli götür-qoydan sonra özünə bildirmədən onu «pojarnik» qoyurlar. Lakin bundan da ehtiyat edirlər. Çünki Süleyman dayı ömrü boyu ortada yeyib, qıraqda gəzənlərdən olmayıb. Bu sirri nə qədər saxlamağa çalışsalar da Süleyman kişi tez eşidir:

«Səhər durub döyükə-döyükə idarəyə getdi. Fəhm ilə getdi. Yanından keçənləri, idarədəkiləri fəhmlə tanıdı.

-A Qoca kişi – dedi, - Qızxanıma düşən bizə bəsdir, biz iki adamıq. Necə olsa, yola gedərik. Ora əsgər ailəsinin birini yazdır. Onları dolandırmaq lazımdır».

Bu hadisədən sonra Süleyman dayının ayağı bir daha idarəyə dəymir. Qapıda-bacada seyrək görünür. Gecə-gündüz qəm içində üzülür. Onun bu hala düşməsini hərə bir tərəfə yozur. Ancaq bu məsələni özündən və voenkom Hüseynovdan başqa heç kəs bilmir.

Səkil Kürənin seçilən ilxıya qatılıb aparıldığı günün axşamı Süleyman dayı ayaqlarını sürüyə-sürüyə voenkomun evinə gəlir və Hüseynovdan onu da cəbhəyə göndərməsini xahiş edir. Lakin Hüseyinov incə şəkildə etirazını bildirdikdə Dəli Süleyman birbaşa dəmiryol vağzalına gəlir və təsadüfənmi, yoxsa xoşbəxtlikdənmi Səkil Kürəni görür. Heç nəyə, heç kəsə fikir vermədən birbaşa atın üstünə gedir. Yazıçı bilərəkdən bu mənzərədə boyaları daha da tündləşdirir.

«Hamı dayanmışdı, hamı onlara baxırdı. At başını yerə dikib ağlayırdı. Süleyman kişi də özünü

saxlaya bilmədi. O da ağladı. Sonra arakəsmənin üstündən aşırılıb içəri girdi, bir qolunu Səkil Kürənin boynuna doladı, yalını tumarladı, qaşqasını sığalladı, dəsmalını çıxarıb gözlərini sildi, gözlərindən öpdü, üzünü başına söykədi, bir müddət beləcə qaldı. Başını qaldıranda at qabaqca onun ayaqlarını imsilədi, sonra dodaqlarını tərpədə-tərpədə ağzını sinəsində, boyun-boğazında gəzdirdi, axırda da özü kişidən aralandı, ilxının qoymahaqoyma ilə qısnanıb təpildiyi səmtə yönəldi, taxta ayaqaltılığa qalxdı, siyirtmə qapağın hər tərəfində dayanıb içəri zorla doldurulmuşları çölə çıxmağa qoymayan, əlləri dəyənəkli iki adamın arasından vaqona keçdi, həm də bəridə, göz görəndə dayanmadı, vaqonun qaranlıq tərəfinə keçdi, sanki sahibini də, özünü də əritmək istəmirdi».

Oxucu bununla da belə nəticəyə gəlir ki, vaxtı ilə yuxarıdan, aşağıdan müştərilər çoxaldıqca onların hamısına «ölərəm, amma verməərəm» - cavabını verən Süleyman dayı üçün Vətən məhəbbəti, torpaq sevgisi bu təəssübkeşliyi, bu məhəbbəti üstələyir. Çünki ona görə Vətən anadır, görən gözdür, namusdur, onu qorumaqdan böyük şərəf, böyük səadət yoxdur. Süleyman dayı bu ağayana, kişiyanə xüsusiyyətləri ilə «Torpağı qoruyarlar, Vətən olar» - deyən şah babamıza bənzəyir. Səkil Kürən gedəndə Süleyman dayının rahatlığı da, səhhəti də pozulur, cəbhədə vuruşan üç övladından çox atın taleyi barədə düşünür, gah kənddən müharibədə vuruşan eloğlularının hamısına məktub yazdırır, onlara özlərini qorumasını məsləhət verir, hər məktubun arxasında isə Səkil Kürəni görüb-görmədiklərini soruşur, gah da cəbhədən qayıdanların üstüörtülü Səkil Kürən barədə məlumat vermələrini arzulayır.

Əsər maraqlı bir sonluqla bitir. Lap axırda qayıdanlardan biri danışdığı bir əhvalat ona ürək-dirək, təskinlik verir. «Çornıy smert» adlı bir igidin Səkili minməsi, onun üstündə nemeslərə qan ağlatması, Süleyman dayıya xüsusi ləzzət verir, sanki bütün dünyanı ona bağışlayır. Atın qəhrəmancasına həlak olması və ona Leninqradda-Neva prospektində heykəl qoyulması xəbəri Dəli Süleymanı canlandırır, onu yenidən həyata qaytarır. Səfurə xanımın sənətkarlığının gücü də məhz bundadır.

Əlbəttə, zəmanəmizin böyük yazıçısı Çingiz Aytmatov da «Əlvida, Gülsarı» əsərində maraqlı at obrazı yaratmışdı. Gülsarı uzun illər sahibinə çörək qazanmış, lakin ömrünün qürub çağında gücdən düşmüş, sahibini üzüntülərlə baş-başa qoymuşdur. Səfurə xanımın yaratdığı Səkil Kürən obrazı isə sahibini dəfələrlə ölümdən qurtarmış, ona vəfalı, müharibə illərində öz həyatı bahasına özünə heykəl qoydurmuş, sahibinin başını el-oba yanında uca etmiş, bənzərsiz bir at obrazıdır.

Əsərdə maraqlı surətlərdən biri də Erkək Qızxanımdır. Düzdür, Səfurə xanım Pirsultanlıdan əvvəl tanınmış yazıçımız Qantemir «Erkək Tükəzban» hekayəsini yazmış, mülkədar və qolçomaqlara qan ağladan maraqlı bir qadın surəti yaratmışdı. Əsərin əsas qəhrəmanı Tükəzbanın canı, qanı, mayası yalnız işlə qurulur, işlə də qurtarır. O, öz həyatı barədə düşünmür, sovet hökumətinə, Kommunist Partiyasına arxalanaraq özündən deyənləri danlamaqla işini bitmiş hesab edir.

Səfurə xanımın yaratdığı Erkək Qızxanım surəti istər dünyagörüşünə, istərsə də tutduğu mövqeyə görə Tükəzbandan tamamilə fərqlənir. O,

hər şeydən əvvəl Süleyman dayının həyat yoldaşıdır, ona sadiqdir, çöldə nə qədər hökmlüdürsə, evdə o qədər sadə, evdar bir qadındır. Qızxanıma görə hökumət də, partiya da, arxa da, dayaq da Süleyman dayıdır. O, Süleyman dayı ilə birgə bir-birindən gözəl, yaraşıqlı, xalqın xeyrinə, şərinə yarayan, vətənpərvər, namuslu, üç ziyalı övlad böyüdüb tərbiyə etmişdir. Gəncliyindən komsomol özəyinin «böyüyü» işləyən Qızxanım heç kəsi tutdurmur, heç kəsə əl qaldırmır, onun tərbiyə etmək metodu tamamilə başqa səpkidə qurulub. O, kəndin açıqgözlü cavanlarını başına toplayıb gah iclaslar keçirir, gah da «qəmədiyə» quraraq əliəyriləri ifşa etməklə düz yola qaytarır. Bu «qəmədiyələri eşidənlərə elə gəlir ki, kənddəki evlərin sayı qədər əyyarı, xəbərçisi, qulaqçısı var». Müharibə başlayan gündən Süleyman dayının məsləhətçisinə, ona təskinlik və təsəlli verənə çevrilir. Qızxanım nənə Süleyman dayının nazı ilə oynayır, hətta, onun dostunu tanımadığı üçün özünü məzəmmətləyir, yaddaşına qarğayır.

Süleyman dayı:

- Dostum Səkil Kürəndir, - deyəndə bərk kövrəlsə də göz yaşları ürəyinə axır, kövrəldiyini biruzə vermir. Bir sözlə, Erkək Qızxanım elinə, obasına gərəkli insan, qayğıkeş, mehriban ana, hər şeydən əvvəl isə ərinə sadiq, vəfalı, ismətli və namuslu qadın obrazıdır.

Əsərdə epizodik şəkildə verilmiş ekiz oğullar - Həsən və Hüsən də öz hərəkətləri ilə yadda qalan surətlərdir. Kiçik yaşlarında yetənə yetib, yetməyənə bir daş atan, kəndin mal-qarasını böyürtməkdən, ulaqları minib başına-gözünə döyməkdən, onları kolluğa doldurmaqdan həzz alan bu dəcəllər

məktəbə gedəndən sonra tamamilə dəyişib, yüksək əxlaqi keyfiyyətlərə malik, əlaçı şagirdlər kimi həmişə diqqət mərkəzində olurlar. Ali məktəbə daxil olduqdan sonra isə onların qarşısında yeni zirvələr açılır. İnstitutu fərqlənmə diplomu ilə bitirdikləri üçün onları elmi işə cəlb edirlər. Evin yeganə qızı Süsən də Azərbaycan Tibb İnstitutuna daxil olur.

Müharibə başlayan ilk gündən hər üçü könüllü olaraq cəbhəyə yollanırlar. Həsən göydən, Hüsən isə dənizdən «nemes»lərin başına od ələyir. Süsən isə bir həkim kimi neçə-neçə yaralını ölümün pəncəsindən qurtarır, xəstələrin sağlamlığının keşiyində dayanır.

Müharibə qurtardıqdan sonra hər üçü sağ-salamat Vətənə – ata - analarının yanına qayıtdılar.

Ümumiyyətlə, Səfurə xanım Pirsultanlının «Süleyman dayı» povesti öz tutumuna, bədii dəyərinə, kamil sənət əsəri olduğuna görə çağdaş ədəbiyyatımızda öz haqlı qiymətini almalıdır. Çünki povestdə insani münasibət, Vətənə, torpağa, elə bağlılıq, sədaqət, ismət, namus, təmizlik özünün kuliminasiya nöqtəsinə çatmışdır. Daha doğrusu, yuxarıda söylənənlərin qarışığından toxunmuş nadir xalını xatırladır «Süleyman dayı» povesti.

## *Ay Qara dənizim, ay qara gözlüm*

Türk dünyasında elə şəxsiyyətlər var ki, onlar zərrə-zərrə, qətrə-qətrə yaddaşlara həkk olunaraq dünya durduqca əbədiyaşar müqəddəs övliyalara, pirə, ocağa çevrilirlər. Bu yazıda həmin övliyalardan ikisinin keşməkeşli, lakin şərəfli, məğrur və ləyaqətli ömür yoluna ötəri nəzər salmaqla kifayətlənəcəyik.

Pir Sultan Abdal… XVI əsrdə yaşamış bu tarixi şəxsiyyət Şah İsmayıl Xətai yaradıcılığının vurğunu olmuş, bu vurğunluq da onu müxtəlif əzablara düçar etmiş, nəhayət, dar ağacından asılmaqla nəticələnmişdir. Özündən sonra gözəl sənət inciləri qoyub getmiş bu övliya türk xalqlarının gözündə müqəddəsləşmiş, onun adını daşıyan Sivas vilayətində və Gəncə yaxınlığında olan eyni adlı Pirsultan dağları, Təbriz yaxınlığında yerləşən Pirsultan kəndi ziyarətgaha çevrilmişdir. Bu gün də oraya qurban aparılır, bu ucalıq qorunub saxlanılır.

Misgin Abdal Şah İsmayıl Xətainin məsləkdaşı və yaxın silahdaşı, sufi təriqətinin alovlu təbliğatçılarından biri olmuşdur. Eyni zamanda, dövrünün görkəmli şairlərindən biri kimi böyük şöhrət qazanmışdır.

***Adəmdən qocadır, Nuhdan cavandır,***
***Bir sirdir, bilinməz yaşı dağların.***
***Tufana əyilməz, yada basılmaz,***
***Həmişə qar olar başı dağların.***

***Əhvalı necədir, bir tərlandan sor,***
***Quşa tələ oldu, ahulara tor,***
***Can desən can söylər, çor söyləsən çor,***
***Səs verər, səs salar guşu dağların.***

…Onu da qeyd etmək lazımdır ki, bu gün Türkiyədə, Azərbaycanda, Dağıstanda Miskin Abdal adını qoruyub özündə yaşadan neçə-neçə kənd və aul vardır. Goranboyun Qaradağlı kəndində qorunub saxlanan, müqəddəs ziyarətgah sayılan «Miskin ocağı» dediklərimizə əyani sübutdur.

Hər iki övliyadan, şair və tarixi şəxsiyyətdən sonra onların adını daşıyan nəsillərdən onlarla şair, yazıçı və istimai xadim yetişmiş, qol-budaq ataraq şaxələnmişdir. Beləliklə, bu layiqli varislər öz sələflərinin, yəni, ulu babalarının tutduqları yolu şərəflə davam etdirmiş, Azərbaycan ədəbiyyatına sanballı töhfələr vermişdir. Bu tanınmış simalardan biri də Səfurə xanım Pirsultanlıdır. Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, bəzi ədəbiyyatçılar Səfurə xanımın Sədnik Paşa Pirsultanlı kimi tanınmış folklorşünas-alimin, şairin ömür-gün yoldaşı olmasını, məhz onun təsiri ilə şeirlər yazdığını israrla söyləyirlər. Lakin bununla razılaşmaq mümkün deyildir. İstər lirik şeirlərinə, istərsə də fəlsəfi əsərlərinə görə, bu iki sima bir-birindən tamamilə fərqlənirlər. Səfurə xanım yaradıcılığının ana xəttini realizm, Sədnik Paşa yaradıcılığının ana xəttini isə romantika, fəlsəfi düşüncə təşkil edir. Eyni zamanda, şifahi xalq ədəbiyyatına bağlılıq, xalqdan gələni yeni boyalarla cilalamaq, yeni çalarlarla, yeni nəfəslə xalqa qaytarmaq onların yaradıcılığını bir-birinə yaxınlaşdırır. Bir sözlə, Səfurə xanımın fitri istedadı gendən, onun damarından axan övliyalar nəslinə mənsub olan təmiz qandan və halal ana südündən axıb gəlir. Bəli, gözəgörünməz ilahi qüvvə insan həyatının təkrarlandığını çoxlarına görk etdirmək üçün Səfurə Pirsultanlı ədəbiyyatımıza gəlməliydi və gəldi də. Bu həm də zamanın özündən doğan bir zərurət idi. Özü də öz sözüylə, öz səsiylə:

***Səfurə, Sivasdan yana dönəydim,***
***Durnalardan Təbriz üstə enəydim.***
***Pirsultan kəndini gedib görəydim,***
***Dolanaydım, ay Pirsultan dağları.***

Səfurə xanımın təkcə bu bəndi yuxarıda sadalananları tam reallığı ilə əks etdirir.

Səfurə xanımın yaradıcılığına nəzər yetirdikcə hiss edirsən ki, o, şeir yazarkən heç vaxt yazmaq xatirinə əlinə qələm almamışdır. Adama elə gəlir ki, şeir onun ürəyinə, qəlbinə vəhy şəklində daxil olmuş, ürəyinin dərin qatlarının sakini olmuş, sonra qandan maya götürərək əsl sənət incisi kimi doğulmuşdur. Doğrudan da, kamil sənətkarlar üçün heç vaxt söz kasadlığı olmur. Onlar üçün sözlər toxunacaq xalının havadan asılmış iplərini xatırladır. Ustalıq ondadır ki, həmin xalının çeşnisini, ipini, boyağını, rənglərini seçə biləsən. Bu mənada istər sənətkarlıq baxımından, istərsə də inandırmaq qüdrətinə, hər misradan gözəl bir çələng düzəltmək qabiliyyətinə görə Səfurə xanımı tanınmış rəssamlarla müqayisə etsək, məncə, yanılmarıq.

***Görüşünə mən gəlmişəm,***
***Gəl, ay bənövşə, bənövşə.***

***Yasəmən saçların dara,***
***Gül, ay bənövşə, bənövşə.***

***Varlığının ziynətidir,***
***Tel, ay bənövşə, bənövşə.***

***Gözlərinin şəbnəmini,***
***Sil, ay bənövşə, bənövşə.***

***Qız da qızdan gizlənərmi?***
***Öl, ay bənövşə, bənövşə.***

Səfurə xanım lirik, zərif və incə duyğular şairidir. Şairə üçün dünyanın ən ülvi gözəllikləri də, əlçatmaz ənginlikləri də, insan adlı ali varlığın vicdan adlandırdığı təmiz hissləri də, saf sevgisi də ağdır, bəyazdır, şəffaf və durudur. Bu mənada şairin «Ağ yağış», «Bəyaz gecələr» və rübailəri hər şeyi güzgü kimi özündə əks etdirir.

***Başımın üstündə oynama, bulud,***
***Qəmli insan təki qaynama, bulud.***
***Oturub çəməndə güzgülənirdim,***
***Gözündən yaş saldın aynama, bulud.***

Səfurə xanımın şeirlərində təbiət mənzərələri, gözəllik və onu yaradan cizgilər elə incə detallarla qələmə alınmışdır ki, istər-istəməz onun bu səpkidən olan şeirlərinin Səttar Bəhlulzadənin fırçasından çıxan əsərlərilə həmahəng olduğunu hiss edirsən. «Sarı bulaq», «Levin qalası», «Bu dağlardadı», «Gəncənin», «Comadaş», «Toğanandan gələn gəlin» və s. şeirləri ədəbiyyatımızın nadir inciləridir.

***Saçların sünbül tək sarı,***
***Bəyaz sinən dağlar qarı,***
***Çaşdırdın yanımda yarı,***
***Toğanadan gələn gəlin.***

***Gözəllikdə bir dənəsən,***
***İnci, sədəf, dürdanəsən,***
***Huri, pəri, bilməm nəsən?***
***Toğanadan gələn gəlin.***

***Səni görüb Aya baxdım,***

***Duru axan çaya baxdım,***
***Düz qamətə, boya baxdım,***
***Toğanadan gələn gəlin.***

Səfurə xanımın şeirlərinin mayasını reallıqlar, addım-addım, qarış-qarış gəzib dolandığı Vətən torpağının, həmişə başı qarla örtülən uca dağların, zümrüd, şəffaf, diş göynədən bulaqların, güllərin, çiçəklərin, quşların, heyvanların, bir sözlə təbiət aləminin tərənnümü təşkil edir. «Zağalı», «Ziyarət dağı», «Qaşqaçay», «Ağ qaya», «Kəklik», «Hop-hop», «A Zivlən çayı», «Bülbül» və digər şeirlərinin hər biri canlı təbiət lövhəsi, gözəl sənət nümunəsidir. Bu baxımdan onun «Daş oldun, gəlin» şeirinin bir bəndinə nəzər salaq:

***Abırdan, həyadan, özündənmi, de,***
***Yoxsa bədnəzərin gözündənmi, de,***
***Bəlkə, bir nadanın sözündənmi, de,***
***De, necə oldu ki, daş oldun, gəlin?***

Bir sözlə, Səfurə xanımın şeirlərində elə, yurda bağlılıq, Vətəni Vətən kimi sevmək, qorumaq, xalqa, millətə layiq övladlar böyüdüb tərbiyə etmək, ağsaqqalın, böyüyün, kiçiyin yerini bilmək kimi ululardan miras qalan saf duyğularla köklənmək təlqin edilir. Ən maraqlısı budur ki, müasir dövrdə onlarla şair öz şeirlərində Azərbaycanın xəritəsini verməyə çalışmışdır. Ancaq onların əksəriyyəti, bir neçə rayon, şəhər adı çəkməklə kifayətlənmişlər.

Səfurə xanım isə Şah İsmayıl Xətainin yaratdığı bütöv Azərbaycan dövlətini, eləcə də, türkdilli xalqların yaşadağı yerləri qarış-qarış gəzmiş və «Azmı gəzmişəm» şeirində nəinki Azərbaycanın,

hətta, turançılığın xəritəsini çəkərək vətən torpağını yarımçıq təsvir edənlərə ibrət dərsi vermişdir.

***Ay mənim Qoşqarım, ay Pirsultanım,***
***Səfurəyəm, sizi bir də dolanım,***
***Qadasın aldığım Azərbaycanım,***
***Səfalı qoynunu azmı, gəzmişəm?!***

Qarabağ hadisələri başlayan gündən qələmini süngüyə çevirən S. Pirsultanlının bu mövzuya yazdığı hər bir şeiri onun vətənpərvər bir insan, torpaqlarımızın əldən getməsinə yanan qeyrətli vətəndaş, köçkün-qaçqın dərdi çəkən qayğıkeş, mehriban bacı, xalqı, milləti birliyə çağıran Tomris hünərli ana və s. keyfiyyətləri bütün çalarları ilə üzə çıxır. «Yurdum», «Şəhidlər», «Görünməz», «Dururmu» və başqa şeirlərində ana, vətəndaş və şair təlatümü, kamil insan həyəcanı varlığımızı titrədir, ürəyimizi göynədir. Bu qəbildən olan «Əylənmə, durnam» şeirinə nəzər salaq:

***Hayana baxırsan ölümdü, qandı,***
***Gəl, get, bizim yerdə əylənmə, durnam.***
***Uçdu ağ saraylar, binalar yandı,***
***Gəl, get, bizim yerdə əylənmə, durnam.***

***Yad əllərdə körpə balalar qalıb,***
***Ceyranlı, cüyürlü talalar qalıb,***
***Gör neçə alınmaz qalalar qalıb,***
***Gəl, get, bizim yerdə əylnəmə, durnam.***

***Elə bil ki, dövran, zaman dəyişib,***
***Səfurə, qəlbimdə güman dəyişib,***
***Dünyanın əhvalı yaman dəyişib,***

***Gəl, get, bizim yerdə əylənmə, durnam.***

S.Pirsultanlı yaradıcılığında ailəyə məhəbbət, səmimiyyət, övladlarına qayğı, nəvaziş müstəsna rol oynayır. Onun şeirlərindən göründüyü kimi, ailəyə bağlılıq dağ çeşməsitək büllur, saf, dəniz kimi təlatümlü, göylər kimi təmiz məhəbbətdən başlayır. Ailənin düzgün qurulması da, övladların kamil insan kimi yetişməsi də, namus da, ismət də, abır-həya da məhəbbətin bütövlüyündən xəbər verir:

***Bəsdir, ana, ufuldama, sızlama,***
***Yayın qızmarında donub buzlama.***
***Mən anayam, daha məni nazlama,***
***Sevdalı ceyranam, yar yanımdadı.***

Və yaxud,

***İstəməyə, məhəbbətə qalanda,***
***Yazı-pozu, ya zəhmətə qalanda,***
***Soruşsalar, həqiqətə qalanda,***
***Səfurə, yanında vəzirdi Sədnik.***
***(«Sədnik» şeirindən)***

S.Pirsultanlı nəğməkar şairdir. Onun əksər şeirləri ritmikdir, oynaqdır, bir sözlə musiqilidir. Aşıqlar Səfurə xanımın şeirlərini istənilən saz havası üstündə, xanəndələr isə muğam və mahnı kimi ifa edə bilərlər. Çünki, onun istər gəraylıları, istərsə də qoşmaları dilə yatımlı, yaddaqalan, dərin məna tutumuna malik olan şeirlərdir. Bu mənada, Səfurə xanımın bir şeirini böyük şairimiz Əhməd Cavadın ahəngdar bir şeiri ilə müqayisə etmək olar. Əhməd Cavadın «Deyir» şeirinin iki bəndinə nəzər yetirək:

*Gəncədən gəlirəm yüküm xurmadı,*
*Gəncənin yolları burma-burmadı,*
*Orda bir gözəl var, adı Durnadı,*
*Günəşə sən çıxma, mən çıxım deyir.*

*Gəncədən gəlirəm yüküm çiçəkdi,*
*Gəncənin gülləri ləçək-ləçəkdi,*
*Gəncədə bir qız var,  adı Çiçəkdi,*
*Quşlara sən uçma, mən uçum deyir.*

Səfurə xanımın «Ay Qara dənizim, ay qara gözlüm» şeirində mövzu başqa olsa da, bu şeir də başdan-başa musiqi, nəğmə və bəstədir:

*Uçum qağayıtək qoynunu gəzim,*
*Ay Qara dənizim, ay qara gözlüm.*
*Gəlsin görüşünə Sinopə qızın,*
*Ay Qara dənizim, ay qara gözlüm.*

*Ruzigar darıxar, ona dəyməmiş,*
*Darayar saçını, şana dəyməmiş,*
*Ağca əllərinə həna dəyməmiş,*
*Ay Qara dənizim, ay qara gözlüm.*

*Görünsün Sinopən, yarılsın dəniz,*
*Ayna bulaqlartək  durulsun dəniz,*
*Səndə bir toy-düyün qurulsun, dəniz,*
*Ay Qara dənimiz, ay qara gözlüm.*

*Dənizdən çıxanda Sinopə bacım,*
*Gərək hörüklərim çinbəçin açım,*
*Tökülsün üstünə şəlalə saçım,*
*Ay Qara dənizim, ay qara gözlüm.*

***Özü ay parçası, qaşı hilallı?***
***Səfurə, Sinopən dərdmi, məlalmı?***
***Yoxsa, bir əfsanə, o bir xəyalmı?***
***Ay Qara dənizim, ay qara gözlüm.***

Daha dəqiq desək, Ə. Cavadın «Gəncədən gəlirəm» şeirilə S.Pirsultanlının «Ay Qara dənizim, ay qara gözlüm» şeirləri Azərbaycan ədəbiyyatı üzükdürsə, bu şeirlər həmin üzüyün qiymətli firuzə qaşlarıdır.

## ƏBDÜLKƏRİMİN HEKAYƏTLƏRİ

Qadın yazarlarımız içərisində öz dəsti-xətti, sənətdə heç kəsə bənzəməyən, öz yolu, öz cığırı və öz izi olan mərhum Səfurə xanım Pirsultanlı həm də mahir hekayələr ustasıdır. Toplumuzun bundan əvvəlki saylarından biz onun «Süleyman dayı» povesti və poeziyası barədə təəssüratlarımızı hörmətli oxucularla bölüşmüşük. Toplunun bu sayında isə yalnız «Əbdülkərmin hekayələri»nin təhlilini verməklə kifayətlənəcəyik.

Hər şeydən əvvəl onu qeyd etmək yerinə düşər ki, Əbdülkərim Səfurə xanımın həyat yoldaşı, filologiya elmləri doktoru, professor, Əməkdar mədəniyyət işçisi Sədnik Paşa Pirsultanlının doğma dayısıdır. Hələ uşaq yaşlarımdan Əbdülkərim haqqında ağsaqqallardan eşitdiyim maraqlı söhbətlər ömürlük yaddışıma həkk olunaraq varlığımı titrətmiş, narahatçılıq yaratmış, onun haqqında povest və ya roman yazmağa dəfələrlə sövq etmişdir. Lakin Səfurə xanımın qələmə aldığı

«Əbdülkərimin hekayətləri»ni oxuyandan sonra fikrimi dəyişmiş və mövzunu yaralamaqdan çəkinmişəm. Əziz oxucum, bu mənim vicdanımın səsidir və ürəkdən gələn səmimiyyətimdir. Bu kitabda kiçik hekayələr şəklində verilmiş hadisələr real həyat həqiqətləridir.

Ağsaqqallardan eşitdiyim söhbətlərdən və hekayələrdən aldığım təəssüratlardan yəqinlik hasil etdim ki, Əbdülkərim indiyə kimi tanıdığım qəhrəmanlardan heç birinə bənzəmir. O, nə Cahandar ağadır, nə Kərbalayı İsmayıldır, nə də ki, Süleyman dayı. O, hər şeydən əvvəl geniş dünyagörüşə malik, açıq fikirli, dərin düşüncəli filosof- şairdir, o öz səsi, öz sözü olan ziyalıdır. İlahiyyəti dərindən bilən, «Quran»ı ilk dəfə Azərbaycan dilinə çevirənlərdən biri – tərcüməçi-alimdi, elmi məntiqə əsaslanan fikirlərin yaradıcısı və ən ümdəsi, gənc yaşlarından el-oba içərisində «ağsaqqal» titulu qazanmış müdrik insandır. Hətta, Əbdülkərim dünya şöhrətli yazıçı Çingiz Aytmatovun «Əsrə bərabər gün» əsərindəki Tanabaydan da fərqlənir. Öz əqidəsinə və dünya baxışına görə… Çünki Tanabayı zəmanə qul vəziyyətinə salmış, qanadları sındırılmış quş kimi arzularını, istəklərini çilikləmiş, gözdən, könüldən uzaq bir «uezdə»- bir aula sakin etmişdir. Hətta, o ürəkdən bağlandığı xanıma da öz eşqini, öz sevgisini bəyan edə bilmir.

Əbdülkərim isə bunun tam əksinədir. O, heç kəsdən çəkinmir, ulu babalarım Babək və Nəsimi kimi hər an ölümün üzünə dik baxır, onu alın yazısından irəli gələn tale qisməti hesab edir. Görkəmli folklorşünas-alim Sədnik Paşanın dediyi və Səfurə xanımın hekayələrindən aydın olan real həqiqət kimi Əbdülkərimin «troyka» adlanan üçlüyün

qərarı ilə güllələməyə apararkən onun yoxa çıxması yuxarıda sadalananlara əyani sübutdur.

Fikrimizi aydınlaşdırmaq və oxucunu inandırmaq üçün «Əbdülkərimin hekayələri»nə müraciət etməzdən əvvəl Sədnik müəllimlə olan bir söhbətimizi istəkli oxucuların nəzərinə çatdırmağı özümün vətəndaşlıq borcum hesab edirəm:

- Ana nənəm, 130 il ömür sürmüş Leyli qarı bizdə qalırdı. Sinəsi sözlə – qoşma, bayatı və laylalarla dolu olan bu nurani ağbirçək hər gün Əbdülkərimdən danışar, Səfurə xanım onu dinləyə-dinləyə xəyala dalar, fikrində nəyisə götür-qoy edərdi. Həmin söhbətlər demək olar ki, hər gün təkrar olunardı. Sonradan mənə məlum oldu ki, Səfurə xanım yazılacaq hekayələrin süjetləri barədə düşünürmüş.

Nə isə… Keçək əsas mətləbə. «İntiqam» hekayəsində Əbdülkərimin mədrəsədə təhsil aldığı illər Səfurə xanım tərəfindən elə incəliklə, elə səlis və elə dəqiqliklə qələmə alınmışdır ki, burada yazıçı məharətinin gücünə və onun qeyri-adi istedad sahibi olduğuna şübhə yeri qalmır.

Müəllif hekayədə Əbdülkərimlə Morullu Uğurluoğlu Cəfərin dostluğundan ətraflı danışır və bu dostluğun müqəddəs olduğuna oxucuda inam yaradır. Səfurə xanım göstərir ki, Cəfər tez-tez Morula gedər, ailələrinə baş çəkər və yenidən Gəncəyə qayıdarmış. Səbəbi də o imiş ki, kəndlərində Seyranə adlı bir qızı sevirmiş. Lakin günlərin birində Cəfəri evdən vaxtsız çağırdılar və o, bu dəfə Gəncəyə tez qayıtmadı. Əbdülkərimi nigaranlıq üzməyə başlayır və səhər tezdən o, şəmkirli uşaqlara qoşulub Morula gedir.

Səfurə xanım Əbdülkərimlə Cəfərin dostluğunu göstərməklə yanaşı dövrünün naqis adamlarına, dostluğa barmaqarası baxanlara, var-dövlət hərislərinə nəyinsə xətrinə dostluq edənlərə ibrət dərsi vermək istəmiş və əsasən də buna nail olmuşdur.

Hekayədə göstərilir ki, sən demə, Cəfərin qardaşı kəndin bəyi-Salman bəyin qəzəbinə düçar olmuş və qətlə yetirilmişdir.

Əbdülkərim və Cəfər uzun götür-qoydan sonra bəydən intiqam alır, onun bir qolunu kəsib ömürlük şikəst edirlər və tutulub dama salınırlar.

Əsərə müraciət edək:

«Bir neçə gündən sonra Əbdülkərimi də tutub gətirdilər. Çox keçmədi ki, onu da dostu Cəfərin yatdığı dama saldılar. Əbdülkərim dedi:

-Qorxma, bizə ölüm yoxdur! Bir az əziyyəti olacaq, ancaq qardaşının intiqamını aldıq. Bundan sonra el içində başı yuxarı gəzəcəksən».

Səfurə xanımın bu hekayəsində Əbdülkərimin yeni keyfiyyətləri, mərdanəliyi, dostluqda sədaqətliliyi, qorxmazlığı, qranit kimi sərtliyi, dəliqanlılığı və cəngavərliyi üzə çıxır.

İkinci hekayə «Nikolayın şəkli» adlanır. Səfurə xanım bu hekayədə Əbdülkərimlə Cəfərin həbsxanada yatdıqları dövrü qələmə almışdır. Çar məhkəməsində olan çatışmamazlıqlar bədii detallarla tənqid atəşinə tutulmuşdur. Əbdülkərimin dərin mülahizəsi, uzaqgörən siyasəti bir neçə dəfə məhkəməni təxirə saldırır. Nikolayın şəklinin məhkəmə hakiminin başı üstündən asılmaması, çara tel vurulması və nahayət, məhbusların əfv edilib bəraət qazanmaları Əbdülkərimin ağlının,

dərrakəsinin məhsulu idi. Həmin hekayədə Əbdülkərmin istedadlı şair olması üzə çıxır.

***Naşı namərd kəsə bilməz yolumu,***
***Dal gərdəndən çata bilməz qolumu,***
***Yazmışam yuxarı əzri-halımı,***
***Vurdum Nikolaya tel, yaranellər.***

Səfurə xanımın göstərdiyi kimi, Əbdülkərimin Nikolayın məhkəməsini susdurması Uğurlu kişi tərəfindən bir kürən at, bir də üçatılan tüfənglə mükafatlandırılır.

Səfurə xanımın «Cıdır yarışı» hekayəsinin sujeti maraqlı bir mövzu üzərində qurulub. Bu hekayədə ürəyi oğlu üçün döyünən, övlada məhəbbəti günü-gündən artan və hətta, oğlunun artan şöhrətindən qorxan sevimli bir ata surəti yaradılıb. Bu, Əbdülkərimin atası Səməd kişidir. Çünki Səməd kişinin xofa düşməsinin məntiqi əsası var idi. Namus üstündə çöllərə düşmüş, quşu gözündən vuran Qaçaq Qafar Çanaxçı dərəsinə sığmırdı. Lakin Əbdülkərimin əsaslı dəlillərlə verdiyi cavablar Səməd kişini də susmağa məcbur edir:

-Ata, mollanın, din xadiminin mənliyi, qüruru olmur? Ədaləti qorumaq elə dini qorumaq deməkdir.

Hekayədə elat camaatının toy məclisi, birincilik uğrunda keçirilən cıdır yarışları elə bədii ştrixlərlə verilmişdir ki, istər-istəməz Səfurə xanımın tərəkəmə həyatına bu qədər dərindən bələd olması insanı heyrətə salır. Yarışdan əvvəl Əbdülkərimin əmisi oğlu Sadıqla söhbətini bir nəfəsə oxuyan, su kimi içən oxucu inanır ki, 3 km məsafədən mənzil verilən ata heç qızılquş da çata bilməz. Bu kiçik parçada Əbdülkərimin humanistliyinə, ədalətli

olmasına oxucular inanır, onun mərdliyi qarşısında baş əyir. Çünki Sadığın nişanlısı atlıların içindən keçib gedəcəyi kənddən idi.

-... Kürən bayaq atları ötüb keçdi. Sadıq Əhmədli kəndinə çatanda incik halda dilləndi:

- Əmioğlu, axı sənə dedim ki, nişanlım, içindən keçdiyimiz kənddəndir, mənə şərait yarat, özümü göstərim. Əbdülkərim gülümsünüb yarızarafat, yarıciddi dedi:

- Ə, Sadıq, deyirsən sənin sözünlə bir qıza görə heç vaxt yarışlarda basılmayan atımın adını batırım?

Səfurə xanımın qəhrəmanı bizlərə «at igidin qardaşıdı» deyən qoç Koroğlunu xatırlatmırmı? Əbdülkərimi Koroğlunun layiqli varisi adlandırsaq, məncə, yanılmarıq.

Sahibinə sadiq, vəfalı, arxa, dayaq olan at surətləri Səfurə xanımın bir neçə əsərinin ana xəttini təşkil edir.

Bu maraqlı, insanı düşündürən, qəlbləri riqqətə gətirən əsərlərdən biri də «Kürənin oğurlanması» hekayəsidir. Əsər mövzu baxımından Koroğlu dastanındakı «Həmzənin Qıratı qaçırması» boyuna bənzəyir. Dastanda Qırat, hekayədə isə Kürən oğurlanır. Lakin bəzi məziyyətlərinə görə əsərdəki surətlər bir-birindən fərqlənir. Əgər dastanda dəlilər Həmzənin qovulmasını israrla təkid edirlərsə, bunun əksinə, hekayədə Əbdülkərimə paxıllıq edənlərdən biri də yaxın qohumu-əmisi oğlu Sadıqdır. O, əl altından Qaçaq Qafara məktub göndərib Kürənin Əbdülkərimin əlindən çıxarılmasını təklif edir. Özü də atı Qədimdən başqa heç kəs oğurlaya bilməz! – deyə məsləhət verir.

Səfurə xanım yaratdığı Qədim surəti həqiqətən təpədən dırnağadək ziddiyətli, lakin oxucunu düşündürən maraqlı bir obrazdır. Əvvəlcə 18 qoyuna şirniklənib Kürəni oğurlayıb qaçırdan Qədim onu qovanların içərisindən Əbdülkərimin:

- «Ə, Qədim, atın sinəbəndini (kantarını) kəs, atın qollarını tutur, qaçmağa qoymur!» – deyimini eşidib deyilənə əməl edir və təhlükədən sovuşub aradan çıxır. «Həmkəndliləri acıqlı-acıqlı Əbdülkərimə dedilər:

-Biz sənin atından ötrü əldən-ayaqdan düşürük. Sən də … Sənin hərəkətindən baş aça bilmədik».

Bu uduzmaqda udan Əbdülkərim gülə-gülə dedi:

-Daha sizin atlarınız onu tutandan sonra Kürəndən Kürən olarmı? O elin gözündə qatır qiymətinə düşər.

Əbdülkərimin qeyrətli hərəkətinə görə Qədim tutduğu işdən peşiman olub atı sahibinə qaytarır. Bu hərəkəti ilə o gözümüzdə müsbət obraza çevrilir.

Səfurə xanımın yazıçılıq məharəti ondadır ki, nəinki Əbdülkərim kimi vuran-tutan cəngavərləri, hətta Qədim kimi oğurluqda ad çıxarmış bir adamın müsbət keyfiyyətlərini görür və onu müsbət planda əks etdirə bilir. «Tələ» mövzusuna, məzmununa və sujet xəttinə görə digər hekayələrindən fərqlənir. Belə ki, bu əsərdə Əbdülkərimin çətində baş çıxarması, heç nədən çəkinməməyi, qorxmazlığı, cəngavərliyi, söz verib əməl etməsi özünü qabarıq şəkildə göstərir. Əsərin süjeti maraqlı bir mövzu əsasında qurulur. Qaçaq Qafar məktub yazıb onu toya çağırır.

«Gedim, getməyim». Nəhayət uzun fikirləşmədən sonra o, toya getməli olur. Lakin Əbdülkərim toya tək getmir. Qardaşını özüylə aparır. Çanaxçı kəndinə çatar-çatmaz qardaşını qayalar arasında gizlədib deyir:

- Mən oynayanda havaya güllə atacağam. Sən onda hiss etdirmədən tez-tez yerini dəyiş, kolların, daşların arasına keç. Ara vermədən göyə güllə at. Qoy bilsinlər ki, dağda güclü dəstəm var. Onların adamları toya tək gəldiyimi deyəcəklər. Ancaq atışmadan çaş-baş qalacaqlar.

Əbdülkərim toyda oynamağa dəvət edilir. O, birdən Kürənin belinə sıçrayır və atın belində ayaq üstündə oynamağa başlayır. Əbdülkərim özünə qarşı tələ qurulduğunu yaxşı bildiyi üçün göyə güllə atır. Dağdan cavab atəşləri eşidilir. Əbdülkərim yenidən atın belinə qalxıb yel kimi uçmağa başlayır. Yolda qardaşı ilə birləşib kəndlərinə yol başladı.

…Səfurə xanım bu hekayədə Əbdülkərimi hər işi tədbirlə həyata keçirən, ehtiyatlı tərpənən bir obraz kimi təsvir etmişdir. O, ağlının gücü ilə ən güclü düşmənə belə qələbə çalır.

Bir oxucu kimi şəxsi qənaətim budur ki, «Əbdülkərimin hekayələri»nin kulminasiya nöqtəsi, zirvəsi «Namusun sərhədi»dir. Bu hekayədə qədim mifologiyamızdan, irsi genimizdən irəli gələn abır-həya, namus, ismət məsələləri ön plana çəkilmişdir. «Ağır otur, batman gəl», «Gəlin gəlin olmur, getdiyi yer gəlin olur» kimi atalar sözləri istər-istəməz yada düşür.

Kəndə başqa kənddən gəlin gəlmişdi. Əbdülkərim o kəndin geyim tərzini öyrənmək məqsədilə bulağa su gətirməyə gedən gəlinə baxır və görür ki, Qanlıoğlunun gəlininin donu dizindəndir.

Əhvalı dəyişir və gəlin tərəfə bir güllə atır. Gəlin qışqırır. Əbdülkərimin yanındakılara: - Qorxmayın! Siz bilirsiniz, mən durnanı gözündən vura bilərəm. Ancaq bu durnanın ayağını cızdırmışam. Geyim insanın abırı, həyası, namusudur, xüsusilə qadının. Mən Qanlıoğlunun gəlininə namusun sərhəddini, donun harada duracağını göstərmişəm- dedi. Bu izahdan sonra Əbdülkərimi nəinki qınadılar, hətta qeyrət çəkən əməlinə görə ondan razı qaldılar.

Ümumiyyətlə, namus, ismət, qeyrət, ilahi məhəbbət və nəsihətamiz fikirlər Səfurə xanım Pirsultanlı yaradıcılığının Günəşidi, qaranlıqdan işığa doğru uzanan yoludur. Ən ümdəsi isə insanı saflığa çağırır. Bu da Səfurə xanımın irsi genindən, damarlarından axmış təmiz qanından irəli gəlir.

## ***«Öldür bu yuxunu, Səfurə xanım»***

Səfurə xanım dünyasını dəyişəndən, axirətə-haqq dünyasına qovuşduqdan sonra onun yoxluğu dost-tanışın, eləcə də həmkarlarının ürəyini göynətmiş, bu göynərtilər qələm sahibinin iç aləminin dərinliklərindən dəli dağ çayı kimi haray-həşir qopara-qopara bəyaz vərəqlərə köçmüş və mərhumun özündən sonra monumental abidəyə çevrilmişdir. Mərhum şairə və yazıçımıza həsr olunmuş şeir, hekayə, monoqrafiya və məqalələr üst-üstə toplanarsa, cild-cild kitablar yaranar. Bununla da oxucu ana, bacı və vətəndaş adının ülviyyətinə, insan adı daşıyan bəşəri və müqəddəs varlığın ucalığına və ululuğuna heyran qalar. Bəli, Səfurə xanıma həsr olunmuş şeirləri vərəqlədikcə onun həyatı boyu mələykələr kimi məğrur, təmiz, saf və ləyaqətlə yaşadığının şahidi oluruq. İlk öncə onu

qeyd etmək lazımdır ki, S.Pirsultanlıya ən çox şeir həsr eyləyən onun ömür-gün yoldaşı Sədnik Paşadır. O, bütün söz-söhbətini Səfurə xanımla başlayır və Səfurə xanımla qurtarır. Görkəmli alimin nəzərində Səfurə xanımdan gözəl, mehriban və alicənab qadın yaranmayıb və yaranmayacaqdır.

***Qayalar başında ağ duman olsan,***
***Sədnikin qəlbində bir güman olsan,***
***Təzədən dünyaya qayıdan olsan,***
***Mən səni sevərdim, sən kimi, gülüm?***

Yaxud:

***Sədnikin ayı da, günü də sənsən,***
***Sədnikin imanı, dini də sənsən.***
***Sədnikin nəfəsi, ünü də sənsən,***
***Gözüm yollardadı, gülüm, qayıt, gəl.***

İstedadlı və tanınmış şairimiz Məmməd Alimin «Öldür bu yuxunu…» şeiri həm mövzusu, həm məzmunu, həm də bədii detallardan istifadə edilmə imkanlarına görə yenidir, çoxşaxəli və rəngarəngdir. Şeirdə maraqlı cəhət odur ki, şair bir tərəfdən istedadlı bir qələm sahibinin dünyasını dəyişməsinə ürəkdən təəssüflənir, insan həyatının çiçək kimi vaxtsız solmasına görə zamanı, təbiəti və yaradanı qınayırsa, digər tərəfdən Səfurə xanımın ölümünü yuxuya bənzədir və həmkar ərki ilə ondan bu yuxunu öldürməyi tələb edir.

***Aç ala gözünü, göy təkinə ax,***
***Başdaşına dönən Sədnikinə bax.***
***Qəlbinə qalanan qəm yükünə bax,***

### *Öldür bu yuxunu, Səfurə xanım.*

Aşıq Mayıs Gəncəli, Həsən Göyçəli, Qəmkeş Allahverdi, Məmməd Qaşqaçaylı, Mikayıl Rəhimli, Pirverdi Dağlaroğlu və digər şairlərimizin şeirlərində Səfurə xanımın itgisi adi itgi kimi yox, ədəbiyyatımızda baş verən böyük itgi kimi dəyərləndirilir, eyni zamanda Sədnik müəllimə və onun övladlarına  təskinlik vermək işartıları közərir.

Tanınmış şair Ələsgər Əlioğlu «dünya bir pəncərədir» deyimini özünəməxsus incəliklə oxuculara  çatdırır. İstedadlı şairə, gözəl həyat yoldaşı, mehriban ana və qayğıkeş nənə Səfurə xanımın son mənzilə yola salınması «ölüm səfərinə» çıxmaq kimi mənalandırılır:

***İlk dəfə əhdini pozdu o pəri,***
***Niyə gənəşmədi getdiyi yeri?***
***Sən Qars səfərindən dönməmiş geri,***
***Ölüm səfərinə çıxdı Səfurən.***

Şairə Zəhra Mirhəsənli uzun illər boyu Səfurə xanımı dərindən tanıyan, onun qayğı və köməyini hər zaman hiss edən ziyalı bir insandır. O, öz şeirində Səfurə xanımın fitri istedada malik bir şairə olduğunu qabarıq  şəkildə nəzərə çatdırmaqla yanaşı, eyni zamanda fələyi zülmkar adlandırmaqla onun özündən sonra gələnlərin ürəyində əbədi yaşayacığını bədii boyalarla ön plana çəkir. Elə buradan da belə qənaətə gəlirik ki, ölüm qorxulu və heyrətli bir varlıq deyil, əksinə ölümdən sonra ölümsüzlük qazanmaq  müqəddəslik və əlçatmazlıq zirvəsidir. Bu zirvə hər kəsə müyəssər olmur. M.Muşfiq, Əli Kərim, Sərdar Əsəd, Xəlil Rza… eləcə

də Səfurə xanım öz ölümləri ilə əbədiyaşar ömür qazanmış və bu zirvənin fövqünə ucalmışlar. Bu mənada gözəl insan, ləyaqətli vətəndaş, istedadlı şair Sahib İbrahimlinin Səfurə xanımın ölümü münasibəti ilə yazdığı «Görünmür» şeirinin bir bəndinə nəzər yetirək:

***Hər gələn qədərdə durma sən öndə,***
***Söndü bəxt ulduzun o şam sönəndə.***
***Bir mələk uyuyur sənin sinəndə,***
***Ürəyi daşlara yeri görünmür.***

Doğrudan da Səfurə xanım göydən enmiş mələklər kimi ürəyi daşlara görünə bilməz.

…Və yaxud lirik tapıntılar şairi kimi tanınan Lətif Zərgərin «Sədnikin» şeirində ruhun yaşaması, məzar üstə ağlaması  Həzrəti-Əlinin öz tabutuna özü girməsi anını xatırladır.

***Ruhun qəbrin üstə ağlayan kaman,***
***Onun həsrətinə yas tutur zaman.***

Hürufiliyin əsasını qoyan Həllac Mansur və qeyriləri «insan ürəyini son mənzil, insan sinəsini tabut» adlandırmaqla ölümdən doğan ölümsüzlüyü «kəşf» etmişdir. Bu mənada Nizami Sədanın Səfurə xanıma həsr etdiyi «Oldu» şeiri yuxarıda sadalananlara  bariz nümunədir.

***Ürəyimiz qəbrin, son mənzilindi,***
***Həzin döyüntüsü şirin dilindi.***
***Gözlərimiz sənin qəm şəkilindi,***
***Ay ana, sinəmiz tabutun oldu.***

Övladın anaya məhəbbəti, onu dünya qədər sevməsi Sabutay Sədnikoğlunun «Uçan göyərçinim», Anamın «Çaylar» şeirinə və digər şeirlərində öz əksini tapmışdır:

***Ağlayıram için-için,***
***Mənim uçan göyərçinim.***
***Nə tez getdin, axı neçin?***
***Mənim uçan göyərçinim.***

***Qəlbimdə bəslərəm səni,***
***Nəğməmdə səslərəm səni.***
***Ah, necə istərəm səni,***
***Mənim uçan göyərçinim.***

Və yaxud:

***Çaylar burula-burula, anam!***
***Çaylar durula-durula, anam!***
***Dağlardan enər arana, anam!***
***Sular yorula-yorula, ana!***

Bu yazıda hörmətli qələm sahiblərinin Səfurə xanıma olan hörmət və ehtiramlarını açıqlamağa çalışdım. Ancaq, bu ehtiramı Səfurə xanım əvəzedilməz və təkrarsız şəxsiyyəti, gözəl əsərləri və ləyaqətli insanlığı ilə qazanmışdır. Ona görə də hörmətli oxucular adından ona Allahdan rəhmət diləyir və «yerin behişt olsun!» – deyirəm. Amin!

***Ramiz Təmkin,***
***şair-publisist***

## SƏFURƏ XANIM PİRSULTANLININ «SÜLEYMAN DAYI» POVESTİNDƏ HUMANİST DƏYƏRLƏR

Öz zənginliyi ilə dünya xalqlarının ədəbiyyatları içərisində özünəməxsus yer tutan, fərqlənən Azərbaycan ədəbiyatında povest janrı XX əsrin əvəllərində geniş şəkildə yayılmağa başladı. Qısa müddət ərzində povest janrında humanistlik, xeyirxahlıq, vətənpərvərlik, insanpərvərlik kimi yüksək dəyərli xüsusiyyətlər daşıyan əsərlər yaradıldı.

Özünün insan psixologiyasının dərin, ziddiyyətli tərəflərini, humanizmin yüksək bədii ustalıqla aşılanma prinsiplərini və bir sıra ali hisslərin melotonik bir şəkildə göstərilməsini nəzərə aldıqda S.Pirsltanlının «Süleyman dayı» povesti Azərbaycan ədəbiyyatının povest yaradıcılığında xüsusi yerlərdən birini tutur. Bu yüksək yaradıcılıq nümunəsinin də bir sıra nəzərdən kənarda qalmış, geniş oxucu kütləsinə lazımi səviyyədə çatdırılmamış ədəbi incilərimiz kimi tədqiqata böyük ehtiyacı var. Doğrudur, əsər haqqında şair-publisistlər Ramiz Təmkinin və Ələsgər Əlioğlunun elmi-bədii fikirlərlə, əsaslı müqayisə faktları ilə zəngin olan monoqrafiyaları dərc olunmuş, əsər haqqında bir sıra ədəbi xadimlərin çıxışları olmuşdur. Lakin əsərdə özünə ayrılmaz yer tapmış humanist fikirlərlə yanaşı, bir sıra cəhətlərin yenidən nəzərdən keçirilməsinə ehtiyac olduğu danılmazdır.

Əsərdə humanist fikirlərin aşılanması əsasən Süleyman dayının yüksək sənətkarlıqla yaradılmış xarakterində özünü biruzə verir.

Süleyman dayı hər şeydən əvvəl yüksək hörmət qazanmış el ağsaqqalıdır. Cavanlığında dəli-doluluğu ilə seçilən Süleyman dayıya el arasında «Dəli» ləqəbi verilmişdir. Yazıçı onun xarakterini oxucuya tam çatdırmaq üçün qəribə bir üsula əl atır. «Dəli Süleyman o illərdə nə qədər güllə atdı, hamısı havaya getdi, bircə adam da öldürmədi, yaralamadı». Bəli, bu yazıçının özünün fitrətindəki humanizmdən irəli gələn tip açımıdır. Dəli Süleyman o illərdə kolxozlaşmaya, ümumiləşməyə qarşı çıxmış çox bəyi-xanı təslim edir. Lakin təbiətindəki humanizm Dəli Süleymanı onların müdafiəsinə qalxmağa vadar edir. Qəddar «troyka»nı baş almağa, onları güllələməyə qoymur. Sinəsini qabağa verərək «malını aldıq, torpağını böldük, mülkünü elliyinki elədik, yıxmağa nə var, hünər qurmaqdır» deyə, rayon mərkəzinə gedir, neçə-neçə ana-bacıların, körpələrin ömrü boyu axıdılacaq göz yaşlarının qarşısını alır.

Burada bir sual ortaya çıxır. Dəli Süleyman belə müdafiə edəcəkdisə nə üçün onları təslim edirdi? Əslində bunun özü də böyük humanizmdən xəbər verir. O, razılaşa bilmir ki, bir nəfər yesin, min nəfər dilənsin, bir nəfər rahat həyat sürsün, min nəfər onun bu rahatlığı üçün çalışaraq ailəsinin yanında ehtiyacdan, qayğıdan qovrula-qovrula yaşasın. Bu hisslər yazıçının ana təbiətindən irəli gələrək tipin daha canlı olmasını, onun sxematiklikdən kənarlaşmasını təmin edir. Daha bir misal. Süleyman kişi bircə dəfə bir adamı yaman döyür. Ancaq kəndin içində yox, kənddən xeyli aralı - Çayqarışanda. O gecə adam hey «Ay Allah, öldüm, yandım» deyə haray salır, səs-küyə evlərindən çölə çıxanlar uzaqdan Dəli Süleymanın

Səkilinin səsini eşidib geri dönürlər. Bilirlər ki, o, Süleyman kişidirsə nahaqdan heç kəsi döyməz. Yəqin böyük günah edib, kimdirsə. Dəli Süleyman onu kənddə döymür. Bəs bu nədən irəli gəlir? Əsərin milli mentalitetimizlə sıx bağlılığı burada da özünü biruzə verir. El-oba içərisində, mərd-namərd yanında, arvad-uşaq içində kişi kişiyə əl qaldırmaz, onun şəxsiyyətini alçaldıb, el içində xar etməz. Bütün bunlar və Dəli Süleymanla onun vəfalı atı Səkil Kürənin timsalında insan və heyvan psixologiyasının qarşılıqlı şəkildə yüksək məharətlə göstərilməsi, Süleyman dayının Səkil Kürənə olan məhəbbəti də güclü hümanizm işığından, nurundan xəbər verir.

Ümumiyyətlə, Səfurə xanımın yaradıcılığında nəsr əsərlərinin zirvəsi sayılan bu əsərdə yaradılmış parlaq insanpərvərlik, humanizm haqqında fikirlər gözəl bir monoqrafiyanın materialıdır. İnsanpərvərlik kimi ali hissin belə yüksək şəkildə göstərilməsini məhdud imkan çərçivəsində tam göstərmək mümkün deyil.

Yəqin ki, gələcək araşdırmalarda bu mövzuya qayıdılacaq.

***Bəxtiyar Əlirzayev,***
***jurnalist***

## SƏNSİZLİKLƏ BİTMƏYƏN YOL

***(Xatirə)***

Hər gün birimiz tərk edirik bu dünyanı. İstəsək də, istəməsək də. Elə dünyaya da soruşulmadan gəlirik, hər gün birimiz. İradəmiz xaricində olan bu iki başlanğıc boşuna yaradılmadığımızı və yaradan tərəfindən verilən ömür payını yaşamaqla müəyyən bir missiyanı yerinə yetirməli olduğumuzu ortaya qoyur. Və əslində yaradılışımızın qayəsini düşünməyə vadar edən önəmli bir mesaj verir.

Qəribədir… Nədənsə var olduğumuzu anlamaq çətin gəlir bizə. Dost-tanışlarımızın, yaxınlarımızın bir-bir aramızdan getməsi belə bu gerçəyi bizə haqqıyla duyurmaqda aciz qalır. Kədərlənirik, qüssələnirik, amma ölümü heç yaraşdırmırıq özümüzə. Düşünmürük belə. Düşünə bilmədiyimiz bu qayə doğmalarımızın, illah da ananın simasında gerçəkləşəndə … hər şey dəyişir.

Anamın vaxtsız vəfatı məni və doğmalarını dərindən sarsıtdı. Anama qədər biz ölümün nə olduğunu bilməzdik. Hər şey bizə adi gələrdi. Amma onun ölümü ilə hər şey dəyişdi. Anam 30.07.94-cü il imamın qırxı günü üç dəfə salavat çevirərək dünyasını dəyişdi. Son nəfəsinə nə mən, nə də atam çatdı. Atam Türkiyə Universitetlərindən birinə mühazirə demək üçün dəvət olunmuşdu. Lakin iyulun 29-u gördüyü bir qarışıq yuxu onu mühazirələri yarımçıq qoyub geri dönməyə vadar etdi. Və sağ-salamat qoyub getdiyi ömür-gün yoldaşının cənazəsinə çata bildi. Bəlkə də bu yuxu olmasaydı atam anamın vəfatından xəbər tutmayacaq, biz də onun hansı şəhərdə, harada olduğunu dəqiq bilmədiyimiz üçün axtarıb xəbər verə bilməyəcək, atam anamın cənazəsinə belə çata bilməyəcəkdi. Bu da bir təsəllidir bizə…

Həyatda anama yaxın olmasam da (ailə qurduqdan sonra Bakıya köçdüm) düşüncələrimiz, fikirlərimiz çox yaxın olub. Məhz buna görə də onun ölümü məni çox kədərləndirdi. Sanki həyatdan küsdürdü. Və onu tez-tez yuxuda görməyə başladım. O, mənim üçün bir təsəlli oldu. Qəribəsi bundadır ki, anam yuxuma tez-tez gəlməz. Gələndə də nələrdənsə xəbər verər. Ya olmuş, ya da olacaq hadisələr haqqında əvvəlcədən tədbir görmək üçün məni xəbərdar edir.

Anamın yası ərəfəsi idi. Dost-tanışlar, onu yaxından və uzaqdan tanıyanlar anam haqqında kədərimizə şərik olduqlarını ifadə edən şeirlər, xatirələr yazıb gətirirdilər. Atam anamın ruhuna xatirə olaraq bütün bu şeir və xatirələri, eləcə də anamın özünün sağlığında yazdığı, ancaq gizli saxladığı və ölümündən sonra üzə çıxan, öz dəst-xəttilə yazmış olduğu dəftərdəki şeir, povest və hekayələri kitab halına salmaq qərarına gəldi. Anam yazmış olduğu şeirlərini dəftərdə «Şehli çiçəklər» adlandırmış və qarşısında «Mənim nəğmələrim» sözlərini yazmışdır. Buna görə də atam kitabın adını «Şehli çiçəklər» adlandıraraq çapa hazırladı. O ərəfələrdə anam yuxuma gəldi və «Qızım atana de ki, kitabın adını «Şehli çiçəklər» yox, «Dünya, səndə nəyim qaldı?» qoysun». Atama zəng vurub yuxunu danışdım. Atam bərk əsəbiləşdi və «onun övladları, nəvələri, şeirləri, hekayələri qalıb» - dedi. Bir-iki gün sonra anam yenidən yuxuma gələrək: «Qızım, üç gün sonra artıq gec olacaq. Atana de ki, kitabın adını dəyişdirsin». Yenə atama zəng edib yuxunu olduğu kimi danışdım. Atam rəssam kitabın adına uyğun üz qabığı üçün rəsm işlədiyindən bunun mümkün olmayacağını bildirdi. Buna

baxmayaraq mən kitabın redaktoru yazıçı, filologiya elmləri doktoru professor Əzizə xanım Cəfərzadəyə və «Bayatı» Sifariş Ədəbiyyatı Mərkəzinin direktoru Rəfiqə Mirzəyevaya zəng edib mövcud durumu bildirdim. Hər ikisi razılığını bildirdilər. Onlar yuxunu nəzərə alıb, rəssamın çəkdiyi şəkil dəyişilmədən kitabın adının dəyişilməsinə razılıq verdilər. (Allah hər ikisindən razı olsun).

Sağlığında, mənə arxa olduğu kimi, bu gün də hansısa məqamda çarəsiz qalanda yenə də anam mənə yol göstərir. Həyatda olmasa da, yuxuda. Bu da bir təsəllidir…

Həyətimizə bir cüt qumru gələrdi. Atamın böyük kitabxanası vardı, hansı ki, onun bütün səliqə-sahmanı ilə anam məşğul olurdu. Bir gün anam qumrulardan birinin həmin kitabxanada balaladığını görüb və kitabxananın qapısını qıfıllayıb pəncərəsinin birini açıq qoyur. Atama da qumru balası bir qədər böyüyənə qədər kitabxanaya girməməsini məsləhət görür. Qumru balası böyüdükdən sonra qapıdan qıfılı açır. Bu qumrular demək olar ki, bizim həyətdə olardı. Anam onları o qədər sevərdi ki, hətta bir dəfə atama fotoaparat gətirib onların şəkillərini çəkməsini xahiş etmişdi. Lakin atam laqeydlik göstərmişdi. Anam dünyasını dəyişdikdən sonra bu qumrular yoxa çıxdılar.

Bir gün səhər həyətmizdə hönkürtü səsi eşitdim, gələndə gördüm ki, dayım əllərini üzünə tutub hönkürtü ilə ağlayır. Dayım anamın məzarını ziyarət edərkən həmin qumru quşlarından birinin baş daşına qonduğunu görmüşdü. O quş həyətimizdən niyə yoxa çıxmış, məzarlığa necə getmiş, anamın qəbrini necə tapmışdı? Bu sirr hələ də bizim üçün müəmmalıdır.

Anamla atam arasında böyük məhəbbətlə yanaşı bir dostluq var idi. Baxmayaraq ki, aralarında on yaş fərq var idi. Hər mənada anam atam üçün böyük dayaq idi. Atam anamdan hər baxımda güvəndə idi. Elə bu güvəncin nəticəsi idi ki, atam hər zaman irəliyə baxırdı. Atam tez-tez Azərbaycanın müxtəlif bölgələrinə səfər edər, külli miqdarda folklor nümunələri toplayıb gətirər, məzuniyyətlərə isə xarici ölkələrə gedərdi. Vaxtı o dərəcədə məhdud olardı ki, topladığı folklor materiallarını gətirib evə qoyan kimi dərhal dərsə, mühazirə deməyə gedərdi. Anam onları səliqə-sahmana salar, janrlar üzrə qruplaşdıraraq hər biri üçün ayrıca qovluq açardı. Sonra onları ayrı-ayrılıqda redaktə edərək tam hazır kitab halına salardı. Atamın vəzifəsi sadəcə onlara müqəddimə yazıb çapa vermək olurdu.

Anam atamın namizədlik, doktorluq dissertasiyalarını və eləcə də bir çox elmi əsərlərini öz əlləri ilə yazı makinasından çıxartmışdır. Atamın dostlarından biri Məmməd Məmmədov (Texnologiya İnstitutunda fəlsəfə müəllimi) yazdığı bir xatirədə qeyd edir ki, indi başa düşdüm ki, Sədnik müəllim bu qədər işin öhdəsindən necə gəlirmiş, sən demə onun «gizli sexi» var imiş.

Bu baxımdan doğrudan da anam atam üçün böyük dayaq idi. O, atamın ən böyük köməkçisi idi. Və bütün bunları o, çox şərəflə yerinə yetirərdi.

Anamın bir qəribə xüsusiyyəti də vardı. Atam hər zaman gəzib folklor topladığı yerlərin pirləri haqqında maraqlı rəvayətlər toplayır və anama danışardı. Bu anamın diqqətini cəlb edərdi və dərhal bir qurban götürüb o pirləri ziyarətə gedər və çox yüksək əhval-rühiyyə ilə qayıdardı.

Atamla anam adətən heç bir xeyir işdən qalmazdılar. Və həmişə də qabaq-qabağa «Ruhani» havasını oynayardılar. Onların ikilikdə oyunu o qədər bir-birini tamamlayırdı ki, məclis tamaşaya durardı. Ancaq atamın bir şeyə çox acığı tutardı həmişə. Və hər dəfə əsəbi gələrdi toydan. Atam çıxıb elan edərdi ki, «Xahiş edirəm biz oynayanda heç bir qohum-əqrəba qarışıb bizimlə oynamasın. Oyunun ahəngi pozulur». Lakin buna baxmayaraq yaxın qohumlar, tanışlar oyuna qoşularaq gah anamın, gah da atamın qarşısına keçərək oyunun ahəngini pozardılar. Qeyd edim ki, bu gün də atam hansı toya gedərsə getsin yalnız ruhani havasını sifariş verir və təkcə oynamaq istədiyini məclisdəkilərdən rica edir. Kim bilir bəlkə də o, tək oynamaqla əslində xəyali dueti tamamlamaq istəyir yenə…

Anam simaca gözəl qadın idi. Ağbənizli, alagözlü, uzun saçlı… Alnında, üzündə, nə bir qırış, nə də saçlarında bir ağ dən vardı. Həmişə deyərdi ki, nə övladlarımdan, nə də nəvələrimdən biri mənə oxşamadı.

Anam vəfat edərkən altı övlad, səkkiz nəvə, onlardan da uca bir ad qoyub getdi. Anam yaşından cavan göründüyü üçün qız nəvələri ona «Çiçi mama», gəlinləri isə «bacı» deyərdilər.

Kiçik qardaşımın və bacımın toyunu görmək anama nəsib olmadı. Kiçik qardaşım çox arzu edirdi ki, ilk övladı qız olsun və anamın adını yaşatsın. Belə də oldu. İndi balaca Səfurənin saçları sarışın, gözləri ala, bənizi ağdır. Kiçik bacımın da bir qız övladı dünyaya gəldi. O da ala gözlü, sarı saçlı, ağ bənizli… Heyf ki, onları görmək anama nəsib olmadı. İndi ruhu şad olsun!

Ana olaraq anam haqqında yazmaq mənə çox çətindir. Sözlərimin yetərsiz olacağından çəkinirəm. Ana Allahın insanlığa elə bir lütfüdür ki, cənnət belə anaların ayağı altındadır. Nə qədər deyilsə, yazılsa yenə də azdır. Və nə qədər üzülsək də nə cild-cild kitablar, xatirələr, nə də üzüntülər onu qaytarmayacaq. Bizə qalan bir təsəlli var… Anamın qəlblərdə yaşaması və adı anıldığı zaman da

qəlblərin kövrəkliklə belə deyişidir: «Allah, o gözəl anana rəhmət eləsin».

***Ruhun şad olsun, qəbrin nurla dolsun!***

***Sahibə Paşayeva,***
***Azərbaycan Milli Elmlər Akademiyası***
***Folklor İnstitutunun elmi əməkdaşı***

## ÖZÜNDƏN SONRA YAŞAYAN ŞAİRƏ

XX əsr Azərbaycanın qadın şairləri sırasında Səfurə Əli qızı Pirsultanlının (29. XII. 1938 – 30. VII. 1994) adı da özünəməxsus ünvan qoydu – Səfurə xanımın həyat yoldaşı folklorşünas alim Sədnik Paşayevin səyi ilə yığılıb nizama salınmış və Əzizə xanım Cəfərzadənin redaktorluğu ilə nəşr olunmuş iki kitabı qalıb. «Dünya, səndə nəyim qaldı?» («Azərbaycan Dövlət Kitab Palatası, 1994) və «Ağ yağış» (1995). Şeirlər və hekayələri toplanıb burada. Yaradıcılığının başlıca mövzüsu ana Vətənimizlə sıx bağlı olan şairənin həyatdan nakam köçməsilə bağlı

qızı Sahibə xanımın «Sənsizliklə bitməyən yol» adlı ana itkisindən doğan həsrətli, nisgilli bu xatirə yazısını çox kövrələ-kövrələ oxudum.

Sədnik müəllimin şeir və hekayələrdən ibarət «İnciçiçəyim» (Gəncə – 1996) kitabında da inciçiçəyi elə onun özünün həyat yoldaşıdır. Eyni adlı şeirdə də:

***Səni bir gözəlin əlində gördüm,***
***Ay inciçiçiyəim, inciçiçəyim.***
***Qoşa hörüyündə, telində gördüm,***
***Ay inciçiçəyim, inciçiçəyim.***

Deyəndə də inciçiçəyini tellərinə düzən həyat yoldaşı Səfurə xanımın obrazını yaratmışdır. Elə həmin kitabda rast gəldiyimiz aşağıdakı misralarda isə həyat yoldaşının itkisindən doğan dərin kədərin ifadəsini görürük:

***Taleyə nə deyim, Rəhim Nəzəri,***
***Səfurəm Təbrizi görmədi getdi.***
***Pirsultan elində qonaq qalmadı,***
***Tikmədaşda güllər dərmədi getdi.***

Ömür-gün yoldaşını itirmək həyatda ən əvəzolunmaz itkidir və bu ağrı-acının inikasını bu şeirin ruhunda bir ağı kimi duyuruq…

Səfurə xanımın özünün yazdığı bir gəraylısı diqqətimi çəkir:

***Nəğmə qoşduq hər daşına,***
***Pirsultan, yaz yaddaşına.***
***Hər kəs dolansa başına***
***Yenə bizi xatırlasan.***

Gəraylıda Pirsultan dağına kitabın insanın ömrünün-gününün dağların daş salnaməsinə yazılmasını arzulayır, bizlərdən sonra gələnlərin bu yazıları oxuyub bizdən ötüb-keçən keçmiş adlı bir dünyanın həzinliklə gələcək nəsillərin yada salmasını kövrək ləfz ilə ifadə edir. Səfurə xanım Pirsultanlının şeirlərindən təbiət vurğunu olduğu dilə gətirilir, «Suyuna şərbət töküb bal qatan Sinsar bulaq»dan, «Qız hörüklü İncə çay»dan, Kürdən, Arazdan bəhs açdığı nümunələrdə biz Vətənin ətrini poetik bir nəfəslə məlhəm tək ciyərlərimizə soruruq.

***Yerin zirvələrdi, zirvədə dayan,***
***Gəl həsədlə baxma çəmənə, qartal!***
***Gəzsin qoy çəməni qırqovul, turac,***
***Dağlarda keşiş çək Vətənə, qartal!***

\- deyə yazdığı qoşmasında qartalı dağların keşikçisi obrazı kimi təqdim edir.

«Meşə» qoşmasında isə sanki oxucu alma - güllü, yamyaşıl meşələrin seyrinə dalır, təbiətimizin füsunkar mənzərəsi ilə baş-başa qalır:

***Meşələr əfsunlu, sirli-soraqlı,***
***Hophop quşlarının başı daraqlı.***
***Lalələr görərsən əli çıraqlı.***
***Səni öz qoynuna alar meşələr.***

***Səfurə, qəm gəzmə, gəl sevinc ara,***
***Meşədə qonaq ol buz bulaqlara.***
***Bulaqda güzgülən, zülfünü dara,***
***Səni öz qoynuna alar meşələr.***

Burada təbiət mənzərəsi necə də canlı, obrazlı təqdim olunur: hophop (digər adı şanapipik) quşunun başı daraqlı olması, lalələrin əli çıraqlı bir gözəl donunda təqdimi, ayna bulaqların gözəlin üzünə güzgü tutması və bu güzgü önündə saçlarını nazlana-nazlana daraması səhnəsi nə dərəcədə insanın könlünü riqqətə gətirir. «Qızlar» qoşmasında isə Səfurə xanım Pirsultanlı gənc qızlarımıza və təzə ailə quran gəlinlərimizə ağbirçək öyüdü verir:

***Əyləş, cavan ana, beşik başında,***
***Nələr var körpənin gör baxışında.***
***O sənin dünyandır durur qarşında,***
***Övladı laylasız böyütmə, qızlar!***

Fikir verin: körpəsini ananın dünyası adlandırmaqla təzə gəlinə demək istəyir ki, körpən elə sənin özündür, bu dünyada qoyduğun cismani və mənəvi yadigarındır və birbaşa sənin öz dünyanın əkizi, oxşarı, bənzəri, hətta özüdür; bir sözlə, körpən elə sənin uşaq donundakı özünsən…

Səfurə xanımın bayatılarında da Vətən məhəbbəti güclüdür:

***Ağ yoxuşda Kotan daşın,***
***Qaya kimi bitən daşı.***
***Üstündə çətin yazılar,***
***Oxuyammaz yetən daşı.***

Ağyoxuş adlanan bir ərazi kotana bənzədiyindən el arasında Kotan dağı adlanan bir qaya parçası nəzərəmizə - eynimizə gəlir, üstündə çətin - yəni qədim dövrün nişanələri, izləri, bu əlamətləri özündə əks etdirən mixirunik yazıları və bu əlifbanı

hər yetənin – hər kəsin oxuya bilməməsi fikirləri necə da aydın və təsirli şəkildə dörd misralıq bir şeir parçasının canına – mayasına sığışdırılmasıdır.

Əgər Məhsəti xanım olmasaydı, rübai aləmində Ömər Xəyyamın adı tək qalacaqdı - deyə fikirləşərkən, Səfurə xanımın da yazmış olduğu rübailərə göz gəzdirdim. Rübai janrında qələmini sınaya bilmək hər sənətkara nəsib olmur, çünki adından da göründüyü kimi, rübai dördlük deməkdir. Dörd misradan ibarət bütöv, mükəmməl şeir parçasında bitkin – bir əsərə sığası söz demək bacarığı şairdən xüsusi sənətkarlıq, istedad, təfəkkür sahibi olmağı tələb edir:

***Hardandır bu istək belə, sarmaşıq?!***
***Dolanarsan Qızılgülə, sarmaşıq?***
***Bir səndəki eşqə, məhəbbətə bax,***
***Can atarsan zildən-zilə, sarmaşıq!***

Burda cinasqarışıq bədii peyzaj yaradılmış, lakin bu mənzərə – təbiət təsviri sadəcə gülə-çiçəyə müraciət edilməklə kifayətlənilməyib, həm də məzmunca da ictimai-bəşəri çalar daşıya bilmişdir. Burada ətirli olsa da, tikanlı olan Qızılgülə sarmaşığın necə könül verdiyi, aşiq – məşuq kimi necə saf istəklə qucaqlaşmağı, bu ehtirasın zildən-zilə qalxıb coşması dostlarımızdakı, yaxud elə real həyatdakı eşq, məhəbbət fədailərinin əsl obrazı deyilmi?

«Dünya» adlı çox yığcam, lakin bitkin əsər səciyyəsi daşıyan, şeirində – düzgüsündə isə sanki bu qos-qoca qarı dünyanın obrazını yaratmaqla dünyanın vücudunu, canını, cismini fiziki varlıq olaraq ümumiləşdirmişdir. Daha doğrusu,

vücudnamə deyilən bir şeir növü vardır ki, həmin növdə insan ömrünün ayrı-ayrı çağları nəzmə çəkilir və hər yaş dövrünün də ustadnamə səciyyəsində qiyməti, dəyəri əks olunur. Bir sözlə, insan ömrünün ta körpəlikdən qəbr evinə qədərki həyatı vücudnamələrdə öz əksini tapır. Səfurə xanım Pirsultanlının «Dünya» adlı səkkiz misralı şeiri isə dünya ağacı – dünya məfhumu haqqında yazılmış vücudnamədir desək, əlbəttə səhv etmərik.

***Uşaqlığında***
***Noğuldu dünya.***
***Gəncliyindəsə***
***Oğuldu dünya.***
***Ahıl çağında***
***Ağıldı dünya.***
***Nənə ki oldum,***
***Nağıldı dünya.***

Fikir verin: insan ömrü haqqında bu vücudnamə təkcə insan həyatının təsviri ilə bitməyib, qarşı tərəfin – insanın ömrünü – gülüşü üstündə saydığı, qucağında keçirtdiyi kainat – dünyanın özünün də dünya ömrünə verilən qiymətdir. Dünya belədir! – demək istəyib şairə! Bəli, hər kəsin yaşadığı fiziki ömrü elə həmin kəs üçün də mövcud olan real dünya – «Bu dünya» deyilən anlayışın özünü təşkil edir! Bizlərə və bizdən sonrakı gələcək nəsillərə isə bu dünyanı məskən edib köçmüşlərin işıqlı xatirəsini ürəyimizdə əziz tutmaq qalır! Elə bu yazım da Səfurə xanımın müqəddəs ruhuna ehtiramımdır. Yeri nur – cənnət olsun!

***Şakir Albalıyev,***
***Azərbaycan Milli Elmlər Akademiyası***
***folklor İnstitutunun elmi əməkdaşı***

## UZAQ YOLU YAXIN EDƏN ŞAİRƏ

Səfurə xanım Pirsultanlının adını tanınmış folklorşünaslardan çox eşitsəm də, özünü görməmişəm. Bir gün Sahibə xanım (xatirini doğma bacım qədər çox istədiyim bu xanım həm mənim iş yoldaşım, həm də rəhmətlik Səfurə xanımın böyük qızıdır) mənə Səfurə xanım Pirsultanlının iki kitabını hədiyyə verdi. Bu kitablardan biri «Dünya, səndə nəyim qaldı?» adlanır. Kitabın redaktoru professor Əzizə xanım «Ön söz»də belə yazır: «Vaxtilə Sədnik Pirsultanlını bir folklorşünas kimi tanıyanların hamısı bilirdi ki, Səfurə xanım onun sağ əlidir. Qovluqlar dolusu, bir evə sığmayan folklor materiallarını toplayan o idisə, onları üzləyən, səliqəyə salan, makinadan çıxaran məhz Səfurə xanım idi». Mən kitabı diqqətlə oxuyandan sonra yenə «Ön söz»ə göz gəzdirdim, rəhmətlik Əzizə xanımın Səfurə xanımın yaradıcılığına dair mülahizələrinə bir də baxdım. Nə qədər dəqiq və gözəl mülahizələrdir. Əzizə xanım yazır: «Səfurə xanımın yaradıcılığında üç aparıcı mövzu vardır. Birinci, təbiət; ikinci, ana; üçüncü isə övlad. Əlbəttə, içərisində nisbətən zəif, yalnız öz hissləri içərisində qovrulan bir aşiqin – şairin şeirləri də olması təbiidir».

Səfurə xanımın bu şeirlər kitabında müxtəlif şeirlər (gəraylılar, qoşmalar, bayatılar, ağılar,

rübailər, düzgülər, mənzum hekayələr və b.) verilmişdir. Şairənin şeirlərinin çoxunda çoxlu yer-yurd (Ceyrançöl, Kəpəz, Dəlidağ, Taxta yaylağı, Murov, Qanlı göl, Gəncə, Kür, Comadaş, Qoşqarçay, Həsənnənə, Həsənbaba, Pirsultan dağları, Ağqaya, Zağalı, Amanı bulağı, Xoşbulaq, Qoşqar, Balçılı dağları, Əmcəkli dağ, Qız qalası, İncəlli, İrmaşlı, Gəlin daş, Qaraçay, Terek, Qızıldaş, Elburus, Kazbek, Göyçə, Çalmalı, Şişqaya, Alagöllər, Kəlbəcər, Tərtər, Ceyran bulağı, Şahbulaq, Ballıqaya, Ağbulaq, Quba, Dərbənd, Qızbənövşə bulağı, Tufan dağı, Beşbarmaq, Qəbələ, Qəçreş, Oğuz, Daşağıl, Dədə Günəş, Diri baba bulağı, Fit dağı, Alazan vadisi, Qıpçaq çölləri, Avey dağı, Damcılı bulaq, Aldədə bulağı, Koroğlu dağı, Azaflı kəndi, Tovuz, Kiraz, Göyyurd, Torpaqqala, Gədəbəy, Turşsu, Gavalı bulaq, Zivlən çayı, Sivas, Təbriz və b.) adı çəkilir. Bunlar bir tərəfdən Səfurə xanımın təbiətə, yer-yurda olan vurğunluğunu, məhəbbətini əks etdirsə də, digər tərəfdən şairənin Azərbaycanı qarış-qarış gəzməsindən, habelə Şimali Qafqaz və başqa yerlərdə də olmasından soraq verməkdədir. Kitabdakı şeirlərdən şairənin anasıyla bağlı olanlar («Qəlbindən silməyib anam», «Anamın saçları») diqqətimi çəkdi. Birinci şeirdə («Qəlbindən silməyib anam») müqəddəs ana obrazı olduqca təbii, həyatda olduğu kimi verilmişdir. Ana min bir cəfaya dözüb övladlarını böyüdüb. Həyat yoldaşı davadan geri dönməsə də, o, övladlarına həm ana, həm də ata olur. Ərini yada salıb kövrələndə göz yaşlarını gizlincə silir ki, kiçik yaşlı uşaqları bunu görüb bilməsinlər. O, ərinə, ailəsinə, övladlarına böyük

məhəbbət bəsləyən, doğru yolun adamıdır. Şairə yazır:

***Neçə payız keçib, neçə yaz keçib,***
***Neçə gəlin köçüb, neçə qız köçüb,***
***Anam gör necə də doğru yol seçib,***
***Atamı qəlbindən silməyib anam.***

Təbii кi, belə qeyrəтli, isмəтli bir ananın saçlarının ağarмasını Səfurə xanıм özünə dərd eləyir:

***Az dəyibdi tellərinə yar əli,***
***Ağarmaynan, ay anamın saçları.***
***Sınıq könlü yaralıdı, yaralı,***
***Ağarmaynan, ay anamın saçları.***

Kitabda quşlardan (bülbül, kəklik, qaraquş, durna, hophop və b.), gül-çiçəklərdən (bənövşə, lalə, nərgiz, qaymaqçiçəyi, qızılgül və b) şeirlər də az deyil. Zənnimcə, bu adi bir təsadüf olmayıb, şairənin könül zənginliyi, dünyagörüşü ilə, canlı aləmə tükənməz məhəbbətilə bağlıdır.

Səfurə xanım Pirsultanlının şeirlərinin içində kədər-qəm notları üstündə yazılan şeirlərə də rast gəlinir. Bu da səbəbsiz deyil. Ata əvəzi qardaşının vəfat etməsi şairənin sinəsinə çalın-çarpaz dağ çəkir. Bunu «Dünya, xətrimə dəydin?» şeirində belə təsvir edir:

***Mən ki səndən razıydım,***
***Dünya, xətrimə dəydin.***
***Hər fəsildə yaz idim,***
***Dünya, xətrimə dəydin.***

***Saldın üzük qaşımı,***

*Apardın qardaşımı.*
*Axıtdım göz yaşımı,*
*Dünya, xətrimə dəydin.*

*O mənə ata əvəz,*
*Getdi, qardaşım gəlməz.*
*Daha heç üzüm gülməz,*
*Dünya, xətrimə dəydin.*

«Əylənmə, durnam» şeirində də kədər-qəm motivi əsas yer tutur:

***Yad ellərdə körpə balalar qalıb,***
***Ceyranlı-cüyürlü talalar qalıb,***
***Gör, necə alınmaz qalalar qalıb,***
***Gəl, get, bizim yerdə əylənmə, durnam.***

Səfurə xanım bir neçə şeir də ömür-gün yoldaşı Sədnik müəllimə yazıb. Bu şeirlərdə bir səmimiyyət, zarafatla bərabər baş verən real hadisələrin axarı, daha doğrusu, Sədnik müəllimin səfərləri haqqında təəssürat öz əksini tapmışdır. Şairə «Gəl, apar» şeirində yaylaq vaxtın başa çatdırdığından Gəncəyə köçməyin lazım olduğunu belə xatırlayır:

***Dünən yaylaq, bu gün istək Gəncədir,***
***Gəncənin gülləri yarı qönçədi.***
***Səfurənin hər şey ürəyincədi,***
***Gəl, bizi dağlardan arana apar.***

Səfurə xanım başqa bir şeirində («Vətəndə səni») də zarafatla Sədnik müəllimi Vətənə

dönməyə, səfərlərə nəhayət verməyi məsləhət görür.

***Bu gün Sivasdasan, sabah Təbrizdə,***
***Səfurəyəm, dözüm qalmadı məndə.***
***Əlimi çəkərəm, qalarsan düzdə,***
***Gözləyən yoxdumu Vətəndə səni?..***

Səfurə Pirsultanlının bayatıları da oxucuların nəzəri-diqətini çəkir.

***Əzizinəm, gəlincə,***
***Bu gül o güldən incə.***
***Şirin canım üzüldü,***
***Yar səfərdən gəlincə.***

***Bir bülbüləm gül üçün,***
***Dərdi oraqla biçin.***
***Yarım qürbət eldədi,***
***Ağlaram için-için.***

Kitabdakı ağılarda dünyanın özü boyda dərd-ələm var. Bu ağılar dünyasını vaxtsız dəyişən qardaşa deyilən ağılardır.

***Əzizim, aldı getdi,***
***Qəmlərə saldı getdi.***
***Mənim cavan qardaşım,***
***Qəlbimi çaldı getdi.***

***Üzüyümün qaşı qardaş,***
***Qəlbimin başı qardaş.***
***Gözlərim leysan tökər,***
***Qurumaz yaşı, qardaş.***

*Qardaş, yaşım selləndi,*
*Gözüm doldu, gölləndi.*
*Mən bir xeyir görmədim,*
*Bağ-baxçalar gülləndi.*

Səfurə xanım bütün şeirlərində saf, ülvi hisslərə xüsusi yer verir, səmimiyyəti ilə adamı heyrətdə qoyur desəm təbii ki, səhv etmərəm. Belə şeirlərdən biri də «Həsrət»di. Şeir, aşağıdakı misralardan da aydın göründüyü kimi, hörmətli Sədnik müəllimə xitabən yazılmışdır:

*Gəl, görüşək, vəfadarım,*
*Xəyalına qurban olum.*
*Həsrət dolu, istək dolu,*
*Vüsalına qurban olum.*
*Uzaq yolu yaxın eylə,*
*Yoxsa qəlbim sənsizləşər,*
*Daşlara qəriblik çökər,*
*Vətən də vətənsizləşər.*

Bu şeirdə həyat yoldaşını, canı-könüldən sevən bir şairənin saf duyğuları özünü büruzə verməkdədir.

Səfurə Pirsultanlının bu kitabı haqqında bir kitab bağlamaq belə azdır. Çünki rəhmətlik Səfurə xanım zəhmətkeş bir ailədə dünyaya gələn, dünyagörmüş, xanım-xatın bir ananın gözəl tərbiyəsini görən, ən nəhayət, haqqa tapınan bir anaydı. Yaşa dolduqca mənəvi ucalığa pillə-pillə yüksəlmiş, bu yüksəlişin sirrlərini də öz şeirində vermişdir. Bu sirrlərə nə qədər vaqif oldum, bilmirəm. Amma bircə onu bilirəm ki, «Dünya, səndə

nəyim qaldı?» kitabı hər kəsin stolüstü kitabı olmalıdır. Bu kitabı oxuyan peşman olmaz.

**<u>Söz ardı:</u>** Kitabı oxuyub qutarandan sonra yenə dönə-dönə oxudum. Və qərara gəldim ki, bir gün Gəncəyə gedəndə Səfurə xanımın qəbrini ziyarət edib önündə baş əyməliyəm. Çünki belə analar sağlığında elin-obanın fəxri olduğundan, onların qəbrləri də pir, ziyarətgah sayılır. Başqasını

bilmirəm, mənim nəzərimdə ana qəbrini ziyarət etmək Kəbəni ziyarət etmək kimidir.

*Tacir Səmimi (Qurbanov),*
*AMEA Folklor İnstitutunun*
*elmi işçisi*

## SƏFURƏ XANIM PİRSULTANLI MƏNƏVİYYAT ZİRVƏSİNİN PARLAQ ULDUZUDUR

*Azərbaycan qadını bütün*
*dünyadakı qadınlardan gözəldir.*
**Heydər Əliyev**

Qədim və zəngin tarixə malik olan Azərbaycan dünyanın cənnət ölkələrindən biridir. Maddi və mənəvi sərvətlər mənbəyi olan Azərbaycan mədəniyyətinə Məhsəti, Xəqani, Nizami, Nəsimi, Fizuli, Vaqif, Vidadi kimi dahi sənətkarlar bəxş etmişdir.

Yaxın və Orta Şərqin elm və mədəniyyət mərkəzi Gəncə haqqında Nizami Gəncəvi yazmışdır:

***Gəncə – Narın sehrli Vabil deyil, bəs nədir?***

***Ürəyim – Ulduzlara nur saçan şölədir,***
***Zöhrə təki ucalıb Mizan bürcünə Gəncə,***
***Onu belə ucaldan ülvi sözümdür, məncə.***

Səfurə xanım Gəncə quberniyasının romantik qoynunda böyümüş, Gəncəni və Gəncənin müqəddəs torpağını sevmiş, ona sadiq qalmış, onunla fəxr etmiş, poeziyasında bu dilbər güşənin poetik tərənnümünü vermişdir.

Ümummilli liderimiz Heydər Əliyev Gəncədə Nizami Gəncəvinin məqbərəsini ziyarət edəndə demişdir: «Nizami torpağı müqəddəs torpaqdır. Bu torpağa hamı hörmət və ehtiram etməlidir…

Mənim qəlbim həmişə Gəncə ilədir, gəncəlilərlədir».

Səfurə xanımın həyat və zəngin fəaliyyətinin bütün məqamları Gəncə ilə bağlıdır.

Səfurə xanım Pirsultanlı dahi Nizaminin ana yurdunu həmişə qəlbən sevmiş, ondan ilham almış, onunla fəxr edib sənət inciləri yaratmışdır.

İnsan yaranmışların ən müqəddəsi və şərəflisidir. Dünyanın şərəfi olan insan həyatda əbədi deyildir, mütləq dünyasını dəyişməli, əbədiyyətə qovuşmalı, cənnətdə həmişəlik yuxuya getməlidir. Məhz buna görə də pərişan olmağa dəyməz. Ona görə ki, bu dünyanın təbii qanunu var, bir gün yaranan bir gün vəfat etməli, dünyasını dəyişməlidir.

Görkəmli şair Mirzə Ələkbər Sabirin müdrik misrası gözəl təsir bağışlayır, insan qəlbini təlatümə gətirir: «Şairəm əsrimin aynəsiyəm!» Ana da əsrlərin, minilliklərin parlaq Günəşi, ulduzu, aynasıdır. Bu keyfiyyətlərinə görə ana əbədi yaşayır

və tarixin yaddaşında, insanların qəlbində əbədi yaşayacaqdır.

Görkəmli şairə, şərəfli xanım, şöhrətli ana Səfurə xanım Pirsultanlı müdrik, yaradıcı sənətkar, gözəl övladlar tərbiyəçisi, filologiya elmləri doktoru, istedadlı folklorşünas, Əməkdar Mədəniyyət işçisi, mahir pedaqoq, professor Sədnik Paşa Pirsultanlının etibarlı ömür-gün yoldaşı kimi əbədi yaşayacaqdır.

Səfurə Pirsultanlı ona görə əbədi yaşayacaqdır ki, gözəl övladlar: üç oğul, üç qız anasıdır, ölməz əsərlər müəllifidir, zəngin mənəviyyatlı evdar xanımdır, elmin, mədəniyyətin, əməyin, müqəddəs insanlığın vurğunudur.

Səfurə xanımın ömür yolu çox mənalı və mürəkkəbdir.

Səfurə xanım 1938-ci il dekabrın 29-da Pirsultan dağının ətəyindəki Qazaxyolçular kəndində anadan olmuşdur. Onun atası Əli kişi xeyirxah və əməksevər insan olmuş, anası elin-obanın hörmətini qazanmışdır. Səfurə xanım Pirsultanlının uşaqlıq illəri təbiətin bu romantik qoynunda keçmiş, ona bədii-estetik zövq, təbii ilham, istedad bəxş etmişdir. Onun həyatı xoşbəxtlik və səmimiyyət arzuları ilə pərvazlanmış, Sədnik Paşayevlə qurduğu mənalı ömür yolu çox nikbin və firavan keçmişdir.

Səfurə xanımın ana olması ona xoşbəxtlik gətirmişdir. Ana böyükdür, müqəddəsdir, ülvidir, əzizdir və incədir. Bu keyfiyyətlər Səfurə xanımın varlığına həkk olunmuşdur. Səfurə ana ömrün çətin anlarında qohum-qonşuya, bütün insanlara qol-qanad verir, onun laylası, öyüdü, mənəvi qidası övladlarının mənəvi aləmini zənginləşdirir, onlara əxlaqi keyfiyyətlər aşılayır.

Tarixi qaynaqlardan, həyat hadisələrindən, şifahi və yazılı ədəbiyyatdan öyrənmiş və dərk etmişik ki, ana bizim üçün ziyarətgahdır, qəlbimizdə əbədi heykəli ucaldılmış müqəddəs varlıqdır. Ana ürəyi həssasdır, nəsihəti tərbiyə məktəbidir, Vətənə, xalqa, elmə və əməyə sevgi mənbəyidir.

Səfurə anaya bu əxlaqi keyfiyyətləri Allah bəxş etmişdir.

Bu poetik misralar Səfura xanımın təbiətinə həkk olunmuşdur:

***Anadan əziz kəs varmı cahanda?***
***Bilirəm nə qədər o zəhmət çəkir.***
***Onun ağ saçına nəzər salanda,***
***Mənim qara saçım xəcalət çəkir!***

Atalar gözəl demişlər ki, anaların saçı, başı ağarmır, uca dağlara qar yağır, zirvələr parlaq görünür.

Səfurə Pirsultanlı müqəddəs anadır, zirvəyə gedən yolların parlaq dühasıdır. Onun mənalı ömrü müqəddəs körpüdür, soyuq sulu, saf nəğməli çeşmədir, doğma Vətənimizin əziz salnaməsidir, gənc nəslin ömür çırağıdır, zəngin təlim-tərbiyə, əxlaqi keyfiyyətlər mənbəyidir.

Səfurə xanım folklorun, yazılı və şifahi ədəbiyyatın mahir mütəxəssisi kimi, bilik mənbəyi olan kitabı sevmiş, həmişə mütaliədən zövq almış, oxuyub öyrənmişdir.

Vilyam Şekspir demişdir: «Kitablar mənim üçün tacdan qiymətlidir». Böyük rus sənətkarı Maksim Qorki yazmışdır: «Məndə olan yaxşı hər nə varsa, bunun üçün kitablara borcluyam». Kitab bilik mənbəyidir.

Səfurə Pirsultanlının yaratdığı «Ailə kitabxanası» onun qayğıkeşliyini, yaratmaq bacarığını, elmə, kitaba sevgisini aydın təcəssüm etdirirdi. Səfurə xanım kitabxananı mütəxəssis biblioqraf, peşəkar kitabxanaçı kimi düzəltmişdi. Klassiklərin əsərlərini, monoqrafiyaları, dərslikləri, metodik vəsaitləri, folklor və arxiv materiallarını, aşıq poeziyasını, aşıqların kitablarını, siyasi ədəbiyyatı, ədəbi tənqidə və ədəbiyyatşünaslığa, dilçiliyə, tarixşünaslığa, folklorşünaslığa aid materialları, müxtəlif jurnal, qəzet materiallarını gözəl səliqə və səhmanla yığmış, bölmələr üzrə adlarını yazıb yapışdırmışdı. Evdə kitabxana materiallarını bu səliqədə nizamlamaq professor Sədnik Pirsultanlının tədqiqat işini qaydaya salmaq, ona kömək etmək, dayaq olmaq demək idi.

Mən Səfurə xanım Əli qızı Pirsultanlını doğma bacım, mərhum ali təhsilli həkim Qaratel kimi sevir, ona dərin hörmət bəsləyirdim və indi də bəsləyirəm. Səfurə xanım Pirsultanlının 1995-ci ildə çap olunmuş « Şeirim, sözüm qalar» kitabına «Analar zirvəsi, sənət vurğunu» adlı maraqlı bir müqəddimə yazmış, səmimi, mehriban, təvəzökar, xeyirxah Səfurə xanımın analar zirvəsinə yüksələn sənət Vurğunu olduğunu göstərmişdim.

Mənim arzum istedadlı şair, qayğıkeş və tələbkar insan, zəngin mənəviyyatlı müdrik şəxsiyyət Səfurə xanım Pirsultanlının əsərlərində Vətən, Ana və Övlad mövzusunu sənətkarlıqla cilaladığını, sözün həqiqi mənasında Şəhid ana, Şəhid şair, müqəddəs xanım kimi fəaliyyət göstərdiyini sevimli oxuculara çatdırmaqdan ibarət olmuşdur.

Sənətkar və müqəddəs analar haqqında yazmaq çox çətin və məsuliyyətli işdir. Ona görə ki,

dünyanın ən incə, pak, müqəddəs varlığı olan ana bahar təravətlidir. Dahilər demişlər ki, «Cənnət anaların ayağı altındadır». Müdrikləri, aqilləri, sərkərdələri, dövlət başçılarını, qəhrəmanları, alimləri, elm, ədəbiyyat, mədəniyyət və incəsənət xadimlərini, şair, yazıçı və dramaturqları həyata analar gətirmişlər.

Səfurə xanım Pirsultanlı əsrlərdən bəri gələn Sara Xatunların, Nigarların, Həcərlərin, Natavanların varisidir. Adlarını şərəflə çəkdiyimiz bu dünya şöhrətli xanımlar gözəl, abırlı-həyalı, namuslu-qeyrətli, Vətən və xalq sevgili, övladcanlı, ailəcanlı qadınlardır.

Şərq dünyasının dahi mütəfəkkiri Robindzanat Taqor yazmışdır: «Qadın Allahın yaratdığı şah əsərdir». Deməli, qadın bəşəriyyətin gələcəyidir, əyilməzlik simvoludur, gözəllikdir, Allahın xəlq etdiyi müqəddəs varlıqdır.

Müasir müstəqilliyimiz dövründə Azərbaycan qadını dünyanın ən mədəni, xeyirxah, sədaqətli, səmimi, intellektual qadınlarının önündə gedir.

«Kitabi-Dədə Qorqud» dastanında deyilir: «Ana haqqı – Tanrı haqqıdır». Dahi Nizami Gəncəvi qadın mənəviyyatının zənginliyini, etibarını, sədaqətini, ehtiramını yüksək qiymətləndirir: «Ərin zinətidir qadın isməti».

Görkəmli sənətkar və tədqiqatçı Əzizə Cəfərzadə Səfurə xanımın «Dünya, səndə nəyim qaldı?» və «Ağ yağış» kitablarına dərin məzmunlu müqəddimə yazmış, onun gözəlliyinə və insanlığına vurğun olduğunu göstərmiş, əsərlərinin təhlilini vermiş, Səfurə xanımı «Eldən elə» romanının qəhrəmanı Altuntelli qıza və «Hun dağı» əsərindəki Ayla Xatuna bərabər müdrik xanım olduğunu

əsaslandırmış, Səfurə xanımın onlardan daha gözəl olduğunu göstərmiş, Səfurə xanımı qəlbən sevdiyini və onun vurğunu olduğunu bədii sözün qüdrəti ilə əsaslandırmışdır.

Yazıçı Ələmzar Əlizadə Səfurə xanımı «Əsərlərindən uca zirvə» adlandırır, onun gözəl qamətinə, uzun hörüklərinə heyran olduğunu və şairlik istedadını yüksək qiymətləndirir.

Filosof-pedaqoq Məmməd Məmmədov yazır ki, folklorşünas Sədnik Paşayev ölkələr gəzəndə çox böyük dağ kimi arxası olan Səfurə xanıma arxalanır, onun yaratdığı mənəvi şəraitdən faydalanırmış. Heyf ki, Səfurə xanım ömrünün parlaq dövründə dünyasını dəyişdi. Səfurə xanımdan yadigar poeziyası, müqəddəs ailəsi, övladları və anaya ucaldılmış parlaq abidəsi qaldı.

Ədəbiyyatşünas Afaq Yusifli Səfurə xanımın poeziyasını, povest və hekayələrini yüksək dəyərləndirir, zəngin təlim-tərbiyə və bədii-estetik zövq mənbəyi olduğunu göstərir. Dosent Azər Eyyubov yazır ki, Səfurə Pirsultanlı Vətənin və xalqın Vurğunudur, istedadlı şair və naşirdir, namuslu anadır, əsərləri sənət inciləridir.

Rəfiqə Əliyevanın, Ramiz Təmkinin, Ələsgər Əlioğlunun, Bəxtiyar Əlirzayevin və Sahibə Sədnik qızının yazdıqları rəylərdə Səfurə xanımın yaradıcılıq yolu ətraflı şərhini tapır.

Şair və publisist Ələsgər Əlioğlunun «Səfurə Pirsultanlı dünyası» adlı əsəri zəngin məzmunlu və ideyalı, elmilik və tarixilik prinsipləri əsasında sadə dildə yazılmış monoqrafiya təsiri bağışlayır. Ələsgər Əlioğlu Səfurə xanımın həyatını nəzərdən keçirir, yaradıcılığının inkişaf yollarını aşkarlayır. O, Səfurə xanımın poeziya və nəşr dünyasını tarixi qaynaqlar

və əsərləri əsasında müqayisəli təhlil edir, ümumiləşdirmələrlə yekunlaşdırır.

Ələsgər Əlioğlu Səfurə xanımın istedadlı şair və nasir olduğunu, gözəl sənət əsərləri yazdığını, «Dünya, səndə nəyim qaldı?» (1994), «Ağ yağış» (1995), «Şeirim, sözüm qalar» (1995) kitablarının çap olunub oxucuların mütaliəsinə verildiyini, ədəbiyyatşünaslar tərəfindən yüksək qiymətləndirildiyinin elmi-nəzəri şərhini verir. Əsərdə Səfurə xanımın istedadlı sənətkar olduğu və gözəl sənət inciləri yaratdığı inandırıcı şərhini tapır.

Səfurə xanım 1994-cü ildə vəfat etmiş, Gəncə şəhərinin «Səbiskar» qəbristanlığında dəfn olunmuş, qəbristanlığın qənşərində Səfurə xanımın adına mərmər bulaq abidəsi ucaldılmış, «Ehsan bulağı» adlandırılmış və həmin bulaq ziyarətgaha çevirilmişdır.

İstedadlı sənətkar, gözəl insan Səfurə xanım Pirsultanlının əziz xatirəsinə otuz doqquz şairin poetik əsərləri, Aləmzar Əlizadənin «Bütün əsərlərindən uca istək», Şahnaz Haşımovanın «İnsanların qəlbinə axacaq», Dilsuz Əli qızının «Bulud saçlı Gövhər bacım», Sahibə Sədnik qızının «Atam öz hökmdarını axtarır» xatirələri, on bir nəfərin rəyləri kitabında toplanmışdır. Həmin şeirlər, xatirələr və rəylər Səfurə xanım Pirsultanlının mənalı yaradıcılığını və şərəfli fəaliyyətini ilkin qaynaqlar və həyat hadisələri ilə vəhdətdə inandırıcı və təsirli aşkarlayır, sevərək yaşayan və sevilərək dünyasını dəyişən Səfurə xanımın insanların qəlbində əbədi yaşayacağını əsaslandırır. Eyni zamanda oxucunu sarsıdır, amansız ölümə qarşı təəssüf hissi doğurur.

Alim-şair Abbasəli Sarovlu Atabəy «Dağca yükə dözənə» adlı şeirində yazır:

*Torpaq oldu ala gözün sürməsi,*
*Yasa batdı Xan Kəpəzin zirvəsi,*
*Hanı ilham pərisinin cilvəsi,*
*Qana döndu peymanəsi Sədnikin!*

Mənalı ömrünün parlaq çağında ömür-gün yoldaşını vaxtsız itirən Sədnik müəllimin bəxt ulduzu sönmüş, ömür dünyası külə dönmüş, sinəsinə çalın-çarpaz dağlar çəkilmiş, çiyninə dağ boyda yük qoyulmuş, dirilik çeşməsi bağlanmış, əbədi olaraq gözünün nuru, qəlbinin ulduzu Səfurə xanımsız qalmışdır.

Yazıçı, şair və publisist Qərib Mehdi professor Sədnik Pirsultanlının ömür-gün yoldaşı Səfurə xanımın vaxtsız itgisindən sarsıldığını «Sədnikin» adlı şeirində çox təsirli vermişdir:

*Ey ozan dədələr, ey saz tutanlar,*
*Enibdi başından tacı Sədnikin…*
*Üst-üstə qalanan o kitabların,*
*Üzü Səfurənin, içi Sədnikin.*

Şeirdə Sədnik müəllimin könül otağının sözləri, qələminin gücü söndüyü, xarici ölkələrə səfərinin yasa döndüyü, saçının vaxtsız ağarması, gözlərindən qanlı yaş gəlməsi bədii ifadənin qüdrətilə çox təsirli verilir, oxucunun qəlbini sarsıdır.

Alim-şair Sahib Axundlu «Görünmür» rədifli şeirində Sədnik müəllimə bədii şəkildə müraciət edir:

*A dağlar qartalı, niyə bəs indi,*
*Qoşa qanadının biri görünmür?*

«Hanı ilham pərin, yoxdu yanında» deyən şair, Sədnikin bəxt ulduzunun söndüyünü, qoşa qanadının biri sındığını, eşqinin yuvası dağıldığını, zirvədən enib yasa batdığını real göstərir.

Şair Məmməd Alim «Öldür bu yuxunu…» şeirinə Səfurə xanımın poeziyasından maraqlı bir beyt ön söz verib:

***Az dolandır görmədiyim yerləri,***
***Açaram gözümü, ölərsən yuxu.***

Məmməd Alim sinəsini pak, təmiz, ətirli, qönçə çiçəklər bəzəyən Səfurə xanımın cahanı ağlatmasını, Sədnik müəllimin ömrünü yasa döndərməsini, «Ana bulağı»nı ona yadigar qurdurmasını təsirli verərək yazır:

***Aç ala gözünü, göy təkinə bax,***
***Başdaşına dönən Sədnikinə bax,***
***Qəlbinə qalanan qəm yükünə bax,***
***Öldür bu yuxunu, Səfurə xanım.***

Qəmkeş Allahverdi Sədnik Paşa Pirsultanlının «Ala göz mələyim dağlarda qalıb» rədifli qoşmasına «Sənin» adlı qoşmasını cavab yazıbdır. Qoşmanın təsir qüvvəsi insanı sarsıdır, Səfurə xanımın vaxtsız vəfatı, Sədnikin ürək sirdaşını itirməsi varlığını yandırıb titrədir:

***Sən dəryaydın, o, bir qızıl adaydı,***
***Təb əhliydi, haqdan gələn sədaydı,***
***Bəşər surətində mələkzadəydi,***
***Uçubdu cənnətə mələyin sənin.***

Həsən Göyçəlinin «Yatma» rədifli qoşması Səfurə xanıma müraciətlə yazılmış poetik salnamədir. Şair həsrəti elləri yandıran, Xoşbulağın, Qaşqaçayın axarını bağlayan, Yanardağı, Xan Kəpəzi, Maral gölü, Göygölü, Pirsultanı, Murovu, Qoşqarı, Zağalını, Borçalını, bütün Göyçə mahalını ağladan xalqımızın məleykə qızı Səfurə xanıma müraciətlə deyir:

***Bilirəm, bu dünya xətrinə dəydi,***
***Kaş Sədnik, son səsin bir eşidəydi,***
***Dərdini anlayıb, qəmin biləydi,***
***Naləsin aləmə yayıbdı, yatma.***

***Sən idin bağçada güllərin tacı,***
***Gözəl dünyasının gözəl möhtacı.***
***Həsən də səsləyir, Səfurə bacı,***
***Aləm sənsizliyi duyubdu, yatma.***

Görkəmli publisist, istedadlı şair Ələsgər Əlioğlu «Səfurən» və «Göynədər» adlı qoşmalarında Sədnik Paşanın pərvanəsi, gündüz Günəşi, gecə Ayı olan Səfurə xanımın vaxtsız vəfatı bədii salnamə təsiri bağışlayır:

***Sən Qars səfərindən dönməmiş geri,***
***Ölüm səfərinə çıxdı Səfurən!***

Sədnik Pirsultanlıya Gədəbəydən sevimli tələbəsi Pirverdi Dağlaroğlu «Ağlar» rədifli qoşmasında onun ömür kamanı, qəlbinin səsi, qələmi, dəftəri ağladığını real verir:

***Pirsultanlı, ürəyimə dəyib ox,***
***Dilin ağı deyir, gözün ağlayır.***
***Yatağın hənirsiz, otağın soyuq,***
***Ocağın ağlayır, közün ağlayır.***

Oxuculardan və istedadlı sənətkarlardan üzr istəyir, məni bağışlamalarını xahiş edirəm ki, onların gözəl poetik əsərlərindən istifadə etməyə imkanım olmadı.

Səfurə xanım haqqındakı xatirələrdə Azərbaycan qadınlarının böyük arzularla yaşaması, zülmə, haqsızlığa qarşı etiraz səsini ucaltması, azadlıq uğrunda mübarizliyi tarixi hadisələrlə vəhdətdə inandırıcı verilir və onun bədii yaradıcılığında bu müqəddəs arzuların obrazlı ifadəsinin təcəssümü göstərilir.

Respublikanın əməkdar artisti Şahnaz xanım Haşımova Səfurə xanımın poeziyasını diqqətlə nəzərdən keçirdiyini, onun təbiət vurğunu olduğunu, «Bülbül», «Qızılgül», «Yarıyandan ol», «Axşamlar» şeirlərini ilhamla oxuduğunu, bu şeirlərin şirin və həzin nəğmələrə çevrilib müğənnilərin dodağından süzülüb insanların qəlbinə axacağını və Səfurə xanımı əbədi yaşadacağını iftixarla vurğulayır.

Səfurə xanımın böyük bacısı Dursun xanım əziz bacısını «Bulud saçlı Gövhər bacım» adlandırır, atası Əli kişinin və anası Zümrüd xanımın Səfurəni «erkək tinətli müdrik və əziz övlad» deyib sevdiklərini, onunla fəxr etdiklərini vurğulayır.

Səfurə xanımın əziz balası Sahibə «Atam öz hökmdarını axtarır» adlı dərin məzmunlu xatirəsini çox səmimi və təsirli yazmış, ata və anasının zəngin mənəviyyatını, xoşbəxt münasibətlərini, ailədə qayğıkeş və tələbkar olduqlarını inandırıcı nümunələr

əsasında vermişdir. Xatirədə Səfurə xanımın səliqəli, səbrli, işgüzar, təmkinli, xeyirxah, ailə və övladcanlı olduğunu, folkloru və yazılı ədəbiyyatı, xüsusilə poeziyanı sevib mutaliə etdiyi və kitabların vurğunu olduğu inandırıcı əsaslandırılır. Səfurə xanımın ailədə peşəkar biblioqraf və məsuliyyətli bir kitabxanaçı kimi şərəfli əməyi xatirədə yüksək qiymətləndirilir və onun ömür-gün yoldaşı Sədnik müəllimə mənəvi dayaq, müdrik köməkçi olduğu gözəl dəyərləndirilir.

Yüzilliklər Mənicə Məhsəti, Heyran xanım, Xurşudbanu Nətavan kimi sənətkarların poeziyası, Aşıq Pəri, Aşıq Bəsti, Qubalı Banu, Aşıq Şəhrabaninin insan qəlbini yandıran qoşmaları, lirik şeirləri qiymətli təlim-tərbiyə mənbəyi olmuşdur. Tarixdən məlumdur ki, Mehrican xanım, Əleykə Könüldaş, Tuti Bikə, Rüstəmə xanım, Zeynəb Paşa və Həcər xanımın qılınclarının şöləsi azadlıq uğrunda parlaq işıq saçmış, Azərbaycana şöhrət qazandırmışdır.

Ağqoyunlu hökmdarı Uzun Həsənin anası Sara Xatun, Şah İsmayılın qızı Məhinbanu Soltan, Şah Təhmasibin qızı Pərixan xanım görkəmli diplomat olmuş, qanlı vuruşmaları yatırmış, qırğına imkan verməmişlər. Azərbaycanın maarifpərvər qadınları Şəfiqə Əfəndizadə, Səkinə Axundzadə, Hənifə Məlikova, Sara Vəzirova, Xədicə Ağayeva, Mədinə Qiyasbəyli və başqa maarif xadimləri səmərəli elmi-pedaqoji fəaliyyət göstərmişlər.

Görkəmli folklorşünas, istedadlı tədqiqatçı professor Sədnik Paşa Pirsultanlı bu tarixi qaynaqları gözəl bilir, əsərlərində maraqlı elmi-nəzəri məlumatlar verir, kitablar çap etdirir, gənc nəslin təlim-tərbiyəsi ilə mahir pedaqoq kimi məşğul

olur. Məhz buna görə da Səfurə xanım həmişə ömür-gün yoldaşı Sədnik Paşa Pirsultanlıdan öyrənmiş, biliyini dərinləşdirmiş, maraqlı kitabları mütaliə etmiş, folkloru və yazılı ədəbiyyatı, xüsusilə aşıq poeziyasını, Azərbaycan qadınlarının bədii yaradıcılığını və qəhrəmanlıq mübarizələrini mükəmməl öyrənməyə çalışmış və məqsədinə nail olmuşdur.

Səfurə xanımın lirikasında və nəsrində tarixilik və həyat hadisələri vəhdətdə canlı bədii ifadəsini tapmışdır. Səfurə xanım həmişə Azərbaycan qadınlarının tarixi keçmişindən maraqlı hadisələr danışırdı. Həcər xanımın Qaçaq Nəbi ilə beş il at belində çarizmə qarşı vuruşmasından, Xurşudbanu Natəvanın (1830-1897) «Məclisi-Fərəmuşan» (1870), «Məclisi-üns» (1872) ədəbi məclislərin yaranmasında xeyirxah əməyindən, Fatimə xanım Kəminənin (1840-1898) ədəbiyyat xəzinəsinə şeirlər və qəzəllər bəxş etməsindən, Şəfiqə Əfəndizadənin (1882-1959), Mədinə Qiyasbəylinin (1889-1938), Həmidə Cavanşir Məmmədquluzadənin (1873-1955), Badisəba xanım Köçərlinin (1881-1954) maarif xadimi kimi şərəfli fəaliyyət göstərməsindən fəxrlə bəhs edirdi. Səfurə xanımın ömür və yaradıcıq salnaməsi mənalı və zəngindir.

Mustafa Kamal Atatürk (1881-1938) demişdir: «Türk qadınını elmi, əxlaqi, sosial, iqtisadi həyatda kişinin ortağı, yoldaşı, yardımcısı və qoruyucusu etmək doğru yoldur». Səfurə xanım doğru yol yolçusu olmuş, uşaqcanlı, ailəcanlı, mənalı ömür yaşamış, zəngin mənəviyyatlı ana kimi dərin hörmət qazanmış, insanların qəlbində özünə əbədi abidə qurmuşdur. Dahi Nizami gözəl demişdir:

***Məhəbbət eşqilə yanmasa ürək,***
***Eşqin cənnətində açılmaz çiçək!***

Səfurə xanımın ürəyi məhəbbət eşqi ilə yanmış, qəlbi çiçək açmış, yazıb yaratmış, əziz övladları böyütmüşdür.

Dünyanın bəzəyi ana ümmandır, Günəş kimi məlhəmdir, pakdır. H.Zərdabi deyir: «Qadın bəşəriyyətdə ana və ilk tərbiyəçidir». Həqiqətən də ömrümüzün Günəşi olan ana evin çırağı, ailənin baharıdır. Səfurə xanım zəngin mənəviyyat sevgisinin parlaq ulduzu olan anadır. Məşhur ərəb xəlifəsi Əli İbn Abutalıb demişdir: «Ana laylası uşağa qüvvət, ləyaqət, dəyanət, kəramət, fərasət və ədalət verir». Səfurə xanımın poeziyası həzindir, zərif layladır, uşaqlara, gənc nəslə yüksək əxlaqi keyfiyyətlər, bədii-estetik zövq aşılayır.

Maarifpərvər Azərbaycan qadınları «Dəbistan», «Rəhbər», «Məktəb» və digər uşaq jurnallarında əsərlərini çap etdirir, dərslik materiallarını zənginləşdirir, uşaqları əlavə oxu materialları ilə təmin edirdilər.

Görkəmli dövlət xadimi, türk dünyasının fəxri, Azərbaycan dövlətçiliyinin qurucusu, YAP-ın memarı, dahi tarixi şəxsiyyət Heydər Əliyev iftixarla deyir: «Mən dünyanın çox yerini gəzmişəm, qadınlarını görmüşəm. Fikrim belədir ki, Azərbaycan qadını bütün dünyadakı qadınlardan gözəldir… Qadınları qiymətləndirin, qadınları sevin, heç yerdə, heç bir ölkədə, heç bir millətdə Azərbaycan qadını kimi gözəl qadın tapa bilməzsiniz».

Bəli, mərhum Səfurə xanım belə gözəl qadın idi.

Ümummilli liderimiz Heydər Əliyev dərin mahiyyətli hökmü insan qəlbini təlatümə gətirir, ananın müqəddəsliyini təyin edən meyarın olmadığını təsdiqləyir. Səfurə xanım müdrik gözəllik nümunəsi olmuş, professor Sədnik Paşa Pirsultanlının xilaskarı, məhəbbət və fədakarlığının kahinəsi kimi həmişə dərin hörmət və məhəbbət qazanmışdır. Məhz buna görə də Səfurə Əli qızı Pirsultanlının məzarı ziyarətgah olmuşdur. Gözəllik və insanlıq zirvəsinin parlaq ulduzu Səfurə xanım Pirsultanlı haqqında yazılmış bu ömür salnaməsi qiymətli təlim-tərbiyə mənbəyidir. Ancaq zəngin mənəviyyatlı Səfurə xanımın şərəfli ömrünün tam salnaməsi deyildir, ilk təşəbbüsdür, mütləq davam etdiriləcək və oxuculara gözəl hədiyyə veriləcəkdir.

Allah Səfurə xanıma rəhmət eləsin! Cənnət məzarı nurla dolsun!

***Səmədov Abbas Abbas oğlu,***
***filologiya və pedoqoji elmləri doktoru,***
***Gəncə Dövlət Universitetinin professoru***

# Mündəricat


*Dünya da gözəldir, insan da* … 3

## P O E Z İ Y A

### G ə r a y l ı l a r

Xatırlarsan …………………………………….. 17
Yurdum, səndən ………………………… 17
Ceyrançöl ……………………………………... 18
Kəpəz ……………………………………… 19
Yadındamı …………………………………….. 19
Nazlanır ……………………………………….. 20
Deyərsən ……………………………………. 21
Bülbül ………………………………………….. 21
Bülbül ………………………………………….. 22
Kəklik ………………………………………….. 22
Qaranquş ……………………………………. 23
Bənövşə ……………………………………. 23
Bilərzik məndədi ………………………… 24
Zülfiyyənin sazında …………………… 25
Dünya, xətrimə dəydin ………………… 26
Mənim Pirsultan dağlarım ………………. 26
Araz …………………………………………… 27
Kürüm ………………………………………. 28
Sinsar bulaq …………………………… 28
İncə çayım ……………………………… 29
Yadıma düşdü …………………………… 30
Dağlar ……………………………………… 31
Toğanadan gələn gəlin ……………… 32
İnləmə ………………………………………. 32
Sarı bulaq …………………………… 33

Levin qalası ................................ 34
Göründü ...................................... 35
Sonalar çayı ................................ 35

## Q o ş m a l a r

Yurdum .................................... 36
Əylənmə, durnam .......................... 36
Gəncənin ...................................... 37
Comadaş ...................................... 38
Görünməz .................................... 38
Gəlmişəm .................................... 39
Qaşqaçay .................................... 40
Pirsultan dağları ............................ 40
Ziyarət dağı ................................ 41
Ağqaya ....................................... 41
Zağalı .......................................... 42
Balçılı dağları ................................ 43
Daş oldun, gəlin ............................ 44
Azmı gəzmişəm .............................. 44
Yatammadım ................................ 49
Hop-hop ........................................ 49
Bulaq .......................................... 50
A Zivlən çayı ................................ 51
Lalələr .......................................... 51
Nərgiz .......................................... 52
Qaymaq çiçəyi ............................ 53
Qızılgül ........................................ 53
Yarıyandan ol ................................ 54
Qəlbindən silməyib anam ................. 54
Anamın saçları ............................ 55
Yar yanımdadı ................................ 55
Yaşamaq deyil ................................ 56
Axşamlar ...................................... 56
Bulaqda səni.................................. 57

Bu qızın ........................................ 57
Qızlar ............................................... 58
Çəkəydim ..................................... 59
Gəl, apar ......................................... 59
Vətəndə səni ................................ 60
Sədnik ............................................ 60
Dağları ......................................... 61
Qartal ............................................... 62
Çaylar ............................................. 62
Meşələr ............................................ 63
Ayrılıram ......................................... 64
Leylası mənəm .............................. 65
Səhər-səhər .................................. 65
Ceyran nədir ki .......................... 66
Qızlar ............................................. 67
Gəlmişəm ..................................... 67
Getdi ................................................ 68
Görünməz ..................................... 68
Şuşa ................................................ 69
Qoşqarım ..................................... 70
Çobandağı ..................................... 70
Paltar zağası ................................. 71
Ay Qara dənizim, ay qara gözlüm ...... 72
Qaşqaçaydadı ................................ 73
Dilqəm bulağı ................................ 73
Necədir ........................................ 74
Bilməz ........................................... 75
Bu dağlardadı ............................... 76
Yana-yana ..................................... 76
Almısan ........................................... 77
İnsan əlləri .................................... 77
Düşüb ........................................... 78
Mən hardan tapım ........................ 79
Nakam qız ..................................... 80

Görmüşəm ...................................... 80
Sənindi ........................................ 81
Məktublar ...................................... 81
Cüyür balası ................................. 82

## D ü z g ü l ə r

Taleyimin güzgüsü ........................... 84
Sonalar bulağı ............................. 84
Cilvələndi ....................................... 85
Şır-şır ........................................... 85
Dağlar ............................................ 87
Qəmli, qəmsiz ................................. 87
Dəli çay ........................................ 88
Yurd yeri ....................................... 88
Oğlan.............................................. 89
Qırmızı ........................................... 89
Dağ gölü ....................................... 90
Ağ yağış ....................................... 90
Ağ buludlar .................................... 91
Şəmşir ata .................................... 91
Mən ................................................ 92
Dünya ............................................ 92
Nəvələr ........................................ 93
Bulaq ............................................ 93
Beş daş ........................................ 94
Külək ............................................ 94
Selin gücü, gölün gücü ..................... 95
Yarpaqdı könül ................................ 95
Bəyaz güllərim ............................... 96
Yasəmən ....................................... 97
Torağay quşum ............................... 97
Çay quşum .................................... 97
Meşə xoruzu .................................. 98
Quzum........................................... 98

## *M ü x t ə l i f  ş eir l ə r*


Ürəyim …………………………………… 99
Dururmu …………………………………… 100
Bulud …………………………………… 101
Həsrət …………………………………… 102
Vətən, səni …………………………………… 102
Rəssam olaydım …………………………… 103
Anam …………………………………… 103
Lilpar çiçəyi …………………………………… 104
Ata …………………………………… 104
Dənizdi …………………………………… 105
Xəyalın qanadında ……………………… 105
Bir pərisən …………………………… 106
Şəmkir qalası …………………………… 106
Ballıca çayı …………………………… 107
Ay ana kəndim …………………………… 107
Bulaq …………………………………… 108
Xəzər …………………………………… 108
Duman …………………………………… 109
Yaşıldı, yaşıl …………………………… 110
Çiyələk …………………………………… 111
Pirsultan çiçəkləri ……………………… 112
Azərbaycan …………………………… 113
Bəyaz gecələrdə ……………………… 113
Ağ qazım …………………………………… 114
Bulaq …………………………………… 114
Gülazar bulağı …………………………… 115
Sarıtel …………………………………… 116
Nəğməni dağlara yay …………………… 117
Əyilməz başım ………………………… 118
Səs …………………………………… 118
Məhəbbətin məbədi …………………… 119
Dağlar mənim ………………………… 120

Qalar ………………………………………… 120
Bir də, bir də ………………………………… 121
Axmışam …………………………………… 121
Qaraçay gözəlləri ……………………… 121
Bənövşə, bənövşə ……………………… 122
Könül nəğməsi ………………………… 123
Günəş qızın saçları …………………… 123
Xallı kəpənək …………………………… 124
Qumru ……………………………………… 124
Babam …………………………………… 125

***Bayatılar* …………………………..** 127

***Ağılar* ……………………………………** 139

***Rübailər* ……………………………** 140

***Hekayətlər***

Sənəkuçan ……………………………… 149
Daşağıl …………………………………… 150
Bu sevgi qandı ………………………… 151
«Zoğal piri» - gözəl pəri ………………… 153

***P o v e s t***

Süleyman dayı ………………………… 156

***Hekayələr***

Barış ……………………………………… 192
Buludsaçlı Gövhər ……………………. 197
Əbdülkərimin hekayətləri ………………. 202
Ana güvənci …………………………… 213
Xallı bəbir ……………………………… 218

## *Səfurə xanıma həsr olunmuş şeirlər*


***Sədnik Paşa Pirsultanlı***
Axtarıram …………………………………… 224
Yuxuma gəl ……………………………… 224
Çətindi ………………………………………. 225
Baxım, baxmayım ……………………….. 225
Sən kimi gülüm …………………............ 226
Yatımmı ………………………….............. 227
Daşamı yazım ………………….............. 227
Dünya …………………........................... 228
Çətindir ……………………………………. 228
Fələk ……………………………………….. 229
Gəlin ……………………………………….. 230
Sənsiz ……………………………………… 230
Dağlar ……………………………………….. 231
Ömrün niyə gödək oldu ………………… 231
Məni …………………………………………. 232
Gələydin …………………………………….. 232
Düzgü, bayatı və rübailər ………………. 233
Qəmli anlarım …………………………… 234
Ürəyimdən qopan ahımdı sevgi ……….. 235
Qayıt gəl ……………………………………. 236
***Qərib Mehdi***
Sədnikin …………………………………… 237
***Abbasəli Sarovlu – Atabəy***
Dağca yükə dözənə ……………………… 238
***Sahib Axundlu***
Görünmür …………………………………. 241
***Firuddin Şimşək***
Axtarıram ………………………………….. 242

***Heydər Qərvəndi***
Burda yatıbdır ………………………………… 243
***Lətif Zərgər***
Sədnikin ……………………………………… 243
Səfurəm ……………………………………… 244
***Musa Allahverdiyev***
A qardaş ……………………………………… 245
Ay bacı ………………………………………… 245
***Cəmil Əkbər***
De kim, oldu ……………………………….. 246
***Səbutay Sədnikoğlu***
Ay ana …………………………………….. 249
Axtarır gözüm səni ……………………… 249
Yerə enmisən …………………………… 250
Uçan göyərçinim ………………………… 251
Anamın «Çaylar» şeirinə ……………….. 251
***Mətanət Kərimli***
Səfurə xanım …………………………… 252
***Levli Cəfər***
İtirmisən …………………………………… 252

***Murad Yıldız Qaraxanlı***
Sədnikin ……………………………………. 253
***Məmməd Alim***
Öldür bu yuxunu …………………………… 254
***Aşıq Veysəl Gəncəli***
Pirsultanın gözəli ………………………….. 255
***Qəmkeş Allahverdi***
Qardaş ……………………………………… 257
Sənin ……………………………………….. 258
***Həsən Göyçəli***
Yatma ……………………………………….. 259
Getdi ……………………………………….. 261

***Məmməd Qaşqaçaylı***
Qalıbdı ………………………………………… 261
Ağlama ……………………………………….. 262
***Aşıq Cavan Teymur***
Deməyim ………………………………… 263
El qızı ………………………………………….. 264
***Ağəli Qədiroğlu***
Olsun …………………………………….. 265
***Ələsgər Əlioğlu***
Səfurən ……………………………………. 266
Göynədər ………………………………… 266
***Mikayıl Rəhimli***
Sədnikə …………………………………… 267
Sədniki ……………………………………..… 268
***İsrafil Zavallı***
Sağ olsun …………………………….. 268
Gərək ……………………………….. 269
***Pirverdi Dağlaroğlu***
Ağlayır ………………………………….. 269
***İmam Cəmilli***
Sədnikim …………………………….. 270
***Zəhra Mirhəsənli***
Qaldı …………………………………….. 271
***Fatma Abbasova***
Nə tez soldu …………………………… 272
İnsafsız …………………………………….. 273
***Qəmər Ziyadqızı***
Sənin ………………………………………….. 273
***Cümşüd Alid***
Elegiya ……………………………………. 274
***Nizami Səda***
Oldu ……………………………………… 275

***Abbas Bağırov***
Qardaş ………………………………… 276
***Levli Cəfər***
Düşdü …………………………… 277
***Cəmil Həsənov***
Ağlama ……………………… 278
***Aşıq Xalıqverdi Həmidoğlu***
Gedibdi …………………………… 278
***Gülnigar Rəhimli***
Layla ……………………………… 279
Anam mənim ………………………… 280
Eşqsiz ürək belə yetim qalırmış ……… 281
***Yunis Əliyev***
Səfurə xanım ……………………… 281
***İman İrani – İntizar***
Düzübdü ………………………… 283
***Firudin Şimşək***
Səni gəzir yazılarda ………………… 284
***Solmaz Şəms***
Küsüb getdin ……………………… 286
Anasısan …………………… 286
***Səyyaf Sədnik oğlu***
Möhtacam ………………………… 287
Bu dünyada …………………………… 288
Anam ……………………………… 288

## *Xatirələr*

***Aləmzər Əlizadə***
Bütün əsərlərindən uca istək ………… 291
***Şahnaz Haşımova***
İnsanların qəlbinə axacaq …………… 293
***Dursun Əli qızı***
Bulud saçlı Gövhər bacım …………… 295

***Sahibə Sədnik qızı***
Atam öz hökmdarını axtarır ............... 298

## R ə y l ə r

***Əzizə Cəfərzadə***
Ön söz ....................................... 303
Ön söz ....................................... 306
***Sədnik Paşa Pirsultanlı***
Səndən xatirədi qalan ***(Dünya, səndə nəyim qaldı?)*** ............ 314
Hər sözün bir xatirədir ***(Ağ yağış)*** 325
Könlüm sənsiz deyil ***(Şeirim, sözüm qalar)*** . 329
***Abbas Səmədov***
Analıq zirvəsi, sənət vurğunu ................ 342
***Azər Eyyublu***
Həmişəyaşar poeziya .......................... 349
***Məmməd Məmmədov***
Mənəviyyat dünyasında sənin abidən qaldı 355
***Afaq Yusifli***
Şahidi olduğumuz əfsanə .................. 357
***Rəfiqə Əliyeva***
Qəlblərdə məhəbbətin qaldı ............... 359
***Ələsgər Əlioğlu***
Səfurə Pirsultanlı dünyası ................... 362
***Ramiz Təmkin***
Dəli Süleyman və Səkil Kürənin sərgüzəştləri 409
***Bəxtiyar Əlirzayev***
Süleyman dayı povestində hümanist dəyərlər 441
***Sahibə Sədnik qızı***
Sənsizliklə bitməyən yol .................. 444
***Şakir Albalıyev***
Özündən sonra yaşayan şairə ........... 450

***Tacir Səmimi (Qurbanov)***
Uzaq yolu yaxın edən şairə …………… 455
***Abbas Səmədov***
Səfurə xanım Pirsultanlı mənəviyyat zirvəsinin parlaq ulduzudur ………… 461